SƏMƏNDƏR NƏSİBLİ

# SOYUQ ÖLKƏ - İSTİ ÜRƏK

Bakı - 2016

Redaktor: Sahib Qurbanov,
jurnalist-publisist

Korrektor: Nurlan Səməndər
Morux Qurbanova

Bədii redaktor: Mərdan Əsədov,
jurnalist

Səməndər Nəsibli “Soyuq ölkə - isti ürək”.
Bakı, “MBM”, 2016, 288 səh.

Səməndər Nəsiblinin növbəti dəfə işıq üzü görəcək yeni 18-ci kitabı da əvvəlki qələm məhsulları kimi öz oxucularının rəğbətini qazanıb, onların söz xəzinəsinə yeni işıq salacaq. Ona görə ki, gecəsini-gündüzünü bilmədən, əzab-əziyyətlə, şaxtalı boranlı, çiskinli, yağışlı havalarda heç bir çətinlikdən qorxmayaraq Rusiya kimi böyük bir ölkəni qarış-qarış gəzərək orada yaşayıb-yaradan, vətənlərini bir an da olsa unutmayan həmvətənlərinin həyat tərzlərini yaşayışlarını və gördükləri təqdirəlayiq işlərini qələmə alaraq öz vətənində və vətəndən uzaqlarda fəaliyyət göstərən vətəndaşlarımız arasında gözəl əlaqə yaradıb onları bir-birləri ilə tanış etmək özü ən böyük fədakarlıq və vətənpərvərlikdir.

Hər bir əlinə qələm alıb yazı-pozu ilə məşğul olan vətəndaş qarşısına belə bir sual qoymalıdır. Mən Vətənim üçün, xalqım üçün nə etmişəm? Hər bir Vətən oğlu və qızı birinci növbədə özünün Vətənə, xalqa bağlı olduğunu, onlara borclu olduğunu dərk etməlidir. Məhz Səməndər Nəsibli yaradıcılığı bu amilləri əlində şüar etdiyinə görə oxucuları və Vətən oğulları tərəfindən sevilib, hər yerdə hörmətlə qarşılanır.

Bu çətin, şərəfli və məsuliyyətli sahədə əziz dostum Səməndər Nəsibliyə daha böyük uğurlar, yeni-yeni yaradıcılıq zirvələri, ən uca zirvə isə əlbəttə oxucu qəlbi, oxucu məhəbbəti, oxucu sevgisidir ki, bunların hamısını ona arzulayıram. Ona ən böyük arzum isə dünyada və həyatda ən qiymətli nemət olan can sağlığı, ailə səadətidir. Qəlbbin sevincdən, gözün nurdan, sözün kəsərdən düşməsin, qələmin isə qılıncdan iti olsun!

***Sahib Qurbanov***

ISBN 978-9952-29-124-7

© S.Nəsibli
Bakı “MBM”

# ÖN SÖZ ƏVƏZİ

Tək olan Allahın adı ilə hər kəs əlinə qələm götürüb yaradıcılığa başlamaqda əsas məqsədi milli ruhunu, milli hissiyyatına arxalanaraq az da olsa milli yaddaşa xidmət göstərməkdədir.

Məqsəd zirvəsinə gedən yollar isə o qədər müxtəlif və çoxşaxəlidir ki, kim hansı yolla gedərsə getsin, hansı istiqaməti seçərsə seçsin məqsədə çatmaqda Yaradandan və öz iradəsindən başqa ona kimsə kömək etmək iqtidarında deyil.

Biz də Allahın adına sığınaraq əlimizə qələm götürüb yaradıcılıq yoluna çıxmağa cəsarət edərkən hansı çətinliklərdən keçəcəyimizi göz altınıa alaraq və dünyanın müxtəlif dövlətlərində özlərinə layiqli yer qazanmış həmyerlilərimizi, soydaşlarımızı soraqlayıb taparaq onların həyat və fəaliyyətləri ilə oxucularımızı tanış etmək qərarına gəldik.

Həyatda hər kəsin xidmətində milli təəssübkeşliyimizin bir elementi ilə qarşılaşılır. İstər Rusiyada, istərsə də digər ölkələrin ərazilərində elm adamlarının, dövlət işlərində çalışan və iş adamları kimi tanınan soydaşlarımızın həyat salnaməsi hələ həyata ilk addımlarını atmaqda olan gənclərimiz üçün əsl örnəkdir.

Öz millətimizin, dövlətimizin yad ölkələrdə tanınması yolunda atılan uğurlu addımlar, uğurlu fəaliyyət gəncliyin diqqətindən kənarda qalmamalıdır. Ona görə də qarşımıza çıxan çətinliklərə baxmayaraq bu dəfə növbəti səfərimizi də Rusiyanın ucqar şəhərlərinə etməli olduq. Əslində elə bu səyahətim də əvvəlki illərin səyahət davamı kimi qeyd oluna bilər.

Perm vilayətindən bir il əvvəl ayrılmış olsam da əldə etdiyim materiallar əsasında yazmış olduğum kitabı artıq dosta-tanışa paylayıb qurtarmışdım. Sonra rastlaşdığım yeni-yeni iş adamları ilə tanışlıq yeni yazılacaq kitabın ərsəyə gəlməsi üçün zəmin yaratdı. Əslində mən kitabın yayımını başa çatdırıb Vətənə qayıtmaq fikrində idim. Yeni tanışlıqlar nəticəsində əldə etdiyim

məlumatları təkrar kitab halına gətirmək zərurəti alındıqda bu səyahətimi davam etdirərək Kirov, Buy, Voloqada, Kostroma, Votkinsk şəhərlərində yaşayan tanınmış iş adamları arasında dost-tanış və qohumlarla təsadüfi rastlaşma nəticəsində onlardan götürdüyüm qeydlər azlıq etdiyi üçün növbəti ildə 29.07.2015-ci ildə Rusiyanın Murmansk, Koreliya, Novqorod, Tver, Ryazan, Volxov, Penza vilayət şəhərlərinə səyahətə çıxdım. Yeni sifətlər, yeni nəfəslər, yeni səslər qələmimizin dostluq qayəsinə çevrilərək bu kitabın ərsəyə gəlməsinə və işıq üzü görməsinə səbəb oldu.

Hər bir soydaşüımızın əldə etdiyi naliyyətlər bizim də sevincimizin, istəyimizin mayasına təkan verdi. Onların nailiyyətlərini öz qələbəmiz səviyyəsində qələmə alaraq oxucularımıza təqdim etməyi özümüzə borc bildik. Yalnız qalır diqqətli oxucularımızın kitaba olan münasibətinə. Hər halda ümidvarıq ki, onların marağını az da olsa, təmin etmiş olacağıq.

**Sizinlə həmdəm yollar, a yollar**

Sizdədir istəyim, sizdədir arzum,
Sizinlə həmdəməm yollar, a yollar.
Siz mənim ayağım, siz mənim qolum,
Sizinlə gedirəm yollar, a yollar.

Mən sizə basınca ayaqlarımı,
Axtarıb tapmışam ilk dostlarımı.
İlk sədaqətimi, ilk ilqarımı,
Bir mayak edirəm yollar, a yollar.

Nə bitmək bilirsiz, nə də tükənmək,
Sinəmdən boy atan min diləyim tək.
Hər kəsi arzuya yetirən mələk,
Sizinlə həmdəməm yollar, a yollar.

Dörd cəhət boyunca damarlar kimi,
Alırsız hər kəsi qamarlar kimi.
Boynuna qol salıb tumarlar kimi,
Sizinlə həmdəməm yollar, a yollar.

Bu geniş dünyanın dağı da sizsiz,
Qəlblərə dad verən bağı da sizsiz.
Səməndərin solu, sağı da sizsiz,
Sizinlə həmdəməm yollar, a yollar.

Yollar hər kəsin ömrünün ayrılmaz bir hissəsidir. Demək olar ki, işgüzar insanların ömrünün üçdə bir hissəsi yollarda keçir.

Yollar da heç bitib-tükənən deyil,
Bir ömür gərdişə azlıq eyləyir.

Bu yollarda keçən ömrün itirdiyi vaxtın qazancı yeni-yeni gözəl, layiqli, elinə-obasına dəyərli insanlarla tanışlıq oldu. Onların arasında əvvəllər tanış ola bilmədiyimiz qohumlar da vardı. Onlardan biri də Votkinsk şəhərində təsadüfən rastlaşdığım Şahin Qəşəm oğlu Ələskərov idi…

# VOTKİNSK ŞƏHƏRİNDƏ KEÇƏN BİR NEÇƏ GÜN

Udmurtya vilayətinin Sarapul şəhərindən səhər-səhər İjevsk şəhərinə oradan da birbaşa Votkinsk şəhərinə yollandım.

Avtobus şəhər avtovağzalına çatdıqda artıq günorta nahar vaxtı idi. Odur ki, elə avtovağzalın yaxınlığında yerləşən – əslində əsas ticarət obyektlərinin çoxu avtovağzal əhatəsində yerləşirdi – bazar kafesində. Nahar edib bazardan xeyli aralıda yerləşən bir mağazanın önündə «Qazel» markalı maşından yük boşaldan qarayanız bir oğlana yaxınlaşaraq salam verib cavab aldıqdan sonra, – bağışlayın, sizdən bir söz xəbər almaq olarmı? – deyə sordum.

– Buyurun, – deyə əlini saxlayaraq diqqətlə mənə baxdı.

– Burada azərbaycanlılara məxsus kafe və ya hər hansı bir iş yeri tanıyırsınızmı?

Müsahibim əlini bir-birinə çırparaq, tozunu təmizləyərək, sizə əsas nə lazımdır? Nəyə görə soruşursunuz?

– Mən özüm də azərbaycanlıyam. Sadəcə olaraq soydaşlarımızdan biri ilə görüşüb tanış olmaq istəyirəm.

– Azərbaycanlısınızmı?

– Bəli.

– O yaxınlıqdakı evi görürsünüzmü? – deyə o əlini xeyli aralıda yolun dönəcəyində yerləşən ikimərtəbəli yaşayış binasını göstərdi. O evin yanından sola döndükdən sonra üç-dörd ev aralıda sol tərəfdə yerləşən evdə azərbaycanlı yaşayır və evinin birinci mərtəbəsində meyvə və un məmulatları satışı ilə məşğuldur. Ondan bütün sorğularınıza cavab ala bilərsiniz.

– Çox sağ olun.

– Dəyməz. Uğurlar olsun, – deyə o təkrar işinə başladı.

Deyilən istiqamətə gedərək ikimərtəbəli qırmızı kərpiclə inşa edilmiş evin qarşısında dayandım.

İçəri girib-çıxan çox idi. Elə kənardan baxan hər kəs bu evin

mağaza olduğunu yəqin edərdi.

Giriş qapısının sol tərəfində divara bərkidilmiş «meyvə-tərəvəz və un məmulatları satışı» reklam lövhəsi də bunu təsdiq edən əsas göstərici idi.

İçəri daxil olub ağxalatlı rus qadınına yaxınlaşaraq:

– Gün aydın xanım, – deyə salam verdim.

– O təəccüblə üzümə baxaraq:

– Ya vas ni ponil. Şto vam nada? – ayaqdan başa məni süzərək, – o burada yoxdur. Nə lazımdır mənə deyin.

– Bağışlayın, sizdən bir söz xəbər almaq olarmı? Bu mağazanın sahibi azərbaycanlıdırmı?

– Xeyir, talışdır.

– Mən gülümsüyərək:

– Məlumunuz olsun ki, talış da köklü azərbaycanlıdır.

– Yox, talış elə talışdır.

– Siz deyən olsun. Lap olsun talış. Bəs o talışla necə görüşə bilərik?

– Bir azdan gələr.

Doğrudan da beş-on dəqiqə keçdikdən sonra talış da gəlib çıxdı. Gödək boylu dolu bədənli bir adam idi.

Əl tutub görüşdük. Tanış olaraq ordan-burdan xeyli söhbət edib, mənim gəlişimin səbəbini soruşdu. Bir stəkan çay süzüb məni çaya dəvət etdikdən sonra:

Nahar vaxtıdır. Bir yerdə nahar edək, sonra burada Azərbaycan cəmiyyətinin sədri var Cəlal adlı gürcüstanlıdır. Əgər bazarın yanından keçib gəlmisinizsə…

– Bəli oradan bura gəlmişəm.

– Hə, bax o bazarın üst tərəf giriş qapısı yanında ikimərtəbəli bir restoran var, Cəlalındır. Ya bu dəqiqə oradadır, ya bir azdan gəlib çıxar. Əyləşin, gözləyin onunla görüşüb istədiyiniz suallara cavab ala bilərsiniz. O həm də böyük bir tikinti briqadasına başçılıq edir.

Təşəkkür edib deyilən istiqamətə yollandım.. təəssüf ki, Cəlalla görüşə nail ola bilmədim. Mağazada işləyən qadın zəng

edib onunla görüşmək istədiyimi söylədikdə: o – Məni bağışlasın, mən uzaqdayam, şəhərə sabah gələcəyəm. Bəlkə də yubandım. Sabah da gələsi olmadım.

Əslinə qalsa bu bəhanə idi. Çünki Cəlalın az öncə şəhərdə olduğunu görən adam mənə onun burada olduğunu söyləmişdi. Bir neçə saatdan sonra isə onunla bir qonaqlıqda qarşılaşmalı olduq. Bir tərəfdə o əyləşmişdi, bir tərəfdə mən. Sonra bir neçə gün orada qalsam da onunla görüşüb ətraflı söhbətə nail ola bimədim.

Mən bazarda bir ayaqqabı alveri ilə məşğul olan oğlanla görüşdüm. O da azərbaycanlı idi. Səmimi adama oxşayırdı. Mənim bu şəhərə nabələd adam olduğumu və kimliyimi öyrəndikdən sonra məni evlərinə qaldığı mənzilinə təklif etdi və mənim etirazıma rəğmən –onda cəmiyyətin sədri ilə görüşə bilməmisinizsə, bax o yaxında görünən binaya gedin. Oranın sahibi Şahin alicənab oğlandır, həm də Cəmiyyət sədrinin müavinidir. Onunla görüşünüz alınar. O da saz-söz adamlarını sevən hal əhlidir.

Oğlanla salamatlaşıb yaxında yerləşən vaxtilə kafe kimi fəaliyyət göstərən Dalina mağazasına daxil oldum.

Bina üçmərtəbəli idi. Avtovağzalın həyəti ilə üzbəüz idi. İkinci mərtəbəsi üzərində qarışıq paltar satışını bildirən lövhə asılmışdı.

Daxilən bir məmnunluq hissi ilə içtəri daxil olub, düz giriş qapısı önündə müştərilərə nəzarət edən gənc azərbaycanlı oğlana öz dilimiz də salam verib, - bazarınız açıq, alveriniz uğurlu olsun, cavan oğlan!

– Çox sağ olun, əmi, xoş gəlmisiniz. Sizə nə kömək göstərə bilərəm.

Yaradan köməyin olsun. Qabaqca de görüm adın nədir?

– Anar.

– Hə, Anar bala, bu mağazanın sahibi ilə məni görüşdürə bilərsənmi?

O təəccüblə məni süzərək:

– Neynirsiz onu?

– Bir yerli kimi görüşüb tanış olmaq istəyirəm olmaz ki?

– Niyə olmur ki? – deyib paltar asılqanlarının arası ilə gedib baş tərəfdən sola burularaq gözdən itdi. Az keçmədən qayıdaraq mənə. Buradadır, arxamca gəlin.

– Ay sağ olun, – deyərək onu izlədim. Müştəriləri yola salan hündür boylu, dolu bədənli, xoşsifət qadın əlindəki paltarı düzəldib qatlaya-qatlaya Anara:

– Anar, «şto suliçilas?»

– Heç nə, Şahin dayı ilə görüşmək istəyir, – deyə Anar Azərbaycan dilində cavab verdi. Hiss olunurdu ki, hələ Rus dilini yaxşı bilmir. Dilində Gədəbəy şivəsi hiss olunurdu.

Mən:

– Anar Gədəbəyin hansı kəndindənsiniz?

– Böyük Qaramurad.

– Bah o…yerliyik ki. Mənim də uşaqlıq illərim orada keçib. Orada orta məktəbdə oxumuşam.

O gülümsəyərək:

– Doğrudan? – Dar dəhlizdə o ayağını saxlayıb, qapını açdı. İçəridə yazı masasının arxasında qarayanız, yenicə dən düşməkdə olan saçlarını arxaya daramış kişi bilgisayarla məşğul idi. Biz içəri daxil olduqda, ayağa qalxaraq, xoş gəlmisiniz, – mənə əl uzadaraq. – Eşidirəm sizi. Buyurun əyləşin.

– Çox sağ olun. Qürbətdə yaşayan iş adamları ilə görüşüb onlardan müsahibə götürərək kitab nəşr edirik. Çantamdan bir-iki ədəd kitab çıxardaraq masasının üzərinə qoydum. Mən də sizin tərəfdənəm. Orta məktəbi də orada oxumuşam. Özümüz Novo Saratovka kəndində yaşasaq da, orada Azərbaycan dilində dərs keçilmədiyinə görə Qaramuradda oxumalı oldum.

– Qaramuradda kimlərdənsiniz?

– Həsən Cəfərlinin bacısı oğluyam.

– İndi harada yaşayırsınız?

– Qovlar qəsəbəsinin Yanıqpəyə kəndində.

Maraqla üzümə baxaraq –Yoxsa Səməndər müəllimsiniz?

– Elədir ki, var, – deyərək təəccüb qarışıq bir sevinclə, –

düşündüm ki, məni tanıdısa deməli qohumlardandır.

– Yeznə, xoş gəlmisən, həmişə sən gələsən. O ayağa qalxıb, təkrar mənə əl uzadaraq məni qucaqladı. Deməli Şaman xalanın qızı Atlaz bacımın həyat yoldaşısınız. Mən də Qəşəm kişinin oğluyam. Atlasla xala uşağıyıq. Sizin barənizdə çox eşitmişəm. Şükür üzünüzü də gördüm. De görüm, bu şəhərə necə gəlib çıxmısınız?

– Şarapul şəhərinə getmişdim. Oradan da bu şəhərə gəldim.

O kitablara nəzər salaraq çox böyük zəhmət bahasına başa gəlib bu kitablar.

Bizim bu şəhər sənaye şəhəri olduğuna görə qapalı şəhər sayılır. Hər adam elə-belə gəlib bura çıxa bilməzdi. İndi-indi gəliş-gediş çoxalıb. Bəs məni necə gəlib tapdınız?

Mən şəhərə daxil olandan bütün əhvalatı ona danışdım. Mənə dedilər siz cəmiyyət sədrinin müavinisiniz. Ona görə də buraya gəldim. Yoxsa Cəlalla görüşə bilmədiyimə görə şəhərdən çıxıb gedəcəkdim. Görünür sizinlə görüşmək qismətdə var imiş.

– Doğrudan da elədir. «Qismətdən artıq yemək olmaz» Heç ağlıma da gəlməzdi ki, səninlə burada görüşə bilim.

Söz-söhbət də yel qanadlı xəyal quşu kimidir. Anı məqam daxilində bütün dünyanı dolanıb qayıdır.

## Şahin Qəşəm oğlu Ələsgərov

13 iyun 1963-cü ildə Gədəbəy rayonunun Böyük Qaramurad kəndində kiçik Qafqaz sıra dağlarının aşağı dağ yamacları qoynunda anadan olmuşdur.

Uşaqlıq illərinin qayğısız günləri də bu kəndin ecazkar gözəlliklərindən, təmiz havasından, büllur kimi diş göynədən suyundan bəhrələnərək böyümüşdür.

Atası Qəşəm İsa oğlu uzun müddət Sovetlər dönəmində Qaramuradda H.Aslanov adına sovxozun mühasibi vəzifəsində çalışmışdır. Heç vaxt ailəyə nədənsə qıtlıq çəkməyə imkan verməmişdir.



Şahinin anası Azərbaycan tarixində Qaçaq Məcid kimi tanınan Yaqublu Məcid ağanın qız nəvəsi idi. Özünün yerişi, duruşu, davranış və bütün əxlaqi keyfiyyətləri ilə ad qazanmış Bəsti xanımın övladlarından biri idi. Əntiqə Yusif qızının özü də bəyzadəliyin gözəl məziyyətlərini əxz edən qadınlardan idi. Məğrurluğu, gözəlliyi, söz kəsəri və tədbirliyi ilə, öz kökünə, əslinə bağlı xarakterliyi ilə seçilirdi. Övladlarını da bu kök üzərində kökləyərək böyüdürdü. Sağlam əqidəli, mərd və sözünə bütöv əyiləmz, qətiyyətli, bəyzadələr kimi.

Qəşəm İsa oğlunun ailəsində dörd oğlan, bir qız böyüyüb - başa çatıb. Hamısı ucaboy, sağlam cüssəli və qabiliyyətli.

Şahin Qəşəm oğlu 1982-ci ildə Böyük Qaramurad kənd orta məktəbini bitirdikdən bir il sonra Sovet ordu sıralarına qulluğa çağırılaraq, 1982-1985-ci illər arası Orenburq vilayətinin Pervomaysk şəhərində xidmət edib.

Xidmətdən döndükdən sonra Azərbaycanda iş yeri ilə təmin olunmadığına görə Rusiyanın Urdmurtya vilayətinin Votkinsk şəhərində yaşayan əsgərlik dostunun yanına gəlir və kooporativ mağaza açıb işlədir. 2005-ci ildə isə «Dalina» firmasını yaradaraq ona rəhbərlik etməyə başlayıb.

1993-cü ildə ailə qurub. Fəxriyyə, Qəşəm, Şaiq və Mədinə adlı dörd övladı var.

Azərbaycan bizim əvəzolunmaz, müqəddəs vətənimizdir bizi dünyaya bəxş edən, bizə mənəvi və cismani ruh verən bütün əzizlərimizin əksəriyyəti vətəndə yaşayır. Bizim kimi qürbəti özlərinə məskən seçmiş insanların əksəriyyəti kef üzündən deyil, ehtiyac üzündən məcburən belə həyatı seçmişik. Əgər vətəndə heç olmasa orta səviyyədə dolanışığımızı təmin edən bir iş tapa




*Şahinin oğlanları (soldan) Qəşəm və Şaiq*

bilsəydik elimizdən-obamızdan ayrılıb, qürbət həyatı yaşamazdıq. Əlbəttə, qürbətə dolanışıq, xoş həyat arzusu ilə gələnlərin əksəriyyəti min əzab-əziyyətə qatlaşaraq hərə öz qabiliyyəti və bacarığı sayəsində öz yolunu müəyyən edə bilib. Amma bu hamıyamı nəsib olub? Yox, gör nə qədər insan çıxdığı bu səfər ərəfəsində həyatın dərin girdabına yuvarlanaraq məhv olub.

Həyatın bir qanunu var, yaşamaq üçün gərək çarpışasan, yoxsa ayaqlar altında əzilənlərin sayını artırmış olacaqsan. Biz də həyatımızı qürbətin bu çarpışmalarına həsr etməli olduq.

İndi gördüyün bu binanı tikib başa gətirənə qədər xeyli zəhmət çəkməli oldum. Sonra kafe kimi fəaliyyətə başladıq, çox təəssüflər ki, kafe işlətmədə müəyyən çətinliklərlə üzləşdiyimizə görə onu dayandıraraq qadın kişi geyimləri ləvazimatı alış-verişi ilə məşğul olmağa başladıq.

Allaha şükürlər olsun ki, işlərimiz yaxşı alındı. Sonra qardaşlarımı da, bacım və qardaşım oğlunu da yanıma gətirərək ticarətin bu sahəsini onlara da öyrətdim. İndi özləri sərbəst çalışa

bilərlər.

Azərbaycanda özü də Gədəbəy kimi dağlıq rayonda hansısa iş təşkil edib ailə uşaq dolandırmaq çox çətindir. Ona görə də bizim dağ kəndlərindən Rusiyanın şəhərlərinə axın nəzərə çarpacaq dərəcədə çoxdur…

Şahin Qəşəm oğlu ilə söhbətimiz qürbətdə ilk görüşümüzün təməli kimi bir neçə günlük qonaqpərvərliyinin xoşməramlarına yol açdı.

Bir az söhbət edə-edə çay içdikdən sonra şəhərin mənzərəli, gəzməli yerlərini gəzib-dolaşdıqdan sonra şəhərdə azərbaycanlı həmyerlilərimizin boş vaxtlarını, xoş məqamlarını bir yerdə keçirdikləri Azad, Cümşüd oğlunun kafesinə getdik.

Şahin məni onunla tanış etdikdən sonra bir yerdə nahar süfrəsi arxasında söhbətimizi davam etdirdik.

Bir qərib şəhərdə yalnız vaxtımızı işə gedib-gəlməklə keçirmirik. Boş vaxtlarımızda və ya hər hansı bir məsələnin müzakirəsi zamanı bu kafeyə yığılırıq. «Cümşüdoğlu» kafesi bizim üçün yığıncaq, məşvərət və istirahət məskənimizdir. Kimin qonağı olsa, bir qonaqlıq vermək istəsə, ya haçan bir yerə yığılmaq istəsək üz tuturuq Azadın yanına. İndi axşam yenə şəhərin tanınmış iş adamları yığışacaq. Sizin gəlişiniz barədə lazımlı adamlara məlumat verib axşam şam süfrəsinə, qonaqlığa, dəvət etmişəm. Kimin könlündən keçsə müsahibə ala bilərsiniz.

– Çox sağ olun. Sizə zəhmət verdim.

– Heç bir zəhməti yoxdur. Əsas zəhməti siz çəkib gəlmisiniz ki, ömrünü-gününü bu qürbətdə keçirənləri tanıdasınız, heç olmasa bizi bizdən uzaqlarda yaşayan dost-tanış oxuyub yad edərlər. Həyat daimi deyil ki, yazı kitab qədər yaşaya bilsin.

Axşam şəhərin adlı-sanlı azərbaycanlı iş adamları Azadın kafesinə - təşkil edilmiş ziyafətə toplaşdılar. Fərhad bəy, Hüseyn bəy, Cəlal Kərimov, Araz və Rüstəm kişi də iştirakçılar arasında idilər. Rüstəm kişi gözəl təbə malik söz-sənət həvəskarı idi. El sənətkarlarından əzbər dediyi şeirlər iştirakçılanrın zövqünü

oxşamaqda idi. Qonaqlıq çox şən keçdi. Qonaqlıqdan sonra Şahinin dostu Gədəbəy rayonunun Parakənd kəndindən olan Bəhlul müəllim Bayramov da bizimlə bərabər Şahinin şəxsi mənzilinə gəldik.

Bəhlul müəllim sübh tezdən işə getməli idi. O Votkisnk şəhərindən 30 km. aralıda yerləşən Şarkan qəsəbəsində yaşayır və orada müəllim işləyirdi. Odur ki, o gecə yarı taksi ilə Şarkana yola düşdü…

Şahin və ailəsinin qonaqpərvərliyi çox yüksək idi. Orada olduğum müddət ərzində onlardan yüksək qayğı və diqqət gördüm. Lena xanım və oğlu Şaiq heç də bu sahədə Şahindən geridə qalmırdılar. Bu misralarla mən də öz növbəmdə onlara uzun ömür və cansağlığı arzulayıram.

Şahin kimi uç, pərvazlan,
Düşmə coşqun, yelə dolan.
Zirvələri məskən edib,
Kəmər olub belə dolan.

Qazan elin sevgisini,
Dodaqların nəğməsini.
Ürəklərin nəşəsini,
Özün billə-bilə dolan.

Bir işıq saç könüllərə,
Arxa-dayaq ol ellərə.
Çox da uyma yad ellərə,
Tez-tez doğma elə dolan.

El-obanın diləyi ol,
Dost-tanışın biləyi ol.
Şah dağının küləyi ol,
Əs belədən-belə dolan.

Ayrım eli tam cənnətdi,
Xoş məramı məhəbbətdi.
Ömür ki, var səyahətdi,
Gəzib gülə-gülə dolan.

Bar gətirsin bağça-bağın,
Ətir saçsın qoy növrağın.
Hər an yanar gur ocağın,
Düşsün dildən-dilə dolan.

Səməndərlə bir neçə gün,
Qürbət eldə deyib güldün.
Qismətinə bol toy-düyün,
Düşsün ildən-ilə dolan.
*7.09.2014*

## Azad Cümşüd oğlu Eminaqorov



15 iyul 1972-ci ildə Gürcüstan Respublikasının Marneuli rayonunun Alket kəndində zəhmətkeş ailəsində anadan olub.

Atası Cümşüd Əhməd oğlu uzun müddət sovxozda təsərrüfat briqadiri vəzifəsində çalışıb. Anası Roza Hüseynqulu qızı altı uşaq dünyaya gətirərək yüksək analıq qayğıları ilə onları böyüdüb boya-başa çatdırmışdır.

Azad 1991-ci ildə orta məktəbi bitirdikdən sonra Tomsk şəhərində ali təhsil almaq qərarına gəlir, lakin qəbul olmur və 6 ay sonra Ukraynanın Slavyansk şəhərində beynəlxalq əlaqələr universitetinə qəbul olaraq, 1991-ci ildə oranı müvəffəqiyyətlə başa vurur. 1997-ci ildə Moskva şəhərinə yaxın tanışlarının vasitəsiylə biznes fəaliyyəti ilə tanış olmaq istəyir. Orada da işləri düzgün getmədiyinə görə bu nəhəng şəhərin iqtisadi ağırlıqlarına davam gətirə bilmədiyinə görə 1999-cu ildə Votkinsk şəhərinə gələrək burada məskunlaşmalı olur. Əvvəl bir neçə yerliləri kimi meyvə-tərəvəz alış-verişi ilə məşğul olmağa başlasa da, sonradan arendaya kafe götürərək, mətbəx biznesi ilə məşğulluğa üstünlük verib. Hazırda Votkinsk şəhərində ağzının tamına üstünlük verərək xoş istirahət anları yaşamaq istəyən şəhər sakinləri Azadın rəhbərlik etdiyi Azərbaycan mətbəxini daha da işıqlandırırlar. Necə deyərlər, ocaq insanın, insan ocağın dəyəridir. Bütün Rusiya şəhərlərində olduğu kimi, Votkinskdə yaşayan soydaşlarımızın da məşvərət və yığıncaq yeri Azadın mətbəxidir.

Azad uzunboy, xoş-gülərüz sağlam əqidəyə malik insan təsiri ilə ürəyimə yatdı. O həm də sadə davranışı, xoş rəftarı,



Arazın oğlu Renat

təvazökarlığı ilə də seçilirdi. Özündən yaşca böyüklərlə elə danışırdı ki, elə bil onların həqiqətən kiçik qardaşı idi. Şahin Qəşəm oğlu ilə münasibətləri isə daha isti və mehriban görünürdü. Özü də bunu etiraf edərək deyirdi:- Mən bura gələn gündən Şahin qardaş ürəyimə elə yatıb ki, elə bil doğmalarımdan biridir. Həmişə ürəyimi ona açarkən özümdə bir yüngüllük hiss etmişəm. Çünki ondan dostcasına aldığım məsləhətlər həmişə qolumdan tutub məni düzgün yola istiqamətləndirib. Mən çox yaxşı bilirəm ki, belə insanların həm özündən, həm məsləhətlərindən heç kəsə zərər gəlməz. Atam deyərdi insan var xeyirxahlıq üçün yaşayır, isnan var bədxahlıq üçün. Bədxahlardan uzaq, xeyirxahlara yaxın olmaq adama rahatlıq və əzəmət bəxş edər, heç kəsin qarşısında əyiləmz və heç kəsi qarşısında əyməyə çalışmaz.

Nə bilim, vallah, həyatdı da, hərə bir sənətlə, hərə bir yolla başını dolandırır. Bu qürbətə heç kəs kefindən getməyib, dolanışıq dərdindən gəlib bir işin qulpundan yapışıb başını girləyir. Mən də ki, bu mətbəx biznesi ilə ailəmə-uşağıma bir tikə çörək pulu qazanıram və bunun üçün Allaha min yol şükür edirəm ki, zəngin həyat yaşamasaq da, adi rahat bir həyat yaşamaq nəsibimiz olub. Mən hamıya bütün dosta-tanışa sağlam can, rahat həyat və ailə xoşbəxtliyi arzulayıram. Bunlar yoxdursa, deməli, həyatda insanın heç nəyi yoxdur.

**Bəhlul Bayram oğlu Əmiraslanov**



Votkinsk şəhərində Şahin Qəşəm oğlunun vasitəsiylə tanış olduğum ziyalı olmaqla, həm də gözəl insan, ləyaqətli el-oğlulardan biri də Bəhlul müəllim idi. Müasir tələblərə uyğunlaşaraq müəllim adı daşımırdı. Əsil mənada, ixtisaslı müəllim idi və öz peşəsinin bilicisi olaraq soydaşlarımız arasında tanınır, məclislərin başına çəkilirdi. Gözəl təbə malik saz-söz vurğunu, şeir-sənət aşiqi olduğuna görə toy-şan şənliklərində masabəyi kimi ətraf şəhərlərdə yaşayan azərbaycanlılarının da sevimlisi sayılır.

Azadın mətbəxində Şahin Qəşəm oğlunun təşkil etdiyi qonaqlıqda Bəhlul müəllimlə ilk tanışlıqdan iki gün sonra onun dəvəti ilə Şarkan rayonuna getdik.

Buludlu və çiskinli gün idi. Avqust ayının ortaları olmasına baxmayaraq soyuq adamın iliklərinə işləyirdi.

Şarxana çatanda Bəhlul müəllim və onun biznes şəriki və həmyerlisi Gədəbəy rayonunun Böyük Qaramurad kəndindən Vaqif Kiram oğlu şəxsi kafelərinin önündəki çardağın altında kabab tədarükü görməkdə idi. Şahinlə hərarətlə qucaqlaşıb görüşdükdən sonra mənə əl uzadaraq- şair, bizim qürbət kəşanəmizə xoş gəlib!

– Həmişə xoş gününüz olsun. Qürbətdə olsanız da maşallah, əsil Gədəbəy abu-havasında yaşayırsınız.

Şahin:

– Bəhlul müəllim haradadır.

– Mağazaya gedib, – deyə Vaqif təkrar tikələri şişə taxmaqla məşğul oldu. Fikirləşdim ki, bəlkə bir az gec gələcəksiniz. Açığı mağazanı bağlayıb gələcəyinizi fikirləşirdik.

– Mağaza mənli-mənsiz işləyir. Hər şey vaxtında olsa yaxşıdır. Deyəsən bütün hazırlığınız yerindədir. Maşallah. Nəyəsə kömək lazımdırmı?

– Sizin kimi qardaşa da, qonağına da can qurbandır. Köməklik işimiz yoxdur. Yekunlaşdırıram.

– Qonağımız da həm öz həmyerlimizdir, həm də yeznəmiz. Şairliyi, yazıçılığı da öz yerində.

– O «uje» ümumi məsələdir, – deyə Vaqif Kiram oğlu gülümsəyərək, əlavə etdi. – Bu şəhərə hər cür qonaq gəlmişdi, amma yazıçı gəlməmişdi, özü də yerlimiz. Bu lap iki qat əladır. Deməli, həmyerlimiz bizi də kitaba salmaq fikrilə bu tərəflərə təşrif buyurub. Görəsən yaxşılığımıza yazacaq, yoxsa pisliyimizə?

– O baxır kitabın keyfiyyətinə:

– Körpə quzu ətindən kabab keyfiyyətli olar da, özü də bu sərinlikdə.

– Bizdən başqa da qonağınız olacaqmı?

– Bəlkə Əhmədlə oğlu gəldi ova gediblər, tez qayıtsalar gələcəklər. Dünəndən xəbər vermişik.

– Hava soyuqdur, bəlkə içəridə əyləşək-deyə Şahin Qəşəm oğlu dilləndi:

Bİz içəridə salonda əyləşib qonaqlığa başladıq. Bəhmən müəllim də Vaqifə kömək göstərirdi. Aradan xeyli keçmiş Səməd Əhməd oğlu da oğlu İsmayılla gəldi. Ovdan təzə qayıtmışdı. Dediyinə görə ayı ilə üz-üzə gəlsə də ayı ovuna icazəsi olmadığına görə atmamış, canını zorla xilas edə bilmişdi. Sonra iki-üç meşə xoruzu vurub qayıtmışdı.

Səmədin anası rus qadını olduğu üçün Azərbaycan dilində aksentlə danışırdı. Bir çoxlarına baxanda, buna da «şükür» demək mümkün idi. Səmədin oğlu İsmayıl isə bizim danışdıqlarımızı başa düşsə də, danışa bilmirdi.

Yemək-içməkdən sonra Bəhmən müəllimlə tanışlığımızı bir az dərinləşdirmək qərarına gəldim.

Bəhmən Bayram oğlu 10.10.1961-ci ildə Gədəbəy rayonunun Parakənd kəndində ziyalı ailəsində anadan olub. Atası Bayram müəllim İbrahim oğlu ali təhsilli Azərbaycan dili və ədəbiyyatı müəllimi idi. Öz ixtisasının dərin bilicisi olmaqla yanaşı, həm də şair təbli adam olub. El sənətkarlarının və klassik şairlərin əsərlərindən çoxlu nümunələr əzbər bildiyi üçün kəndin el şənliklərində çox zaman masabəyi kimi başa çəkilərdi. Anası Selyan Məhəmmədli qızı evdar qadın olsa da, həyat yoldaşının əsil sənətsevəri idi. Ondan öyrəndiyi şeirlər və nağıllarla övladlarının mənəvi dünyasını zənginləşdirər, onların dünyaya baxışlarını formalaşdırardı.

Bəhlul 1978-ci ildə orta məktəbi bitirdikdən sonra 1979-1981-ci illərdə Şverdlovsk şəhərində hərbi xidmətdə olub. 1982-ci ildən Şarkan rayonuna milis kapitanı olan xalası oğlu Buta Qüdrət oğlu Rüstəmovun yanına gəlir. Burada 1984-1987-ci illərdə pedaqoji təhsil alır. 1987-ci ildən hal-hazıradək Şarkan rayon internat məktəbində müəllim işləyir.

Ailəlidir, dörd övladı var.

Bəhlul:

– Atam 2001-ci ildə rəhmətə gedib. Rayonda işsizlik olduğuna görə qardaşlarımdan Şəmsi, Mahir və Asif də burada Şarkan rayonunda bizneslə məşğul olurlar. Burada Azərbaycana nisbətən uşaq böyüdüb-oxudaraq əlini bir yerə çatdırmaq daha asan olur. Yetər ki, Rusiya vətəndaşı olasan. Maddi imkanlarım çox olmasa da, sağlam ailəm, gözəl dostlarım və qardaşlarım var. Mənim əsil xəzinəm də, dövlətim də onlardır. Allah öz nəzərlərini və cansağlığını onlardan əsirgəməsin.

Qonaqlıqdan sonra Şahin içkili olduğuna görə maşını Səməd Əhməd oğlu sürərək, Votkisnk şəhərinə gəldik. Gecə yarı olmasına baxmayaraq, Səməd və Bəhlul müəllim səhəri gözləmədən taksi ilə Şarkana qayıtdılar.

Beləliklə, Şahin Qəşəm oğlunun vasitəçiliyi ilə şair qəlbli, gözəl bir insanla tanışlığımızın əsası belə qoyuldu.

**Bəhlul Parakəndliyə (İjevsk)**

Dur, sağlıq de, toyda, şanda, a Mehman,
Qoy desinlər, tuti dillər sağ olsun.
Kaş toy olsun el-obada hər zaman,
Hər tərəfdən gələn ellər sağ olsun.

Məlumdur ki, çox –çox bizdən əzəli,
Arxa olub bir-birinə dost əli.
Möhkəm quran belə gözəl təməli,
Ağsaqqallar, ağbirçəklər sağ olsun.

Qoy ərənlər yanbayana düzülsün,
Kədər niskil ürəklərdən üzülsün.
Qədəhlərə araq, şərab süzülsün,
Qədəh tutan hər bir əllər sağ olsun.

Qız oğlanlar bir-birinə qarışsın,
Bu meydanda rəqs eləyib yarışsın.
İki tale bir könüldə barışsın,
Pöhrə verən tər diləklər sağ olsun.

Eşq, məhəbbət zəbt eləsin hər yanı,
Şər-xətadan azad etsin dünyanı,
Sazdı, sözdü Səməndərin meydanı,
Bu meydanda at sürənlər sağ olsun.

## Cəmşid Sarı oğlu Sarıyev



Sankt-Peterburq şəhərindən Kirov şəhəri istiqamətinə hərəkət edən qatarla gəlib qədim Buy şəhərində düşdüm.

Səhər təzəcə açılmışdı, hələ iş saatı başlamasa da, bir qədər vağzalın salonunda gözləməli oldum. Sonra vağzalın salonundan çıxaraq, bazara yollandım. Orada qarpız satan azərbaycanlılarla görüşüb, xeyli söhbətləşərək Buy şəhərinin abı-havasından, burada sakinləşən soydaşlarımızın vəziyyətindən, onların yaşayış səviyyəsindən, bir-birinə olan münasibətlərindən xəbər tutub onların ən çox yığışıb məşvərətləşdikləri «Cəmşidin Azərbaycan mətbəxinə» getdim.

Cəmşid özü kafedə deyildi. Xidmətçi rus qadını mənim onunla görüşmək istədiyimi bildikdə:

– Həyat yoldaşı burada mətbəxdədir, – deyərək içəridən bir qadını səslədi: – Kafenin salonuna açılan pəncərədən başını çıxardaraq mənə nəzər salan gənc qadın: öz dilimizdə:

– Qardaş, sizə nə lazımdır?-deyə soruşdu.

Mən özümü təqdim etdikdən sonra- kafenin sahibi ilə görüşüb, tanış olmaq istəyirəm:

– Xoş gəlmisiniz. Əyləşin, çay için, çörək yeyin, ona qədər zəng edərəm, o da gələr. Uzaqda deyil, burada, şəhərdədir. Şəhərində ki, maşallah o yanından bu yanına cəmi 10-15 dəqiqəyə maşınla çatmaq olar.

Özünüzü sərbəst hiss edin. Təsəvvür edin ki, yaxın bir adamınızın yanındasınız.

Cəmşid saf qəlbli, qonaqpərvər millətini, xalqını sevən

insandır. Bu şəhərə qədəm basan hər bir qərib azərbaycanlıya qayğı göstərər, bacardığı qədər xoş münasibətlə yola salar.

– Yaxşılıq yaxşı şeydir, dayı. Deyir: balığı at dəryaya, balıq bilməsə də, xaliq bilər. Bəlkə elə ona görədir ki, ən çətin məqamlarda qolumuzdan Allah yapışıb qaldırıb.

– Allah həmişə köməyiniz olsun. Əlbəttə, hər kəsin qolundan tutub qaldıran da, ruzi-bərəkət verən də Allahdır. Kölgəsi üzərinizdən əskik olmasın.

Mənim hələ də ayaqda durduğumu görüb:

– Dayı, siz Allah, əyləşin, – qulluqçu qadına, – xahiş edirəm, qonağımıza qulluq edin. O, bizim ən hörmətli yazıçımızdır. Vətəndən gəlib, qulluğunda durmaq borcumuzdur.

Rus qadını:

– Yazıçıya, şairə qulluq göstərmək özü bir şərəfdir. Mən çox şadam ki, sizin kimi insana xidmət edirəm, – deyə zarafatla gülümsəyərək süfrəyə çay qoydu, yeməyə nə gətirim?

– Sağlığınız, qoy «xozeyin» gəlsin bir yerdə nahar edərik.

– Olmadı ki, o gələndə bizi danlayacaq ki, qonağı ac saxlamışıq.

Aradan heç 15 dəqiqə keçməmiş kafenin sahibi Cəmşid də gəlib çıxdı. Çay süfrəsi arxasında əlyəşərək tanışlığımıza başladıq.

Cəmşid qonaqpərvər, xoşxasiyyət insan olmaqla bərabər, həm də qayğıkeş və gözəl ailə başçısı, vətənpərvər insan idi. Onunla ilk tanışlıq məndə böyük təəssüratlar yaratdı…

Cəmşid Sarı oğlu 1 aprel 1968-ci ildə Ağdam rayonunun Bayəhmədli sovetliyinin Mollalar kəndində kolxozçu ailəsində anadan olub. Atası Seyid Sarı 1998-ci ildə ürək xəstəliyindən Bərdə şəhərində rəhmətə gedib. Ailədə 6 qardaş, 2 bacı böyüyüb-boya-başa çatıblar.

Cəmşid 1985-ci ildə orta məktəbi bitirdikdən sonra 1987-ci-1989-cu illərdə Ermənistanda xidmət edib.

– O elə bir dövr idi ki, artıq ermənilərlə azərbaycanlılar

arasındakı münaqişə «Pik» həddinə çatmışdı.

Hissədə yeganə azərbaycanlı olduğuma görə, rus-özbək əsgər yoldaşlarım mənim azərbaycanlı olduğumu ermənilərdən gizlədirdilər. O illəri mən ürək ağrısı və səksəkə ilə keçirdim. Allah heç kəsə göstərməsin. Xidmətimi başa vurub Vətənə döndükdə elə biddim anadan yenicə doğulmuşam. Qarabağ müharibəsi başlayanda könüllü olaraq 1993-cü ilə qədər «Novruzlu» batalyonunda xidmət etmişəm. Ən ağır döyüşlərin iştirakçısı olaraq neçə-neçə ən yaxın dostlarımı, silahdaşlarımı itirmişəm. Bir neçə dəfə düşmən mühasirəsinə düşmüşük. Canımızı Allahın köməyi ilə zorla xilas etmişik. Habil, Kamil, Mübariz kimi igid dostlarımı həmin döyüşlərdə itirdim. Mübarizin meyidini 6 aydan sonra ermənilər bir erməni əsgərinin meyidi ilə dəyişərək verdilər.

Ağdamın Pir təpəsində gedən qanlı döyüşdə bölüyün əsgərləri tamam qırıldı. Mərzili kəndindən olan Vidadi adlı bir oğlanla mən salamat qaldıq. Sonra gördüm, qardaş burada açıq-ayın siyasi oyunlar gedir. Ayaqla baş qarışıb bir-birinə. Kim kimə, haraya qulluq edir bilinmir, odur ki, 1993-cü ildə üz tutdum Rusiyaya. 1995-ci ildə Bərdə rayonuna qayıtdım. Artıq özümü sərbəst müstəqil ailə başçısı roluna hazır gördüyüm üçün Mingəçevir şəhərində yaşayan Xatirə Əhməd qızı ilə ailə qurduq və həyat yoldaşımı da götürüb burada yaşayan dayım oğlanlarının yanına gəldim. Şükür olsun Allahın böyüklüyünə, gözəl ailəm Sənan və Kənan adlı iki oğlum var. Kənan Kostroma hüquq fakültəsində təhsil alır. Allah bütün övladlara xoşbəxtlik qismət eləsin. Onların gələcəyi nə qədər parlaq olsa, biz də özümüzü bir o qədər xoşbəxt hiss edərik. Ona görə də valideynin maddi imkanı olmalıdır ki, övladlarını da lazımi səviyyəyə qaldıra bilsin. 2012-ci ildə bu «Görüş» kafesini alıb işlətməyə başladıq. Həyat yoldaşım da mənə kömək edir. Lazım olanda oğlanlarım da bacardıqları işin qulpundan yapışırlar.

Biz kafedən şəhəri gəzməyə çıxarkən Cəmşidlə söhbətimizi

davam etdirməyə başladıq.

Mən:

– Kafeni icarəyə götürmədən öncə nə ilə məşğul idiniz?

– O, dərindən köks ötürərək xeyli başını bulayıb:

– Eh, başıma o qədər iş gəlib ki, danışmaqla qurtarası deyil. Bacanağımla şərikli bir firma təşkil edib, şərikli işlətməyə başladıq. İş hazır olub, artıq gəlir gətirməyə başladıqdan sonra, gördüm bacanaq məni yavaş-yavaş buynuzlamağa başlayır. Bir iki dəfə dedim: -Bacanaq, belə iş olmaz axı. Biz şərikik. Bir dərdini de görüm, nədir?

Qayıdıb mənə dedi ki, açığı mən səninlə işləmək istəmirəm. Nə də sənə şəriklik bölgüsü də düşmür.

Dedim:

– Biz bir ailənin üzvləri sayılırıq. Yaxşı iş görmürsən. Əgər məni aralayırsan, mənim payımı ayır, mən də ailəmi dolandırmaq üçün bir iş görüm.

– Sənə heç nə düşmür. Əlindən nə gəlir elə. Çox edərsən çox da cəzasını çəkərsən, – deyə mənə hədə-qorxu gəlməyə başladı.

Yuxarı baxıram bığ, aşağı baxıram saqqal. Belə olan yerdə nə edəcəyimi özüm də bilmirdim.

Fikirdən, xəyaldan ürəkağrısı tapdım. Gördüm ki, daha dözə bilmirəm. Ailəmdən xəbərsiz Kostroma şəhərinə gedib ürək xəstəxanasında müayinə olundum. Həkim bildirdi ki, təcili ürəkdə cərrahiyyə əməliyyatı aparılmalıdır. Evdən sanotoriyada dincəlmək adı ilə çıxımışdım. Bütün ola biləcək vəziyyətləri göz altına almışdım. Başıma bir hadisə gələcək olsa əvvəl dostlarıma xəbər verilməsini bildirmişdim. Əməliyyat çox ağır keçdi. Arada «kliniki» ölüm vəziyyətinə düşmüşəm. İnandırıram sizi, o dünyanı gözlərimlə gördüm. gördüm bağlı baxçalı insanı bihuş edəcək dərəcədə mənzərəli bir yerdəyəm. Hər tərəf yaşıl dağlarla əhatə olunmuşdu. Bu ecazkar mənzərə məni harasa aparırdı. Birdən sanki göydən ağsaqqal, ağsaçlı qoca enib, qarşımı kəsdi:

– Qayıt oğlan, öz evinə qayıt, buralarda dolanmaq sənə hələ

tezdi, – deyə əlindəki çəliklə uzaqda işaran işığı göstərdi: – Bax o işığa tərəf qayıt.

Mən qayıtdım.

Gözlərimi açanda həkimlərin sevincdən parlayan gözlərini gördüm, bir də

– «Nakanes», – deyən həkimin ilk sözünü eşitdim. Bildim ki, mən yenidən həyata qayıtmışam. Aradan 3-4 gün keçəndən sonra yoldaşım xəbər tutub dalımca xəstəxanaya gəlmişdilər. Bütün bu hadisələr dolğunluğu ilə qələmə alınsa gözəl povest və ya roman alınar. – Vallah, çəkdiyim ağrılı-acılı günlərimi xaırlayaraq deyirəm. – Bu günümüzə də şükür.

– Əlbəttə, dedim. Allah köməyində dursun. Övladlarının xoş günlərini görəsən.

– Çox sağ olun. Nə yaxşı ki, gəldiniz. Görüşüb, tanış olduq. Çoxdandır ürəyimi belə açıb boşaltmamışdım.

Biz şəhəri xeyli gəzib dolaşdıq. Bir neçə iş adamı ilə məni tanış elədi. Elə onların vasitəsi ilə də Kostroma şəhərinə yollandım. İki gün orada qaldıqdan sonra təkrar Buya qayıdıb Cəmşid və onun dostları ilə görüşdüm. Çox mehriban isnanlar əhatəsində bir gün qonaq qaldıqdan sonra səhəri axşamı məni qatarla Kirov şəhərinə yola saldılar.



# KOSTROMA ŞƏHƏRİNDƏN XATİRƏLƏR

**Asif Mövsüm oğlu Salayev**

18.08.1959-cu ildə Azərbaycan respublikasının Ucar rayonunda anadan olub. Uşaqlıq illəri Göyçay rayonunun bağçalı-bağlı, sərin çinarlı şəfəqli, gözəl mənzərəli qoynunda keçib. Gənclik illərinin ilk mərhələləri qaynar çağları da elə doğma yurdunun isti nəfəsi ilə bağlı keçib.

1976-cı ildə Göyçay rayonunun 7 saylı orta məktəbini bitirərək müvəffəqiyyətlə imtahan verərək, Azərbaycan Neft-Kimya İnstitutunun axşam şöbəsinə daxil olub. 1978-1980-ci illərdə Qazaxıstanın Baykanur vilayətində hərbi xidmətdə olub. Xidməti başa vurub qayıtdıqdan sonra təhsilini davam etdirir. Lakin III kursdan özü təhsilini dayandırmalı olur və Rusiyanın Kostroma şəhərində ticarətlə məşğul olan atasının yanına gələrək alverlə məşğul olmağa başlayıb. 2001-ci ildə Kostromada «Verxnispask tras» yolunun sol sahilində yeni kafe inşa etdirərək, ona rəhbərlik etməyə başlayıb. Kafenin adı «Qornıy aryol» («Dağ qartalı» olur). Yaşılılqlar içərisində ağaclarla əhatə olunur. İkimərtəbəli geniş salonlu, son dəbdə bəzədilmişdir.

Şəhəri xeyli gəzdikdən sonra yolum həmin kafeyə düşdü. Kafenin sahibi iş yerində olmasa da, aşbazı bildirdi ki, Asif Mövsüm oğlu harada olur olsun tezliklə gəlməlidir. Mən onun təklif etdiyi stolda əyləşərək çay içə-içə gözləməli oldum.

Asif gəldi, görüşüb tanış olduq. Əvvəl xeyli təəccüblə: - Mən hara, yazı-pozu hara. Mən adi mətbəx sahibiyəm. Belə-belə işlərdə səriştəm yoxdur. Sonra yavaş-yavaş söhbətin axarı ilə sözlərimiz üst-üstə düşdü. Əslində bir az ciddi təsir bağışlasa da ürəyiyumşaq adam idi. Axşam tərəfi olduğuna görə bir az narahat olduğumu görüb soruşdu:

– Müəllim, deyəsən nədənsə narahat görünürsünüz?

– Narahat deyiləm. Bir az qalacaq yeri uzaqdır. «Troya» mehmanxanasında qalıram. Buradan da ki, ora marşrut işləmir.

– Onun nə dəxli var ki, öz maşınımla hara istəsəniz sizi apara bilərəm.

– Çox sağ olun, - dedim. Sizə əziyyət olar.

– Hələ bir nahar edək, sonrası asandır. Heç bir əziyyəti-zadı da yoxdur. Belə ki özünüzü sərbəst hiss edin.

– Hə müəllim, insan dünyada ən dözümlü, ən qəddar, ən acgöz canlıdır, deyirlər. Bu tamamilə doğrudur. Bu qədər yer üzündə mövcud olan insanların heç biri ona verilən ruzi-nemətlə qane olmaq istəmir. Elə hey vurnuxur. Hey əlləşir. Sonda yenə əliboş gedir. Mən acgöz adam deyiləm. Həyat da adi ortabab həyat tərzi ilə yaşamağa cəhd etmişəm. Amma tale mən deyəni deməyib. 1989-cu ildə Həqiqət İsgəndər qızı ilə ailə həyatı qurduq. Özümüzü çox xoşbəxt hiss edirdik. Mövsüm adlı bir oğlumuz da oldu. Fikirləşirdik ki, gələcək ümidimiz ona bağlıdır. Heç olmasa onu böyüdüb insan kimi bir yana çıxara bilərik. Sən saydığını-say, gör fələk nə deyir, 2007-ci ildə həyat yoldaşım qəflətən rəhmətə getdi. İndi oğlum XI sinifdə oxuyur.

Qardaşım da 1997-ci ildə böyrək xəstəliyindən vəfat etdi. Yazıq təzəcə evlənmişdi. Həyatda heç bir yadigarı qalmayıb.Əsil acınacaqlı odur ki, yaşayasan həyatda heç bir izin qalmaya.

– Oğlunuz indi haradadır? – deyə soruşdum.

– Azərbaycanda yaşayır. Yaxşı da oxuyur. Tərbiyəsi ilə anam məşğuldur. Onun əziyyətinə Allah qıymasın. Bütün arzum-niyyətim oğlumu oxutmaqdır. Məni həyata yalnız o bağ layır. O mənim sabaha olan üidimdir.

– Allah ümidinizi doğrultsun. O bir oğlunuz xalqına layiq bir övlad olsun.

– Sağ olun!

Asiflə söhbətimiz uzun çəksə də, qeydlərimizi yalnız bu

sətirlərlə yekunlaşdırdıq. Sonra o özü maşını ilə məni şəhərin mərkəzində yerləşən «Troya» mehmanxanasına apararaq sağollaşıb geri qayıtdı.

## KOSTROMA ŞƏHƏRİNDƏ

Buydan səhər tezdən Cəmşidin yaxın tanışlarından birinin maşını ilə Kostroma şəhərinə gəldik. Biz topdansatış bazarında ondan ayrıldıq. O öz mağazası üçün lazım olan meyvə-tərəvəz alıb, tez qayıtmalı olduğundan tez ayrıldıq.

Orada azərbaycanlılar çox olsa da, müsahibə ala bilməyib, Kostromanın mərkəzi bazarına yollandım. Bazarın əsas satıcılarının yarısı azərbaycanlılardan ibarət idi. Bazarın önündə üç-dörd həmyerlilərimiz bir yerə yığılıb söhbət edirdilər. Yaxınlaşıb salam verdikdən sonra bu şəhərdə yaşayan tanınmış iş adamları ilə görüşmək istədiyimi söyləyərək mənə istiqamət vermələrini xahiş etdim.

Qələm adamı olduğumu bildikdə məni azərbaycanlıların yığışdığı qəlyanaltıya-kafeyə dəvət etdilər.

Müsahiblərim Naxçıvanın Qaraxanbəyli kəndtindən olan Hüseynəliyev Rasim Hüseynəli oğlu, Səxavət Kərimov, İLdırım Səttar oğlu Süleymanov və başqaları idi.

Bazarda bir qədər söhbət etdikdən sonra axşamüstü tanınmış iş adamları olan Hacı Bəxtiyar və İxtiyar qardaşlarının tikib-yaratmış olduqları «Troya atı» mehmanxanasına gəldim. Bir az yuyunub rahatlandıqdan sonra Hacı Bəxtiyarın ofisinə getdim.

### Hacı Bəxtiyar Məşədi İldır oğlu Mirzəyev

Onunla ilk dəfə Kostromaya gəldiyim günü görüşdük. Dumanlı-çiskinli gün idi. Səhər əyləncə parkına gəldim. Demişdilər bu parka Hacı Bəxtiyar və onun qardaşı şəhər sovetinin deputatı İxtiyar Mizəyev qardaşları rəhbərlik edirlər.



Həm imanlı din adamları, həm də bacarıqlı iş və dövlət adamları kimi qardaşların hər hansı iləsə görüşmək məqsədi və ümidi ilə onların ofislərinə yollandım.

Bir qədər yaraşıqlı, saqqal biçimli, enlikürək, uzunboylu, mehribanbaxışlı azərbaycanlıya yaxınlaşıb salam verərək Vətəndən gəldiyimi və gəlişimin məqsədini bildirdim. Qardaşlarla görüşmək istədiyimi söylədim.

O gülümsəyərək:

– Bu şəhərə təzə gəlmisiniz? - deyə qolumdan tutaraq yaxında parkın içində olan kafeyə tərəf addımladı.

– Bəli, – dedim.

– Bəs bu şəhərə haradan gəlirsiniz.

– Sankt-Peterburqdan. Buya oradan da bura.

– Buyda da yaxşı oğlanlar var. Kiminləsə görüşə bildinmi?

– Cəmşidlə görüşmüşəm.

– Hə, deməli Azərbaycandan çoxdan çıxmısınız?

– Elədir ki, var.

– Bəs buranı necə tapdınız?

– Soraqlaşa-soraqlaşa dünyanın harasına istəsəniz gedib istədiyiniz adamı tapmaq mümkündür.

– Sizin peşə çox çətin peşədir…

Sonra kafeyə daxil olduq. İçəri salonda yır-yığış işləri getdiyinə görə, parkdan çıxaraq onun giriş darvazasından bir 50-60 m aralıda yerləşən «Troya atı» mehmanxanasının geniş salonuna daxil olduq. Mənə yer təşkil etdikdən sonra qonşu binanın, – O bina da mehmanxana kompleksinə daxil idi, – banket zalına daxil olub, orada nahar etmişdik. Nahardan çıxandan sonrar Hacı mehriban təbəssümlə: – Hə şair, indi




*"Troya" mehmanxanası*

istəyirsiniz gedin istirahət edin, istəyirsiniz bir çıxın şəhəri gəzin. Beləki, kiminləsə görüşüb söhbət edə bilərsiniz, həm də şəhərimizlə də tanış olun. Mən həmişə burada oluram. Gəlin axşam yeməyini də bir yerdə edərik.

– Oldu. Xoş münasibətiniz üçün təşəkkür edirəm.

– Qonaq qəbul etmək hər bir müsəlmanın ümdə borcudur. Qonaq Allah qonağıdır.

– Allah köməyiniz olsun.

– Sizinlə bahəm. Oldu, gözləyəcəyəm, – deyib o ofisinə yollandı. Mən də şəhərə.

Bilirdim ki, axşam naharına məni gözləyəcək. Odur ki, şəhərdən dönəndən sonra çil-çıraq içində bərq verən parka daxil oldum. İlk daxil olduğum kafeyə keçdim. Bəxtiyar orada işçiləri ilə stol arxaında söhbət edirdi. Məni görən kimi ayağa duraraq, məni salamladı.

– Bayaqdan sizi gözləyirdim ki, şam yeməyini bir yerdə edərik, – Mənə əl uzatdı, – gedək mənim ofisimə. Həm namaz

vaxtıdır, mən namaz qılaram, siz də onadək mənim kitabxanama nəzər yetirərsiniz. – Sonra kababçını çağıraraq yemək sifariş etdi. – Hazırlayıb mənim otağıma gətirərsiniz, – dedi.

Biz parkın daxilində – Bura parkdan çox əsil nağıllar aləminə bənzəyirdi. Elə bil əfasnəvi nağıl peyzajlarının hamısı buraya cəmlənmişdi. Məhz ona görə də uşaqların və gənclərin sevimli cənnət guşəsinə çevrilmişdi.

Biz ikimərtəbəli binanın II mərtəbəsinə xalılar döşənmiş otağa keçdik. Döşəmə əsil şərq ənənələrinə uyğun düzəldilmiş, döşəkçə, mütəkkə və balınclar divar dibi dairəvi düzəldilmişdi. Bir küncdə qoyulmuş masa üzərində çoxlu dini-elmi və siyasi kitablar var idi. Onun başı üzərində Quran kitabı və çox sayda müqəddəs ziyarət mərkəzlərindən gətirilmiş təsbeh və daşlar var idi.

İçəri daxil olan hər bir kəs dərhal hiss edərdi ki, otaq islam dininə bağlı əqidə sahibinə məxsusdur.

Hacı Bəxtiyar dəstəmaz alıb namazını yekunlaşdırana kimi mən kitablara sərfi-nəzər etdim. Sonra masa arxasında əyləşərək söhbətə başladıq.

– Hacı, dinə bağlılıq kökdənmi gəlir, yoxsa sonradan yaranmadır.

– Əvvəla biz müsəlmanıq və hər bir müsəlman şəriət qanunlarına riayət etməlidir. Yoxsa nə müsəlmanlıq oldu. Düzdür 80 illik sovet rejimi hamını dinindən-məssəbindən uzaq salmışdı. İndii-indi insanlar ayılmağa başlayıb. Qaldı mənim dini köklərə bağlılığıma. Babam da, atam da sırf din mənsubiyyətinə malik insanlar olublar. Kökümüz əslən İranın Ərdəbil yaxınlığındakı Germi əyalətinin Qarabulaq kəndindən olublar.

Atam Məşədi İldir Məşədi oğlu Kərbəlayi Heydər nəvəsi 20-ci illərin əvvəllərində Sovet rejimindən əvvəl közərən Azərbaycanın Səlyan rayonunua gələrək bir zaman orada məskunlaşır. O zaman cavan oğlan imiş. Orada könül verdiyi-




*Hacı Bəxtiyar Həcc ziyarətində*

anamız Gövhər Məcid qızı ilə ailə qurarlar və Yardımlı rayonuna gedərək, orada məskunlaşırlar.

1940-cı ildə Azərbaycanın bir çox İran və Türkiyə sərhədlərində yaşayan azərbaycanlıların acı taleini atamgil də yaşayıb. Onlar da sərhəd kəndindən Səlyanın kəndlərinə sürgün olunurlar. Çox ağır məşəqqətli həyat keçirirlər. Atam söyləyirdi ki, o zaman Yardımlı rayonunun Pirimbeli kəndindən olan adlı-sanlı eloğlularımızdan biri olan Mirzə Cəfər Mirqiyas oğlu «ZİL» zavodunda Y.Qaqarinin zavodda çalışan adamlarla görüşləri zamanı xahiş edir ki, sürgündə olan həmkəndlilərinin Səlyandan Yardımlıya qayıtmaları məsələsinə kömək etsin. Y.Qaqarin deyir ki, sabah mən N.S.Xuruşşova sizin probleminizi mütləq çatıracağam. Beləliklə, onun xahişinə əsasən Xuruşşov sürgündə olan yardımlıları 1967-ci ildə öz yurd-yuvalarına dönmələrinə əmr verir. Məşədi İldır öz ailəsi ilə bərabər Yardımlıya Ostair kəndinə qayıtdılar.

Mən özüm 01.07.2067-ci ildə Ostair kəndində anadan

olmuşam. Ailədə 2 qardaş, 5 bacı olmuşuq.

1979-cu ildə Ostar orta məktəbini bitirmişəm. Həmin ili Politexnik İnstitutuna iş versəm də, qəğul ola bilmədim və 1979-1981-ci illərdə Kostroma şəhərində hərbi xidmətdə oldum. 1981-ci ildə xidmətimi başa vurub hərbi hissədən aldığım zəmanət və xasiyyətnamə ilə Kostromada Politexnik İnstitutuna qəbul oldum. Fakültəmiz «ağacların emalı» idi. Məqsədim Yardımlıya qayıdıb meşə təsərrüfatı idarəsində işləmək idi. İnstitutda oxuya-oxuya həm də sürücülük kursuna daxil olaraq, sürücülük vəsiqəsi aldım.

1986-cı ildə təhsilimi başa vuraraq, həmin institutda laborant və müəllim işləməyə başladım. 2000-ci ildə öz ərizəmlə işdən azad oldum. 1989-cu ildə Leninqrad şəhərində meşə təsərrüfatı Akademiyasının aspiranturasına qəbul oldum. Təhsilimi başa vursam da İttifaq dağıldığına görə müdafiə edə bilmədim. Bir müddət quberniyada çalışdım. Gördüm maaşla dolanmaq asan deyil. Ona görə də mən də ixtiyarı olaraq, biznes sahəsinə keçdim.

Hələ 1998-ci ildə hökumət işlərində çalışa-çalışa «Paliqon» firmasını yaratdıq.

Qardaşım İxtiyar 1986-cı ildə mənim yanıma gəldi ki, burada ali təhsil alsın. Çox həyəcan keçirirdim ki, görəsən, qəbul ola biləcəkmi? Avtomatik olaraq, bir beş, bir dördlə 9 bal yığaraq, instituta qəbul oldu. Çox savadlı və qabiliyyətli oğlandır. Az müddətə rus dilində sərbəst danışmağı öyrəndi.

Mən hələ tələbə olarkən oxuya-oxuya öz kəndimizdən olan qızla ailə qurdum. Aynurə və Ruslanə, Məhəmmədəli adlı üç övladım var. Sizinkiləri də Allah sağ eləsin, çox qabiliyyətli və ağıllı uşaqlardır. Aynurə və Ruslanənin hər ikisi ailəlidir. Artıq özüm də üçqat babayam. Özümüz də gördüyünüz bu obyektdə çalışırıq. Buranın yaradıcısı da, qurucusu da əsas rəhbərliyi də, çertyoju da İxtiyara məxsusdur. Quberniyanın tanınmış, fəal millət vəkillərindən olaraq və yeganə azərbaycanlıdır. Dinə münasibətə gəlincə ailəmizdə dini ənənələrə bağlılıq var idi.

Mənə namaz qılmağı isə uşaqlıqda Bibixanım ana öyrətmişdi. Mən ondan çox şey öyrənmişdim. Amma özümü bir din adamı kimi 2005-ci ildə Həccə gedib gəldikdən sonra dəyişdiyimi hiss etdim. 2006-cı ildə isə Məşhədə getdim. 2008-ci ildə isə Suriyanın Dəməşq şəhərinə getdim. Hələbdə də olub, Nəsiminin məzarını ziyarət etdim. Ümumiyyətlə, 5 dəfə müqəddəs ziyarətlərdə olmuşam. Ziyarətdə olmaq hələ müsəlman olmaq deyil. Əsas məsələ insanın qəlbən təmiz olmasv Allaha sevgi hissi, haqq-ədalətə açıq baxışlarla təsdiqlənməlidir. Dinimiz buyurub ki, insan etdiyi yaxşılıqları dilinə gətirməməlidir. Ona görə açıqlamaq istəmirəm.

Fikir vermisinizsə, gör nə qədər bu ətrafımızda azərbaycanlı çalışır. Müalicəyə ehtiyacı olan ziyarətə getmək istəyən, uşağını oxutmağa çətinlik çəkən xeyli adama kömək etmişik. Bu sahədə qardaşım İxtiyarın səxavət əli daha açıqdır. İnanın, istər Azərbaycanda, istər burada ondan kömək istəyən hər bir kəs naümüd qayıtmayıb.

– Allah nəzərlərini üzərinizdən əskik etməsin.

– Çox sağ olun ki, bizi bir anlıq da olsa, bir ədəbi mühitə qaytardınız.

Sonra mən mehmanxanada ona həsr etdiyim şeiri oxudum:

Bəxtiyar, İxtiyar, siz iki qardaş,
Çox tərif edirlər hər yanda sizi.
Haqqın dərgahına bir zərr bilər,
Bir dəfə eşidib, duyan da sizi.

Kostroma bir gözəl Volqa sahili,
Fərəhlə danışır bu şəhər əhli.
Adınız-şanınız hamıya bəlli,
Cüt zirvə görürlər bu şanda sizi.

Tanıdır milləti, bir millət kimi,
Əsil həqiqəti həqiqət kimi.
Bir guşə yaratdız təbiət kimi,
Kaş hamı görəydi bu anda sizi.

Bir «park» düzəltdiz ki, əsil yarışdı,
Sehirlər aləmi qarış-qarışdı.
Heykəllər dil açdı nağıl danışdı,
Tanıtdı bu adda, bu sanda sizi.

«Paliqon» deyilən döyüş meydanı,
«Troya» Homerin məşhur dastanı.
Ölməz «İliada»dan alıb nişanı,
Oxuyur hər qapı açanda sizi.

Tarix yaradıbsız nağıl dilində,
Yüklənib yol gedir dəvə belində.
Zaman ovxarını tutub əlində,
Qoymaya çovğunda, boranda sizi.

Bir ana ümidi qoşa qanadsız,
Quş pərvaz edərmi qoşaqanadsız?
Düz yolda Tanrıdan güc alacaqsız,
Bol görsün Səməndər imkanda sizi.
*30.08.2014*

## SƏNİ

Arzuların çiçək açıb, qucaqlaya nola səni,
Qaldırıb zirvələrə əldən-ələ ala səni.

Getdiyin haqq yolları ömrünə bol nur çiləyə,
Qəlbinin istəyincə geniş yola sala səni.

Rəbbimiz arxa dura, tez çatasan kamilliyə,
Həzrəti Yusif kimi gətirə o halə səni.

Həyatın rəvan keçə, olmaya məşhər əzabın,
Hifz eyləyə haqqın özü, görüm bala-bala səni.

Çıxmaya heç bir zaman yolun üstə bəd nəzərlər,
Bədəsildən uzaq edib, rast etməyə qalə səni.

Getməsin qoy əlindən İxtiyarın ixtiyarı,
Tanrı özü çox görməsin o Rüstəmi-zalə səni.

Qürbətdə qucaq açıb şad elədin Səməndəri,
Daima şad eləsin görüm uca Təalə səni.

**İxtiyar Məşədi İldır oğlu Mirzəyev**



Hər şəhərin, hər obanın, hər elin bütün insanlar tərəfindən dərk edilən, izzətinə, şərəfinə, ləyaqətinə yüksək hörmət göstərilən Tanrının nəzərlərinin üzərində olduğu sanki onun yer üzündə bir zərrəsi kimi diqqət mərkəzində olan insanlar var ki, işığının zərrəsi, şöhrətinin sədası lap uzaqlara yayılır. Belə insanlardan biri də Kostroma şəhərində sakinləşən İxtiyar Məşədi İldır oğludur.

Mən Voloqda şəhərində olanda həmyerlilərimin bi-

rindən eşitdim ki, bu ətraf şəhərlərdə yaşayan soydaşlarımız içərisində yalnız Kostromada bir deputat var. Ondan başqa bu ətraf əyalətdə elə tanınmış dövlət orqanlarında çalışmır. O əlavə edərək dedi:- Mən demirəm ki, o əlahiddə gücə-qüvvətə malikdir. Sadəcə olaraq, həm siyasət adamı, həm dövlət adamı, həm tanınmış iş adamı, həm xeyriyyəçi insan kimi onun hamıdan üstün cəhətləri var.

Kostromada elə bir adam tapılmaz ki, onun şəhərdə gördüyü işlərin dəyərini anlamamış olsun. Bu yaxınlarda mənim bir həmkəndlim orada bir işə düşmüşdü. İxtiyar Mirzəyevin köməkliyi ilə o işdən sıyrılıb çıxdı. Kaş Rusiyanın hər şəhərində millətimizin belə oğullarından çox olsun. Hərgah o tərəflərə yolunuz düşsə, mütləq onunla görüşün – deyə məsləhət verdi.

Buy şəhərinə düşüb oradakı soydaşlarımızın hansı birinə yaxınlaşıb söhbət etdimsə:

– Bu ərazi barəsində kitab yazılacaq bir səviyyəli millət üzvü varsa, o da Bəxtiyar və İxtiyar qardaşlarıdır ki, buradan 150 km. Aralıda yerləşən Kostroma şəhərində yaşayırlar. Gedib onlarla görüşsəniz, daha yaxşı olar. Yoxsa burada dövlət idarələrində çalışan elə soydaşlarımız yoxdur ki, sizin kitabınıza layiq olsun.

Kostroma şəhərinə getməyimin əsas səbəbi də elə o iki qardaşla görüşmək məqsədim oldu. Amma təəssüf ki, Bəxtiyarla görüşə bilsəm də İxtiyarla görüşə bilmədim. Mən orada olarkən Moskvadan yüksək çinli dövlət məmurları gəlmişdi. İxtiyar Mirzəyev də həmin görüşlərdə iştirak edirdi.

Bütün bunlara rəğmən, onun barəsində geniş məlumat əldə edə bilməsəm də, geniş təəssuratlarım var idi.

– Elə şəhərin 25-30 hektardan ibarət əyləncə–istirahət parkına girmək kifayətdir ki, onun bacarığı, qabiliyyəti və fantaziyası barədə kifayət qədər danışmaq olar. Sıravi əsgərdən generala qədər ucalmaq nadir adamlara qismət olur. O bənzətməyə yaxın olaraq, İxtiyar da sıravi fəhlədən həyatın bu səviyyəsinə ucalmışdır. O, ikiillik hərbi xidmətdən sonra bir neçə il



*İxtiyar Məşədi İldır oğlu Mirzəyev Qələbə günü bayramında*

kombinatda usta köməkçisi işləyib. Azərbaycanda təhsilini davam etdirə bilmədiyinə görə mənim yanıma gələrək, 1986-cı ildə «ekstreni» 4-5 alaraq, 9 balla instituta qəbul oldu və az vaxtda rus dilini dərindən mənimsəyə bildi. Ali təhsilini də müvəffəqiyyətlə başa vuraraq, müxtəlif rəhbər dövlət işlərində çalışmağa başladı. Azərbaycanda belə sürətlə, özü də heç kəsin köməyi olmadan inkişaf etmək bizi kimi adamlara müyəssər olmayıb.

İxtiyarın ən böyük nailiyyətlərindən biri də onun gözəl, xoşbəxt ailə həyatı qurmasıdır. O, 1997-ci ildə əmim qızı Almas Ataxan qızı ilə ailə qurub. Gövhər və Əminə adlı iki gül kimi övladı var. Bu iki övlad ona taleyin verdiyi ən böytük mükafatlardır. Dövlət orqanlarından, rəhbər təşkilatlardan aldığı mükafatların sayı-hesabı isə saymaqla qurtarası deyil.

Bu gün bazarda Zərdab rayonunun Qızılbucaq kəndindən olan Səxavət Kərimovun sözlərini xatırladım: - İxtiyar və Bəxtiyar qardaşları bu şəhərdə elə bir abidə ucaltmışlar ki, indən

belə yüz il keçsə də, heç bir azərbaycanlı bu şəhərdə o səviyyəni yarada bilməz. Açığı, tək-tək rus tapılar ki, İxtiyarın yüksək intellektual səviyyəsini inkar etsin. O həm də, xeyriyyəçi kimi rusların qəlbinə yol tapıb. Məktəblərə, uşaq bağçalarına, kimsəsizlər evlərinə, türmələrə mütəmadi olaraq yardımlar göstərir, böyük bayram şənlikləri zamanı pensionerlərə ziyafət süfrəsi açır. Ehtiyacı olan qocalara maddi və mənəvi kömək göstərir ki, heç bir deputat bunları etmək iqtidarında deyil. «Troya» mehmanxana kompleksi və şəhər əyləncə istirahət parkı kompleksi özü böyük bir sənət nümunəsidir ki, uzun illər boyu şəhərin gözəlliyinə xidmət edəcək.

Yaşayan ölsə də, yaşadan ölməz,
Əsrdən-əsrə iz salıb gedər.
Tarixlər önündə başı əyilməz,
Hər sönən ocağa köz saçıb gedər.

Tanrıdan güc alar, o ər oğlu ər,
Önündə baş əyər uca zirvələr.
Mərifət elmində hünər göstərər,
İdraka yolunu düz salıb gedər.

Ariflər məclisi yerimdir mənim,
Ürəyim tarladı, sözlərim dənim,
Səməndər dərsin ki, dosta göndərim.
Yoxsa eləcə söz salıb gedər.

# KİROV ŞƏHƏRİNƏ SƏYAHƏT

Buy şəhərindən səfərə çıxmağa hazırlaşırdım. Kirov istiqamətinə gedən axşam qatarına bilet almışdım. Başımız Cəmşidlə söhbətə elə qarışdı ki, qatara gecikdim. Sonra Cəmşidin köməyi ilə başqa qatara bilet almalı oldum.

Kirov şəhərinə çatanda səhər yenicə açılmaqda idi. Hava yağmursuz olsa da, tutqun idi. Şəhər əhalisinin əynində əsil payız havasında olduğu kimi isti gödəkçə və ayaqlarında altı qalın ayaqqabılar var idi. Qadınların əynində isə yağış buraxmayan plaş və gödəkçə nəzəri cəlb edirdi.

Azərbaycanlıların olduğu topdansatış bazasında ilk görüşdüyüm adam Tahir yardımlı oldu. Onunla görüşüb xeyli danışdıqdan sonra cavan bir azərbaycanlının vasitəsi ilə xoşxasiyyət, mülayimsifət Cəlil Cəlilovun «sklad»ına yollandıq və kabinetinə daxil olduq.

Cavan oğlan öncə sözə başladı:

– Cəlil əmi, bu əmi yazıçıdır, burada yaşayan iş adamları ilə söhbət edərək, kitab yazmaq istəyir. Dedim bəlkə sizinlə söhbəti tutdu.

– Xoş gəlib, səfa gətirib, – deyə ayağa qalxaraq mənə əl uzatdı.

– Xoş gəlmisiniz, Cəlil.

– Mən də adımı söylədim. – Çox şad oldun, gülümsünərək: – Siz əyləşin, bir çay için, meyvədən-zaddan təam edin. Mən bu kağız-kuğuzlara bir az əl gəzdirim-qabağına tökdüyü vərəqləri göstərdi. Sonra söhbət edərik.

O, mer-meyvə doğradaraq çay süfrəsi açdı.

– Siz Allah, məni bağışlayın, bunları tez hazırlayıb göndərməliyəm.

– Buyurun, siz narahat olmayın, işinizi görün. Əsas işdir, söhbətə vaxt tapılar.

– Elədir, – o xoş təbəssümlə cavab verdi. Bu dəqiqə boşalıram.

## Cəlil Ramazan oğlu Cəlilov



Cəlil Ramazan oğlu Cəlilov Göyçənin Dərəlləz bölgəsinin – Əzizbəyov rayonunun Axta kəndindən idi. Gözəl mənzərəli sərin bulaqlı, saf havalı Dərəlləzin qoynunda uşaqlıq illərini başa vuraraq, hərbi xidmətə 1983-1985-ci illərdə Xabarov vilayətinə yola düşür. Bununla da qəlbini, könlünü, ruhunu oxşayan doğma diyarından uzaqlaşır. Bundan sonra yurd, el-oba, vətən həsrəti başlayır.

– Dərəlləzin iqlimi, gözəl təbiəti heç harda tapılmaz. Erməni daşnaklarına Allah lənət eləsin. Bizi evimizdən-eşiyimizdən didərgin saldı. Biz ailədə 13 uşaq olmuşuq. 5 oğlan, 2 bacı. Atam Ramazan Qasım oğlu vəzifədə çalışırdı. Belə böyük ailəni korluq çəkdirmədən saxlayıb, boya-başa çatdırmışdı. Mən özüm Naxçıvanın Sələsüz kənd orta məktəbini yaxşı bitirmişəm. Hərbi xidmətdən sonra hərbi hissənin göndərişi ilə Kirov şəhərində kənd təsərrüfatı institutunun aqranomluq fakültəsinə daxil oldum. 1988-ci ildə azərbaycanlıların ermənistandan çıxarılması zamanı mən artıq burada tələbə idim. Qardaşım Qasım ədəbiyyat müəllimi idi.

Babamın adını daşıyırdı. Sonra işsiz qaldıqları üçün o da digər qardaşlarım Xəlil və Bayram da mənim yanıma gəldilər. Və ticarətlə məşğul olmağa başladılar. Necə deyərlər, burada kiçik Cəlilovlar nəsli yaratdıq, amma qəlbimizdən Vətən ağrısı-acısı heç zaman gedən deyil. Vətənsizlik çox ağır dərddir. Özü də bilәndə ki, ən əzizlərinin qəbirləri, yurd yerləri erməni murdarlarının əlində əsirdir…

İnstitutu bitirdikdən sonra ixtisasım üzrə işləyə bilmədim.



*Həyat yoldaşı ilə*

Çünki sovetlər dağıldı, kolxoz-sovxoz təsərrüfatları ləğv olundu. Ona görə 2001-2003-cü illərdə Moskva hüquq akademiyasının Kirov filialına daxil olaraq ikinci təhsil aldım. Amma təəssüf ki, o sahədə də işləmək mənə nəsib olmadı. Buna baxmayaraq, hüquqi cəhətdən bütün işlərimi özüm yola verirəm. 1989-cu ildə öz el-obamızdan olan Afər Hümbət qızı ilə ailə qurduq. Vəfa, Ruslan, Elnur adlı üç övladımız var. Vəfa ailəlidir. Kirov Akademiyasının müalicə fakültəsini bitirib. Həyat yoldaşı Anar



*Ruslan Cəlil oğlu*



*Elnur Cəlil oğlu*

Eldar oğlu Cəfərovla bərabər həkim işləyirlər. Övladlarını xoşbəxt görmək hər bir ailənin, hər bir valideynin ən böyük arzusudur. Digər övladlarımı da xoşbəxt görsəm daha mənim heç bir narahatçılığım qalmaz. Atam da vəzifədə olub, gözümü açan gündən hər şeyin azını da görmüşəm, çoxunu da həyatın ən dözülməz, çözülməz anı Vətən həsrətidir ki, onu heç nə ilə ovundurmaq olmaz. Həyatda heç kəsə vətənsizlik arzulamıram.

Cəlil çox ürəyiyumşaq qonaqpərvəp adam təsiri bağışladı. Bütün hərəkət və davranışı buna zəmanət verirdi. Söhbətimiz xeyli çəkdi.

Cəlil:

– Qalacaq yerinizi müəyyənləşdirmisinizmi?

– Hələ yox. elə qatardan düşüb birbaşa bura gəlmişəm.

– Cəmiyyətin sədri ilə görüşmüsünüzmü?

– Zəng etmişdim.

Dedi:

– İşim var, bir saata bazarda görüşərik.

– Ramiz yaxşı adamdır, amma işi çox olur. Hər halda sizinlə görüşməyə vaxt tapar. Burada gənclər təşkilatının sədri Kərbəlayi Elnurla da görüşməyinizi məsləhət bilərdim. Çox alicənab və işgüzar, vətənpərvər oğlandır.

– Mən onu necə görə bilərəm?

– Zəng edərəm o özü sizinlə görüşər, – deyib telefonunu çıxardıb zəng elədi. – Alo, salaməleykum. Necəsən? Bizlərdə də salamatçılıqdır. Yanıma Azərbaycandan hörmətli bir qonaq gəlib. Qələm əhlidir. Səninlə də görüşməyi məsləhət bilirəm. Adını kitaba salacaq. Niyə də olmasın. Haçan görüşə bilərik. Onda biz gəlirik. Hə, hə, oldu.

Əks tərəfin səsini eşidə bilməsəm də söhbətin istiqamətini müəyyənləşdirmək o qədər də çətin deyildi.

Biz Cəlilin maşını ilə Kərbəlayi Elnurun bizi qarşılayacağı yerə yollandıq.

Cəmiyyətin sədri bazaya gələndə görür ki, mən Cəlilin

maşınına əyləşərək harayasa getdim. Odur ki, mənə zəng etmədən, görüşü sabaha qərarlaşdırır.

Kərbəlayi Elnur bizi xoşüzlə qarşıladı. Sonra birlikdə Hacı Etibarın rəhbərlik etdiyi «Deoland» restoranına gedib bir yerdə nahar etdik. Bu əslində nahardan daha çox geniş məzmuna malik işgüzar görüşə bənzəyirdi. Dünyada Azərbaycanla əlaqədar cərəyan edən hadisələr, erməni hərbçilərinin və erməni siyasətçilərinin qərəzli davranışları, Rusiyada azərbaycanlılara münasibət, dünya dövlətlərinin dövlətimizə ikili münasibəti, kimi mövzular-digər mövzuları sıxışdırmaqda idi.

Elə mövzuların axarı ilə restorandan qalxıb mehmanxanaya yollandıq.

Mehmanxana sahibi də Asiman adlı cavan oğlan idi. Başqa bir həmvətənimizlə şərikli mehmanxana biznesi ilə məşğul idilər. Bacarıqlarına şübhə ola bilməzdi. Mən yerləşdiyim mehmanxana yaşayış binasının birinci mərtəbəsində yerləşsə də beş ulduzlu «otel»lərdən heç nə ilə fərqlənmirdi. Nə Asimanın, nə də şərikinin üzünü görməsəm də onların tapşırıqlarına əsasən mehmanxana işçiləri mənə fərdi qulluq göstərirdilər. Mən də öz minnətdarlığımı qiyabi tanışlığın nəticəsi olaraq əyani bir şeirlə bildirmək istədim.

Kirovda qaldığım müddət ərzində hər gün Cəlilin ofisinə gedir, onunla on dəqiqə söhbət etdikdən sonra şəhərə çıxaraq ya Elnur Şəmistan oğlunnu maşını ilə şəhəri dolaşır, ya da digər həmvətənlərimizlə görüşüb, tanış olurduq.

Bu şeirdə növbəti görüşlərimizin birində Cəlilin ofisində ona ünvanlanmışdır.

**A Cəlil**

«Allah sənə ömür versin,
Bir də kalan var, a Cəlil!
Dost sevinsin, düşmən olsun,
Qoy hər yerdə xar, a Cəlil!

Bu Kirovda gördüm səni,
Tanrı desin sən deyəni.
Görmək üçün o Göyçəni,
Allah Olsun yar, a Cəlil!

Üç balanı el eləsin,
Qəlbini tel-tel eləsin.
Bəmini də zil eləsin,
Düşmən olsun zar, a Cəlil!

Dostlara var sədaqətin,
Vurğunusan həqiqətin
Günü-gündən məhəbbətin,
Eldə olsun car, a Cəlil!

Alnıaçıq gəz elləri,
Şad et qəmli könülləri.
Bil dost kimi Səməndəri,
Hərdən bir axtar, a Cəlil!
*6.09.2014, Kirov şəhəri, Cəlilin iş otağı*

**Həci**

Kirov şəhərinə gəlişimin ilk günü Cəlil Ramazan oğlunun və gənc dostumuz Elnur Şəmistan oğlu ilə Viyat çayının düz sahilində axarlı-baxarlı bir yaşıllıqlar arasında yerləşən «Deoland» restoranında nahar edərkən ucaboylu, nurani bir həmvətənlimiz restoranın sahilə açılan eyvanına çıxaraq (biz foedə əyləşmişdik), müştərilərə göz gəzdirib Elnuru və Cəlili görüncə bizə yaxınlaşıb hal-əhval tutdu. Mənim yazar olduğumu bilincə gülümsəyərək:

– Xoş gəlmisiniz. Belə gözəl insanların da, – o Elnura, Cəlilə işarə etdi. Belə ziyalı da qonağı olmalıdır. Heyf ki, vaxtım

yoxdur, yoxsa məmuniyyətlə sizinlə əyləşərdim-deyə üzür istəyib restoranın içəri salonuna adladı. Onun şəhərdə Hacı kimi nüfuz sahibi olduğunu bilincə mehmanxanada ona belə bir şeir həsr etdim.

**Həci Etibar Sirac oğlu Əliyevə**

Səhər keçib, el dolanıb, gəldim ki, bu yana, Həci,
Tanış olub, şeir yazım sən kimi insana, Həci.

Kirov deyilən bu şəhərdə ocaq çatıb , yurd salmısan,
Qərib eldə cavan yaşda girmisən meydana, Həci.

Haqqdan alıb hər köməyi dəf etmişəm çətinliyi,
Gendən durub rəqiblərin baxıb yana-yana, Həci.

Bədxahlara qalib gəlib neçə könlü şad etmişəm,
Daş atmısan sidq ilə çox iblisə, şeytana, Həci.

Getdiyin yol həqq yoludu, uğurlar olsun bu yola,
Tanrı özü alqış desin bu nurlu imana, Həci.

Yaratmısan əməyinlə gör neçə cənnət məkanı,
Mən də gəlib mehman oldum bu gözəl məkanə, Həci.

Nə diləyin varsa əgər, çin eyləsin pərvərdigar,
Çıxacaqsan ailən ilə ən uca dövrana, Həci.

Qəlbimə bir sevinc çökdü ilk görüncə nur üzünü,
Səməndərin də qələmi gəldi bu tuğyana, Həci.
*1.09.2014, Kirov şəhəri*

## DÜNYA YAXŞILIQ ÜZƏRİNDƏ BƏRQƏRAR TUTUR

Həyat yaranan gündən bu günə qədər gecə-gündüz, xeyir-şər amilləri ilə yanaşı, insan xislətinə malik yaxşılıq-pislik, mərdlik, namərdlik anlayışları da qoşalıq təşkil etməkdədir. Yaxşılıq da tarixən yamanlığa qarşı mübarizə aparır. Nə yaxşı ki, həyatda yaxşılıq mövcuddur və həmişə dünyanın taleini öz çiyinləri üzərində daşımaqdadır.

Yaxşılar olmasa dünya məhv olar,
Abadlıq, inkişaf dağılıb gedər.
Həyatda olmasa yaxşı adamlar,
Pisliklər güclənib vəhşiləşərlər.

«Əsil yaxşılıq əvəzi gözlənilməyəndir» deyən müdriklərə haqq qazandırsaq da «yaxşılıqlara» biganəlik və ehtinasızlıq pisliklərə qol-qanad vermək deməkdir. Əslində elə yaxşılara da, yaxşılığa da vaxtında qiymət vermək lazımdır, yoxsa həyatda hər şey qarışıq düşər.

Demək istədiyim odur ki, Kirov şəhərində başqa şəhərlərdə olduğu kimi yaxşı insanlarla qarşılaşaraq onların isti münasıbətlərindən fərəh hissi duydum. Onların bəziləri ilə əyani görüşüb təmasda olsam da, bəziləri ilə qiyabi tanış olduq. Onlardan biri «OAZİS» mehmanxanasının həmsahibləri Asiman və onun həmkarı idi. Əfsus, adlarını eşitsəm də, onların barəsində xeyli məlumat əldə etsəm də yataqxanalarında bir neçə gün ödənişsiz qalmağıma baxmayaraq, üzlərini görə bilmədim. Elə «Asiman»a ünvandağım şeiri də görüşüb özünə çatdıra bilməsəm də kitabın nəşri vasitəsi ilə ona öz minnəidarlığımı bildirmək istədim.

## Asiman

Neçə vaxtdır el-obadan ayrılıb,
Xoş gəlmisən bu məkana, Asiman!
Görməmişdən eşitmişəm tərifin,
Yarışırsan Asimana, Asiman.

Mənim üçün çox əzizdi bil bu ad,
Bu addadır məndədə bax bir övlad.
Tanrı özü qəlbinizi etsin şad,
Üz tutsanız hansı yana, Asiman!

Boş budaqdı bil ki, qardaş-bacısız,
Ad-san ilə bir nəsilin tacısız.
Eşitmişəm iki qardaş, bir bacısız,
Halal olsun bu ad-sana, Asiman.

Yaxşı saxla bu sözləri yadında,
Göylə yerin bir rəmzi vardır adında.
Neçə qəlbə nur çiləyir adın da,
Ucal yüksəl şövkət sana, Asiman,

Mehmna oldum necə axşam odanda,
Hey sorağın, soraqladım hər anda.
Qoy şeirim əzbər olsun bu yanda,
Səməndərdən xoş nişana, Asiman!
*2.09.2014, Kirov şəhəri*

Topdansatış bazarının giriş qapısı önündə yaşayış binasının birinci mərtəbəsində azərbaycanlı həmvətənlərimizin – Qərbi Azərbaycanın Dərəlləz bölgəsindən olan qardaşlar kafe işlədirdi. Hər gün azərbaycanlılar bu kafedə nahar etməklə yanaşı, həm də öz gündəlik məsələlərini müzakirə edirdilər.

Mən də hər gün həmin kafedə Rəsul Vilya oğlu Murtuzəliyevlə, İslam Telman oğlu Murtuzəliyevlə, Zamin Etibar oğlu Murtuzəliyevlə (hər üçü Dərəlləzdən idi) və Azərbaycan Cəmiyyətinin sədri Ramiz müəllimlə bu kafedə görüşüb tanış olmuşduq. Mehriban insanlar idi. Ümumiyyətlə, Dərəlləzlilər bu “baza”da çoxluq təşkil edirdilər.

**Abbas Məhəmməd oğlu Ağamaliyev,** Natiq Şəmil oğlu Murtuzəliyev, Mehman Qurban oğlu Qarayev Əzizbəyov rayonunun Axda kəndindən idilər.

Maraqlı orası idi ki, bir kənddən, bir nəslin nümayəndələri bu şəhərdə kompakt yaşayırlar. Murtuzəliyev Rəsul, Murtuzəliyev Natiq, Mrutuzəliyev Çingiz, Kamalov Qurban, həm burada nəslin ağsaqqalı kimi, həm də nüfuz sahibləri kimi diqqəti cəlb edirdilər.

Dumanlı-çiskinli bir gün idi. Bazara alış-verişə gələnlərin çoxunun əlində çətir var idi. Çətir götürməyənlər də maşından düşən kimi özlərini anbarlara salır, islanmaqdan yayınırdılar.

Kafenin önündəki Abbas Məhəmməd oğlu Ağamalıyevin qəlyanaltısında, Azay Mehman oğlu Hüseynovla tanış olduq. Məni çay süfrəsinə təklif etdi. Azərbaycan Cəmiyyətinin sədri Ramiz Mürsəl oğlu Əfəndiyev, Rəsul Vilya oğlu, Tofiq Qasım oğlu Cəlilov, Cabbar Mehman oğlu Hüseynovla da elə həmin süfrə arxasında tanış olduq, xeyli dünyada və dünyanınn ən müqəddəs bir parçası olan bizim üçün Azərbaycanda baş verən ictimai-siyasi durum barədə söhbətlərlə yanaşı, özlərinin işləri barədə də söhbətlər oldu. Öz zəhmətləri və bacarıqları ilə ailələrini, yaxınlarını normal dolandırmaq iqtidarında olan bu insanlarla həmsöhbət olmaq çox xoş idi. O da ola qəriblikdə.

Həmsöhbətlərim arasında bir az üzbəüz tanış olduğum Abbas Məhəmməd oğlu oldu.

Abbas Məhəmməd oğlu Ağamalıyev Ermənistanın o zamankı Əzizbəyov rayonunun Axda kəndindən idi. O, 1970-ci ildə Axda kəndində dünyaya göz açaraq təbiətin bu füsünkar

qucağında boya-başa çatmışdır. Ataları Məhəmməd Abbas oğlu uzun müddət tikinti-inşaat sahəsində iş icraçısı olmuşdur. Abbas da babasının adını daşıyırdı. O, 1987-ci ildə Kömür kənd orta məktəbini bitirib 1989-91-ci illərdə Novosibir vilayəində hərbi xidmətdə olmuşdur. Ailələri öz obalarından didərgin düşəndən sonra uzun müddət bir azərbaycanlı yurddaş kimi onun qəlbi də bu hisslər altında əzilərək, bir yerdə qərar tuta bilmir. 1987-ci ildən Rusiyada olsa da, qəlbi həmişə Vətən həsrəti ilə çırpınmaqdadır.

1993-cü ildən bizneslə məşğul olur. 2002-ci ildən Kirov şəhərindədir. 2003-cü ildə «Vyatqa» les firmasını yaradaraq, ona başçılıq edir.

1996-cı ildə Aypara Gəncəvi qızı ilə ailə qurub. Məhəmməd, Vüqar adlı iki oğlu var. Qardaşları Zahid və Faiq də Kirov şəhərində bizneslə məşğul olurlar.

## YENİ GÖRÜŞLƏRDƏN CİZGİLƏR

### Mərdan Bilal oğlu

Şəhərdə yaşayan hörmətli oğlanlardan idi. Onunla şəxsən tanış olmasam da, barəsində xeyli xoş sözlər eşitmişdim.

### Mərdan

Deyirəm, ay Mərdan, həmişə adın,
Qəlblərdən axaraq dodağa düşsün.
Lerik dağlarından alıb sədanı,
Kəpəz də, Murov da sorağa düşsün.

Bir qartal yetirib o dağlar səni,
Uçub məskən etdin qürbət ölkəni.

Hər kəs vərəqləsə ömür səhifəni,
İstəməz ki, səndən iraqa düşsün.

Adını oxuyub ellər sevinsin,
Hər Mərdan söyləyən dillər sevinsin.
Pöhrələr sevinsin, güllər sevinsin,
Meylin bülbül kimi budağa düşsün.

Qəlbində sel kimi coşa məhəbbət,
Kimsədən görməyə, almaya minnət.
Çıxmaya qarşına bəd göz, bəd niyyət,
Bədliklər qoy səndən qırağa düşsün.

Səməndər sözünü bir başa deyər,
Nə qayaya söylər, nə daşa deyər,
Deyəndə sənintək qardaşa deyər,
Zəhmətin mənimtək qonağa düşsün.
*6.09.2014, Kirov şəhəri*

04.09.2014-cü il tarixdə topdansatış bazasında Cəlillə xeyli söhbət etdikdən sonra İslamın kafesində soydaşlarımızla görüşüb söhbətləşdik. Görüşü Rəsul təşkil etmişdi. Şəhərin tanınmış iş adamlarından çoxu orada idi. Söhbətin əsas məğzi və qayəsi milli mədəniyyətimizin, milli adət-ənənələrimizin, milli əxalqi dəyərlərimizin qorunub saxlanılması və Kirov şəhərində onun təbliğ edilməsi idi. Birliyimizin bu sahədə əsas şərt olması vacibliyi də vurğulandı. Soydaşlarımızdan Qarayev Mahir, Qarayev Abdulla, Murtuzayev Firuddin, Murtuzayev Akif, Murtuzayev Tahir, Murtuzayev Müşfiq, Alməədətov Şükür də orada idilər.

İslamın kafesindən çıxanda bir azərbaycanlı qardaşdan xahiş etdim ki, məni Mərdan Leriklinin «şeş-beş» kafesinə aparsın.

Mərdanla şeş-beş kafesinin önündə görüşdük. Aralıdan gələndə nurani çöhrəsindən və xoş təbəssümündən hiss etdim ki, bu elə Mərdanın özü olacaq.

Yaxınlaşıb salam verdim.

O, ədəblə salamımı alıb:

– Sizi tanımadım, – dedi.

– Qələm adamıyam, Vətəndən gəlmişəm, sizin kimi insanlarla görüşüb, kitab yazıram.

– Çox gözəl eləyirsən. Çoxdan gəlmisiniz, bu şəhərə?

– İki-üç gün olar.

– Kimlərləsə görüşə bilmisinizmi?

– Rast gəldiyim, dəvət olunduğum məclislərdə iştirak edən hər kəslə görüşüb tanış olduğum xeyli adam var.

– Bu gün mənim sizinlə əyləşib söhbət etməyimə vaxt edə bilməyəcəm. Gəl bu görüşü saxlayaq başqa zamana-deyib, mənə əl uzatdı. Bu o demək idi ki, söhbət qurtardı.- Mən sabah da burada olmayacağam. Özüm səni axtarıb taparam.

– Sağ olun.

– Yaxşı yol.

Mən sonra Mərdanla görüşə bilmədim, amma bu görüşdən xatirə bir şeir qaldı.

**Rəsul Vilya oğluna**

Bu dünyada heç nə itmir, ay Rəsul,
Baxmır kimdi, baxmır nədi, haradı.
Ya yamandı, ya yaxşıdı əməllər,
Hər əməlin öz üstündə var adı.

Belə deyib çox-çox əvvəl atalar,
Yaxşı insan əməliylə ucalar.
Süfrə açar, yol saldırar, ad alar,
El içində min bir olar bir adı.

Həqiqətlə qucaqlaşsa bir həyat,
Bir-birinə bir dost kimi gələr yad,

Harda könül qərar tutub olsa şad,
Onun üçün bil ki cənnət oradı.

Qığılcımdan tez alışar samanlıq,
Ona bənzər bu dünyada yamanlıq.
Nadürüstə elə gələr bir anlıq,
Yerdə, göydə hər nə varsa qaradı.

Səməndərə nahaq gülmə, a qardaş,
Hamı alıb bir-birinə atır qaş
Heç bilinmir harda ayaq, harda baş,
Hara baxsan qan-qadadı yaradı.

**Elnur Şəmistan oğlu Hüseynov**



Kirov şəhərində həm gənclər birliyinin sədri kimi, həm gənc iş adamı kimi, həm savadlı ziyalı kimi bütün həmvətənlilərimizin hörmətini qazanmış Elnurla ilk görüşümüzdən sonra bu gəncin yüksək intellektual səviyyəsinə heyran oldum. Heç kəsə bənzəməyən özünəməxsusluğu ona qarşı rəğbətimi artırırdı. Görüşlərimizin birində ona belə bir şeir həsr etdim, oxudu.

– Müəllim, hələ indiyədək heç kəs mənə belə hədiyyə etməmişdir, – deyə öz minərtdarlığını bildirdi.

– Özünüz qazanmısınız. Hələ indən belə rast gəlib görüşdüyünüz söz-sənət sahiblərindən çox belə hədiyyələr alacaqsınız.

– İmtahası sizinki ilk olaraq həmişə birinci olacaqdır.

– Birinci olan əbədi qalandır. Onu da ki, zaman həll edir.

Mən sizə zamanın yaddaşında qala biləcəyiniz səviyyəni arzulayıram.

**Səni**

Xaliq əcəb bəxş eləyib bu gözəl dövranə səni,
İndən belə də yetirə çox belə imkanə səni.

Cavan yaşda ad-san almaq o qədər də asan deyil,
Tanrı özü yönəldibdir belə bir imanə səni.

Kirovda sən iş adamı, həm tutdun din yolunu,
Tanrı özü çatdıracaq bir gün o Turanə səni.

Tut göylərin damənini haqqa tərəf guzar eylə,
Pirlər-piri yetirəcək o gövhəri –kanə səni.

İlahidən arzum budur qəlbində nur azalmasın,
Nurlu könül tanıdacaq hər yerə, məkanə səni.

Yaxşı saxla gəl yadında mən əminin sözlərini,
Kamilliyin qoy yetirsin dəryayi-ümmanə səni.

Cavan yaşda pürkamalsan çətin yollar var qarşında,
Qartal kimi zirvələrə haqq bilsin nişanə səni.

Xoş arzular söyləmək də şairlərdə bir adətdir,
Səməndərin sözü versin ünvan bu cahanə səni.
*2.09.2014*

Elnur Şəmistan oğlu 09.06.1980-ci ildə Vardanıs rayonunun Yenikənd kəndində İnək dağının ətəyində ziyalı ailəsində anadan olub. Atası Şəmistan Telman oğlu uzun müddət Gəncə şəhərində müəllim işləyib. Müharibə illərində 1989-cu ildə Kirov şəhərinə gələrək bizneslə məşğul olmağa başlayıb.

Elnur da 1991-ci ildə atasının yanına gəlir və orta məktəbə

daxil olaraq, təhsilini rus dilində alır. 1997-ci ildə əla qiymətlərlə orta məktəbi bitirərək, Kirov şəhər Moskva humanitar institutunun hüquq fakültəsinin filalna daxil olur və 2008-ci ildə Akademiyanın magistr təhsilini başa vurur. Bir ili hərbi xidmətdə olur. İki il hərbi prokuraturada istintak şöbəsində çalışır. Erkən yaşlarından idmanın boks növü ilə məşğul olaraq bir sıra yarışlarda şəhər vlayət və şəhərlərarası turnirlərin qalibi olmuşdur. Çoxlu prizlərə sahib olmuşdur.

Ailədə dörd qardaş, bir bacı olublar. Qardaşlardan böyüyü elə Elnurun özü olub. Sonra QİsmƏt, Adil, Əmrah, Pərvanə anadan olublar. Hazırda qardaşları da Kirov şəhərində biznesin müxtəlif sahələri ilə məşğul olurlar.

Elnur özü sosial həyatda bacarıqlı və fəallığı ilə həmişə diqqət mərkəzində olmuşdur. Uşaqlıqdan məktəbdə, sonra ali məktəb-də öz fəallığı ilə yoldaşlarının və müəllimlərinin diqqət mərkəzində olmuşdur.

Elnur hələ orta məktəbdə oxuyarkən fəallar dərnəyinin üzvü olaraq, məktəbin qabaqcıl şagirdlərindən biri idi.

– Ona görə də bir dəfə məktəbin direktoru məni yanına çağırıb əlimi sıxaraq dedi: – Sən bacarıqlı oğlansan, sənin çox parlaq gələcəyin var. Çalış sən də soydaşların kimi biznes adamı yox, elm adamı ol.

Görünür o haradasa mənə bir şübhə ilə yanaşmaqda əsaslı idi. Mən nə qədər çalışdımsa, biznes cazibəsindən uzaqlaşa bilmədim. İctimai işlərin təkanverici sahəsi kimi biznes mənim dayağım oldu. Bunsuz nəyəsə nail olmaq mümkün deyildi. İnstitutu bitirdikdən sonra 2007-ci ildə xeyriyyə fondu yaratmağa nail oldum. Bu fondun yaranmasının ilk təşklatçısı və ilk təsəbbüşçüsü mən olmuşdum. 2009-cu ildə fondu rəsmi qeydiyyatdan keçirərək seçki yolu ilə rəsmi şəxsi mən oldum. Sonra Kirov vilayəti üzrə yaradılmış Heydər Əliyev fondunun sədri seçildim. 2013-cü ildə isə Kirov əyalət millətlərarası ictimai palatanın üzvü seçildim. Bu seçkiyə özümüzünkülərdən bəziləri



*Elnur Şəmistan oğlu Hüseynov şəhərin dini icması arasında*




*Elnur Hüseynov şəhərin azərbaycanlı gəncləri arasında*

etiraz etməyə başladılar. Yarıaçıq, yarı gizli dedi-qodular, narazılıqlar bu gün də davam etməkdədir. Amma neyləmək olar insanlar hamısı öz xislətinə görə davranırlar. Təsəvvür edin ictimai palataya 580 namizədin arasından mən seçildim. Bunların arasında çox sayda erməni və digər millətlərin nümayəndələri də çox idi. Vilayət qubernatorunun təşkil etdiyi bütün ictimai tədbirlərdə şəhərdə əyalət şəhərlərində hətta Almaniyada, Kazanda keçirilən gənclər forumunda natiq kimi çıxışlar etməklə iştirak etmişəm.

Məgər bundan üstün həmyerlilərimiz üçün ürəkaçan nə ola bilər ki. Palatada milli əlaqələr və dini milli-mədəni əlaqələr komissiyasına rəhbərlik edirəm.

2014-cü ildə millətlər arası mədəniyyət festivalının təşkilatçılarından biri olmuşam. İnter.az televiziya kanalında mənim barəmdə geniş veriliş getmişdir.

Şəhərdə və vilayətin digər şəhərlərində yaxşı tanınan bir futbol komandası yaratmışıq, komandamızın adı «Dostluq» adlanır.

Mənim fəaliyyətim quberniyanın rəhbərliyi tərəfindən həmişə rəğbətlə qarşılanmışdır. Qubernator Nikita Yuriyeviç Belıx şəxsən özü həmişə mənimlə mehribancasına görüşərək təltiflər edib. Şəhər rəhbərliyi müntəzəm olaraq məni diqqətdə saxlayaraq, bütün şəhər tədbirlərinə məni dəvət edir. Merlə şəxsi münasibətimiz çox əladır. Nə problemim olsa açıq sözümü deyə bilirəm. Bir azərbaycanlı gənci üçün bundan yüksək nə ola bilər.

Mən arzu edirəm ki, bütün həmyaşıdlarım da öz millətinə bu qürbət şəhərlərdə – qürbət diyarlarda belə şərəf gətirsin. Torpaqlarımız işğaldaq azad olduğu gün bizlər də öz güclərimizi birləşdirərək dağıdılmış şəhərləri abadlaşdıraq.

# SUKSUN ŞƏHƏRİNDƏ

## Mirəli Mirhəsən oğlu Şeyxülislami

Kunqur şəhəriində Bəhramın kafesində onu tez-tez görürdüm. İş adamı olduğunu bilsəm də, nə ilə məşğul olduğundan xəbərim yox idi. Hər dəfə də yanında qonaqları olduğuna görə yaxınlaşıb tanış ola bilmirdim. Davranışı sakit və mülayim idi. Bəhramla da münasibəti yaxşı idi. Hər gələndə çox isti, hərarətli səmimiyyətlə görüşürdülər. Tanınmış iş adamlarından biri olan Mamed Şahməmmədoğlu ilə də bir süfrə arxasıda çox görmüşdüm. Yaxın münasibətdə olduqları da ilk baxışda hiss olunurdu.

Bir gün Şuksun şəhərində Aslan Gülhüseyn oğlu Zalovun vasitəsiylə onunla daha yaxından tanış olduq.

Suksunda avtobusdan düşərkən qarpız satan bir oğlan uşağını görüb ona yaxınlaşdım. Azərbaycanlı idi. Salamlaşıb:

– Oğlum, bu şəhərin ağsaqqallarından hansı azərbaycanlı ilə hazırda görüşə bilərəm?

– Neynirsiz ki? Əmi? Siz özünüz kimsiniz?

– Mən kitab yazıram. Qürbətdə yaşayan yerelilərimiz barədə.

– Elə isə gedin mənim atamla görüşün. O bazarın yanında mağaza işlədir.

Mən bazara gedib, Aslan Zalovla mağazanın önündə tanış olduq. Sonra mağazaya dəvət etdi. Əyləşib çay içdikdən sonra o zəng edib Mirəlini çağırdı.

Mirəli:

Maşından düşərək:

– Hə, mən sizi Bəhramın «Leyla» kafesində görmüşəm. Bu şəhərə xoş gəlmisiniz.

Xoş gününüzə gəlmişik. Orada görüşsək də söhbət edə bilməmişdik. Qismətdən gəlib burada görüşəsi olduq.

– Lap yaxşı onda durun bir mənim iş yerimə də baş çəkək.

Onun şəxsi maşını ilə şəhərdən azca kənarda yerləşən ofisinə getdik.

Söhbətimizin əsas hissəsinə elə orada davam etməli olduq.

Mirəli Mirhəsən oğlu 08.03.1969-cu ildə İran Azərbaycanının Bonab şəhərində anadan olub atası da xırda ticarətlə məşğul olaraq, ailəsini dolandırırdı.

Bonab geniş əkin sahələri və yaşıl bağlar əhatəsində yerləşirdi. Əhalisi əkinçilik və üzümçülüklə məşğul olurlar. Mirhəsən kişinin də özünün şəxsi üzüm bağları var idi. Ailənin elə əsas məşğuliyyəti üzüm becərmək idi. Ailədə üç qız iki oğul məhz həmin gəlir hesabına dolanırdı. Anaları Fatimə xanım savadsız evdar qadın olduğundan övladlarının dərsə hazırlığı ilə məşğul ola bilməsə də, çox zəhmətkeş qadın olduğundan övladlarını da zəhmətə, əməyə, çalışqanlıq əzmində böyütmüşdü. Fars dilini də zəif bilirdi.

Mirəli 1987-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi qulluğa yollanıb. Xidmətini başa vurduqdan sonra ticarətlə məşğul olmağa başlayıb.

– 1994-cü ildə Bakı şəhərinə gəldim-deyə o danışırdı. İranda yaşamaq orada hərəkət etmək çətin idi. Ona görə də o taydan bu taya keçdim. 1999-cu ildə Sevinc Kərəm qızı ilə ailə qurduq. Nigar və Fatimə adlı iki qızım var. Allah qardaşlarını yetirsin…

2008-ci ildə Rusiyaya taxta vurmağa gəldim. O vaxtdan da elə burada qalmalı oldum.

2009-cu ildə Perm vilayətinin Suksun şəhərinə gələrək burada yer götürdüm. Pilarama açaraq özüm taxta çəkib göndərirəm. Özümün firmam OOO «Sibirsün» adlanır.

Fkirimdə burada yol kənarında restoran-kafe açmaq da var. Burada yaxın qohumlarımdan heç kəs yoxdur. Qardaşım İranda Bonab şəhərində topdansatış meyvə-tərəvəz alveriylə məşğul olur. Tez-tez telefonla danışırıq.

İnşallah yaxın gələcəkdə həyata keçirmək istədiyim xeyli arzularım var.

Arzular onsuz da tükənən deyil,
Gələydi hamısı kaş başa, qardaş.
Bonab da, Bakı da əzizdir bizə,
Hansında istəsən get yaşa, qardaş.

Getdiyin bu yollar haqqın yoludu,
Enişli-yoxuşlu əzab doludu.
Haqqın qüvvəsidi haqqın qoludu,
Çıxmasın zəhmətin qoy boşa qardaş.

Gəlmisən Urala sən gəzə-gəzə,
Ünsiyyət tapmısan Suksunla təzə.
Getsin çətin günlər gedər-gəlməzə
Xoş günlərlə yaşa hey qoşa qardaş.

Peyğəmbər övladı, seyid əsilli,
Ocaq hərarətli isti nəfəsli
Həmişə olasan odlu, həvəsli,
Çıxasan beləcə savaşa qardaş.

Sənə söylənəsi arzularım var
Səməndər köksündə tutubdu qərar.
Həsrət qalmasınlar Fatmayla Nigar,
Onlar da qovuşsun qardaşa, qardaş.
*18.08.2015*



*Suksun şəhərindən bir görünüş*

Mirəli ilə Suksunu gəzib-dolaşdıqdan sonra Kunqur şəhərinə gəldik. Bəhramın kafesində nahar etdikdən sonra gələcəkdə görüşmək arzusuyla görüşüb ayrıldıq. Axşam hamı yatdıqdan sonra mən Bəhramın evində qeydlərimi və «qardaş» şeirini yazdım.

## KUNQUR ŞƏHƏRİNDƏ BƏHRAM BAYRAM OĞLU MƏLİKOVUN 60 YAŞIN TƏNTƏNƏSİ

Neçə gün idi ki, Kunqur şəhərində Bəhramın qonağı idim. Azərbaycan mehmanxanası olduğu halda evində qalırdım. Onun yüksək qonaqpərvərliyi nəticəsində bütün dostları ilə yaxından tanış olmuşduq. 19 iyulda onun ad günü olmalı idi. Ona görə də həmin ziyafətdə iştirak etmək üçün bir neçə gün də ləngiməli oldum. Ziyafətdə vilayət Azərbaycan konqresinin sədri və üzvləri, tanınmış iş adamları, Kunqur şəhərinin meri,



prokuroru, polis rəisi, sabiq həmin vəzifə sahibləri, qonşu rayonların yüksək vəzifə sahibləri, təsərrüfat rəhbərləri, tanınmış fermerlər, kolbasa zavodunun direktoru, ümumiyyətlə vilayətin yüksək çinli məmurlarının bir çoxu 150 nəfər olmaqla, məclisə dəvət olunmuşdu. Belə bir məclisdə Azərbaycan yazıçılarından-ziyalılarından bir nümayəndənin olması yerinə düşərdi. Ona görə də əvvəlcədən bu ziyafətə rus dilində bir çıxış hazırlamışdım. Bir şeir də yazdım. Lakin şeiri rus dilinə tərcümə edə bilmədiyim üçün onu elə öz dilimizdə söylədim. Yerli televiziya verilişlərindən də çəkiliş var idi. Bəhram haqqında yazmış olduğum kitabı Bəhrama təqdim edərək çıxışımı yekunlaşdırıb bu şeirimlə onun 60 yaşını təbrik etdim. Hamı kimi mənim çıxışım da alqışlandı və hamının marağına səbəb oldu. Bir yerdə şəkil çəkdirənlər də az olmadı. Ümumiyyətlə ziyafət çox yüksək şəkildə keçirildi. Rusiyada belə təntənəli ziyafətdə heç iştirak etməmişdim.

Bəhram, sənin ad günnüdür bax bu gün,
Gördük altmış yaşla biz qoşa səni.
Taleyin köhləni hey hazır olsun,
Çıxarsın zamanla yarışa səni.

Başında cəm olsun dostun-tanışın,
Durasan önündə gedib yüz yaşın.
Sağ can dostun olsun, sevgi sirdaşın,
Aparsın bu başdan o başa səni.

Qardaş, mən nə deyim qələm əhliyəm.
Şeirin, sənətin yazan əliyəm.
Bu günkü məclisdə mən deməliyəm,
– Xoş üzlə görsünlər hey qoşa səni.

Görüm yarıyasan övladlarından,
Heç vaxt geridə qalma zamandan.
Bir yanda Elxan, bir yanda Əfqan,
Tanrı çox görməsin yüz yaşa səni.

Çap səyirt atını belədən-belə
Bir arzu-niyyətin düşməsin selə.
Səməndər də qələmi alaraq ələ,
Tanıdar hər dosta, yoldaşa səni.
*Kunqur, 19 iyul, 2014*



# BAKI-MOSKVA-MURMANSK SƏYAHƏTİ

Rusiyanın bir çox bölgəsində dəfələrlə olduğum halda, Murmansk və Petrazavodsk-Karelya vilayətlərində olmamışdım. Bu vilayətlərin mavi gecələri barədə hələ uşaqlıqda çox eşitmişdim. 6 ay işıqlı gecələr, 6 ay qaranlıq gündüzlərin mövcud olması məni çox təəccübləndirirdi. Bu uşaq təxəyyülü ilə eşitdiklərimi götür-qoy edib, o yerləri xəyalən dolaşıb bir nəticə çıxarmağa çalışırdım. Bəzən qurduğum xəyal aləmi oxuduğum nağıllar aləmi ilə qarışaraq məni Murmansk şəhərində məskunlaşaraq eldən-obadan uzaq düşmüş Alıyev Hümbət Şahqulu oğlunun yanına aparırdı. Evdə söhbət zamanı məndən böyüklər söyləyirdilər ki, o yazıq yetim Hümbəti bir axtarıb-itirən olmadı, harada qaldı, necə oldu. Elə düşünürdüm ki, nə qədər ki, bir adam barədə danışılır, demək o sağdır, ölülər barədə danışılmır.

Düz əlli ildən sonra Xoşqədəmin «Səni axtarıram» verilişini dinləyərkən Murmansk şəhərindən Hümbət Şahqulu oğlunu göstərdilər. O danışırdı:

– Mən Tovuzun Yanıxpəyə kəndindənəm. 60 il bundan əvvəl anama acıq edərək, bu vilayətə Murmanska gəlmişəm. Qohumlarımdan yalnız əmimoğlu Murad Tağı oğlunu tanıyıram. Bir də kəndimizin dağlıq ərazidə olduğu əyri-əyri cığır yollarını xatırlayıram. Texnologiyanın müasir inkişafı dövründə belə yaxınlarımla əlaqə yarada bilmirəm.

Bu verilişdən sonra məndə Murmansk vilayətinə səyahət etmək marağı yarandı.

05.06.2015-ci il tarixində qatarla Bakıdan Moskvaya yola düşdüm. 27.06. tarixində Moskva vağzalında düşdüm. Bakıdan Moskvayadək 82 yaşlı azərbaycanlı ilə Zərdab rayonundan idi-bir kupedə yoldaşlıq etdik.

Moskva şəhərində işləməyə gedirdi. Nə iş görəcəyi, nə iş ilə məşğul olacağı məlum deyildi və öz dediyinə görə, hər il yaz-yay ayları – qar yağana-soyuqlar düşənədək Moskvada alverlə

məşğul olur. Ailəsini bu yolla dolandırır. 2 oğul evləndirərək üç qız köçürüb. Hamısına necə lazımsa şarəit yaradıb. Amma çox nasaz və naxoş görünürdü. Belə vəziyyətlə iş dalınca qürbət diyara yollanması çox təəccüblü idi.

Mən Kursk vağzalında ondan ayrıldım. Elə ondan yenicə ayrılmışdım ki, başqa bir azərbaycanlı ilə tanış oldum. O da Siyəzən rayonundan idi. Zakir Tabir oğlu Cəfərov Murmansk şəhərinə oğlununn yanına gedirdi. Onunla tanış olduqdan sonra, Leninqradsk vağzalına yollandıq. Hansı kassaya yaxınlaşdıqsa, bu günə Murmansk şəhərinə bilet yoxdur deyə, təəssüflə bizə cavab verirdilər. Səhər saat 8:00-dan axşam 15:50-ə qədər vağzalın salonunda gözləməli olduq. Zakir özü təqaüddə olan dəmiryolçu idi. Bütün ömrünü Rusiya dəmiryolunda keçirmişdi. Rusiyadan da təqaüdə çıxmışdı. Ona görə də vağzal rəhbərliyi ona hörmət əlaməti olaraq 2 bilet təşkil etdilər.

28.06.2015-ci il tarixdə qatar Karelyaya – göllər ölkəsinə keçmişdi. Qatarın pəncərəsi önündə dayanaraq əsrarəngiz gözəlliyə malik Karelya çöllərinə, göllərinə, meşələrinə tamaşa edirdik. Yaşıl meşələr qoynuna sığınmış bir göl qurtarandan az sonra başqası nəzərə çarpırdı. Təbiətin aynası olan bu göllərdə üzən gəmilər, yaxtalar gah dumanlıqlara qarışaraq gözdən itir, gah da düz dəmiryolunun 100-150 metrliyində görünürdülər.

Zakir çox mehriban və xoşxasiyyət adam idi. Gözəl yoldaşlığı var idi. Sanki məni lap uşaqlıqdan tanıyırmış kimi qayğı və səmimiyyətlə yanaşırdı. Son qəpiyini belə mnimlə bölüşməyə hazır idi. Mənim qələm əhli olduğumu bilən andan mənim əlimi cibimə salmağa imkan vermirdi: - Mən oğlumun yanına, öz evimə gedirəm, sən isə burada qonaqsan. Murmansk mənim az qala ikinci vətənimdir. Mən təqaüdümü də orada alıram, neçə ayın pulu yığılıb qalıb. İstədiyim zaman götürə bilərəm. Sən isə hələ hara gedəcəyini, harada qalacağını belə dəqiq bilmirsən. Axtardığın adam sağdırmı, yoxmu hələ bu da məlum deyil. Bacardığım qədər mən də çalışacağam ki, biçarə Hümbəti tapmaqda sənə yardımçı

olum. Mənimlə telefon əlaqəsi saxla, qalacaq yeri tapmasan mənim yanımda –oğlumun evində qalarsan.

– Çox sağ ouln, öncə Azərbaycan Cəmiyyətinin sədri ilə görüşüb, hal-əhval tutduqdan sonra, Hümbətin axtarışına başlayacağam. Onsuz da müntəzəm olaraq sizinlə telefon əlaqəsi yaradacağam. Ona qədər öz işinizi qaydasına qoyun, sonra Allah kərimdir.

– Nə deyirəm, təki siz burada istəyinizə nail olasınız. Mən dəvəsi ölmüş ərəbəm, hara olsa, başımı salmağa bir kümə tapılar, – deyə Zakir zarafatından qalmadı. Şükür hələ özümü də qoca hiss etmirəm. Maşallah, top kimi oğlanam, çox cavanın dizini yerə gətirə bilərəm.

– Allah nəzərlərini üstünüzdən çəkməsin. Həmişə sağlam və xoş əhvallı olasınız.

– Onda bir az da pul arzula.

– Niyə az? Lap çoxunu arzulayıram.

– Yox, müəllim, çox məni yoldan çıxarar. Elə həmişəlik cib xərcliyi olsa bəsimdir. Bircə cibimdən pul əysik olmasın.

– Elə də olar, inşallah.

– Onda işimiz düzəldi. Daha bir problem qalmadı ki, onda gəl bir nahar edək.

Zakir ürəyiaçıq, baməzə və yeyib-içən adam idi. Ömrü boyu belə olduğunu söyləsə də heç bunun etirafına lazım da yox idi. Görünən dağa nə bələdçi. Bir neçə gün ərzində sanki onu bir ömür tanıyırmış kimi olmuşdum.

Zakirlə vağzaldan trolleybusa bir yerdə minib topdansatış bazarının önündə ayrıldıq. O getdi oğlunun evinə, mən düşdüm.

Sonra hər gün Zakirlə görüşürdük. Murmansk şəhərindən çıxanda da zəngləşib görüşdük. Bu görüşdən yalnız isti, unudulmaz bir xatirə qaldı.

Bəlkə bir ömrə dəyər bircə dəyim dost nəfəsi,
Bu nəfəs ram eliyər hisrli olan hər bir kəsi.

Baxışı dayandırar axıb gələn qəm selini,
Gün kimi şəfəq saçar hər tərəfə dəm həvəsi.

Əlini atsa əgər qəm-kədəri basıb əyər,
Əyilməz heykəl kimidi dost üçün cüssəsi.

Görməsə həsrət odu alovlanar gündən –günə,
Onu qoy var eləsin o kimsəsizlər kimsəsi.

Qürbətdə bir dost üzü şad elədi Səməndəri,
Tanrı da şad eləsin oğul qızdan varsa nəsi.

Trolleybus «Baza» deyilən yerə çathaçatda yerə düşməkdə olan bir oğlanı Zakir səsləyərək xahiş edirəm. Bu şairi də bazaya apararsınız. Buralara nabələddir. Oğlan gülümsəyərək:

– Baş üstə, – deyib, əlini ataraq mənim əlimdən çantalardan birini aldı. O uzunboy, enlikürəkli oğlan idi. Lənkəranın Mamusta kəndindən idi. O başqa istiqamətə getməli olmasına baxmayaraq məni bazada azərbaycanlılar işləyən anbarların birinə ötürərək sağollaşıb getdi.

Çantalarımı «skladın» sahibinin yanında saxlayaraq, yaxındakı «Kaspi» kafesinə getdim. Kafenin sahibi və aşbazı da orada idi. Salamlaşıb oturacaqlardan birinə əyləşdim.

Kafenin sahibi –Qardaş, deyəsən bu tərəflərə təzə gəlmisiniz?

– Elədir ki, var.

– Nə əcəb gəlmisiniz, yoxsa mal gətirmisiniz?

– Yox, qələm adamıyam, həm də burada çoxdan yaşayan bir həmyerlimi axtarıram – Hümbət Alıyev.

– O tovuzlu kişisini deyirsən? Elə bil o ölüb axı.

– Ölsə idi televiziyada göstərməzdilər. İki-üç həftə bundan öncə göstəriblər.

– Ola bilər.

Bu ara kafeyə orta yaşlı bir adam daxil oldu. Kafenin aşbazı:

– Bax o oğlan da Tovuzdandır adı ilə səsləyərək biz əyləşən stola dəvət edərək, mənimlə tanış edib: – O tovuzlu qoca kişini axtarır. Xoşqədəm xanımın «səni axtarıram»ında göstərilən adamı deyirəm.

Həmin adam, tovuzlu müsahibim Əsirik kəndindən idi. Söhbət zamanı tanış çıxdıq. O mənə bir telefon nömrəsi verərək, bu cəmiyyətin sədri Afil müəllimindir. Bu dəqiqə ofisində olmalıdır. Özüm bir taksi tutub səni onun yanına göndərəcəyəm. Həm tanış olun, həm də Hümbətin yerini öyrənə bilər. Çünki, Xoşqədəm xanım üç gün burada onun qonağ oldu.

– Yaxşı olar-dedim. -Çox sağ olun.

Həmyerlim Amil adlı bir taksi sürücüsünə zəng edib çağırdı və xahiş etdi ki, məni Afil müəllimin ofisinə aparsın. Telefon nömrəsini vermişəm. Ofisin həyətinə çatan kimi zəng edin, qapını açdırsın. Yoxsa, gedib elə həyətdə qalarsınız.

Mən o oğlanı bir daha görmədim ki, oxucularla da onu tanış edim.

Biz ofisin binasına çatar-çatmaz Afil müəllim binadan çıxaraq, harasa getməyə hazırlaşırdı. Taksi sürücüsü Amil ona yaxınlaşaraq, salam verib, məni təqdim etdi- əl verib görüşdük.

Afil bəy hündürboylu ağbəniz, saçları yenicə ağarmaqda olan 45 yaşlarında nurani bir adam idi. Ciddi baxışları görkəmini daha da əzəmətli edirdi. O əlindəki kağızları göstərərək, mən bu dəqiqə iş dalınca gedirəm. Keçin içəridə mənim kabinetimdə əyləşin, bir saata qayıdaram. O bizimlə otağına dönərək, kabinetdə yer göstərdi. Cavan bir oğlana:

– Müəllimə çay süzün. Stola şirniyyat da qoyun. Bu dəqiqə bu kağızları verib, mən də qayıdıram, – dedi.

Mən əyləşib, gözləməli oldum. Bu ara otağa göz gəzdirdim. Bir tərəfdə kitab rəfində çoxlu kitablar düzülmüşdü. Stolun üstündə də xeyli kitab var idi. Yarıdan çoxu Azərbaycan dilində idi. Stolun başı üzərində Rusiyanın və Azərbaycanın prezidentlərinin şəkli asılmışdı. Masanın baş tərəfində isə hər iki

ölkənin bayraqları qoyulmuşdu.

Cavan oğlan gətirib masanın üzərinə çay və şirniyyat qoydu. Bir stəkan çay içmişdim ki, Afil bəy də gəldi.

– Hə, ağsaqqal, eşidirəm. Nə əcəb bu tərəfləri yad etmisiniz.

– Mən qürbətdə yaşayan azərbaycanlılar barədə kitab yazıram. Həm də bu şəhərdə mənim bir həmkəndlim itkinlər siyahısına düşüb. Onu tapmaq istəyirəm. O gülümsünüb: - Yazıçılara böyük hörmətimiz olsa da, barəmizdə heç nə yazılmasını istəmirik. Qaldı Hümbətə, hə elə bir adam bu şəhərdə yaşayır. Elə tapsaq onun evinə də qeydiyyata düşərsiniz. O telefonu götürüb bir neçə yerə zəng etdi. – O talış oğlan var idi ey Xoşqədəmlə o tovuzlu kişini tanış edən. Hə...hə...onu deyirəm, nə idi onun adı. Ona zəng elə de Hümbətin qohumu gəlib.

Afil bəy Hümbəin ünvanını öyrənərək yazıb mənə verdi. – Lomonosov 3-də yaşayır. Zaur adlı bir talış oğlan onlarda kirayədə qalır. Elə ona qayğını da o göstərir. Çox xeyirxah



*Hümbət Şahqulu oğlu Alıyevin xoşbəxt günləri*

oğlandır. Bu vaxtlarda işdə olur. Amma Hümbət evdədir. Yəqin sizi tanıyar.

– İnanmıram məni tanıya, o kənddən çıxıb hərbi xidmətə yollananda, mən uşaq idim.

– Yaxşı, yubanmayın, gedin. Taksi çağırmışam. Sizi duz «padyezin» önünə qədər aparacaq.

– Təşəkkür edirəm...

Taksi Lomonosov 3-də dayanıb:

– Bax, bu binanın ikinci padyeizidir, damofonu basın qapını açacaqlar.

Mən elə də elədim. İçəridən boğuq və titrək səs eşidildi. «Kto tam» mən cavab verdim. – Mən sizin yerlinizəm. Azərbaycandan gəlmişəm. Yanıxpəyədən. Siz belə bir kənd xatırlayırsınızmı?

– Xatırlayıram, xatırlayıram. Qalxın yeddinci mərtəbəyə.

Mən liftlə yuxarı qalxdım. Qapının ağzında ortaboylu, sarışın saçları tamam tökülmüş əynində dəri jilet, idman şalvarında bir qoca dayanıb, gülümsəyirdi.xoş gəlmisən, xoş gəlmisən, eloğlu. O xalis rus dilində danışırdı.-Sən kimsən, haradan gəlmisən. Buranı necə tapdın?

– Zaur zəng eləmişdi ki, həmyerlin gəlib. Qapını aç. Yoxsa mən hər adama qapı açan deyləm.

– Zaur kimdir-deyə soruşdum.

– Zaur sizi bura göndərən oğlan. Bu dəqiqə özü də gələcək. Sonra təəccüblə-məgər sizi o göndərməyib?

Mən Azərbaycan Cəmiyyətinin sədrinin yanına getmişdim. O da Zaura zəng edib sizin ünvanınızı götürüb mənə verdi.-Mən özümü ətraflı nişan verdim. O ağlaya-ağlaya:- elini-obasını tərk eləmiş bir itkin adamam. Çox şey yadımdan çıxıb. Bircə Tağı əmimin oğlu Muradı, Poladı, Qəmət müəllimi-bibimin ərini-onun Vilayət adlı müəllim oğlunu xatırlayıram.

– Başqa bir hadisəni və ya adamı xatırlamırsınızmı?

– Bir çoban əmim də var idi. İsanın atasını deyirəm. İsa Moskvada yaşayırdı. Sonra eşitdim ki, rəhmətə gedib.

Sağlığında telefon əlaqəsi saxlayırdıq.

– Bəs niyə əmilərini, əmin uşaqlarını axtarmadın. Vətəni tamam unutdun?

Atam müharibədən qayıtmadı. Anam məni atıb başqa adama ərə getdi. Xeyli dayımın, ana nənəmin himayəsində qaldım. Anamla üzləşməmək üçün əmim-Tağının yanına getdim. Mənə pis baxmırdı. Çoxlu arıları və qoyunları, mal-qarası var idi.yağışda, dumanda, çiskində qoyun-quzu otarırdım. Bu bir həyat deyildi, məşəqqət idi. Hərbi xidmətə gəldim, xidmətdən sonra bu şəhərdə dənizdə balıqçı gəmisində işləməyə başladım. Çətin olsa da, maraqlı iş idi, yaxşı maaş verirdilər. Sonra dul rus qadını ilə evləndim. Bir oğlu da var idi. Balıqçılıq nazirliyi bizə üç otaqlı ev verdilər. Həyatımızdan çox razı idik. Dolanışıq sarıdan heç bir əksiyimiz yox idi. Hər il müxtəlif şəhərlərə istirahət etməyə gedirdik. Bu arada tək bircə dəfə Azərbaycana getdim…

Əmim sağ idi. Qohumlarımla görüşməkdən çox məmnun



*Hümbət Şahqulu oğlu ailəsi və dostu ilə*



*Hümbət Şahqulu oğlunun qızı və nəvəsi*

idik. Bizim artıq bir oğlumuz bir qızımız var idi. Oğulluğum hərbi xidmətdən sonra başqa şəhərdə yaşayırdı. Bizə maneçiliyi yox idi. Qismətdən həyat yoldaşım xərçəng xəstəliyinə tutuldu. Sağaltmaq mümkün olmadı. Onu çox sevirdim. Ayrılığına dözməyərək, içki içməyə başladım. Dostlarım məndən yavaş-yavaş üz döndərdilər. Sovet hökuməti çökdükdən sonra özüm də işsiz qaldım. Yalnız sonra təqaüdə düzəldim. Normal həyat tərzində yaşayan oğlum da nəzarətsiz qalaraq narkomaniyaya uydu. Sonra «dozirovka»da öldü. Qızım da heç münasib ər seçə bilmədi.. Hazırda bu yaxınlıqda yaşayırlar. İki qızı var. Tez-tez mənə baş çəkirlər və ya mən onlara gedirəm. Bu yaxınlarda həyət-bacanı süpürən ər-arvadı qızım mənimlə tanış etdi: dedi: Sənə qulluq edərlər, otaqlarından birini onlara ver, onsuz da sən tək yaşayırsan. Razılaşdım. Sonra ögey oğlum arvadından boşanaraq bu şəhərə gəlib mənim yanımda qeydiyyata düşdü. İndi onun da əmlak iddiası var. Ona görə də Zaur məni başa saldı ki, evi qızımın adına keçirim. Elə də onun köməyi ilə evi

qızımın adına keçirdim. Otağın birini də Zaura kirayəyə verdim. Yaxşı oğlandır. Allah köməyində dursun.

Murmansk şəhərində yaşadığım müddət ərzində onun evində qaldım. Çox vaxt şəhərə də bir yerdə çıxırdıq. Yerişi ləngimişdi, piyada gəzməyə çətinlik çəkirdi.

Telefon vasitəsi ilə bütün əmisi uşaqları ilə danışdırdım. O qədər sevindi ki, elə bil dünyaya təzə gəlmişdi. Kövrək adam idi. Telefonda ağlaya-ağlaya danışırdı. Azərbaycan dilində bir «sağ ol», «yox» sözlərindən başqa heç nə deyə bilmirdi. Dil yaddaşı demək olar ki, tamam silinmişdi.

Axşamlar olanda evində qalan rus ər-arvadla möhkəm içib yatardı. Gecə qalxıb bir «əlli də atardı. Bu onun üçün vərdiş halına çevrilmişdi. Zauru oğlu qədər sevir və onun sözündən çıxmırdı. Haqq üçünə Zaur da ona eyni münasibət bəsləyirdi.

Zaur öz Mamusta kəndindən olan həmyerlisinin restoranında kababçüı işləyirdi. Evə gələndə adətən gecə gələrdi. Özü ilə hər növdən üç-dörd şiş kabab, turşu və – tərəvəz gətirərdi. Özü ilə şərab və araq da gətirməyi unutmazdı. Gələn kimi məni qaldırardı. Müəllim dur, bir nahar edək.

– A kişi, gecə vaxtı nə nahar.

– Dur-dur. Xahiş edirəm, dur. Mən özüm də ac gəlmişəm ki, sizinlə qismət kəsim. Bizim işimiz belədir də. Gündüz vaxt edib sizinlə otura bilmirəm. Gərək üzürlü hesab edəsiniz.

Onun bu insanlığı məni vəcdə gətirirdi.

– Sizi qınamaq olmaz. Bir yerin ki, gecəsi-gündüzüündən seçilməyə, orada nahar da, şam da qarışar bir-birinə.

– Saat olmasa, vaxtı müəyyən etmək çox çətindir. Təzə gələndə çox gecə qalxıb işə getmişəm.

– Hələ mən də çətinlik çəkirəm. Təkcə yuxum gələndə bilirəm ki, deyəsən gecədi.

Beləcə Zaurla bir həftə yalnız gecələr görüşə bilirdim.

## MURMANSK ŞƏHƏRİNDƏ ÜÇ GÜN KEÇDİKDƏN SONRA

01.07.2016-cı il tarixdə günəşli hava idi. Hər tərəf bahar qoxusu verirdi. Murmansk şəhərinin hər tərəfi təpəliklər, bir tərəfi isə «zalov» dəniz təşkil edirdi. Əslinə qalsa, şəhər dağ ətəyi hündürlüklərdən dənizə tərəf uzanırdı. Ərazini əhatə etməsə də, görünüşcə xoşagələn idi.

Artıq üç gün idi burada idim. Hələ qeydiyyata düşə bilməmişdim. Bu gün Hümbət Şahqulu oğlu ilə birlikdə Lomonosov küçəsində yerləşən qeydiyyat şöbəsinə yollandıq. Getdiyimiz kənd yollarına bənzəyən cığır idi, kəsə olsun deyə, binanın arxa tərəfindən meşənin ətəyi ilə gedib təkrar binaların arasına düşdük. Cığırın ətrafları baldırğan özəkləri ilə dolu idi. Bizim dağ kəndlərində bitən baldırğana bənzəyirdi.

Biz qeydiyyat şöbəsinə daxil olanda iş saatı təzəcə başlamışdı. Bizdən əvvəl 3-4 adam var idi. Anketləri doldurub, növbəmizi gözlədik.

Qəbul zamanı bizi dolu bədənli, xoşsifət bir qadın qəbul etdi. O gülümsəyərək, yarızarafat, yarıciddi kağızları əlinə alıb dedi: Alıyev, sən bütün yerlilərini qeydiyyata almaqla axırda «obşejitel» düzəldəcəksən, nədir?

– Doçenka eto moy rodnoy zemlyak – Bir rayondan, bir kənddənik, amma o birilərlə eyni vətəndənik. Fərq olmalıdır, ya yox.

– Mən Bakıda keçirilən «Avropa oyunlarına əvvəldən axıradək televiziyadan tamaşa etmişəm. Mənə o qədər xoş gəlib ki, sizin işinizi o hesaba yola verəcəyəm. «Radnoy zemlyakını» qeydiyyata alacağıq. Bir halda ki, sizi axtarıb bu şəhərə gəlib qeydiyyata salmasam, ayıb olar. Mənə: – Bu Qumbatdan muğayat olun. Bizimkilərlə elə alüdə olub ki, Vətən də yadından çıxıb, həm də bizim xarakteri götürüb. Bizim kişilər kimi çox içir.

– Elə ona görə də öz doğma ana dilini də yadından çıxarıb. Mənimlə ana dilimizdə bir kəlmə də danışa bilmir.

– Həyatda hər şey olur. Amma doğma dili unutmaq ağlabatan olmasa da, təəssüf edirəm. Bəs özünüz nə ilə məşğul olursunuz?

– Yazıçıyam.

– Siz nə danışırsınız. Nə yaxşı, nə yaxşı, Qumbat Alıyev, sizin ki, belə doğmanız var, nə üçün burada batıb qalmısınız?

– Sizə olan sevgim məni bura elə bağlayıb ki, burdan çıxıb bir yana gedə bilməmişəm.

– Eləmi, bizi buraxıb gedərdin-o əlini boğazına uzatdı, bunu buraxıb gedə bilməmisən.

– O hər yerdə tapılar-deyə, Hümbət zarafat etdi, icazə verirsinizmi, biz gedək?

– Buyurun, buyurun. Mən sizinlə tanışlığıma həqiqətən şadam.

Biz köhnə tanışlar kimi əl tutub ayrıldıq.

Pasport qeydiyyatı şöbəsindən çıxıb Bazaya yollandım. Bu gün Zakir Siyəzənli ilə görüşməli idik. Görüş yerimiz Bazanın yaxınlığındakı dayanacaq idi. Vədələşdiyimiz zamandan xeyli vaxt keçirdi. Amma Zakir gözə dəymirdi. O bu qədər gecikə bilməzdi. Görəsən nə baş verib-deyə fikrimdən keçirirdim. Demə o bir dayanacaq əvvəl düşüb orada məni gözləyirmiş. Gəlmədiyimizi düşünərək, dilxor halda Bazaya tərəf irəliləyir. Birdən mənim növbəti dayanacaqda dayandığımı görəndə eyni açıldı. Sanki üzündəki bulud yavaş-yavaş ayazımağa başladı.

– Burada çoxdan dayanmısan.

– Bir saat olar.

– Mən də o biri dayanacaqda düşüb orada gözləyirdim.

– Yanlış da bir naxışdır deyiblər. Deməli, gec olsun, yaxşı olsun məsəli də düz deyilib.

– Neçə gündü gəlmişik?

– Dörd gün.

– Nə qədər adamla görüşə bilmisən?

– Beş nəfərlə.

– Cəmiyyətdən maraqlanan oldumu.

– Xeyir.

– Görürsən, bax budur laqeydlik. Hərə öz başının və cibinin hayındadır. Nə mədəniyyət qalıb, nə insaf. Kimə lazımdır, kim hardan gəldi, hara getdi.

Zakirlə bir yerdə söhbətləşə-söhbətləşə Hümbətin evinə gəldik.

– Görüm harada qalırsan. Sənin həmkəndlin necə adamdır, – deyə maraqlanırdı.

Hümbət bizi gülərüzlə qarşıladı. Hər iki həmmüsahibimə diqqət yetirdim. Zakir Hümbətdən 3 yaş böyük olmağına baxmayaraq, çox cavan görünürdü. Hümbətin üzü yüz yaşındakı kişinin üzü kimi qırışmışdı. Beli bükülən kimi idi. Saçı tamam tökülmüş, dişlər seyrəlmişdi. Zarafatcıl olan Zakir nə qədər çalışırdısa, onu güldürə bilmirdi. Evində azərbaycanlıların doğma dildə danışmaları onu vəcdə gətirmişdi.

– Heç ağlıma gətirə bilməzdim ki, haçansa mənim evimdə də Azərbaycan dilində, özü də həmkəndlilərim söhbət edəcəklər, – deyirdi.

– Hələ nə yaşın var ki, hələ indən belə özün də Azərbaycan dilində danışmaq öyrənəcəksən. İnşallah o dünyada Hinkir-Minkirlə öz dilimizdə danışarsan. Hümbətgildən çıxdıqdan sonra Zakiri yola salaraq təkrar mənzilə qayıdıb bu qeydləri etməyə başladım.

**Zakir Siyəzənliyə**

Biz yol yoldaşıyıq, a Zakir kişi,
Bir keçən səfəri, yəni unutma.
Murmansk şəhərində səfər bitəcək,
Ayrılıb gedəndə məni unutma.

Kareliya düzündən keçən yolları,
Keçən xoş anları, xoş olayları,
Pəncərə önündən göy ormanları,
Yuyan o yağışı, çəni unutma.

Bir ömür yaşadıq üç gün içində,
Səməndər söyləyir onun üçün də:
Bir dostluq nişanı qaldı içimdə,
Unutmaz xəyalım, səni unutma.
*28.06.2015, Moskva-Murmansk*

## Sadiq Məhəmmədəli oğlu Salmanov



Murmansk şəhərinə gəldiyim ilk gün Afil müəllimlə görüşdüyüm zaman bildirdi ki, burada sizin bir yerliniz var. Çox gözəl oğlandır. Öz həmyerlilərinə qarşı mülayim və istiqanlıdır. Gəlişinizdən xəbər tutsa, mütləq sizinlə görüşməyə razılıq verər. Sonra telefonu əlinə alaraq, əlavə etdi. İstəyirsiz nömrəsini verim zəng edin.

– Mən hələ yerli nömrə götürməmişəm, – deyə təəssüflə başımı buladım.

– Qorxusu yoxdur, bizdə təzə işlənməmiş nömrələr verirlər- deyə seyfə yaxınlaşaraq oradan kart çıxarıb, içərisindən telə-2 telefon kartını götürüb mənim telefonuma saldı.

– Hə, indi mənə zəng elə görüm.

Onun diktəsi ilə nömrələrini yığıb «yes» düyməsini basdım. Telefonu zəng çaldı. Hə, düşdü, mən də yaddaşa salıram, nə zaman istəsən mənə zəng edib durumunuzu bildirərsiniz. İndi

Sadiqin nömrəsini yığın. – Yığdım.

– Hələ bir qoy özüm zəng edim, görüm haradadır. Fikrimcə şəhərdə olmamalıdır. – Telefondan səs eşidildi. – Alo. Salam əleyküm. Haralardasan? Soçidə? Xoş istirahət arzulayıram.

– Hə, bir yerliniz gəlib. Hümbəti axtarır.

Mən əks tərəfin sözlərini eşitməsəm də, Afil bəyin danışdığından hər şey anlaşılırdı.

Afil bəy telefonu mənə uzatdı. Alın, özü ilə danışın.- mənə, Sadiqdir. Soçidə dincəlir.

Mən-Alo. Xoş səslərinizi eşidək, eloğlu!

– Sağ olun. Haçan gəlmisiniz?

– Bu gün.

– Tovuzun hansı kəndindənsiniz?

– Şamlıq Sovetliyinin Yanıxpəyə kəndindən, hazırda Qovlar qəsəbəsində yaşayıram.

– Onda lap biz yerliyik ki. Mən də Şamlıqdanam.

Biz telefonda xeyli danışıb, ətraflı tanış olduqdan sonra:

Sadiq:

– Neçə gün olacaqsınız Murmanskda?

– Hələ buradayam.

– Mən 9 gün burada olacağam. Əgər mən gələnə orada qalsanız görüşərik.

Bununla da telefon vasitəsiylə onunla tanış olmuşdum. Əyani tanışlıqsa sonra oldu.

Mən Hümbət Şahqulu oğlu ilə söhbət zamanı bunu xatırladıqda o dedi:

– Mən onun iş yerini tanıyıram. Amma, onunla heç vaxt yaxın təmasda olmamışam. Yaxşı insan söyləyirlər.

Bir gün şəhəri gəzməyə çıxarkən o yaşayış binasının alt mərtəbəsində yerləşən ərzaq mağazasını mənə göstərərək, bildirdi ki, həmin mağaza Sadiqin mağazasıdır. İkinci mərtəbədə isə gözəllik salonu yerləşir. Şəhərdə onun bir neçə tanınmış «gözəllik salonu» var. Tanınmış azərbaycanlı sayılır.

Aradan bir neçə gün keçdikdən sonra, biz həmin mağazaya gedib satıcıdan mağaza sahibini soruşduqda:

– Hələ gəlmədiyini söyləmişdi. Növbəti günlərin birində təkrar mağazaya daxil olub satıcı qadına salam verdim. O, salamımı alıb, gülümsəyərək bildirdi ki, Sadiq gəlib mağazada-kabinetindədir.

– Bu dəqiqə çağıraram, gözləyin.

– Təşəkkür edirəm.

İki dəqiqə keçməmiş arxa otaqdan orta yaşlı, hündürboylu ağbəniz bir adam çıxdı. O gülümsəyərək məni süzərək:

– Məni axtaran siz imişsiniz?

– Hə, iki dəfə gəlmişdik.

– Azərbaycandan gələn sizsinizmi?

– Bəli.

O, piştaxta arxasından keçib, mənə əl uzatdı:

– Xoş gəlmisiniz!

– Xoş gününüz, xoş amalınız olsun!

– Keçin içəri, – deyərək, o, məni mağazanın içərisindən keçirib, işıqlı kabinetinə daxil olduq. Hər tərəf səliqə-səhmanlı idi. Yazı masası üzərində yalnız bir neçə qayimə var idi. Bir tərəfdə ayrı bir iş masası arxasında əyləşmiş mühasib bilgisayarla işləyirdi. Salam verdim.

– Dobro pajalovat, – deyib mənə nəzər salıb, gülümsədi və təkrar işləməyə davam etdi.

– Sadiq, söylə görək rayonda vəziyyət necədi? Camaat necə dolanır?

O sual verir, mən isə cavablandırırdım. Hər ikimiz eyni sovetlikdə ayrı-ayrı yaxın kəndlərdən idik. Xeyli sayda ortaq tanışlarımız müəyyənləşdi.

– Belə-belə işlər, yerli. Az qala qohum çıxacaqdıq. Bəlkə hələ dərinə getsək, qohumluq əlaqələrimiz də aşkarlanacaq, – deyə, masaya çay və şirniyyat gətizdirdi. Xoş davranışı, şirin söhbətliliyi ilk andan qəlbimə yatmışdı.

– Şirin söhbətimizi şirin təamlarla daha da şirinləşdirək- söhbətinə davam etdi. Həqiqətən gəlişinizdən məmnun oldum.

– Şirin münasibətlə yüksək qonaqpərvərlik əhval-ruhiyyəsinə görə çox sağ olun. Bu qərib ölkədə belə xoş münasibət qohumluqdan da, qonşuluqdan da üstündür. Çünki, burada onların heç biri yoxdur, amma siz varsınız. Həmişə canınız sağ, başınız uca olsun. Siz olan yerdə darıxmağa, qəribsəməyə yer qalmır.

– Qələm adamları qəribsəməkdən qorxmurlar, axı. Çünki qələm-dəftərləri həmişə yanlarında olur.

– Elədir, qələm də insandan, insanlıqdan güc alır.

Elinə, yurduna yanmayan bir kəs,
Tutaq ki, sultandı, xandı, nə fayda.

Rasim Kərimli rəhmətliyin sözüdür «Qaranlıq gecədə yanmayan çıraq, günəşli günlərdə yandı, nə fayda».

Qürbətdə yaşayan iş adamları, ziyalılarımız millətin adını ucaltmaqla yanaşı, gör nə qədər qohum-əqrəbaya, dosta-tanışa imkan yaradırlar. Ölkəmizin çiçəklənməsinə şərait yaradırlar.

– Ay müəllim, ola bilməzdimi Vətən bizə orada şərait yaradaydı, biz də burada elədiklərimizi elə orada qurub-yaradaydıq. Atam rəhmətlik deyərdi: «Bu evin işığı o biri evə düşmür». Düzdü, vaxtilə Rusiya, biz də daxil olmaqla, böyük imperiya idi. İndi, hərə öz evinin ağasıdır. Evin adamları dağılıb gedirsə, ora nə ağalıq lazım olur, nə nökərlik. Nökərə şərait lazımdır ki, ağaya qulluq etsin. Azərbayanda aşağı təbəqə çıxıb iş dalınca dünyaya səpələnir. Belə getsə vəziyyət çox ağır nəticələnə bilər.

– Qab öz həcmində su götürür, artığı istər-istəməz daşır. Cəmiyyət də belədir, lazım olan iş yerləri tutulursa, işləməyə yer qalmırsa, güc çatılan şərait harada varsa oraya axın çoxalır. Rusiya çox böyük ölkədir. Nə əvvəli bilinir, nə axırı. Belə böyük

ərazidə iş adamına da imkanlar geniş olur. Azərbaycanda isə belə imkan yoxdur. Ona görə də umu-küsüyə dəyməz.

– Bu qürbətdə yaşayan azərbaycanlılarda Vətən sevgisi də, vətəpərvərlik də orada yaşayanlardan güclüdür…Hər bir iş adamı burada əldə etdiyi kapitalı öz doğmalarına göndərir. Vətənə sərf edir. Vətənin sərvətini paymal edənlər isə müxtəlif ölkələrə yatırım qoyurlar. Ölkədən milyardlarla pul çıxır, hara gedir, məlum olmur. Nə də bilə-bilə dövlət rəhbəri bunu araşdırmaq istəmir. Belə olmasaydı karrupsiyaya yol verilməsəydi, hamımız orada da iş tapıb, yaşaya bilərdik. Nə isə… Gəl keçək əsas məsələyə. Burada neçə gün qalacaqsan?

– Hələ müəyyən edə bilməmişəm şəhərdə müəyyən iş adamları ilə hələ görüşə bilməmişəm.

– Afil bəylə görüşdükdə o nə dedi? Yalnız sizi onlarla o görüşdürə bilər. Bu onun səlahiyyəti daxilindədir. Siz qələm adamısınız. O da cəmiyyətin sədridir. Gərək sizi o təqdim edəydi.

– Afil bəy dedi: «Mən heç kəsə bu barədə söz deyə bilmərəm. Özünüz kimlə bacarırsınız görüşün.

– Yaxşı, kiminlə görüşə bilmisiz.

– Heç kəslə.

– Bu belə olmamalı idi. Yaxşı, dur gedək səni bir-iki nəfərlə tanış edərəm, öz münasib bildiyim adamlardır.

Biz maşına minib, topdansatış ticarət mərkəzinə yollandıq. Şəhərin əks istiqamətində yerləşirdi. Çox mənzərəli əhatəsi var idi. Körfəz adamın ayaqları altında görünürdü. Maşından düşüb «sklada» daxil olduq. Satıcılar da onların sahibləri də azərbaycanlılar idi. Hamısı Sadiqlə əl verib, görüşür, hal-əhval tuturdular. Elə bil çoxdan idi ki, bir-birlərinin üzlərini görməmişdilər. Bu ondan xəbər verirdi ki, ya bu adamların bəziləri ona layiq müştəri gözləri ilə baxır, onu özlərinə tərəf çəkmək üçün dil –dabana qoydular, ya da ki, əsil sidq ürəkadən bir həmvətənli xoş münasibəti göstərirdilər. Hər iki halda

Sadiqin istiqanlığının və mehribançılığının təzahürü idi. O, hamı ilə hərarətlə görüşüb, məni də təqdim edirdi:

– Yerlimdir, qürbətdə olan iş adamları barədə kitab yazır. İndi bizi yad edib bu şəhərə gəlib. Mənim qonağımdır, kimin ürəyindən keçsə yazdıra bilər. Bu da bir xatirədir də, niyə də olmasın.

Bəzən mən aralıda durduğumdan söhbətin nəticəsini bilmirdim. Yalnız o aydın olurdu ki, kitab-dəftərlə maraq çoxdan alver torbalarına qoyulub bir tərəfə atılmışdı. Heç kəsi maraqlandırmırdı.

Sadiq xeyli ərzaq, mer-meyvə alıb maşına qoyduq təkrar hamı ilə əl tutaraq, görüşdükdən sonra maşına minməmişdən öncə telefonla 2-3 nəfər adama zəng edərək, qonağı olduğunu söyləyib, onları da evinə dəvət etdi.

Sadiqin evinə gəldik. Həyat yoldaşı və uşaqları Azərbaycana göndərilmişdi. Yalnız böyük oğlu Samir yanında idi. Onu da özünə kömək üçün saxlamışdı. Özü olmayanda işlərə oğlu nəzarət edirdi. Atası kimi istiqanlı və yaraşıqlı idi. Bacarıq və qabiliyyəti barədə əlavə söhbətə ehtiyac qalmadı. Atasının ürəyincə olan ağıllı bala idi. Biz evə gəlincə o əynini geyinib, bizimlə xudahafizləşib işə yollandı:

Sadiq:

– Allah hamının övladını xoşbəxt eləsin, hamı övlad üçün çalışır. Gördüyün bu mənzilə mən təzə köçmüşəm. Otaq yüksək zövq ilə yeni dəbdə təmir olunmuşdu. Otaqlardan bəzilərinin arası açılaraq genişləndirilmişdi. Beş otaqlı mənzil və eyvan bir salondan üç otaq edilmişdi. - Əvvəlki evimi oğluma vermişəm, o da eynilə belə idi. İndi qalır bir oğlumun evlənib gəlin gətirməsinə.

– Allah qoysa, o da tezliklə olar yəqinki? Hər şeyin bir vaxtı var.

– Görək də. O baxır onun fərasətinə. Görək bir halal süd əmmiş tapa bilirikmi.

Biz söhbət edə-edə Sadiq süfrə açırdı. Mən kömək etmək

istədikdə:

– Əyləşin, onsuz da hər şey hazırdı.

Bir qalır süfrəyə düzməyə, onu da özüm edəcəyəm –deyə mane oldu. Ev işlərində səriştəm olmasa da, stol açmaq məsələsinə bir az həvəskaram. Bu vaxt qapının zəngi çalındı və iki nəfər içəri daxil oldu. Sadiqlə qucaqlaşıb görüşdükdən sonra, mənimlə də əl tutub salamlaşdılar. Möhbalı…-Bayraməli mənim bu şəhərdə ən yaxın durub-oturduğum dostlardır, – deyə Sadiq onları təqdim etdikdən sonra əlini mənə işarə edərək, şair bizim eloğlumuzdur. Kitab yazır, bir çox kitabları var. İndi bu şəhərə gəlib, kimin ürəyi istəsə kitaba düşə bilər. Çox adam belə işlərə soyuq münasibət göstərir. Əslinə qalsa, böyük dəyəri var. İnsan həyatda daimi deyil. Hər kəs başa düşməlidir ki, tarixi tarix edən baş verən zamanı hadisələr deyil. O hadisələrin qələmə alınmasıdır. Qələmə alınmayan hadisə, ya unudulur, ya təhrif olunur.

Bayraməli:

– İndi deyirsən biz də tarixə düşək?



*Sadiqin anası və həyat yoldaşı*



*Sadiq oğlu və qızı ilə*

Möhbalı:

– İmkan varsa niyə də olmasın. Müvəqqəti həyatdı da. Heç olmasa bir zaman gələcək burada keçirdiyimiz günlərin özü xatirəyə çevriləcək. Bu xatirələr yazılmasa, elə xatirə olaraq da silinib gedəcək. Yazdırmaq lazımdır. Amma qardaş, bizdən nə yazacaq ki?!.

Sadiq:

– Elə bir-iki kəlmə, nə yazılsa elə o da qalacaq. – Mənə: – Yaz, qardaş, qələminə qüvvət yaz. Yaz ki, Murmansk şəhərində üç müştəküyor var idi. Əllərindən qürbət, həsrət zar idi. Başlayanda döyüşməyə qədəhlər, cingiltisi bu aləmə car idi.

Sadiq:

– Bayraməli, sən özün şairimişsən ki. Bu sözlərdən sonra elə biləcəklər ki, vurmağın xəstəsiyik.

Möhbalı:

– Bilən bilir ki, biz kimik, bilməyənlərin nəyi necə bilməsinin bizə nə dəxli. Yüz-yüz olmasa, burada dözmək olar? Gətir görək nəyin var?

Bayraməli mənə:

– Mən bu şəhərə gələcək gündək Sadiqlə qardaş kimi olmuşuq. Sonra da Möhbalı ilə tanış olub, dostlaşdıq. Çətin günlərimiz də, şad günlərimiz də bir yerdə keçib:

Bir dostluq yaşadı hey aralıqda,
Həsrətə, hicrana göz saxlamışdıq.
Alışıb yansaq da qürbət odunda,
Sabah yandırmağa köz saxlamışdıq.

Bilmədik dostluqda paxılılq nədir,
Döyüb məhv elədik qorxaqlığı da.
Hərdən yada düşüb ürək göynədir,
O keçən günləri xatırlayanda.

Açarı qəlbdədi hər ötən günün,
Bəzən qıfıllar da paslanıb qalır.
Yaddaşda saxlanan bağın, düyünün,
Dostu görən kimi bağı açılır.

Dostluq bir güllü baxçaya bənzər,
Ətri məst eylər xoş könülləri.
Dursan qulluğunda hər axşam-səhər,
Özünə cəlb eylər gül sevənləri.

Hər zaman solmadan ətirli qalar,
Sevməz xainliyi bədniyyətliyi.
Dostluq bağçasına ayaq basanlar,
Gərək tapdamaya bu gözəlliyi.

Xatirələr dağ çayı kimi axıb gedirdi. Dostlar öz ömür yollarından danışdıqca vaxt şam kimi bu xatirə alovunda əriyib gedirdi. Axşamın necə gəldiyindən xəbərimiz də olmadı. Onsuz da Murmansk diyarında zaman göstəricisi yalnız saat idi. Heç ən həssas xoruz belə axşamın düşməsindən, sübhün açılmasından xəbər tuta bilməzdi. Ona görə burada xoruzların banlaması öz keflərinə idi. Bilirdilər ki, insanlar onsuz da onlara fikir verən deyil… Banlayan, titrəyən telefonlar, qışqıran saatlar o qədərdi ki, heç xoruzlara ehtiyac qalmır.

Bayraməli saata baxaraq:

– Sabah yığışarıq, artıq gecdir, iş yerinə dəymək lazımdır.

Möhbalı:

– A-a-a, mən də mağazanı bağlamalıyam. İndi satıcı məni gözləyir, yenə cin atına minəcək, kassa təhvil alınmalıdır. Sağ olun, biz gedək, – onlar ayağa qalxıb gödəkçələrini, geyinib

qapıya yönəldilər. – Sabah harada görüşürük?

Sadiq:

– Hara məsləhətdirsə orada.

Mehbalı:

– Oldu, zəngləşərik.

Onlar gedəndən sonra süfrəni yığışdırıb başladıq yenidən söhbətə.

Sadiq Məhəmmədəli oğlu Salmanov 02.07.1965-ci ildə Tovuz rayonunun Şamlıq sovetliyinin Şamlıq kəndində sadə kolxozçu ailəsində anadan olmuşdur. Şamlıq sovetliyi bir neçə kəndi özündə birləşdirirdi.

Şamlıq, Qəribli, Böyük və Bala, Şamlıq Törpüllər, Yanıxpəyə, Lazılar, Ağbaşlar, Almalıtala, Hətəmalılar, Canqurtaran və s.

Sadiq Bala Şamlıq kəndində doğulmuşdu. Kəndləri Qovlar, Saratovka yolunun 25-30 km. məsafəsində –Zəyəm çayının sol sahilində Böyük Şamlıq, Qəribli kənd orta məktəbinin yanından sağda dağ yamacında yerləşir. Hər tərəf meşəliklərlə əhatə olunmuşdur. Diş göynədən bulaqları, təmiz havası var. Meşədə fısdıq, zoğal, əzgil, alça ağacları çoxluq təşkil edir. Əhalinin əksər hissəsi heyvnadarlıqla məşğul olur. Sadiqin uşaqlıq illəri də məhs bu kənddə zəhmətkeş ailədə keçmişdir.

Anası Məhluqə Abbas qızı 7 uşaq dünyaya gətirərək, böyüdüb boya-başa gətirmişdi. Beş qardaş, 2 bacı. Çox təəssüf ki, ailənin ikinci oğlu Ələddin Məhəmmədəli oğlu 2013-cü ildə yetkin yaşlarında beyin xərçəngi xəstəliyindən vəfat edərək ailənin ağ günlərinə unudulmaz qara zolaq qatmışdır.

Şamlıq kəndi ucqar dağ kəndi olmasına baxmayaraq, burada elmə, təhsilə çox böyük həvəs olmuşdur. Məktəbləri 8 illik natamam orta məktəbi olduğundan şagirdlər təhsillərini ya Qəribli kənd orta məktəbində, ya da əlaqələri olan adamlar rayon mərkəzində davam etdirirdilər. Sadiqin saz çalıb oxumağa böyük həvəsi olduğundan atası onu həm aşıq sənətinin mərkəzi, həm də müasir tələblərə cavab verən məktəbi olan Bozalqanlı

kəndinə aparır ki, həm sənəti mənimsəsin, həm də təhsilini savadlı, peşəkar müəllimlərin nəzarəti altında davam etdirsin.

O həm tanınmış aşıqların təsiri altında saz sənətinə dərindən bələd olur, həm də yaxşı oxuyurdu. Məktəbin fəal şagirdlərindən sayılırdı. 1982-ci ildə təhsilini başa vuraraq, işlərini ali məktəbə verir. Kimyanı sosialist əməyi qəhrəmanı, tanınmış alim, müəllim Məhər Quliyevdən aldığına görə kimya-biologiyadan yüksək qiymət alsa da, dördüncü imtahandan 3 alaraq, konqursa düşür. Bu haqsızlıqdan sarsılaraq, ərizə ilə hərbi komissarlığa müraciət edərək, 1983-cü ildə hərbi xidmətə yollanır, 1985-ci ilədək Ukraynanın Vinetsa şəhərində xidmət edir. Xidmət illərində də arzusu yalnız ali təhsil almaq olduğuna görə dərs kitablarından aralanır. Mütəmadi olaraq, mütaliə edərdi. Xidməti başa vurduqdan sonra, Bakıda Neft-Qaz istehsalı idarəsində işə düzəlir. Lakin bu iş onun maddi tələbatına cavab vermədiyinə görə, bir il sonra işdən azad olaraq, dostu Bayraməli Qurbanovla birlikdə Murmansk şəhərinə yola düşürlər. Bakıda başlayan gənclik dotsluğu bu gün də davam edir. Dostlar qarşılarına qoyduqları ilk məsələ təhsillərini davam etdirmək idi. Odur ki, Murmanska çatan kimi işlərini verib texnikuma daxil olurlar.

1987-1989-cu illərdə dənizçilik fakültəsində təhsil alırlar. Sonra 2 il balıqçılıq gəmisində matros kimi çalışırlar. Görünür qismət belə imiş ki, Sovetlərin dağılması ilə əlaqədar onların ürəyincə olan bu iş yeri də dağılır və dotslar çevik hərəkət edərək, bizneslə məşğul olmağa başlayırlar.

Vəziyyətin mənfi-müsbət istiqamətində tez-tez dəyişməsinə baxmayaraq, bir an belə onun təhsilini artırmaq, ali təhsil almaq arzusu sönmədi. Çünki evdən çıxarkən valideynlərinə söz vermişdi ki, nəyin bahasına olursa olsun, ali təhsil almamış rahat olmayacağam. Biznesldə özümü doğrultduqdan sonra 1996-cı ildə Murmansk şəhərində Beynəlxalq hüquq fakültəsinə daxil oldum.

2001-ci ildə isə qiyabi olaraq təhsilimi başa vurdum. Daha

özümü həyata hazır hesab edirdim. Müstəqil həyatda qədəmlərim möhkəmlənmişdi. Artıq ailə qura bilərdim. Bu qərarla da bütün toy tədarükü hazırlayıb 1996-cı ildə Əsədova Könül Ziyad qızı ilə ailə qurduq. Özümün artıq ailəm, evim, hələ iki-üç ev alası pulum var idi. Bu zəmin üzərində də yavaş-yavaş biznesimizi artırmağa başladım. Bu zəhmətimi, əziyyətimi Allah da qiymətləndirdi. Samir və Əminə adlı iki övlad bəxş elədi. Şükür olsun Allaha, qismətimdən, taleyimdən çox razıyam. Oğlum şəhərdə tanınmış idmançıdır. Dəfələrlə vilayət, şəhər və dairə üzrə keçirilən yarışlarda qələbə qazanaraq, yüksək pillələrə qalxıb. Çempion adına layiq görülüb. Çoxlu medalları, qramotaları və təltifləri var.

Ata istər hər bir zaman övladın,
Uca olsun hörmətləri yerində.
El-obada dildən-dilə dolansın,
Namusları, qeyrətləri yerində.



*Murmansk və Rusiya çempionu Samir Sadiq oğlu*

Ya oğuldu, ya da qızdı – nə fərqi,
Biri bahar, biri yazdı – nə fərqi,
Kimə necə yazan yazdı – nə fərqi,
Təki olsun qismətləri yerində.

Naz-neməti başlarına ələnsin,
Sevinc, şadlıq bir-birinə bələnsin.
Dillənəndə durub elə dillənsin,
Dildə olsun şərbətləri yerində.

Saf, təmizdi Səməndərin arzusu,
Kəm olmasın abır-həya, üzdə su.
Bulanmasın heç bir zaman gözdə su,
Hər an olsun qismətləri yerində.

2003-cü ildə azyaşlılar arasında Rusiya çempionu olmuşdur.

Əminə də yaxşı oxumaqla yanaşı, həm də idmanın gimnastika növü ilə məşğul olur. Hər ikisi möhkəm iradəli, sakit və təmkinlidir. Bir valideyn kimi onlarla qürur duyuram və gələcək həyat yollarında Allahdan yalnız xoşbəxtlik və çalışqanlığı arzulayıram. İdman insanı həmişə möhkəm iradəli edir. Belə insanlar həyatda heç vaxt təmkinliyini itirmir. Pis vərdişlərə boyun əymirlər. Zəif iradəliyin zərbəsi bizdən də yan keçməyib. Qardaş itkisi tufanı ilə elə sarsıtdı ki, bir daha o ağrını, acını unutmaq olmaz. Ən çətin məqamlarda ürəyimi sazla ovundurmuşam. Nə yaxşı ki, saz kimi möhtəşəm bir həmdəmim var. Darıxanda ən doğma sirdaşım kimi bağrıma basıram. Ruhum sakitləşənə kimi dərdləşirik. Qürbət hisslərini tənha keçirmək mümkün deyil. Odur ki, Bayraməli, Mehbalı, Əhəd oğlu, Fəxrəddin İbad oğlu ilə bu şəhərə gələn gündən bu günə qədər dosğluq edirik. Kədərli anlarımızda da, şad günlərimizdə də baş-başa verib nə halımız varsa, onu da bölüşürük. Bütün qohum-əqraba da bizi ayrılmaz yumruq bilir.

Həyatda ən çox nifrət etdiyim şey yalançılıq və xəyanətdir.

Kişi-kişinin gözünün içinə baxa-baxa ona yalan danışmaz. Yalançılıq xəyanətin qapısıdır. Eəl ki, o qapıdan yalan keçdi gec-tez xəyanət başlayacaq qurdalanmağa. Gənclərə arzulayıram ki, həyatda mərd, sözünə düz olsunlar. Həmişə düzgün yol tutsunlar.

Murmansk şəhərində Sadiq Məhəmmədəli oğlu ilə görüşüb tanış olduqdan sonra hər gün onunla görüşürdüm. Onunla birgə şəhərin gəzməli yerlərini gəzib, dolaşır, bir yerdə nahar edirdik. Bir neçə axşam Sadiqin mənzilində qonaq qaldım.

– Bu «Düşsün» rədifli şeiri də onun mənzilində ona ithaf etdim.

**Sadiq Məhəmmədəli oğluna**

Görüm bu qürbətdə adın, eloğlu,
Yüksəlib dillərdən-dillərə düşsün.
Qovuşsun dünyaya xeyirxahlığın,
İşığı günlərdən-günlərə düşsün.

Həmişə Allahın pənahında ol,
Açılsın qarşında səadətə yol.
Xoşbəxtlik çələngi başında bol-bol
Ləçəyi aylara-illərə düşsün.

Adın da Sadiqdir sadiqsən elə
Ad qoyan düşünüb bu hikmət ilə
Hey Sadiq olasan obaya-elə,
İşığın həmişə ellərə düşsün.

Bir kəlam işlənir duzlu-məzəli,
Hikmətdən payın var olsan Qəribli.
Orda haqq gözü var hamıya bəlli,
Nəzəri bir az da bizlərə düşsün.

Həmişə şad olsun könül dünyası,
Qapatsın zülmətə kədəri yası.
Səməndər də deyl burda qalası
Sabah da güzarı göllərə düşsün.
*4.06.2015, Murmansk şəhəri*

## Möhbalı Əhəd oğlu Səfərov



Möhbalı ilə Sadiq Məhəmmədəli oğlunun mənzilində tanış olduq. Dolu bədənli, sağlam cüssəli, zarafatcıl, deyib-gülən adam idi. İlk görüşdə adama elə gəlirdi ki, o ciddi, az danışan, insana yovuşmaz adamdır. Sonra az zaman ərzində ilk təsəvvürlər tamamı ilə dəyişir. Onun zarafatları, müxtəlif səpkili lətifələri adama bütün fikri, xəyali unutdurur. Səni söhbətə elə cəlb edir ki, vaxtın necə keçdiyindən heç xəbərin də olmur.

Möhbalı ilə ilk görüşdən iki gün sonra Sadiqlə Mehbalıgilə getdik. O da ailəsini yayda Azərbaycana göndərdiyi üçün mənzilində tək idi. Buna baxmayaraq, evdə qadın səliqə-səhmanı hələ də hökm sürürdü. Elə dəhlizdən içəri ayaq basan kimi yüksək usta sənətkarlığı, təmitzkarlıq bir-biri ilə vəhdətdə hiss olunurdu.

Möhbalı: – Gərək bağışlayasınız, bir az nasaz olduğumdan özüm gələ bilmədim. Sizə zəhmət vermişəm. Yenə xoş gəlib, səfa gətirmisiniz. Həmişə qapım dost üzünə açıqdır.

Sadiq.

– Açıq olduğu üçün gəlmişik, yoxsa içəridə nə işimiz var idi. Elə çöldən qayıdıb gedərdik, – deyə zarafatla cavab verdi: – Biz

yalnız açıq qapıdan giririk. Sənin qapın dakı onsuz da qəlbin kimi həmişə açıqdır.

Mehbalı:

– Qıfıl almağa ərinirəm, ona görədi. Birdən elə bilərsiz xəsislik edirəm.

Sadiq:

– Yox, pulunu zay eləmə, qıfıl dost üçündür deyiblər. Dost qapını bağlı görüb çıxıb gedər. Düşmən isə sındırıb aynadan girər. Sən də həmişə evdə olduğundan qıfıla ehtiyac qalmır. Ortalığa xəfif bir gülüş qondu. Sadiq mənə gecə-gündüzü bilinməyən bu şəhərdə darıxmamaq üçün səmimiyyət və mehribançılıq işığının dövrəsinə yığıldıq. Bir balaca boş vaxt tapan kimi toplaşırdıq ailəliklə bir yerə. Açırdıq sandığı, tökürdük pambığı. Kimin nə fikri, nə planı, nə dərdi var idisə boşaldırdı ürəyini. Sevinc dərd-qəm ortağı idik. Bura gələn ilk gündən bizi burada saxlayan da, buraya bağlayan da bu səmimiyyət, bu ünsiyyət olub. Biz də bir şey olanda yığılıb getmişik Astaraya. Sadiqgildə nə olubsa getmişik Tovuza, ya Bayraməligilə. Çox təəssüf ki Bayraməlinin valideynləri doğma yurd-yuvalarından didərgin salındılar. Onların Ermənistandan qovulması xəbərini aldıqda biz burada hönkür-hönkür uşaq kimi ağlamışıq. Hər kəsin bir alın yazısı var. Görünür bizim alnımıza da Murmansk şəhərində qalıb qocalmaq yazılıbmış.

Sadiq:

– Ə, hələ qocalıqdan bəhs edib ürəyimizi qorxutma, qocalmaq zad nədi? Qocalan kimi üstünə qoyuruq, Vətən xaraşo.

– Nə qədər cavansan bura xaraşo, – o durub çay tədarükü görmək istədikdə Sadiq ondan əvvəl qalxaraq, – Çayı süzərəm özüm, xaraşo, – deyib mətbəxə yollandı. – Sənin onsuz da evdarlıqda səriştən yoxdu.

Mehbalı:

– Düz deyir, vallah, bir yumurtanı da bişirməyə Sadiqi çağırıram. Çünki o da nərdtaxta oynamağı bacarmır. Həmişə mənə uduzur, uduzan neyləməlidi? Çay-çörək hazırlamalıdı.

Sadiq çayları masaya qoyaraq:

– Çay hazır, çörək bizlik döy.

– Niyə orucluq ayı, zaddır?

– Yox nahar edib gəlmişik.

– Afərin. Sizin kimi qonaqdan kim inciyər ki…

Dostların səmimiyyəti qəlbimi fərəhləndirirdi. Bu hisslərlə ondan xahiş etdim ki, özü barədə məlumat versin. Onu oxucularımıza da yaxından tanış edək.

Möhbalı Əhəd oğlu Səfərov 4 noyabr 1957-ci ildə Astara rayonunun Telman kəndində kolxozçu ailəsində anadan olub. 1990-cı ildə Telman məktəbində 8-ci sinfi bitirərək 23 saylı texniki-peşə məktəbinin heykəltaraşlıq fakültəsinə daxil olaraq, təhsilini fəhlə-gənclər məktəbində davam etdirir. 1975-ci ildə məktəbi bitirir. 1976-78-ci illərdə Penza vilayətinin Kuznetsk şəhərində hərbi xidmətdə olur. Xidmət müddəti başa çatdırdıqdan sonra Vətənə dönməyərək, Kuznetsk şəhərində qalaraq tikinti idarəsində çalışır.



*Möhbalı ailəsi ilə*



*Möhbalı Əhəd oğlu, Sadiq Məhəmmədəli oğlu dostları ilə*

Möhbalı:

– Rusiyada qalmağımın səbəbi var idi. Ailədə 7 qardaş, 3 bacı idik. Ailəyə kömək lazım idi. Bacılarıma, qardaşlarıma böyük qardaş kimi kömək mənim üzərimə düşürdü. Atam bu ağırlığın öhdəsindən gələ bilməzdi. Bacılarımı köçürüb, qardaşlarımı yerləşdirməliydim. Onsuz da həmişə ağırlıq böyük qardaşların üzərinə düşür. Sonra ailəmizə ağır itki üz verir. Qaraşlarımdan Məqribulla, sonra isə Əfqan rəhmətə getdilər. Ailənin nizamı pozuldu. Aydın səmaya qara bulud çökdü. Bu elə bir itkidir ki, ömrü boyu yaddan çıxarıla bilməz. Mən on il Kuznetskdə işlədim. Evdən acıq edib çıxmışdım. Bu müddət ərzində heç kəsin məndən xəbəri olmadı. Sonra bu şəhərə qardaşlarım Əlövsət və Əbülfətin yanına gəldim. Onlar da gəlib burada çalışırdılar. Onsuz da dolanışıq xatirinə imkan tapıb ölkədən çıxa bilənlərin hərəsi dünyanın müxtəlif yerlərinə səpələniblər.

1996-cı ildə Kamilə Alış qızı ilə ailə qurduq. Qonşumuzun qızı idi. Rusiyada yaşayan adam elə ha döy Azəraycanda qız



*Elnur Möhbalı oğlu qələbə ərəfəsində*




*Elnur Möhbalı oğlu Rusiyada güləş üzrə çempion kürsüsündə*



axtarışına çıxsaydı evdə məşvərət-məsləhət edib razılığa gəliblərmiş. Mənim qərarımdan sonra hə şey reallaşdı. Şükür olsun Allahın qismətinə. Elnur və Səbinə adlı iki övladımız var.

1994-cü ildə qardaşım Əlövsətlə bərabər biznesə başladıq. Uğurlarımız pis alınmadı. 1996-cı ildə böyük mağaza açdıq. Mağazanın adını da qızımızın adı ilə "Səbinə" qoyduq. Şükür Allahın böyüklüyünə dolanışığımız pis deyil. Hər il ailə–uşağı göndəririk Vətənə, yay istirahətinə. Burada günəş şüası çox zəifdir. İki-üç gün alababat isti ola, ya olmaya.

Həyatda əmin-amanlığa, dostluğa, mehribançılığa üstünlük verirəm. Qoy Allah bu səmimiyyəti bizim aramızdan əskik etməsin. Ən böyük arzum da odur ki, övladlarımız da xoşbəxt böyüsünlər. Ağrıdan-acıdan uzaq olsunlar. Heç zaman həyatın acı rüzgarına tuş gəlməsinlər. Amin!

Buludlar almasın göylər üzünü,
Günəş olsun, ulduz olsun, ay olsun.
Yox olsun aradan qara qovğalar,
Tanrıdan bir sevinc bizə pay olsun.

Görməsin gözümüz şaxta, boranı,
Gözdə intizarı, qəlbdə yaranı.
Yox olsun həyatda görüm hicranı,

Açılsın qapısı taybatay olsun.
Xoşbəxt olsun seviləni, sevəni,
Min bir olsun yerə düşən bir dəni.
Sağlam eşqi, ruhu, cismi, bədəni,
Ömrü boyu bir-birinə tən olsun.

Qoy Tanrının varsa yaxşı hər nəyi,
Xoş nəzəri, xoş ülfəti, istəyi,
Ən əsası, o Allahın köməyi,
Qismətinə bəxşiş olsun, pay olsun.

Bunlar varsa bu dünyada nə dərdim?
Dost-tanışı dörd yanıma düzəldim,
Ay Səməndər, buz sularda üzərdim,
Təki qəlbdə bahar olsun, yay olsun.

**Bayraməli Qurban oğlu Abbasov**



Bayırda dumanlı, çiskinli bir az da soyuq hava idi. Hələ yayın orta ayı olmasına baxmayaraq, hamı isti gödəkçədə hərlənirdi. Adətən Murmansk şəhərinə xas bu hava şəraitinə yalnız yeni gələn qonaqlar uyuşmaqda çətinlik çəkirlər, yerli sakinlər üçünsə bu o qədər də əhəmiyyət kəsb etmirdi. Göylər bəzi şovinist insanlar kimi tez dolub, boşalsa da heç kəs ona məhəl qoymurdu. Elə mənim müsahiblərim də soyuq havada isti münasibətlə bir süfrə arxasında əyləşərək deyib-gülüb şənlənirdilər.

Sadiq:

– Mənim bu şəhərə gəlməyimin əsas səbəbkarı bax bu Bayraməli olub.

Bayraməli:

– Mən səni gətirmişəm, sən də məni. Deməli, hər ikimiz səbəbkarıq. Ona görə də bu günə qədər bir yerdəyik. Təklif edirəm ki, ötən günlərin xatirinə bir «əlli» gedək. Biz buraya gəlməsəydik Murmansk şəhərini kim şərəfləndirəcəkdi?

Möhbalı:

– Almanlar bu şəhəri istila edə bilmədi. Çünki onlar topla-tüfənglə getmişdilər. Topla-tüfənglə də qovuldular. Biz isə dost məhəbbəti ilə gəlmişdik. Sevgi ilə fəth elədik bu şəhəri. Ona görə də öz məhəbbətimizin əsiri olmuşuq burada.

– Deyirəm axı bu Möhbalı niyə qocalmır.

– Qocalar evdə olar, bura qoca yeridir?

Məclis belə zarafatlarla davam edirdi.

Bayraməli ilə dərindən tanışlıq imkanı isə yalnız ertəsi gün yarandı.

Bayraməli Qurban oğlu Abbasov 21.03.1964-cü ildə Ermənistanın-Qərbi Azərbaycanın Göyçə mahalınınn Ardanış kəndində mexanizator ailəsində anadan olub.

Ardanış kəndi Göyçə mahalının ən mənzərəli, saf sulu, ecazkar mənzərəli kəndlərindən biri idi. Atası Qurban İsmayıl oğlu uzun müddət kolxozda mexanizator olub. Heç zaman ailəsinə korluq çəkməyə qoymayıb. 4 qız, 3 oğul böyüdüb boya-başa çatdırıb.

Anaları Qəndab Şaban qızı evdar qadın olmasına baxmayaraq, uşaqlarını təmiz ruhlu, gözü-könlü tox, zəhmətsevər insanlar kimi böyüdüb.

Ailədə böyüyə hörmət, kiçiyə qayğı prinsipi əsas yer tutub. Bayraməli də atasına, anasına Allahın yerdə olan kölgəsi kimi baxaraq, özündən kiçik qardaş və bacılarına da bu tərbiyəni aşılayıb, özünü onlara nümunə göstərərək, ailənin bütün çətinliklərinə qatlaşaraq, təsərrüfat işlərində ailəyə kömək edir.

1991-ci ildə orta məktəbi btirsə də, işlərini ali məktəbə verməkdən imtina edir. Mən hərbi xidmətə gedəcəyəm-deyə israr edir.

Bir tale yazısı deyilən anlam olsa da, isnan öz həyat yolunu özü seçir. Talenin əlindən tutub öz seçdiyi həyat yolu ilə də davam edir. Bəlkə bu seçim də bir qeybani diktənin, bir alın yazısının hökmü ilə baş verir, amma bunu insan hiss edə bilmir, ya dərk edə bilmir. Elə bilir ki, özü qərar çıxarır, özü qazanıb, özü itirir. Qazandıran və uduzduran barədə düşünmək belə istəmir. Tale quşunun çiyinlərinə nə zaman qonduğundan, nə zaman uçub getdiyindən xəbəri belə olmur.

Bayraməli də orta məktəbi başqa sinif yoldaşları kimi orta səviyyəli oxusa da, hətta müəyyən fənnlərin mənimsənilməsində üstünlük qazansa belə, ali məktəbə iş vermədi. Fikirləşirdi ki, mən ailənin, qardaş-bacılarımın boğazından kəsib, əldə olan qəpik-quruşu götürüb getdim Bakıya. Kömək yox, arxa yox, özünə də güvənmir, ya kəsiləcək, ya da «konqursa» düşəcək, qayıdacaq suyu süzülə-süzülə geri. Bir də dostun-tanışın tənəsi var axı. Deyəcəklər sən ki, özünə arxayın deyildin, özünü göstərməyəmi getmişdin Bakıya?

O zamanlar elə bil dövr idi ki, kimin uşağı institutdan kəsilib qayıtdıqda, elə bir iraqcandan ölüsü ölmüşün gününə düşürdü. Heç belə vəziyyət yaratmaq olardı?

Bütün olanları-olmazları gözünün qabağına gətirən Bayraməli də papağını qabağına qoyöub çox düşünüb-daşındıqdan sonra, bu qərara gəldi ki, hərbi xidmətə getsin, qayıtdıqdan sonra təhsilini Rusiyada da ala bilər. Ona görə də 1988-ci ildə hərbi xidmətə yollandı. Qismətindən Rusiyanın ən ucqar vilayətlərindən olan- hazırda yaşadığı Murmansk şəhərinə düşdü. 1985-ci ildə hərbi xidmətini sualtı qayıqda başa vurduqdan sonra, doğma Göyçələrinə qayıdıb valideynləri ilə görüşdükdən sonra işləmək məqsədilə Bakı şəhərinə gedir və orada "Neft-qaz"da fəhlə kimi işə daxil olur. Yaxşı əmək haqqı ilə təmin olunsa da, ağır iş rejimi onu razı salmır. Nə qədər fəhlə



*Soldan: Bayraməli Qurban oğlu, Valera Rover, Qasan, Sadiq Məhəmmədəli oğlu. Murmansk ilk gəmi heyəti*

işləmək olar? Ömrünü-gününü fəhləlikdə keçirməyəcəm ki, deyə fikirləşərək, təhsilini davam etdirməyi qərara alır.

O, işlədiyi idarədə özü kimi xidmətdən dönərək fəhlə kimi çalışan Sadiq Məhəmmədəli oğul ilə elə o vaxtdan tanış olmuşdular. Aralarında səmimi əlaqə yaranmışdı. Bir gün şəhəri gəzintiyə çıxarkən dostlar qərara gəlirlər ki, Murmansk şəhərinə gedərək, orada bir təhsil müəssisəsinə daxil olaraq təhsillərini davam etdirsinlər. Qərarı çıxardıqdan az sonra dostlar hər ikisi birlikdə 1987-ci ildə Murmansk şəhərinə yollanır və eyni vaxtda texnikuma daxil olurlar.

Bayraməli:

– İlk günlər çətinliyimiz çox oldu. Həm yad şəhər, nə gündüzü bilinir, nə gecəsi, nə yayı bilinir, nə qışı, həm maddi çətinlik. Sonra yavaş-yavaş işlərimizi səhmanlamağa başladıq. Stipendiya ilə yaşamaq, dolanmaq olmazdı. Boş vaxtlarda axtarıb

iş tapıb cib xərcliyi düzəldirdik. Beləliklə texnikumu bitirib, balıqçılıq gəmisində işə düzəldik.

1989-98-ci illərdə həm kollecdə təhsilimi davam etdirir, həm də gəmidə kapitan köməkçisi işləyirdim. Yaxşı əmək haqqı alırdıq. Yaxşı pulumuz var idi. Evə qardaş-bacılarıma, valideynlərimə də daimi pul göndərirdim. 1988-ci ildə baş verən hadisələr məni elə sarsıtdı ki, sözlə ifadə etmək çox çətindir. Hadisəni eşidəndən sonra özümə gələ bilmədim, nə yata bilirdim, nə yeyib-içə bilirdim. Dostların təskinliyi də köməyimə çata bilmədi. Yığışıb getdim Bakıya. Onları pərişan görəndə az qaldı ürəyim partlasın. Atam mənə ürək-dirək verib, deyirdi: – Kişi əyilməz-sınmaz. Bir hələ canımızı qurtarıb gəldik, malımız-mülkümüz qaldı orada. Amma elə adam var idi heç canlarını da çıxarda bilmədilər. Bala, bu düşmənçilik təzə deyildi ki, gör neçə dəfə bizə ermənilər torpaq göz dağı verib. Arxalı köpək qurd basar. Onların arxası möhkəmdir. Quyruq bulayan köpəyə sahib çıxan çox olar. Onların da sahibi çoxdur, bala! Türkün düşmənləri həmişə onlarla birləşir. Bu hesaba da dövlət olublar-özü də bizim torpaqlarımızda. Utanmaz-utanmaz adlarını da qoyublar «böyük ermənistan». Bir qondarma xəritə də çəkiblər. İnanılmaz yalanlar uydurmaqla Azərbaycanın, Gürcüstanın, Türkiyənin və Rusiyanın, Stavropol, Krasnodar vilayətlərinin torpaqları qatılmaqla bu ərazi Xəzər dənizi ilə Qara dəniz arasını əhatə edir. Başqalarına hələ dişləri batmasa da sınağa bizdən başlayıb, dünyanın müxtəlif ölkələrindən: İrandan, Türkiyədən, ərəb ölkələrindən yığılıb gələrək, İrəvan xanlığını mənimsədilər. İndi də lap türksüz Ermənistan yaratdılar. Sonra da gözlərini tikəcəklər Qarabağa, Naxçıvana. Bu gözləri çıxmışların gözləri doyan deyil ki. Gərək bunların gözlərinin odunu elə alasan, bir də özünə gəlməyə. Hələ bu xəmir çox su aparacaq. Yazıq olduq, elimizdən-obamızdan olduq. Əgər xalqı zamanında silahlandırsalar idi, öz torpaqlarımızı özümüz qoruyardıq. Barı bizdən üçü öləndə onlardan da ikisi ölərdi. Dünya da görərdi ki, iş nə

yerdədir. Bizə görə olmasa da, onlara görə bir əncam qılardılar. Budur qaldıq elsiz-obasız. Qohum-əqrəbanın hərəsi bir yana, hərəsi bir tərəfə dağıldı. Bunun xeyiri var, şəri var...

– Ürəyinizi toxtax tutun-dedim, özünüzü üzməyin. Burada vətənimizdir. Vətənin o yanı-bu yanı olmaz. Qohum-əqrəba da ki, onsuz da bir-birlərini axtarıb tapacaq.

Mənim ürək-dirək verməmə əhəmiyyət vermədən söylənərdi:

– Hər quşun öz yuvası, özünə vətəndir. Yuvası dağılan quş özünü kola-kosa vurar. Vətən o yuvadan başlayır. Mən deyirəm bizim yuvamız dağıldı, ata-babalarımızın qəbirləri erməni murdarlarının tapdağı altında qaldı. Min illərlə üzərində yurd saldığımız, ocaq çatdığımız Göyçə qaldı, özü də necə qaldı. Əlimlə qurduğum ev-eşik qaldı. İtlərimiz bağda ulaya-ulaya qaldı. Hər yatanda o ulamağ gəlir qulağıma. Sanki məni o yurda, o yuvaya çağırır. Məni nəylə ovundurarsan, oğul? Heç nə ilə. Hansı var-dövlət göyçəliyə Göyçəni unutdura bilər?

Atam-anam heç cür yerə-göyə sığışa bilmirdilər. Bir dərd yuva salmışdı ürəklərində. Ata-ana dərdindən də , qardaş-bacı dərdindən də, ciyərin bir parçası olan övlad dərdindən də ağır olan Göyçə dərdi idi o dərd… Düzdü, mən qardaşlarıma da, bacılarıma da, validyenlərimə də ilk öncə yaxşı torpaq alıb, mülk tikdirdim, amma bu dərdi unutdurmaq üçün heç nə edə bilmədim. Onalrı dərdləri ilə baş-başa qoyub, təkrar şəhərə qayıtdım. Mənim çiyinlərimdə indi yük daha da ağırlaşmışdı. Həm öz ailəmi, həm də arxada qalanları dolandırmalı idim… Elə yurd həsrəti, vətən dərdi atamı da, anamı da apardı. Sanki onlar bir-biri üçün yaranmışdı. Biri dünyadan köçən kimi biri də onu tək buraxmaq istəmədi. Daha doğrusu, Göyçəsiz yaşamaq istəmədilər. Sanki məzlumların bu ah-naləsindən titrəyib, Sovet İttifaqı dağıldı, Qarabağ müharibəsi başladı. Burada da elə bil müharibə gedirdi. Bir-birlərinin ardınca bütün idarə və təşkilatlar bağlanmağa başlayırdı. İşçilər vaxtlı-vaxtında maaşlarını ala bilmirdilər. Hərə bir tərəfə qaçırdı. Biz

də cəld tərpənib əlimizdə olan vəsaitlə alverə başladıq. İndiki biznesə ilk addımlarımızı onda atmağa başladıq. Yenə Sadiqlə bir yerdə başladıq biznesə. Sadiq mənim həm dostum, həm sirdaşım, həm də qardaşımdır. Həyatda nəyə nail olmuşuqsa, əl-ələ tutaraq olmuşuq. Dünən necə başlamışıqsa, bu gün də eləyik. Övladlarımız da həmin ənənəni davam etdirir. Mənim üçün bundan böyük heç nə ola bilməz. Böyük oğlum Fəridlə Sadiqin oğlu Samir elə bil bizim və gəncliyimizin davamçılarıdırlar. Bir balaca fərq ondadır ki, biz kasıb fəhlə ailələrindən idik. Hər şeyi çətinliklə əldə edirdik. Onlar isə iş adamlarının övladlarıdır və heç nəyə ehtiyacları yoxdur.

Allahdan arzum budur ki, indən belə də həyatda ağrının-acının, əzab-əziyyətin nə olduğunu görüb, neylim, necə edim deməsinlər.

Bayraməli danışır, mənsə qeyd edirdim. Fuadın adını çəkdikdən sonra artıq söhbətin yekunlaşmağa istiqamət aldığını



*Bayraməli ailəsi ilə bayram süfrəsi arxasında*

görüb, ona belə bir sual vermək istədim:

– Bayraməli, neçənci ildə ailə qurmusan. Həyat yoldaşınız buralıdır, yoxsa, azərbaycanlı?

Əlində çay stəkanı boş o yana, bu yana çevirən Sadiq ondan əvvəl dilləndi:

– Əlbəttə, sırf aəzrbaycanlı, özü də göyçəli azərbaycanlısı, əgər buralı olsaydı, o günü dotsluğumuza xitam verilərdi. Biz hələ Bakıdan yola çıxarkən söz vermişdik ki, oxuyub, xeyli işləyərək, pul qazanıb, sonra qayıdıb elimizin sürüsünü hürküdüb axsağından yapışaq. Allaha şükür nə sürü hürkütdük, nə axsağından yapışdıq. Elimiz-obamızın halal süd əmmiş qeyrətli qızından yapışdıq. Tanıdığımız, bildiyimiz ailələrin qızlarıdır. Biz bir-birimizlə necə dost-qardaşıqsa, onlar da bir-birləri ilə elə ana-bacıdır.

Bayraməli:

– Düz deyir, Sadiq. 1995-ci ildə buradan evlənmək məqsədiylə Bakıya yola düşdüm. Orada qız-filan heç kəsi tanımırdım. Bilirsən də bizdə vasitəçiliyi qadınlar edir. Onlar görüb bəyənmişdilər. Məni də tanış etdilər. Bəyəndim. Söhbət edib razılığını alıb, elə həmin ili də evləndik. Fərid ilə Fuad adlı iki övladımız var. Allah cəmi övlaldlara can sağlığı versin. Taleləri parlaq olsun. Onları xoşbəxt görmək elə mənim də ömür uzunluğum deməkdir. Bir də ən böyük arzum Vətən torpaqlarının, Qarabağın, Göyçənin ermənilərdən azad edilməsidir. Biz görməsək də, qoy yaradan o günü övladlarımıza nəsib etsin.

Göyçə həsrətinə, Göyçə dərdinə,
Başını dik tutub gəzmək çətindir.
Bu dərdi yükləsən fil də çəkəmməz,
Üyüdüb, əridib əzmək çətindir.

Heç bilən varmı ki, neçədi yaşı,
Min illik tarixdi hər hörük daşı.

Hər qarışı torpaqda qeyrət savaşı,
Arayıb tarixə düzmək çətindi.

Həsrəti qəlblərdə qəm yoludu-qəm,
Sızlayır dərd verir, eyləyir sitəm.
Gecə yatanda da, Göyçə deyəcəm,
Dərdini qəlblərdən üzmək çətindi.

Üzümü tuturam Günəşə, Aya,
Tez sitəm eyləsin xain qonşuya.
Onsuz da bir kimsə gəlmir haraya,
Kədər dəryasında üzmək çətindir.

Yerin də, göyün də nizamkarı var,
Bütün müşkülləri tək o nizamlar.
Bayraməli, Səməndər də arzular,
Arzusuz kədəri büzmək çətindir.
*6.07.2015, Murmansk şəhəri*

Biz söhbəti Bayrəməlinin ofisində edirdik. Hava buludlu və soyuq olsa da, otaqda ılıq hava hökm sürürdü. Biz Bayraməli ilə yazı masasının arxasında əyləşərək söhbət edirdik. Sadiq isə kənarda qoyulmuş divanda əyləşərək bizim söhbətimizə qulaq asır, hərdən də zarafatından qamayıb nəsə deyir, araya gülüş qatırdı. Bununla da söhbətin istiqamətini şən məcraya yönəldir, kədərli motivlərdən uzaqlaşdırırdı.

Yurd-yuva həsrəti ata, ana itkisi Bayraməlini kövrəldir, az qala ağlamaq dərəcəsinə gətirirdi. Bu elə bir mövzu idi ki, hər kəsin qəlbini kövrəldərək, nanə yarpağı kimi əsdirirdi.

Bayraməlinin başı arada Sadiqlə söhbətə qarışdıqda bu şeiri yazdım:

Çox da fikir etmə, ay Bayraməli,
Həmişə yanaraq, anıb Göyçəni.
Erməni nə p…. torpaq da ala,
Yaradan toruna salıb Göyçnəi.

Qudurmuş köpək tək hər kəsi qapıb,
Bütün el-obanı talıyıb, çapıb.
Bax bədnam qonşular yolundan sapıb,
Sonra da sümürdü tapıb Göyçnəi.

Biz elə yatdıq ki, əsirlər boyu,
Görmədik millətə çalınan toyu.
Talandı ellərin torpağı, suyu,
Tarix də satıldı, danıb Göyçəni.

Vətən bir üzüksə, Göyçə qaşıdı,
Torpağa həkk olmuş tarix daşıdı.
Gör kimlər taladı, kimlər daşıdı,
Biz qəflətdəykən çalıb Göyçəni.

Gəlib elə bir gün çıxacaq, yəqin,
Bizə də xoş nəzər baxacaq yəqin.
Zülmün evini yıxacaq yəqin,
Səməndər, görərik qalib Göyçəni.

## MURMANSK ŞƏHƏRİNDƏN ƏYALƏT ŞƏHƏRLƏRİNƏ

Murmansk şəhərində Sadiq Məhəmmədəli oğlu ilə görüşüb, tanış olduqdan sonra mənə elə gəldi ki, onların qayğı və qonaqpərvərliyi sayəsində şəhərə isnişməyə başladım. Zakir Tabir oğlu Cəfərovla ilk tanışlıq və yaxınlıqdan sonra rast gəldiyim soydaşlarımızın heç birindən bu qədər xoş üz, isti

münasibət görməmişdim. Hümbət Şahqulu oğlunun evində qalsam da, bədbin söhbətlərdən nikbin əhval-ruhiyyəyə keçə bilmirdik. Azərbaycan dilini unutduğu bir yana, çox söhbət etməyi də sevmirdi. Mən bir söz xəbər aldıqda, cavab verir. Almadıqda hey susar, ya da mətbəxə keçir oradan pəncərəyə baxaraq, keçmiş xatirələrini yada salıb ağlayar, sonra da bir «əlli» vurub, içini çəkər, nə yaxşı ki, mənim üçün sən varsan-deyə araq şüşəsinə tamaşa edib, onu şkafa qoyar və çarpayısına uzanardı.

Onun evində qalan Zaur Masallı isə istiqanlı, xoşrəftar olmasına baxmayaraq, işdən saat 2-3 radələrində gələr, bir neçə dəqiqə musiqiyə qulaq asdıqdan sonra yatağına uzanardı. Səhər yuxudan qalxan kimi işə yollanardı. Bircə dəfə oturub düz-əməlli tanış ola bilməmişdik. Həmişə telefon əlaqəsi ilə hal-əhval tuturduq.

Zakir Tabir oğlu ilə Sadiq Məhəmmədəli oğlu isə dünyagörüşü, səmimiliyi, açıqqəlbli insanlar olaraq, qəlbimə daha çox yatırdılar. Səhərin soyuq iqlimi onların sayəsində məni isidən hərarət mənbəyi idilər. Azca darıxan kimi ya Zakirə, Zaura zəng edir, ya da Sadiqin yanına gedərək onunla bərabər şəhərə çıxır, onun iş yerlərinə gedir, ya da ofisində əyləşib çay içir, müxtəlif mövzuda söhbətlər edirdik. 6.07.2015-ci il tarixdə səhər tezdən Sadiqlə onun mənzilindən çıxaraq avtovağzala gəldik. Mançaqorsk şəhərinə gedən avtobusa bilet alaraq, Kirovsk şəhərinə yola düşən avtobusa əyləşdim. Sadiq mənimlə sağollaşaraq, avtobus yola düşəndən sonra isə qayıtdı.

Murmansk şəhərindən uzaqlaşdıqca qəlbimdə titrək hisslər baş qaldırırdı. Yeni-yeni isindiyim simalardan uzaqlaşıram. Görəsən məni qarşıda hansı görüşlər, hansı hadisələr gözləyir. Münasib insanlarla görüşə biləcəyəmmi?

Alenoqorsk, Paçita, Apatit şəhərlərində olaraq, orada məskunlaşan soydaşlarımızla görüşüb, tanış olmaq onların barəsində məqalələr hazırlamaq istəyirdim. Ona görə də birinci Maniçaqorsk şəhərində düşməli oldum.

Maniçaqorsk şəhəri sənaye şəhəri idi. Sovetlər dönəmində kimyəvi maddələr hazırlayan xeyli sayda zavodları ilə məşhur idi. Burada Azərbaycanlı mütəxəssislər də çox olub. Bu gün də zavodun rəhbərliyində bir neçə soydaşımız fəaliyyət göstərir. Elə bu səbəbə görə də bu şəhərə gəlişimdə onlarla görüşüb, onların barəsində məlumat qeydləri götürmək niyyətində idim.

Şəhər avtobus vağzalında düşüb yaxınlıqda müştəri gözləyən azərbaycanlı həmvətənlərimizə yaxınlaşdım. Onlar maşınlara söykənərək söhbət edirdilər. Onlara yaxınlaşdığımı görüncə söhbətlərini dayandırıb rus dilində: «Ən ucuz qiymətə şəhərin harasına istəsəniz apara bilərik. Yetər ki, siz razılıq verin», – deyərək biri mənə yaxınlaşaraq əlini çantaya uzatdı ki, alıb maşının baqajına qoysun. Mən onun əlindən tutaraq salamını alırmış kimi «salam əleyküm, çox sağ olun, xeyirxah insanlar. Mənə kömək etmək istəyirsinizsə…»

Cavanlardan biri:

– Buy, ə, bu azərbaycanlı imiş ki…

Başqa biri:

– Mən hiss etdim ki, bu azərbaycanlı olacaq. – Mənə: – Xoş gəlmisiniz. Nabələd olduğunuza görə nə kömək istəsəniz qulluğunuzda hazırıq…

– Qulluq sahibi olasınız, – mən özümü təqdim edərək-Mən qələm adamıyam. Şəhər-şəhər dolaşaraq tanınmış soydaşlarımızla görüşüb onlar barədə yazmaq istəyirəm.

– Deməli, bizim kimi kasıb-kusublar barədə yazmırsınız.

– Varlı-kasıb fərqi yoxdur. Kasıb başına gələn elə bir əhvalat danışa bilər ki, o birinci növbədə qələmə alınar.

Sürücülərdən biri:

– Kasıbın əlindən Allahın özü də bezib. Vətən də bezməsəydi dünyaya səpələnməzdik. Dəyərimiz nədir ki, nəyimizdən də yazıla, – sonra əlavə etdi: – Qardaş, burada yazılacaq adamlar çoxdur, amma bilmirəm. Onlardan burada olan varmı. Çünki bu zaman onların hamısı məzuniyyətdə olurlar. Şəhərdə gəlmə,

bizim kimi gündəlik çörək pulu qazanan adamlar qalıb.

– Yaxşı sizin toplaşdığınız kafedən, qalyanaltıdan bir yer yoxdurmu?

– Var, niyə yoxdur. İntahası, yox kimidir. Müştəriləri çox az olduğumdan elə yox kimidir. Hamısı borc-xərc içərisində üzürlər. Amma gedib özünüz tanış ola bilərsiniz.

Sürücülərdən biri:

– Məsləhət bilmirəm yaxşısı budur ki, yoluna davam etsin.

– Niyə? Qoy bu şəhər haqqında da bir təəssürata malik olsun.

– Yaxşı onda mən apararam, – deyə Masallının Qasımlı kəndindən olan bir nəfər məni taksisinə dəvət etdi.

– Buyurun, ağsaqqal sizi «Kaspi» kafesinə düşürərəm. Sonrasını özünüz bilərsiniz.

O məni «Kaspi» kafesinə aparıb Sahibi Göy-göl rayonundan olan dolu bədənli, bir kişi ilə tanış etdi. Sonra bir stəkan çay içərək mənimlə görüşüb işinə qayıtdı.

Kafedə çalışanların əksəriyyəti Göy-göl rayon sakinləri idi. Kafenin müdiri süfrə açaraq qonaqpərvərlik göstərdi. – Kafedə heç kəs yox idi. Tamam boş olan salon cansıxıcı görünürdü. – Baxın, bu gün həftənrin sonu olmasına baxmayaraq heç kəs yoxdur. Elə bil şəhər köçüb. Mən bununla hansı borcu qaytara bilərəm. Bundan başqa topdansatış anbarımız da var. Petrozavodsk, Sankt-Peterburq şəhərlərindən xeyli məbləğdə mal alıb pulunu qaytara bilmədiyimə görə gündə üstümə adamlar göndərirlər. Naəlac qalıb kafeni satlığa qoymuşam. Bəlkə satıldı borclarımı qaytardım. Hər şeyin zayı çıxıb, nə alver qalıb, nə təmiz alverçi. Hamı bir-birinə badalaq gəlir. Düzdür mən də nisyə alıb, nisyə də paylayıram. İndi zalım uşağı nisyələri qaytarmırlar ki, mən də öz borclarımı qaytarım…

Axşam mən aşbazla bərabər onun kirayələdiyi mənzildə qaldım.

Səhər açılar-açılmaz aşbaz hələ yuxudaykən – o isə günorta zamanı gedirdi. - Mən mənzildən çıxaraq avtovağzala gəlib, bilet götürərək Apatit şəhərinə yola düşdüm.

## APATİT ŞƏHƏRİNDƏ

Mançaqorsk şəhərindən Paçitaya oradan da Apatitə yola düşdüm. Paçitada kimsəni görə bilmədim. Ona görə də orada ləngimək məqsədəuyğun deyildi.

Apatitə düşər-düşməz mərkəzi topdansatış bazasının yerini soruşaraq marşrutla həminn istiqamətə yollandım.

Hava tutqun və çisəkli idi. Ara seyrək yağan güclü yağış bir qədər ara versə də piyada yol gedənlərin çoxu başı üstündə çətir tuturdular. Çətiri olmayanlar isə başlarını aşağı dikərək tez-tez addımlayaraq məsafəyə tez çatmağa çalışırdılar. Asfalt döşənmiş küçələrdə yağış gölməçələri görünməsə də təzə yuyulmuş kimi par-par parıldayırdı. Maşınlar qəribə fışıltılı səs çıxardaraq sağa-sola şütüyür, sanki körpə uşaqlar kimi qaçdı-tutdu oynayırdılar.

Amma nə tutan hiss olunurdu nə tutulan. Heç yollarda polis maşınları da gözə dəymirdi ki, tutanın kim olduğunu güman edəsən. Düzü bu şəhərlərdə polis qovdusuna çox az-az təsadüf etmək olar. Hansı sürücü hərəkət pozğunluğuna yol verirdisə, cəriməsi yazılıb, ünvanlarına göndərilir və ya yerindəcə cəzalandırılır.

Topdansatış anbarlarından birinə rəhbərlik edən elə mənim öz eloğlularım Füzuli və Nizami adlı iki qardaşlar idi.

Maraqlı təsadüflərlə çox qarşılaşmışam. Elə mənim səfərlərim təsadüflərlə əhatə olunur. Heç kəslə öncədən planlı şəkildə göüşüb tanış olmamışam ən dəyərli adamlarla belə məni təsadüflər tanış edib.

Bu dəfə də belə oldu. Qarşıma çıxan birinci anbara daxil olanda alverin qızğın vaxtı idi.

Əlimdə çanta içəri daxil olanda mal almağa növbəyə duranların çoxu maraqla məni süzərək:

– Qardaş, deyəsən bu şəhərdə yenidir-deyə bir-birlərinə baxdılar. Heç kəs məni tanımadığından cavab vermək yalnız özümə qalırdı. Mən özümü onlara təqdim edərək –Mən qələm

adamı olaraq ayaq basdığım şəhərlərdə həm yeni oluram, həm də köhnə – deyə zarafat etdim. Yəni indi yeni görünürəm, çıxıb getdikdən sonra olacağam köhnə.

– Eloğlu, hansı bölgədənsiniz? – Anbarın sahibi qaimə yaza-yaza mənə baxdı. – Danışığınız biz tərəfin adamlarına çəkir.

– Siz özünüz hansı bölgəmizdənsiniz ki?

– Mən Tovuz rayonunun Qovlar şəhərindən, orada olanlardan biri:

– Qovlar şəhərdir ki? Ayrılıb Tovuzdan? Bu ola bilməz. Şəhər rayona tabe olsun. Bu heç cür olmaz.

– Olub də. Qovlar şəhəridir, amma rayon mərkəzi Tovuzdur. Sonra mənə:

– Hə, qardaş, demədiz haralı olduğunuzu.

– Elə mən də siz yaşadığınız rayondan və eyni şəhərdənəm.

– Deyirəm axı, sifətiniz tanış gəlir. Mən müxbir Fəxrəddinin oğluyam.

Yaxşı tanıyırdım. Rəhmətlik Tovuz rayon qəzetinin fəal müxbirlərindən biri idi.

– Ədəbiyyat vurğunu olduğuna görə bütün qardaş-bacılarımın əksəriyyəti tanınmış şairlərimizin adını daşıyırlar. Mənim adım Füzulidir böyük qardaşımın adı isə Nizamidir. Burada iş adamı kimi, həm də xeyirxah adam kimi hamının hörmətini qazanmış Xəqani adlı bir qardaşımız isə avtomobil qəzasında vəfat etdi. Bu ailəmizə baş verən ən ağır itki idi. Biri var ölüm vaxtında gələ, bir də var gənc yaşında qəflətən başının üstünü ala.

Nə qədər ağırdır qardaş itkisi,
Söz açsan od tutub dillər alışar.
Dərya da saxlamaz göz yaşlarını,
Düşsə hər damladan göllər alışar.

Ürək qəm göyərər ömrü uzunu,
İtirər büsbütün həyat düzünü.

Andırar mələyən yetim quzunu,
Səsindən-küyündən çöllər alışar.

Yolları-izləri ot basar tamam,
Cığırlar sızlayar hər səhər-axşam.
Deyər Səməndərtək tənha qalmışam,
Üstündən sel axsa, sellər alışar.

İş saatları olduğundan Füzuli mənə vaxt ayıra bilmədiyi üçün özündən böyük qardaşı Nizami Fəxrəddinə zəng edərək ona mənim gəldiyimi məlumat verərək: Burada skladda olduğumu və şəhərdə müəyyən iş adamları ilə görüşmək istədiyimi bildirib dedi:

– Mənə elə gəlir ki ağstafalı Bayramovla görüşməyi məsləhət biliblər. Bilmirəm Maniçaqorsk şəhərində deyiblər… Mən də deyirəm Bayramov haçan bir kiminləsə öz ana dilində bir kəlmə danışıb ki, onunla da görüşsün. Vallah mən də inanmıram ki, onu qəbul edə… Gəl sən apar zavoda, qoy, görüşməyi özləri bilər. O telefonu söndürdükdən sonra tərəziyə mal yığan müştərini yola saldı və üzünü mənə tutaraq: – Hə, gəl bir stəkan çay içək. Bir azdan Nizami gəlib səni Baryamovun ofisinə aparar. Özün girib tanış olarsan.

Bayırda sərin külək əsirdi. Elə havalar da sərin keçirdi. Ara-sıra fasilələrlə yağan yağış şəhərin üzlü qonağına çevrilmişdi. Heç kəsin əynində nazik paltar görünmürdü. Anbarın içi, bayıram nisbətən isti idi. Bir stəkan qaynar çay da lap yerinə düşdü.

Nizami bizi çox da gözlətmədi. Anbara daxil olub diqqətlə xeyli ətrafa, alış-verişin səviyyəsinə fikir verdikdən sonra Füzuliyə – yerlimiz bu oğlandır, – deyib, mənə baxdı. Cavab almamış əlini mənə uzatdı. Xoş gəlmisiniz, rayonda nə var, nə yox. Qovlar şəhər olandan bəri çoxmu dəyişib?

– Elə siz necə görmüşdünüzsə elədir.

– Deynən hərə öz kefindədir. Guya şəhər adı verilən kimi bütün saqqal darağımız düzələcəkdi.

Mənə-sizi hara aparmaq lazımdır?

Füzuli:

– Bayramovun yanına. Həmyerliyik, görüşüb tanış olsalar yaxşıdır. Bəlkə söz-söhbətləri tutdu.

– Bayramov haçan azərbaycanlılara qarışır ki? Yaxşı mən apararam, – deyə əlavə etdi. Amma mən orada qalmayacağam. Özünüz qalxıb tanış olarsınız.

Mən:

– Çox sağ olun. elə mənə də o lazımdır.

– Yaxşı, onda gedək. Söhbətinizi yekunlaşdırıb bura qayıdarsınız.

Nizami məni maşını ilə şəhərin kənarında yerləşən dəmir-beton zavoduna apardı.

Zavod çox böyük ərazini əhatə edirdi. Vaxtilə əyalətin ən böyük zavodlarından biri olduğu halda indi bir tərəfi təmiz dağıdılmış, dəmir avadanlıqları satılmış, yerdə qalan bir hissəsi fəaliyyətdən düşmüşdü. Əldə qalan hissəsi fəaliyyət göstərir. Mən Bayramovun kabinetinə daxil olduqda o çay içə-içə qabağında sənəd qovluqlarına baxırdı. Arada bir tərəfdə bilgisayar arxasıda dayanmış rus qadını ilə söhbət edirdi.

Məni çox soyuq qarşılayaraq yer göstərdi. Rus dilində kimliyimi, haradan gəldiyimi soruşduqdan sonra başladı öz keçdiyi həyat yollarından danışmağa. Ağstafa rayonunda anadan olduğunu, Bakı Politexnik institutunu bitirərək, təyinatla Murmansk şəhərinin Apatit şəhərinə gəldiyindən danışdıqdan sonra:

– Çox əziyyətlər çəkdim Sovetlər dağıldıqdan sonra zavodun aksiyalarını alaraq zavodun tam sahibi olduğum, iki-üç restoran, gözəllik salonlarına sahiblik edirəm. Mənim həyatda hər şeyim var, heç nəyə ehtiyacım yoxdur. Heç sizin yazı-pozunuza da ehtiyacım yoxdur. Məni Azərbaycanda tanımasalar

daha yaxşıdır. Azərbaycan mənə nə verib. Nəyə nail olmuşamsa bu sarı qardaşlarımın, bacılarımın hesabına olmuşam. Nəyim çatışmır, heç nəyim, – o yenə çay sifariş verdi. Yalnız özünə çay gətizdirdi.

Mən:

– Bayramov (adı rus adı kimi səslənirdi), çox şadam ki, siz bu şəhərdə hər necə olsa azərbaycanlı kimi ictimaiyyətin hörmətini qazanaraq millət vəkili (deputat) seçilmisiniz. Çox imkanlı adamsınız. Hər imkanlarınız var, amma sizdə vacib olan bir şey çatışmır.

O təəccüblə üzümə baxaraq:

– Başa düşmədim, məndə nə çatışmır?

– Sizdə qonaqpərvərlik və milli hissləriniz çatışmır.

– Niyə? Siz mənim otağımda əyləşmisiniz!

– Bax budur yarım saatdır ki, söhbət edirik, siz nə bir kəlmə öz ana dilinizdə mənimlə kəlmə kəsmədiniz, nə də özünüz çay içdiyiniz halda mənə təklif etmədiniz. Bu mənə deyil, azərbaycanlı adı ilə sizinlə həmsöhbət olan azərbaycanlılara həqarətdir.

– Bağışlayın, üzr istəyirəm, doğrudan diqqətsizlik etdim. O katibəsinə – Marina İvanovna, xahiş edirəm bizim hörmətli qonağımıza da çay gətirin, unutmuşuq.

Mən ayağa qalxaraq –təşəkkür edirəm, onsuz da xeyli vaxtınızı aldım, getsəm yaxşıdır.

O ayağa qalxmadan əli ilə qapını göstərdi:- Nə deyirəm, yaxşı yol. Sonra axtarıb özüm sizi taparam. Axşam əyləşib nahar edərik.

– Sağ olun, – mən qapıdan çıxaraq taksi ilə təkrar Füzulinin yanına qayıtdım.

O gün heç kimlə görüşə bilmədim. Axşam Füzuli ilə onun şəxsi mənzilinə getdik. Yaxşı süfrə açaraq dostlarını da dəvət etmişdi. Həm onların mənə, həm də bir-birlərinə olan münasibətlərindən çox məmnun oldum.

Səhər tezdən o iş yerinə, mən isə qonşu şəhər olan Kirovsk şəhərinə yollandım. Fikrim orada satıcı kimi çalışan şagirdim-həmkəndlim Afdandil Abbasovu tapıb, onunla görüşmək, həm də şəhərlə tanış olmaq idi.

Apatitlə Kirovsk şəhərinin ara məsafəsi təxminən 25 km. olardı. Kirovsk şəhəri Ximinaqorsk dağ silsilələrinin arasında yerləşirdi. İyun ayının 8-də dağlar hələ qar örtüyündən azad olmamışdı. Elə həmin gün şəhərə qar yağmaqda idi. Şəhər əhalisinin əksəriyyəti qış geyimində idi. Hamı soyuqdan şikayətlənirdi.

Mən təksi meydanında şəhərin mərkəzi parkının yanında avtobusdan düşüb taksi sürücülərinə yaxınlaşdım. Sürücülərdən bir neçəsi azərbaycanlılar idi. Birinə yaxınlaşdım. Hüseynov Rafiq Qoçəli oğlu Bərdə rayonunun Mollaəhmədli kəndindən idi. Onunla tanışlıq məqamında bir ağsaqqal taksi sürücüsü də bizə yaxınlaşdı və bizim yanımızda Rafiqin taksisinə əyləşdi. Bayır soyuq olduğundan taksidə söhbət edirdik.

Raqif:

– Bu ağsaqqal Vəliyev Kram Məhəmməd oğlunun 60 yaşı var. Cavanlıqdan bu şəhərdə yaşayır. Əvvəllər çox imkanlı olub, indi taksiçilik edir.

Kram:

– 1977-ci ildən burdayam. Özüm alverə gəlmişdim, yaxşı uğurlar qazandım, sonra öz ağlım ucundan bankrota düşdüm. İndi də taksi sürürəm. Bir zamanlar bu şəhər ən stratejli şəhər hesab olunurdu. Onlarca filiz saflaşdırma zavodları var idi. İndi kombinatların çoxu boş-boşuna dayanıb. Nə fəhlə qalıb, nə kombinatda bir kombinatlıq. Şəhər də ölü şəhərlər sırasına düşüb.

Mən Rafiqin taksisi ilə «Kaspi» kafesinə gəldim. Orada bir neçə dəqiqə çay içib dincəldikdən sonra yaxınlıqda yerləşən paltar mağazasına getdim. Aftandil orada işləyirdi. Məni görüncə gözünə inanmadı:

– Müəllim, sən hara, bura hara. Xoş gəlmisiniz. O çox mehriban və istiqanlı uşaq idi. Elə indi də eyni xarakterdə qalmışdı. Bir dostunun mağazasında çalışırdı.

O axşam Aftandil və Elşən Camal oğlu ilə bir yerdə onların yanlarında qaldım. Özümü çox rahat və sərbəst hiss edirdim. Səhər şəhəri dolanaraq bir yerdə şəkil çəkdirdik və onlarla görüşüb ayrılaraq 9.07.2016-cı il tarixdə Apatitdən Kandalakşa şəhərinə yola düşdüm.

## KANDALAKŞA ŞƏHƏRİNDƏ ÜÇ GÜN

### Hüseyn Həbib oğlu Mikayılov

Apatitdən Kandalakşa şəhərinə çatdıqda günorta nahar fasiləsindən xeyli keçmişdi. Kirovsk şəhərinə nisbətən Kandalakşada günəşli hava idi. Buna baxmayaraq havada hərarət hiss olunmurdu. Elə bil günorta soyumuş şüaları ilə yamacları sığallayıb ayıltmağa, ətraf aləmə təskinlik verməyə çalışırdı. Dağların başı üzərində asılıb qalmış ağ bulud topalarında da yağmaq əlaməti görünmürdü. İnsanlar da təbiətin xoş təmasından xoşlanaraq küçələrdə asudə gəzir, körpələrini gəzintiyə çıxardırdılar.

Avtovağzaldan bir marşrutla topdansatış bazasına yollandım. Lakin orada münasib adamlarla görüşə bilmədiyimə görə, soraqlaşıb «Çinar» kafesinə getdim. Kafenin sahibi kafenin salonunda əyləşərək çay içirdi. Yaxınlaşıb salam verdim. Özümü təqdim etdikdə ayağa qalxıb:

– Xoş gəlmisiniz, buyurun əyləşin. Yol gəlmisiniz, əvvəl bir çay için, sonrasına baxarıq.

Hüseyn Mikayılov az öncə topdansatış bazasında görüşdüyüm Rauf Həbib oğlunun qardaşı idi. Onlarda Murmansk vilayətində çoxluq təşkil edən Masallı rayonunun Həsənli kəndindən idilər.

Hüseyn özü 1971-ci ildə Masallı rayonunun Həsənli kəndində anadan olmuşdu. Ailədə 4 qardaş, bir bacı olublar. Sovetlər dağılması ərəfəsində qardaşlar həmin şəhərə gələrək, burada öz bizneslərini yaradırlar.

Hüseyn 1988-ci ildə Həsənli kənd orta məktəbini bitirir. Elə həmin ili hərbi xidmətə çağırırlar və 1988-1990-cı illərdə Moskva şəhərində hərbi xidmətdə olub. Xidmətdən sonra 1994-2000-ci illərdə Leninqrad Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb. Qiyabi təhsil ala-ala meşə təsərrüfatında çalışıb.

1994-cü ildə ailə qurub. David, Şakirə, Aysel, Teymur adlı dörd övladı var. 2010-cu ildən mətbəx biznesi ilə məşğul olur və «Çinar» kafesinə rəhbərlik edir. Azərbaycan mətbəxi kimi şəhərdə məşhurdur. Burada yerləşən erməni mətbəxlərinə qarşı yeganə rəqibdir.

Hüseynlə tanışlıqdan sonra o öz dostlarına zəng edərək, onalrı da kafeyə dəvət etdi. Bəhlul Şəmkir rayonundan, Xəlilov Vilayət Mahmud oğlu Gədəbəy rayonundan, Yunusov Nadir Zərqələm oğlu isə Şəkinin Böyük Dəhnə kəndindən idi.

Axşam kafedə bir yerdə ziyafətdə iştirak etdikdən sonra dostlar çay süfrəsi arxasında doyunca deyib-gülüb şənləndikdən sonra qərara gəldilər ki, mən Nadirin yanında qalım, o ikiotaqlı mənzildə tək qalırdı.

Beləcə üç gün Hüseyn və dotslarının əhatəsində onların qonağı oldum. Sonra Vilayət və Nadirlə birlikdə Petrozavodsk şəhərinə yollandıq. Vilayət və Nadir Moskvaya gedirdilər. Maşın Vilayətin idi. Moskvadan satış üçün paltar gətirməyə gedirdilər. Mehriban, xoşxasiyyət insanlar idi. Amma biznesdə uğur əldə edə bilməmişdilər, əldə etdikləri də əllərindən çıxaraq müflisləşmişdilər. Ona görə də son köşklərini sabaha ümid çırağı kimi qoruyub saxlamağa çalışırdılar.

## Samir Xamməd oğlu Babayev



Kandalakşa şəhərində olduğum zaman ərəfəsində həm şəhər barəsində, həm şəhərdə yaşayan soydaşlarımız barəsində xeyli məlumat əldə edə bilmişdim. Görüşmək üçün lazımlı olan adamların bəziləri istirahətə getmiş, bəziləri də başqa şəhərlə bizneslə əlaqədar getdiklərindən görüşmək mümkün deyildi. Şəhərdə ortabab biznesmenlər sırasında vaxtilə müəllim işləmiş, Masallının Həsənli kəndindən olan Samir müəllimin adı ağsaqqallar sırasında çox işləyən adlardan idi. Ona görə də onunla görüşmək qərarı ilə tanışların birinin maşını ilə iş yerinə yollandım.

Günortaüstü idi. Hava da mülayimliyi ilə hər kəsi gəzintiyə sövq edirdi. Hərçənd gəzintiyə çıxmaq yalnız istirahət məqamlarına həssas adamlar üçündür. Belə hava şəraiti elə mənim kimi səyahət adamları üçün də göydən düşmə idi. Həm günəşli, həm də sərin halal xoşun olsun nə qədər istəyirsən gəz-dolaş.

Mən Samir Xamməd oğlunun meyvə-tərəvəz satış obyektinə daxil olduqda, içəridə iki-üç alıcı və bir də Samirin satılan malların qaiməsini yazıb hesablayan həyat yoldaşı vardı– Bir bədəndə iki qol-qanad çalışmaqda idilər. Əvvəl məni də müştəri zənn edərək: «Nə istəyirsiniz?» – deyə rus dilində soruşdu və dərhal azərbaycanlı olduğumu bilərək – salam əleyküm-sözümdən sonra – və əleyküm salam. Xoş gəlmisiniz, buyurun, əyləşin, – deyə qalxaraq bir «taburetka» gətirib yazı masasının arxasına, öz yanlarına qoydu-Görürəm şəhərə təzə gəlmisiniz. Xeyir ola, kimsiz, nəçisiz, hardan gəlib, hara yol tutursunuz?

– Mən qələm əhliyəm, sizin kimi ağsaqqal, ziyalılarımızla görüşüb, təəssüratlarımı kitab vasitəsi ilə oxucularla bölüşürəm.

Əsərək badü-səba, gör nə xəyal ilə gəlib,
Sübh döyür qapımı, o, bir dost kimi dilə gəlib.

Səslənir sidq dildən - bəsdi daha, gəl qəm yemə,
Elə bil dost qapıma bir əhli-hal ilə gəlib.

Sıxaraq dərdimi mən açmamışam kimsəyə ki,
Baxmasın üzümə hey gündə məlal ilə gəlib.

Söylənib badi-səba gör nə deyir indi mənə,
Bas öldür dərdini ki, qiyli-qal ilə gəlib.

Öldürsəm dərdimi mən o da mənə bir dərd olar,
Qoy yaşasın Samir ilə əqli-kamal ilə gəlib.

Onun üzünə qəm dalğası çökdü, gözləri doldu. Qəzəli söyləyərkən həyat yoldaşı da üzünü əli ilə tutaraq bulud çökmüş gözlərini məndən gizlədərək, yağacaq yağış sellabının qabağını, könül tufanı ilə ləngitmək istəyirdi.



*Samir müəllimin nəvəsi Namiq*

Samir:

– Yenə xoş gəlmisiniz. İnsan bir hal əhli görəndə dilinin qıfılı açılır. Dərdini dərd bilənə danış ki, ürəyin yüngülləşsin – deyiblər. Qələm əhlisiniz, dərdin, özü də oğul dərdinin nə olduğunu, atanın-ananın nələr çəkdiyini yaxşı anlayırsınız. Özüm ədəbiyyat müəllimi idim. Azərbaycan Pedaqoji İnstitutunu bitirmişəm. İndi gördüyünüz kimi ağqulaqlara xidmət edirik. Çünki, müəllimlik maaşı ilə böyük bir ailəni nə saxlaya bilərdim, nə övladlarımı bir yana çıxarda bilərdim:

– Əvvəla keçmiş olduğunuz həyat yolunuzdan bir qədər məlumat verin, sonra söhbətimizi davam etdirərik.

– Danışıram də, keçmiş gündəliyi niyə vərəqləyək ki?…

– Sizi oxuculara təqdim etmək üçün axı heç kəs birdən-birə gəlib bu qürbətin qucağına düşməyib .

– Düzünü desəm mən reklamı xoşlamıram. Məni tanıyan tanıyır. Tanımayan tanışa nə olasıdır ki.

– Kitab ədəbiyyat deməkdir. Bu gündən sabaha xatirədir. Hər halda…

Samirin həyat yoldaşı:

– Qardaş, biz o kitabı ala biləcəyikmi.

– Əlbəttə, alacaqsınız.

– Mən istəyirəm oğlum barədə ayrıca bir kitab nəşr etdirim. Bu mümkündürmü?

– Bacı, mümkün olmayan heç nə yoxdur. Bir müəllif tapıb onunla əhatəli danışa bilərsiniz. Bunun üçün gərək həmin adam müəyyən faktlara və məlumatlara malik olsun…

Samir Xamməd oğlu Babayev 1 iyun 1953-cü ildə Masallı rayonunun Həsənli kəndində – sadə kolxozçu ailəsində anadan olub. 1970-ci ildə Həsənli kənd orta məktəbini bitirib və elə həmin ildə Bakı Pedaqoji İnstitutunun filologiya fakültəsinə daxil olub.

1978-ci ildə isə təhsilini müvəffəqiyyətlə başa vuraraq, doğma kəndlərinə dil-ədəbiyyat müəllimi təyin olunub. İnstitutun qiyabi şöbəsinə daxil olduğu üçün mövcud qanuna əsasən 1974-76-cı illərdə Ukraynanın Jitomir vilayətində hərbi xidmətdə olub. Xidmət illərindən sonra oxuya-oxuya Bakı Neft –qaz idarəsində

fəhlə işləyib.

1978-ci ildə Lətifə Əhməd qızı ilə ailə qurublar. Xalid, Valid və Şövqiyyə adlı üç övladları olur. Samir övladlarının adını çəkdikdə dərindən bir ah çəkdi:-özüm həyatda çox ağır günlər – çətinliklərlə qarşılaşmışam. Heç vaxt istəməzdim ki, övladlarım da mən qarşılaşdığım çətinliklərlə qarşılaşsınlar, ona görə də 1991-ci ildə iqtisadi çətinlik illəri ərəfəsində işdən çıxaraq, Rusiyanın Maniçiqorsk şəhərinə gəldim. Bir il orada çalışdıqdan sonra 1996-cv ildə yığışıb bu şəhərə gəldik. Elə həmin vaxtdan yavaş-yavaş ticarətlə məşğul olaraq, öz firmamızı yaratdıq. İşlərim də yaxşı gedirdi. Uşaqlar da böyüyüb, köməyimizə çatırdılar. Xalidi evləndirdim. Şövqiyyə də münasib bir ailəyə gəlin köçdü. Taleimdən razı idim. Valideynə nə lazımdır, övladldarının xoşbəxtliyi. Məgər hamının əsas arzusu bu deyilmi? Beş nəvəm var, kiçik oğlum Valid də nişanlı idi. Göndərdilər ki, gedib nişanlısı ilə görüşsün. Həm də toy tədarükü görsün.

Sən saydığın saymaqda ol qanlı fələk gör nə sayır,
Abad olan könülləri viran edib hey talayır.

Əl ataraq sevinc dəmin yaxalayıb tuthatutda,
Ürəklərdə alov çatıb qəm üstünə qəm calayır.




*Samir ailəsi Yeni il bayram süfrəsi arxasında*

Mən Validi göndərmişdim sevgisinə qovuşmağa,
Nə bildim ki, gedib o da ürəyimə od qalayır.

Dedim ki, get gəlin gətir, demədim ki, ölüm gətir,
Mən taleyə nə etdim ki, bağrım başın hey dalayır.

Bir kimsəyə açammıram ürəyimdən keçənləri,
Yuman kimi gözlərində hayqıraraq qəm ulayır.

Mayın 30-da rəhmətə getdi. Yeddi ildir ki, bu minvalla həyatın sevincini unutmuşuq.

Ay Səməndər, bu misralar bir atanın dilindəndir,
Dərdlərini yada salıb, qulağında guruldayır.

Bir ananın göz yaşları, bir atanın ürək yanğısı, başımdan tüstü qaldırsa da «Allah səbr versin» kəlməsindən başqa deməyə bir də səssizcə bu şeiri qələmə almaqdan başqa nəsə söyləməyə aciz idim.

İyirmi iki yaşlı bir cavan idi,
Fələk bu dünyadan cavan apardı.
Ömür bağçasında bir gül kimiydi,
Kökündən qoparıb tufan apardı.

Hər yana gül kimi ətir saçardı,
Qohuma, qardaşa könül açardı.
Qaranlıq könülə işıq saçardı,
Sərt rüzgar verməyib, aman apardı.

Tanrıdan şikayət Samirə yaddı,
İki oğul verdi, qoşa qanaddı.
Xaliddi, Validdi, sonuncu sındı,
Bəd gələn qisməti yaman apardı.

Deyirdi oğlum, gəlin gətirsin,
Demədi qəfləti ölüm gətirsin.

Tükənib bitməyən zülüm gətirsin,
Yığıb gözlərinə duman apardı.

Çəkdi sinələrə dağ üstə dağı,
Otuzu may günü ölüm sorağı.
Son qoydu ömrünə nadan bıçağı,
Toyuna az qalmış zaman apardı.

Bu həyat belədir belə Səməndər,
Dəryada gizlənər ləl ilə gövhər.
Gedəndə dünyadan bir ər oğlu ər,
Deyərlər o haqqa iman apardı.
*10.07.2015, Kandalakşa şəhəri*

Samir müəllim:

– Ağlasığmayan hadisə idi, gəldi başımıza. Nişanlısını götürüb evdən çıxarkən, qaynı ilə sözləri düz gəlmir. Bu da deyir onda mən nişanlımı götürüb apraracağam. Elə bu mübahisənin də qurbanı olur. Qaynı evdən bıçağı götürərək, yolda qətlə yetirir. Heç o inanmazdı ki, belə bir hadisə baş verər. Ona görə də arxayınlığa yol verir. Yoxsa onun qoluna hələm-hələm adam gələrdi əlbəyaxa. Beş eləsinə cavab verərdi. Sonu belə olacağını kim haradan biləydi. Burada onun üçün qızmı qəhət idi. O qədər azərbaycanlı



*Samir müəllimin oğlu Valid*

ailələrində qız var ki. Dedim qoy Vətənə qaynayıb, qarışsın. Buranı tutub durası deyilik ki, bir gün yığışıb gedəndə gəlnimin ürəyi burada qalmasın.

«El bilir ki, sən mənimsən,
Yurdum, yuvam, məskənimsən!
Ayrılarmı könül candan,
Azərbaycan, Azərbaycan!»

Əvvəlimiz də Vətənimizin, sonumuz da. Türklər demiş, təki Vətən sağ olsun. Onsuz hamımız gəldi-gedərik. Belə vaxtsız övlad dərdini isə heç kəsə arzulamıram.

**İsgəndər Hacıbala oğlu İsgəndərov**



Kandalakşa şəhərində tanınmış azərbaycanlılardan biri də İsgəndər Hacıbala oğludur.

El gözü güzgüdür deyiblər. Kimi yaxşı tanımaq istəyirsənsə, o güzgüyə yanaş. Oradan sənə hər şey aydın olacaq. Ən yaxşısı birinci orada özünü görməkdir. Özünü görə bilməsən, başqasına düzgün qiymət verə bilməyəcəksən. İsgəndər Hacıbala oğlu da Kandalakşa şəhərində yaşayan azərbaycanlıların gözündə yaxşı tərəfdən işıqlı görünən insanlardan idi.

Onun ünvanına istiqamətlənməm də elə işıq şüalarının istiqamətlənməsi ilə oldu.

Kandalakşa iki hissədən ibarətdir. Hər biri ayrı-ayrı şəhər kimi görünsə də, bir mərkəzdən idarə olunur. Ara məsafəsi 30-35 km-dir.

İsgəndərin, «Uyut» kafesi burada mövcud olan kafelərin içərisində həm quruluşuna, həm də xidmət sarıdan müştərilərin sevdiyi məkanlardandır.

Mən kafeyə gedəndə kafedə bir-iki adamdan başqa kimsə gözə dəymirdi. Hələ nahar fasiləsinə xeydi vaxt var idi. Nəzarətçi qadına yaxınlaşıb kafenin rəhbərini soruşduqda o maraqla məni başdan-ayağa süzərək: – Hansı məsələyə görə axtarırsınız?

– Mən onun yerlisiyəm. Azərbaycandan gəlmişəm. Sadəcə görmək istəyirəm, – dedim.

– Mən yalnız onun telefonuna zəng edə bilərəm, özünüz nə lazımdır deyə bilərsiniz.

– Öncədən təşəkkür edirəm.

– Təşəkkür lazım deyil. Mən vəzifəmi yerinə yetirirəm.

– Elə vəzifəni düzgün yerinə yetirməyə təşəkkür daha yaxşı düşür.

– Yaxşı görək! – deyə o gülümsəyib, telefonu mənə verdi. Buyurun, danışın. Sonra telefona:

– İskender Hacıbalayeviç, sizi soruşurlar, buyurun danışın.

Mən telefonu alıb salam-kalamdan sonra özümü təqdim edib, onunla görüşümün məqsədini anlatdım.

O:

– Xoş gəlmisiniz. Gözləyin çaydan-zaddan için, bu dəqiqə gəlirəm. Bir 20 dəqiqəlik işim var.

– Çox sağ olun, gözlərəm, – dedim.

– Nəzarətçi qadın qulluqçu qadına göstəriş verdi ki, mənə çay süfrəsi düzəltsin.

İsgəndər Hacıbala oğlu barədə işçiləri də razılıq edərək, bildirdilər ki, o, çox yaxşı adamdır. İnsanpərvər, mülayim və diqqətcildir. Nə qədər müdirlərlə işləmişik, beləsinə az-az təsadüf etmişik. O birdənədir.

O, məni çox gözlətmədi. İçəri daxil olan kimi köhnə tanışlar kimi əl tutaraq:

– Sizi çox gözlətmədim ki?

– Xeyir, təşəkkür edirəm ki, məni sındırmayıb gəldiniz.

Gülərək:

– Ay sağ olmuş, bura mənimdir, öz müəssisəm, öz iş yerimdir. Siz sağ olun ki, o boyda yolu bizim üçün gəlmisiniz. Düzdür, adətən mən kafeyə axşam tərəfi gəlirəm. Bu dəqiqələrdə gəlməyin bir əhəmiyyəti də yoxdur. Özün görürsən, bir nəfər müştəri yoxdur. Gələnlər iş saatından sonra dincəlməyə gəlirlər. Hə, söyləyin görək, məni necə tapdınız?

– Yaxşı insanın sorağı hər kəsə bələdçidir. Mən də öz dostlarımı soraqlayıb tapıram.

– İndi mənə deyin görüm, bu gün burada qalacaqsınızmı, yoxsa mərkəzə qayıdacaqsınızmı? Qoy mən də işimi bilim.

– Sağ olun, qayıdacağam. Hüseynə söz vermişəm ki, qayıdacağam.

– Hüseyn də mənim kəndlimdir, fərq eləmir ya ora, ya bura. Di yaxşı onda mən neyləməliyəm?

Özünüz və işçiləriniz barədə bir az məlumat verərdiniz. Mən də sizin vaxtınızı çox almadan qeydlərimi götürüb gedərdim.

– Nə deyirəm 01.02.1963-cü ildə Masallı rayonunun ən gözəl kəndlərindən biri olan Həsənlidə anadan olmuşam. Bu şəhərdə və ətraflarda bizim həmkəndlilərimiz çoxdur. Yəqin görüşdükləriniz də, görüşəcəkləriniz də çox olacaq. Elə ağsaqqallardan Hüseynin böyük qardaşı Həbib Rəsul oğlu, Samir müəllim də bizim kəndin sevimliləridir. Görmüş olarsınız onlarla? Amma deyəsən, Həbib burada deyil.

Elədir, Samir müəllimlə görüşmüşəm. Həbib kişi burada yoxdur. Oğlu Raufla görüşdük. Sağ olsun istiqanlı oğlandır. Azər İslam oğlu Mikayılov da mənə qayğı ilə yanaşdı.

– Ot kökü üstə bitər. O nəsil köklü və dəyanətli insanlar yetirib.-Hə, qardaş, zəhmətkeş ailəsində anadan olsam da, köklü, məşhur nəsildənəm. Nəslimizdən məşhur adamlarr çox olub. Məmmədkazım Aslan Əsədov kimi tanınmış qələm adamlarımız olub. Məmmədkazımın «Generala salam» kitabı

rayonda çox adamın stolüstü kitabı olub.

1981-ci ildə Həsənli kənd orta məktəbini bitirmişəm. İşlərimi instituta versəm də, qəbul ola bilmədim. Üz tutdum Böyük Sovet ordu sıralarına. 1981-83-cü illərdə Belarusiyada hərbi xidmətdə olmuşam. Onda çox millət, bir dövlət idik... – İndi çoxu bir-birinə düşmən kəsilib. Kim bilir sabah necə olacaq. Heç mənim yatsam yuxuma da girməzdi ki, gəlib Rusiya vətəndaşı olum. Həyatda gözüm çox şey görüb. Bütün növ çətinliklərdən keçmişəm. Yetimlik də görmüşəm, kasıblıq da, aclıq da. Ailədə iki qardaş, səkkiz bacı olmuşuq. Mənim on yaşım olanda atam rəhmətə gedib. Anam Məryəm Məmmədəli qızı ailənin bütün ağırlığını çiyinlərinə tək götürərək, on uşaq böyüdüb ərsəyə gətirib. Bu elə-belə iş deyil. İndi iki uşağı olan qadınların giley-güzarı baş dağıdır. Atam özü tək oğul olduğundan əmi sarıdan yarımamışıq. Rəhmətlik özü tək olduğuna görə çalışıb ki, uşaqları çox olsun. Çoxluğun əziyyəti çox olsa da, uşaqlar arasında ürək, dəyanət möhkəmliyi də çox olur.

...Babam dəmirçi olub. Atamın vəfatından sonra gecə-gündüz çalışıb ki, heç nədən korluğumuz olmasın. O olmasaydı, görün bizim vəziyyətimiz necə olardı. Allah böyükdür, hər şeyi görüb, biləndir. Elə bil atamın yarımçıq qalan ömrünü babama vermişdi ki, yetim nəvələrini böyüdüb boya-başa çatdırsın. Yüz yaşında rəhmətə getdi. Bir dəfə iynə-dərmana düşmədi. İki bacımın toyunu babam etdi. Necə lazımdırsa yüksək şəkildə cehizlə yola saldı. Birbacım atamın vəfatından sonra bir neçə ay sonra vəfat edib. Hərbi xidmətdən sonra 3 il Bakıda yanğınsöndürmə idarəsində işlədim. 1987-1991-ci illərdə isə Varonej şəhərində dövlət işlərində çalışmışam. Cib xərcliyimdən başqa əlimdə olan pullarımı anama göndərirdim. Artıq qardaşım da ailəyə kömək edirdi. Vəziyyət tam dəyişmişdi.

1987-ci ildə özüm də Rəsmiyyə Nadir qızı ilə ailə qurdum. Özümün yaxın qohumum idi. Sonra da lap yaxın olduq. Gülnar, Afaq, Hacıbala adlı iki qız, bir oğlumuz var. Artıq babayam.

Dörd nəvəm var. Allah sizinkiləri də sağ eləsin. -Nəvə gördüz, nəticənin ləzzətini də görəsiz.

O bərkdən qəh-qəhə çəkərək:-Ay sağ ol, müəllim, yaman dediz ha. O Allahın əlindədir, verə də bilər, verməyə də.

1991-ci ildə Qarabağ müharibəsi ərəfəsində yığışıb gəldim Kandalakşa şəhərinə. Kəndlilərimizin yanına. Fikirləşdim ki, Azərbaycanda qalsam yenə məhrumiyyətlər içərisində yaşamalıl olacağıq. Nə elə işim var idi, nə işə yarıyan peşəm. Gələn gündən bizneslə məşğul olmağa başladım. Şükür Allaha, uğurlarım çox oldu. Qardaşım və yeznələrim də burada bizneslə məşğul olurlar. İşləri də yerində. Nigaran qalacağım heç nə yoxdur. Övladlarım üçün də necə şərait desən düzəltmişəmö. Bu kafeni də iki ildir ki, açmışam. Bir oğuldu, hünəri var trampilin kimi qoy istifadə eləsin, daha yüksəklərə qalxsın.

Yoxsa yesin otursun, ailəsinin içində. Topdansatış bazam və bir neçə gül mağazam var. 12 nəfər adam mənim əlimlə ailəsinə çörək pulu qazanır. Hamısını həvalə edəcəyəm ona. Daha mənim istirahət etmək zamanımdır. Qarımı da qoltuğuma vurub, ən gözəl istirahət mərkəzlərində dincəlmək imkanım var. Amma istəyirəm arxayın olum ki, mən üzümü yana çevirdikdə işlər axsamayacaq ki…

– Əgər indiyə qədər bu şəhərin incəliklərini övladlarınıza mənimsədə bilmisinizsə, inşallah axsamaz.

– Mən də ona çalışmışam, ömrümün otuz ilini bu çətin hava şəraitində keçirmişəm. Artıq Vətənə tərəf üz qoymaq, dincəlmək lazımdır. Sağlığınıza orada da hər şəraiti düzəltmişəm. İskəndər Makedoniyalı dünyanın sərvətini yığdı, amma əliboş getdi. Onsuz da dünyadan heç nə aparası deyilik. Heç olmasa indən belə canımıza qulluq edək. Övladlarımın da öz işləridir, istər qurduqlarımı qorusunlar, istər dağıtsınlar. Onların öz qabiliyyətlərinə baxır.

Qardaşım Abasət də bacarıqlı, işgüzar oğlandır. Hər halda o da nəzarətini edəcək. Əsas qaymaq olan qohum-əqrəbaları

buradadır, dostları, tanışları da öz yerində. Allah köməklərində dursun.

İskəndər dünyagörünüşü baxımından da mütaliə cəhətdən də dünya siyasətinə münasibətdə də yetkin və dolu idi. Adam onunla söhbətdən doymaq istəmirdi. Dini məlumatları da geniş və ruh oxşayan idi.

Hər sözü, hər kəlməsi xəzineyi - qəflətdən çıxır,
Dərki kamal əhlidi, kamalu mərifətdən çıxır.

Hər kəlməsilə tutub ram edir sərgəstələri,
Xabu qəflətdə olan ayılıb həqiqətdən çıxır.

Sözləri libas biçərək mənaya pərcim eləyir,
Düzülüb hər kəlməsi sanki xarratdanr çıxır.

Köksündə qəlbi hər an vurur vətən eşqi ilə,
Qürbət özü zar eləyib, dönüb qürbətdən çıxır.

Səməndər diqqət ilə dinlədi o söz əhlini,
Hər kəlamı inci kimi düzülüb eyni xəttən çıxır.

Söhbətimizi yekunlaşdırdıqdan sonra nahar süfrəsi arxasında əyləşdik. Mən hiss edirdim ki, İsgəndər narahat görünür. İş adamı vaxt sarıdan həmişə nigarandır. Görünür onun da vacib işi var. Harasa getmək, kiminləsə iş barədə görüşmək istəyir, – deyə fikirləşərək dedim:

– İsgəndər müəllim, bütün qayğı, diqqət və qonaqpərvərliyinizə görə sağ olun. mən taksi ilə, ya da şəhərlərarası marşrutla qayıdaram. Onsuz da xeyli vaxtınızı aldım…

O, ciddi görkəm alaraq, -Şair, o nə sözdür? Siz mənim adıma, gəlmisiniz, mənim qonağımsınız. Mən sizi taksi ilə yola salsam özüm-özümü bağışlamaram, başqası dursun bir yana. Özüm aparıb sizi hara lazımdırsa qoyub qayıdacağam.

Beləliklə nahardan sonra məni maşını ilə Kandalakşanın

mərkəzinə qoybub qayıtdı. Xudahafizləşərkən:-Arzu edirəm sizinlə Vətəndə işğal altında olan torpaqlarımız qayıdandan sonra-Şuşada, Kəlbəcərdə görüşüb, oarada istirahət edək-deyə əlimi sıxdı.

– Bu ən böyük arzunuza çatmanıza Allah özü kömək olsun, – dedim. – Heç olmasa sizin hesabınıza bir az canımızın acısını orada çıxararıq-deyə zarafat etdim, təki o gün olsun.

– Yeni görüşlərədək.

Rusiyanın ucsuz-bucaqsız çöllərindən, şəhərlərindən keçib, az müddətə onun təkcə bir əyalətini gəzib başa gətirmək mümkün deyil. Heç olmasa iki vilayətin iri şəhərlərində yaşayan tanınmış soydaşlarımızla görüşmək üçün iki ay mənə azlıq edirdi. Ona görə də vaxta qənaət etməklə sürətlə hərəkət etmək lazım idi. Kandalakşadan Petrozavodsk şəhərinə yola düşmək fikrimi bildikdə Vilayət Mahmud oğlu bildirdi ki, Moskva şəhərinə Nadirlə bərabər mal gətirməyə gedəcəklər. Onların maşını ilə Petrozavodsk şəhərinə qədər gedə bilərəm. Mənə görə yollarını xeyli uzaq salmalı idilər. Təkid etməyimə baxmayaraq 12.07.2015-ci il tarixdə Nadir şəkili və Vilayət Mahmud oğlunun maşını ilə şəhər Kandalakşadan çıxaraq axşam tərəfi Petrorazavodsk şəhərinə çatdıq.

Vilayət:

– Müəllim, bizim burada tanıdığımız adam yoxdur ki, deyək, onun yanına get, artıq burada hərəkət etmək özünüzlükdür. Hələ biz Moskva trastına çıxmaq üçün xeyli geri qayıtmalıyıq. Bizi bağışla, biz gedək.

Mən təşəkkür edib:

– Bir-iki gün sizinlə keçirdiyim xoş anlar üçün və qonaqpərvərliyinizə görə çox sağ olun. Allah köməyiniz olsun, yolçu yolda gərək. Yolunuz açıq olsun. Bir-birinizdən muğayat olun, gələn görüşlərədək.

Onlardan ayrıldıqdan sonra yaxında olan Gürcüstan azərbaycanlılarının kafelərinə getdim. Qapı bağlı idi. Görünür

istirahət günü olduğuna görə işləmirdilər. Kazımın kafesi deyilən kafe xeyli aralıda topdansatış meyvə-tərəvəz bazasının daxilində yerləşirdi. Xeyli piybada getmək lazım idi. Getdim. Axşamtərəfi olduğuna görə, kafedə adam az idi. Aşbaza yaxınlaşıb özümü təqdim etdikdən sonra xahiş etdim ki, ağır yol çantasını orada kafenin bir küncündə saxlamağa icazə versin.

O, çox mülayim və gülümsər bir tərzdə: -Görürəm nurani adamsınız, amma kənar adamlardan veş alıb saxlamaq qadağandır. Birdən çantanın… Mən onun nə demək istədiyini anlayaraq. – Mən yazıçıyam, – deyərək çantadan kitabımın birini çıxardıb ona göstərdim:

– Çantada mənim dəysəyimdən və kitablarımdan başqa heç nə yoxdur.

O:

– Mən nə deyirəm – qoy qalsın. Narahat olmayın kimsə toxunmaz.

Mən təşəkkür edib, əl çantamı götürərək, gəzintiyə çıxdım ki, bəlkə kiminləsə görüşə bildim.

**Keçmiş döyüşçü Elsərlə görüşüm**

Bazarın qabağında iki dalanı bitişdirən yolun kənarında balaca bir meyvə köşkü var idi. Köşkün qabağında iki adam söhbət edirdilər. Azərbaycan dilində danışırdılar. Birinin təxminən 23-24, o birinin isə 45-50 yaşı olardı. Yaxınlaşıb salam verdim. Görüşdük. Tanışlıq verdikdən sonra oğlanlardan yaşlı olanı:

– Elə bil ki, sifətiniz mənə tanış gəlir. Amma harada görmüşəm yadıma sala bilmirəm.

– Ola bilər dedim. Ya kiməsə oxşadırsınız, ya da Bakıda, Gəncədə haradasa görmüsünüz.

– İnanmıram ki, oralarda görəm. Özünüz hansı rayondansınız? Əgər mümkünsə.

– Tovuzdan!

– Elə Tovuzda görmüşəm. Mən müharibə illərində orada topçu olmuşam. Sizi orada bir zabit var idi, kəşfiyyatçı ona oxşadıram. Adı yadımdan çıxıb. Deyirdilər yaxşı şeirlər də yazır.

– Bəlkə də düz tapmısınız, – deyə gülümsədim. Mənim adım…Mən adımı söyləyincə. O sevincək əlimi sıxaraq özüdürkü var. Mənim də adım Elsər Eldar oğlu Eldarovdur.

Cavan oğlan da mənə əl uzadaraq, özüm milli orduda, döyüşlərdə olmasam da, Vətənə xidmət edən hər bir əsgər və zabitə böyük hörmətim var…

Elsər:

– Cəbrayıl rayonunun Yolçubəyli kəndindənəm. Düz 1992-ci ilin əvvəlindən 1996-cı ilə qədər Tovuzda xidmət etmişəm. Sulu yüksəkliyi uğurunda gedən döyüşün dirijoru siz, ifaçıları isə biz olmuşuq.

Siyasət:

– O nə olan işdir. Orada orkestrlə döyüşə gedirdiniz?

Elsər:

Müəllim peşəkar kəşfiyyatçı idi. O düşmən mövqeyinə daxil olaraq bizə «Arintrovka» verirdi, biz də bombalayırdıq. Onda ermənilərə yaxşı qulaqburması verdik.

Siyasət:

– Dayı, bizim üçün nə qulluq? Nə desəniz, qulluğunuzda hazırıq.

– Çox sağ olun, mən şəhərə elə indicə Kandalakşadan gəlmişəm. Əvvəlcə gecələmək üçün yer lazımdır, sonra kimlərlə görüşəcəyik məlum olacaq.

Siyasət:

– Mənim ailəm rayona gedib. Özüm tək qalıram. Məsləhət bilsəniz, elə mənim qonağım ola bilərsiniz.

Artıq qaranlıq düşmək üzrə idi. Biz yaxınlıqda olan kafedə əyləşib söhbətimizi orada davam etdirməli olduq. Kafenin sahibi Seymur Xəlil oğlu Musayev Qardabanı rayonundan idi.

## Kərbəlayi Siyasət Fərəcovun mənzilində bir gün

Çay süfrəsi arxasından qalxdıqdan sonra Elsərnən xudahafizləşib Kərbəlayi Siyasət Fərəcovun maşını ilə onun mənzilinə yollandıq. Yolüstü ərzaq mağazasına daxil olaraq evə bazarlıq etdikdən sonra maşını yaxınlıqdakı dayanacağa qoydu. Bu şəhərdə də hər binanın özünəməxsus dayanacağı var idi və sakinlərdən saxlanma haqqı alınmır.

Siyasətin atası da özü də bizneslə məşğul olur. Özunəməxsus son dəbdə tikilmiş 3 otaqlı mənzili var. Axşam şam yeməyi hazırladıqdan sonra məndən üzr istəyərək qonşu otağa namaz qılmağa keçdi. Qayıtdıqdan sonra:

– Müəllim, atam-anam çoxdan burada yaşayırlar. Mən burada böyümüşəm. Uşaqlıqdan atama kömək eləməyə başladım. Çox vaxt başqa şəhərlərə də malı özüm aparır, satıb qayıdırdım. Bəzən məni uşaq görüb aldatmaq istəyənlər də olurdu. Amma sonra görürdülər ki, yox, mən uşaq olsam da, bu alverin cikini-bikini onlardan yaxşı bilirəm. Sonra atam alver işini mənə tapşıraraq, özü ferma təsərrüfatı yaradaraq, bu şəhərdən xeyi aralıda ətlik və süd məmulatları hazırlamaqla məşğul olmağa başladı. Burada da rayonumuzda da mənim və qardaşımın hər şəraitimiz var. Bircə Allah cansağlığını əsirgəməsin, amin.

Axşam müxtəlif mövzuda söhbətlərlə günü sona vurduq. Səhər namazına Siyasət məndən erkən oyanmışdı. Namazını yekunlaşdırıb səhər qəlyanaltısına hazırlaşarkən atasından zəng gəldi. Cavan əmisi Moskva şəhərində ürək keçməsindən vəfat etmişdi. Hamısı yığılıb Moskvaya getməli idilər. Siyasəti qəhər boğur, danışmağa boğulurdu. – Allahın işinə baxın, bir əmim də keçən il qəflətən rəhmətə getdi. Bu nə taledir, bu nə yazıdır. İndi də bu əmim belə, yazıq ata.

Allah səbr versin-dedim. Olacağa çarə yoxdur. Bir az çalış atana toxdaqlıq ver. Onu tək buraxmayın.

– Bağışlayın ki, belə alındı. Mən getməliyəm. Siz də görün işinizi yoluna qoya bilirsinizmi.

– Biz evdən çıxdıq. O məni dünən çantamı saxladığım kafeyə gətirib özü xudahafizləşərək getdi. Arada telefon əlaqəsi saxlayaraq bir neçə gündən sonra təkrar görüşdük. Çox pərişan görünürdü...

Kafe nahar fasiləsi olduğuna görə, dolu idi. Bir-iki boş yer qalmışdı. O da kafenin sahibinin əyləşdiyi masanın arxasında. Salam verib həmin masanın boş stulunda əyləşdim. Məni çaya dəvət etdilər.

Masada əyləşənlərin biri Ağdam rayonunun Novruzlu kəndindən olan Rəfael Təyyar oğlu Abbasov və Rüfət Mamedov adlı biri ilə tanış olduq. Rəfael çox istiqanlı və xoşrəftar adam idi. İşlərinin düz gətirmədiyindən şikayətlənərək:

– Həyat belədir, qardaş, kimə Allah pul verir ona səxavət bəxş etmir, kimə səxavət, açıqqəlb verir, onu maddi imkandan məhrum edir. Bax, mənim əlimdə imkan olanda bir nəfər də olsun sözümü yerə saxmazdı. Qardaş, nə lazımdır, nə kömək edim, – deyə əldən-ayaqdan çıxırdılar. İndi isə bir nəfər də olsun dərdimi soruşan, halımı xəbər alan yoxdupr. Kimsə mənə əl uzadıb məni bu balotadan çıxartmaq istəmir. Bax, budur həyatın qanunu. Zəif oldun, öldün, ayaqlandın, qalxmaq istəsən ətrafındakılar sənin başından aşağı basmağa çalışacaqlar ki, bir daha ayağa qalxa bilməyəsən. Yaxşı insanların isə sənə əli çatmır. Çünki səninlə onun arasında o qədər nadürüstlər yığılır ki, o heç səni görə bilmir, ya da o da səndən betər imkansızdır. Qələm adamları bunu daha yaxşı bilər. Onların da möhkəm əllərə ehtiyacı olur. Kimin belə ələ əli çatırsa qalxır, quyunun başına kimin ki, köməyi olmur, elə qalır quyunun dibində səzsiz-soraqsız.

Çay süfrəsi arxasında söhbət edə-edə Rəfaelin həyatı haqqında söylədiyi sözlər mənə təsir etdiyinə görə bu şeiri yazdım:

Ay Rəfael, elə bil ki, sözlərin,
Ürəyimə alov saldı, köz saldı.
Ağrı dolu, əzab dolu bu həyat
Sinəm üstə əyri-üyrü iz saldı.

Deyirsən ki, gəlhagəlim var idi,
Tanrı sənə həmdəm idi, yar idi.
Həyat bağın xoş nübarlı bar idi,
Taleh vurdu o zirvədən tez saldı.

Həyat belə gəlib-getməz, a qardaş,
Xoş günlərin qaldıracaq bir də baş.
Dost olasan Tanrı ilə sən də kaş,
Səməndər də bu arzuya iz saldı.

Kafedən çıxdıqdan sonra anbarlardan birinin sahibi Faiq Əhmədovla tanış olduq. Ortayaşlı adam idi. Qardaşı ilə birgə çalışırdılar.

Həyatın çox keçməkeşlərindən adlayıb sonda bu şəhərdə qardaşının yanında qərar tutmuşdu. O da Masallı rayonunun Çayqıraq kəndindən idi. Kəndliləri də onu yaxşı insan kimi sevirdilər. Əvvəllər Kaliningrad və Urenqoy şəhərlərində olmuş, başına çox macəralar gəlmişdi. Amma heç zaman öz dəyanətini, mənliyini sındırmamışdı.

Başına gələn əhvalatlardan çox danışdı. Ona görə də bu şeirin onun danışığından uyğunlaşdıraraq qeydə aldım:

Viranəyə dönsün bu eşqi görüm,
Görün bir başıma nələr gətirdi.
Mən ondan azacıq sevinc umurdum,
O mənə dağ boyda kədər gətirdi.

Saxladım çiynimdə hicran dağını,
Sındırdı eşqimin şah budağını.

Səpilmiş illərə gün yarpağını,
Bu xəstə könlümə zəhər gətirdi.

Ağlayıb sirrimi daşlara dedim,
Dərdimi sellənən yaşlara dedim.
Talehdən eşq adlı köhlən istədim,
Belimə minməyə yəhər gətirdi.

Fərhada acıyıb Məcnunu andım,
Namiq tək boğulub, Kərəm tək yandım.
Sənanın halına baxıb dayandım,
Qismətim ondan da betər gətirdi.

Səməndər eşq dərdli, hicran yaralı,
Həsrət alovundan durmur aralı.
Dadıma çağırdım ağlı, kamalı,
Onlar da danlaqlı qəhər gətirdi.
*27.06.2015, Murmansk*

Rast gəldiyim Çayqıraqlıq gənclərdən də eyni səmimiyyət və hörmət gördüm. Fariz Tofiq oğlu Bağırov, Elvin İmanqulu oğlu, Mayıl Ağamalı oğlu və başqaları ilə görüşəndə məndə xoş təəssürat oyandı.

Gənclər mənim qalmağa yer axtardığımı bilən kimi öz maşınları ilə Vəlinin mehmanxanası deyilən mehmanxanaya, ya da mənə lazım olan ünvana apararaq, qayğı göstərirdilər.

Siyasət əmisinin hüzur yerinə getdikdən sonra həmin cavanlardan birinə yaxınlaşıb, yaxında mehmanxana olub-olmamasını soruşaraq, məni munasib bir mehmanxanaya aparmalarını xahiş etdim:

– Mayıl:

Bir azərbaycanlı mehmanxanası var. Sahibi Kulturnu Vəlidir. Vaxtilə dövlət işlərində çalışıb. İndi mehmanxana işlədir. Gedək,

bəlkə orada yer tapa bildik. Hər halda olsa yox, deməz.

İş saatının sonu idi. Onların maşını ilə Vəlinin mehmanxanasına yollandıq.

Mehmanxana çox da böyük olmayan ikimərtəbəli bina idi. Birinci mərtəbəsində yeməkxana, ikinci mərtəbəsində isə mehmanxana yerləşirdi. Biz Mayıl Aağamalı oğlu, Elvin İmanqulu oğlu və Fariz Tofiq oğlu ilə içəri daxil olarkən ikinci mərtəbədən iki azərbaycanlı cavan oğlan enməkdə idi. Mayıl və Elvinlə əl tutub səmimi görüşdükdən sonra Mayıl mehmanxanada yer olub-olmamasını soruşduqda:

Onlardan biri:

– Atam yuxarıda kabinetdədir. Özündən soruşun, əgər olsa, yəqin yox deməz.

Vəli açıq sarışın sifətli, səliqə ilə daranmış ağ saçları şux geyimli qalstuklu, hündürboy bir adam idi. Elə baxan kimi anladım ki, niyə ona Kulturnu Vəli deyirlər.

Bizi gülərüzlə qarşılamasa da, ciddi və nisbətən səmimi:

– Xoş gəlmisiniz. Eşidirəm sizi.

– Oğlanlardan biri məni göstərərək:

Bu əmi qonaq gəlib, yer lazımdır.

– Vəli:

– Çox təəssüf edirəm, bütün yerlərimiz «Bron»dur.

– Heç olmasa bu axşamlığına.

– Olsa qurbandır, sizə dedim axı yoxdur.

– İndi bəs nə edək? – deyə Elvin dilləndi. – Qonaq çöldə qalmalı deyil ki.

Mən çantamdan bir kitab çıxardaraq, Vəliyə göstərib özümü təqdim etdim ki, bəlkə yumşala, yer boyun ola.

Vəli:

– Bu gün istirahət günü olduğuna görə, qonaq çox olur. Heç mənim özümə də yer qalmayıb. O karidorda divanda mürgüləməli olacağam.

Cavanlar da pərt olmuşdu. Mən onlara:

– Narahat olmayın, hər halda bir yer tapılar. Başqa yerdə.

Cavanlardan biri:

– Gəl gedək. Olmaz öz uşaqlarımızın yanında soraqlaşıb bir yer taparıq.

Biz aşağı enib maşına əyləşməkdəykən, Vəli arxamızca enərək, bayıra çıxdı və bizə yaxınlaşaraq:

– Bir dəqiqə dayanın.

Bu vaxtda heç yerdə yer tapa bilməyəcəksiniz, qoyun qonaq qalsın. Bəlkə «Bronlardan» biri gəlmədi, ya da əlavə «raskladuşqa» qoyarıq mənim yanımda qalar.

Cavanlar mənim üzümə baxdı. Ayrı seçimim olmadığına görə elə təklif mənim də ürəyimdən idi. Razılaşdım. Cavanlar mənimlə əl tutaraq görüşüb getdilər. Sonralar da onların maşını ilə bir neçə dəfə həmin mehmanxanaya yatarğaya gəldim.

## Vəli Hacızəməd oğlu Tərəkəməyevlə tanışlıq

Məni mehmanxanaya gətirən cavanlar dönüb getdikdən sonra Vəli yenə ciddi mimikayla:

– O cavan oğlanlar kim idi? – dedi.

– Bazarda alver edirlər.

– Sizi haradan tanıyırlar? Nə əcəb sizin qayğınıza belə canfəşanlıqla yanaşırlar. Əvvəldən tanışlığınız yoxdu heç?

– Onlar qanlarında olan etik norma çərçivəsində, insanlıq naminə qonağa, böyüyə hörmət göstərirlər. Sağ olsunlar. Yaxşı uşaqlardır.

– Onda yəqin yerlilərinizdir.

– Mən Qərb bölgəsindənəm. Onlar Cənub. Eyni Vətənin övladlarıyıq. Bir də onlarda böyüyə hörmət ənənəsi güclüdür. Vəlinin sifəti açıldı, əlini saçlarına çəkərək gülümsədi.

– Hansı rayondansan?

– Tovuzdan

– Mən də Qazaxdanam, yerliyik ki. Vallah incimə, məni düz




*Vəli Hacıəhməd oğlunun mehmanxanası*

başa dşüməyə çalış. Yaxşılıq da imkan daxilindədir. Bizdə otaqların sayı azdır, o da bronladır. Əvvəldən zəng edib yer sifariş verirlər. Bu dəqiqə internet əsiridir. Hər iş onunla həll olunur. Siz çıxandan sonra fikirləşdim ki, mən nə edirəm, bu vaxt gedib harada yer tapacaqsınız. Yaxşı olmazdı, vallah…

– Vəli qardaş, narahat olmağa dəyməz. Mən ki, sizin yanınızdayam, deməli hər şey yaxşıdır. Axan su öz yolunu tapacaq. Qismətdə nə var odur. Qismətdən artıq heç nə yemək olmaz.

– Orası elədir. Çantalarınızı qaldıraq qoyaq, mənim otağıma. Sonra da düşək görək. Allahverəndən nə tapırıq.

Biz kafedə əyləşib şam süfrəsi arxasında söhbətimizi davam etdirməyə başladıq.

Vəli:

– Necə olub ki, gəlib bu şəhərə düşmüsən?

– Mən qələm əhliyəm. Rusiyanın bütün vilayətlərində olub,

orada yaşayan iş adamları ilə, yaxşı insanlarla görüşüb tanış olmuşam. İndi də səfərim. Murmansk şəhərindən burayadır. Bəs siz necə gəlib buraya düşmüsünüz?

– Mən də hərbi xidmətdən sonra bu şəhərdə ali məktəbə qəbul oldum. Təhsilimi başa vurduqdan sonra da burada işə girdim, müxtəlif vəzifələrdə çalışdım. Bir dəfə elə oldu ki, müdiriyyətlə sözümüz düz gəlmədi. Çerez Moskva ilə bir başa Azərbaycan meşə təsərrüfatı nazirliyinə məktub aldım. Məsələ belə idi ki, əgər Azərbaycan məni qəbul edib işlə təmin etməyə razılıq versə idi, onda buradan tam azad olmalı idim. Onda artıq Janna Qüdrət qızı ilə evlənmişdik. O da burada tibb institutunu bitirib, həkim işləyirdi. Qərara gəlmişdik ki, Azərbaycanda işlə təmin olunub, orada işləsək, daha yaxşı olar. Hə, qardaş, çox uzun çətinlikdən sonra Azərbaycana dəyişildim. Nazirliyin xətti ilə meşə təsərrüfatı idarəsində işə düzəldim. Hələ arada xeyli işsiz də qaldım. Sovet dağıldıqdan sonra da qayıdıb gəldim. İndi yoldaşım həkimdir. İki əkiz oğlum-Ramin və Rəfael, Angelina adlı bir qızım var. Allaha çox şükürlər olsun. Ramin həkim kardioloqdur. Rəfael isə ali təhsilli bank işçisidir. Qızım isə tibb institutunun sonuncu kursunda oxuyur. Boş vaxtlarında yoldaşım da, oğlandarım da mənə kömək edirlər. Elə internetlə müştərilərlə əlaqəni də oğlum yaradır. Burada yaşayan ağsaqqal azərbaycanlıların əksəriyyəti ilə xoş münasibət saxlayırıq. Görürsəm də açıqürəklə görüşürük. Xeyirdə, şərdə həmişə bir yerdə oluruq. Söz var ki, həyatda heç nə əbədi deyil, əbədi olmayan dünyada əgər yaxşı əməllərə gücümüz çatmırsa, yaman əməllərə də yol verməməyə çalışmalıyıq. Həyatda ən böyük qazancım övladlarımın səviyyəli, ağıllı olmalarıdır. Bundan belə Allah özü bilən məsləhətdir…

Petrozavodsk şəhərində qaldığım həftə ərzində artıq Vəli ilə bir-birimizə çox isinmişdik. Bir həftə illərin təsir dairəsi qədər xoş münasibət yaratmışdı. Əl-ayaq yığılandan sonra yeməkxanada nərd oynayır, gəlmişdən-keçmşdən danışırdıq.

Vəlinin çox maraqlı keçməkeşli həyat yolu var idi. Çox istərdim ki, maraqlı ömür yolundan bəhs açım, amma özü dönə-dönə xahiş etdi ki, müəllim, keçmiş elə keçmişdə qaldı. Onu bir daha övladlarımın xəyalən yaşamalarını belə istəmrəm. Xahiş edirəm mənim barəmdə ümumiyyətlə heç nə yazmayın. Hə, başüstə, desəm də, onun yaxşılığı müqabilində heç olmasa öz xatirələrimi yazmaqla oxucularıma çatdırmaq istəyirəm ki. Bütün ömrünü zəhmətlə çalışaraq halal çörək qazanan ömrünü–gününü övladlarına həsr edərək onalrın xoşbəxtliyi naminə canından keçməyə hazır olan, gah mülayim, gah sərt davranışları ilə səliqəli geyimi və mədəni rəftarı ilə ilk görüşdə ziddiyyətli görünən, daxilən sabit, yanımcıl, narahat və özünəsığmayan Kulturnu Vəli Əhməd oğlu kimi insanlar gərəkli insanlardır. Bir də Vəli Əhməd deyəndə yadıma elimizin-obamızın şair oğlu dostum Vəli Əhməd düşürdü. Elə bu misralarla onu anmaq, xatırlamaq bir-biri ilə düz münasib olan iki insanın birinə minnətdarlıq edib digərinin xatirini yad etmək yerinə düşərdi.

Dünya belə qalan deyil, ay Vəli,
Bəlkə bir az bu dünyada söz qala.
Odun yanar ocaqlarda, gurhagur,
Küldən başqa çətin sönməz köz qala.

Günlər ötər qasırğalı sel kimi,
Aylar illər uçub gedər yel kimi.
Xatirələr dona düşmüş göl kimi,
Qorxmuruq ki ürəklərdə buz qala.

Bir ocağıq özümüz də bir ocaq,
Allah bilir kim nə qədər yanacaq.
Kimdə yoxsa bir mərifət, qanacaq,
Yanan deyil yüz körüklə yüz qala.

Yaxşı, yaman bəzən düşmür heç yada,
Nə ölüm var, nə itim var, nə qada.
Var-dövlət də sonra çatmır heç dada.
Gərək bir az insaqlıqdan iz qala.

Biz baş vurduq keçmişlərə, a qardaş,
Xatirələr gözlərindən axan yaş.
Uçub getdi nə dam qaldı, nə də baş,
Səməndər də sökülmüşdü az qala.
*14.07.2015, Petrozavodsk şəhəri*

**Rza Məsim oğlu Qasımov**



Petrozavodsk şəhərində iki-üç nəfər tanınmış iş adamlarından biri Rza Məsim oğludur. Hələ bazanın həyətinə qədəm qouyduğum ilk günü onun adını üç-dörd nəfərin dilindən eşitdim. Hansı azərbaycanlıya yaxınlaşdımsa, məndən ilk soruşduğu bu olurdu. Rza ilə görüşmüsənmi?

– Xeyir.

– Cəmiyyətin sədri ilə necə?

– Onunla da görüşməmişəm. Deyirlər o heç şəhərdə yoxdur.

– Yaxşısı budur, siz birinci Rzanı tapın. Ondan sonrasını o, özü həll edəcək. Kiminlə, necə görüşmək lazım olduğunu o sizə başa salar.

Bir-iki gün onunla rastlaşa bilmirdim. Üzdən tanımadığıma görə, bir neçə dəfə qabaqlaşmağıma baxmayaraq, tanış ola bilməmişəm. Demə o da mənim əlimdə kiçik çanta dolaşdığımı sezibmiş.

Bir gün anbarların birinin önündə ağırtonajlı maşından yük boşaltdığını və yanında xeyli azərbaycanlı dayanıb söhbət etdiyini gördüm. Yanlarından ötüb keçmək istərkən, bəstəboy, arıq bədənli, sadə geyimli ortayaşlı bir adam diqqətlə üzümə baxaraq, gözlərini qıyaraq:

– Ağsaqqal, bir ayağını saxla görüm.

Mən:

– Salam, eşidirəm sizi.

– Əleykum salam. Neçə gündü sizi görürəm buralarda hərlənirsiz. Kimsiz, nəçisiz, buralarda nə axtarırsız, bəlkə nəyəsə ehtiyacınız var. Sıxılıb demək istəmirsiniz…

– Çox sağ olun, diqqətinizə görə. Mən qələm adamıyam, qürbətdə olan tanınmış soydaşlarımızla görüşüb, kitab yazıram.

O gülümsəyərək:

– Əcəb eliyirsən. Kimdən yazırsan, necə yazırsan?

– Əvvəl görüşüb, tanış oluruq.

– Sonra?

– Sonra da iş fəaliyyətindən, gördüyü işlərdən, quruculuğundan, yaradıcılığından, nə qədər həmvətənlərimizə imkan yaratdığından söhbətləşib yazırıq.

– İndi bax burada kimi axtarırsan.

– Rza kişini, Hüseyni- bu bazanın sahiblərindən birini.

– O qolumdan ehmallıca yapışaraq:

– Hələ bir bura gəl görüm, bəlkə səninlə sözüm tutdu. Biz geniş bir ərzaq mağazasına daxil olduq. İşçilərin hamısı əl-ayağa düşdülər. Kimi stolun üstünü nizama salır, kimi stul çəkir, ayağa qalxıb yer göstərir.

O:

– Qonağım var, bir yaxşı çay dəmləyin. O bahalı şirniyyatlardan da gətirin. Mənə:

Hə qardaş, Rza kimdir ki, onu axtarırsan?

– Deyirlər bu bazanın sahiblərindən biridir.

– Heç görmüsənmi onu?

– Yox, görməmişəm sağ olmuşla görüşmək mümkündür ki, hara gedirəm, elə deyirlər burada idi, elə indicə belə getdi. Yenicə kafeyə girmişdim, – dedilər elə qabağınca çıxıb belə getdi. – Orada olan azərbaycanlılar da, müsahibim də güldülər. Məndə bir balaca şübhə yarandı-Onu axtarmaq üçün o biri anbarlara gedirdim ki, sizi gördüm. Yəqin ordan da harasa gedəcək.

– Yox getsəniz də, orada tapa bilməyəcəksiniz?

– Niyə? -deyə mən təəccüblü dilləndim.

– Ona görə ki, o orada yoxdu. İndi…bu saat.

– İndi, bu saat… nə olub?

– Heç nə olmayıb. İndi o sizin qarşınızdadır… – Mən tərəddüdlə ona, sonra ətrafda dayananlara baxdım. Biri mənə göz vurub, başı ilə hə, işarəsi verdi. – Mənə inanmırsan?

– Niyə inanmıram-əslində inanmırdım, hələ ona şübhə ilə, odurmu, o deyilmi? Nəzəriylə baxırdım. O gülərək:

– Mənim görkəmimlə adım həmişə təzad təşkil edir. Rza deyəndə hamı elə güman edir ki, boylu-buxunlu, ətli-əndamlı, cüssəli adamam. Bu cılız bədəndə sadə, düşük geyimdə görənlər məndən üz çevirirlər. Açığı insanların belə düşüncələrindən həzz alıram. Bir gün rayonda kəndin arasında tay-tuşlarla söhbət edirdik. Bu vaxt rayondan məni axtaran biri, hündürboy, enlikürək şux geyimli yoldaşlarımın birinə yaxınlaşıb onu bərk-bərk qucaqlayaraq:

– Ə, Rza, qardaş, xoş gəlmisən. Ə, adam gələndə səssiz-soraqsızmı gəlib-gedir.

Həmin adam onu özündən aralamağa çalışaraq:

– Ə, rəis dayan, görüm. Adam deməzmi, bir qardaşım var, gedim görüm necədi.

– Ə kişi, bir dayan görüm…

– Necə yaşayır, bir oturaq-duraq.

Adam təngə gələrək:

– Aya, rəyis, a kişi, Rza mən deyiləm. Rza odur ey.

– Ə necə Rza deyilsən. Səndən yekə Rza olar? – O indi də

başqa adama tərəf yönəldi. – Ə sağ olmuş, desənə, Rza mənəm, – tamam tərləyib pörtmuş halda indi də onu qucaqlamaq istədi: – Bıy sənin qadan alım…

– Mən də deyiləm deyə, - o adam da gülə-gülə yaxasını kənara çəkdi.

«Bəyin oğurlanmasında» İsrafili axtaran kimi o da başladı gah ona, gah buna yönəlməyə-Rza, Rza, Rza hansınızsınız ə, bə?

– O-dur ey, odu dayanıb yanında, – deyə məni göstərdilər. Səhərdən hamını qucaqlayırsan. Əsil Rza da qalıb kənarda.

İnandırıram səni, o mənə çəpəki xeyli baxıb nə desə yaxşıdı?

– Rza budu, ə? O Petrozavodsk Rza?

– Elədir ki var, – deyə camaat dilləndikdə.

– Ə belə də Rza olar-sonra köntöycəsinə-ə, bir bəri gəl görüm, ə.

– Nə olub ay rəis, mən neyləmişəm?

– Ə neyləyəcəksən. Gəlmisən, heç demirsən, aşna, donuzun da bərəkətli olsun.

– Siz donuz saxlayırsınız? –deyib özümü bilməməzliyə vurdum.

– Ə, nə donuz, feşməkan. Donuz saxlayacaq olsaq nə dərdimiz var idi ki? Hə, başına dönüm, belə –belə işlər gəlib başıma, mənə pul lazımdır.

…Belə işlər çox olub. Həmişə də məni soraqlayan adam məni qeyri adi nəzərlərlə qarşılayıb-deyə Rza söhbətinə davam etdi. – İndi danış görüm, tutaq ki, deyirsən kitab yazıram. Mən nədən bilim ki, sən yazıçısan və həqiqətən bizim barəmizdə də yazacaqsan?

Mən öz kitablarımdan bir neçə nüsxə çıxardıb stolun üzərinə qoydum. –Burada yazılanların hamısı iş adamları və ya tanınmış ziyalılarımızdır. Onlar barədə yazılıbsa, deməli, növbəti kitabda siz də olacaqsınız.

– İndi yazılacaq olsa kitab haçana hazır olacaq?

– Gələn il bu vaxtlarda kitabınızı alacaqsınız.

– Deməli, bir ildən sonra. Onda səni eşidirəm, – deyə təzəcə süzülmüş çay stəkanını mənim qabağıma tərəf çəkdi.

– Çay içməyi də unutma…

Bir neçə dəqiqə çay içib şirniyyatdan daddıqdan sonra söhbətimizi davam etdirdik.

Rza:



*Atası Məsim Məhəmməd oğlu*

– Mən özüm 14.04.1960-cı ildə Goranboy rayonunun Qaradağlı kəndində kasıb kolxozçu ailəsində anadan olmuşam. Atam Məsim Məhəmməd oğlu elektrik-çilingəri idi. Anam Qəndab Müseyib qızı isə evdar qadın kimi yalnız dünyaya gətirdiyi yeddi oğlunun, bir qızının tərbiyəsi və ev işləri ilə məşğul olurdu. Təsərrüfatla məşğul olmaq da onun üzərinə düşürdü. İndi təsəvvür elə, bir adamın cüzi maaşı ilə bu böyüklükdə ailə necə dolana bilərdi. Yarı ac, yarı tox, ürəyin istəyincə yeyə bilməmək, kefin istəyincə geyinə bilməmək gözü ilə cəhənnəmi dirigözlü görmək deməkdir. O vaxtlarda isə bu heç kəsin vecinə deyildi. Çünki inqibator cücəsi kimi hamı əkib tökürdü, hamısı da bir vəziyyətdə. Sanki çox uşaqlılıq yarısı gedirdi. Özü də deyirdilər təki Allah uşaq versin, burnunun suyuyla böyüyər. Sonra isə heç bir valideyni maraqlandırmırdı ki, bu uşağın həyatı, yaşayışı, təminatı necə olacaq. Nə isə, indi də görürsən bir uşaq olan kimi deyirlər bəsdi, buna da şükür. Beləlləri də həyatın istisini, soyuğunu fikirləşə bilmir. Sonra da qalır matməəttəl.



*Rza anası Qəndab Müseyib qızı ilə*

1977-ci ildə Qaradağlı kənd orta məktəbini bitirib, Gəncə şəhər ticarət texnikumuna daxil oldum. 1979-cu ildə isə texnikumdan hərbi xidmətə yollandım. İki il 1979-81-ci illər arası Sverdlovsk şəhərində qulluq elədim.

Xidmətdən döndükdən sonra xeyli müddət Qaradaqlı kəndində ticarətlə məşğul olmağa başladım. Bu ara vəziyyətim pis deyildi. Həm ailəyə kömək edir, həm də xərcləməyə pulum olurdu. Sonra nə isə fikrimə doldu ki, üz tutub rayondan uzaqlaşacağam. Artıq rayonda məni istəməyən ayağımın altını qazmaq istəyən adamlar peyda olmuşdu. Ona görə də çox götür-qoy etdikdən sonra Ukraynaya gedib, üç il orada alverlə məşğul olmağa başladım. Üç ildə Volqoqradda oldum, sonra üz tutdum Petrozavodsk şəhərinə. Harada oluramsa olum, əziyyət yorulmaq nə olduğunu bilmədən, gecə-gündüz çalışmaqla heç kəsin önündə əskilmək istəmirdim. Həmişə də vəziyyətim yaxşı olub. Elə vaxt olub ziyan eləmişəm, külli miqdarda mal batırmışam. Amma tez də onu dirildə bilmişəm. Heç vaxt ruhdan düşməmişəm. Elə bu günə qədər Allaha qurban olum, ruhdan düşmək mənə yaddır. Düz 25 ildir ki, burada –



*Rzanın qardaşları: (soldan) Şikar, Əjdər, Firudin və Zahir*

Petrozavodsk şəhərindəyəm, üç firmanın sahibi, bir firmanın, ticarət mərkəzinin həm sahibiyəm, oranı Hüseyn Məmmədovla şərikli açmışıq. Çox yaxşı insan və səmimi yoldaşdır. İnşallah səni onunla da tanış edəcəyəm. Mənim adım harada, onunku da orada. İşçilərin çoxu yerli millətlərdəndir. 90 nəfər işçidən yalnız altı nəfəri azərbaycanlılardır. Onların da Rusiya vətəndaşlığı var. Əgər işçilərdən biri miqiratdırsa, ona cərimə ödəməlisən, üstəgəl əlavə baş ağrısı. Bu mənə lazımdır, əlbəttə yox. bu gördüyün azərbaycanlılar da neçə ildir mənimlə birgə çalışırlar, başlarını sallayıb ailələrinə çörək qazanırlar. Özüm ailəliyəm. Yuliya, Samir və Elmir adlı üç övladım var. Özüm həyatın bütün əzab-əziyyətini çox görmüşəm, ona görə də çalışıram ki, uşaqlarım o çətinlikləri görməsinlər.

Həyatda normal insanın yaşayışından da artıq onlara şərait yaratmışam. Mən dünyadan getsəm də, onların heç nəyə ehtyiacı olmayacaq.

Mən onun sözünə müdaxilə edərək:
– Yalnız bir şeydən başqa.
Rza təəccüblə üzümə baxaraq:
– O nədir elə? Nəyə ehtiyacları ola bilər ki elə?
– Ata nəfəsinə, ata məhəbbətinə.
– Necə yəni? Məgər mən…
– Yox özünüz demirsiniz ki, mən dünyadan getsəm. Ondan sonra övlad bu həsrəti, bu yoxluğu daha çox hiss edir və atanın dəyərini daha çox anlamağa çalışırlar.
– Əhsən, onu düz dediz. Mən özüm ata olsam da, atam yadıma düşəndə ürəyim qaynayır. Nə yaxşı ki, anam hələ sağdır. Lakin qismətdən o da xəstədir, yataq xəstəsi. Tez-tez yanına gedirəm, yenə də ürəyim yanındadır.

«Ana, ana, o adın qarşısında bir qul tək,
Həmişə səcdədə olmaq mənə fəxarətdir.
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm, bəzmi istirahətdir.

Əs, ey külək, bağır, ey bəhri biyaban, ləpələn!
Atıl cahana sən, ey ildırım, alış, parla!
Gurulda, taqi səmavü, gurulda, çatla, dağıl,
Sön ey günəş, yağışın yağdır, ey bulud ağla.

Bunlar mənə əsər eylərmi? Mütləqa yox, yox!
Fəqət Ana! O müqəddəs adın qabağında
O pak bağrına bassın məni, desin lay-lay,
Təbəssüm oynadaraq titrəyən dodağında.

Bütün vücudum əsər, ruhum eylər pərvaz,
Uçar səmalara o aləmi xəyalətdə.
Yatar, ölər bədənim nitqdən düşər bir söz,
Ana, ana, sənə rahibəm itaətdə.

Ölməz Cəfər Cabbarlının bu ana şeiri cəmi anaların əbədi heykəlidir ki, nə qədər insan var, bəşəriyyət var, daim yad ediləcəkdir.

– Rza, qardaş, bacından burada kim var? – deyə sordum. O xeyli susub dilləndi:

Atam 62 yaşında xərçəng xəstəliyindən rəhmətə getdi. Nə qədər çalışdıq, hara apardıqsa, xeyri olmadı. Qardaşlarımdan rayonda anamın yanında olanlara da hər cür şərait yaratmışıq.

Qasımov Şikar Məsim oğlu, Qasımov Firudin Məsim oğlu da bu şəhərdə çoxdandır bizneslə məşğul olurlar. Həmişə də kəndimizin bütün işlərinə qarışırıq. Necə deyərlər, bir əlimiz oradadır.

Bayram günləri ərəfəsində hansımız rayona gedəsi olsaq, əlsiz-ayaqsızlara əl tutub, kömək edirik.

Məndən sonra kəndimizdən 70 nəfər gəlib burada yerləşdilər. Necə deyərlər, yol göstər, hər kəs yolunu tapacaq. O qol saatına baxaraq, heç soruşmadım qalacaq yerin varmı, harada yerləşmisən.

– Çox sağ olun, Vəlinin mehmanxanasındayam. Gözəl insandı.

– Hə, Kulturnu Vəlini deyirsən? Qardaşdı ki, lap yaxşı. Məndən salam deyərsən.

– Göndərən sağ olsun.

– Onun işləri necə gedir?

– Şükür yaradana, şikayət etdiyini eşitmədim.

Biz onun maşını ilə özlərinəməxsus olan ticarət mərkəzinə yola düşdük. İkinci mərtəbəyə qalxıb geniş salonlu, yumşaq oturacaqlı divan kürsülərdə əyləşib, nahar üçün yemək sifariş etdikdən sonra mənə sən quraqda beş-on dəqiqə gözlə, mən bir baxım görüm uzun buradadırmı?

– O kimdi elə? – deyə soruşduqda.

Gülərək:

– Mənim keçəl qardaşım, Hüseyn bay Qara. Bilirsən də

Hüseyn bay Qara kim olub.

– Bilirəm, özbək hökmdarı, Əlişir Nəvainin dostu.

– Ay atan rəhmətlik. Bu Hüseyn bay Qara da mənim dostum həm uzun, həm keçəldi, həm də daz, bu binaya şərikik. İndi gördün o neçə adamı əvəz edir?

– Bəli, gördüm.

– Haradan gördün? Sən ki, hələ heç onun şəklini də görməmisən?

– Sizin təsvirinizdən hər şey aydın oldu. Daha şəklə ehtiyac qalmır. Bir də üzünü görsək olar lap əla.

Rza bütün hərəkət və davranışları ilə məni sərbəstliyə dəvət edirdi. O həm zarafatcıl, həm də açıqqəlbli adam idi. Uşaqdan böyüyə kimlə görüşüb söhbət edirdisə, hamı ilə eyni dərəcədə sadə görünürdü.

O, məni kafedə qoyub, gedəndən sonra mənimlə yanaşı, stolda əyləşib öz tay-tuşlarından biri ilə söhbət edən cavan oğlanlardan biri:

– Əmi, deyəsən bu şəhərə təzə gəlmisiniz.

Mən: mehribancasına:

– Qadan alım, nədən bildin təzə olduğumu.

– Burada birinci dəfədir görürəm. Rza dayının qohumusunuz?

– Xeyr. Onunla da təzə tanış olmuşuq. Bu şəhərdə mən təzəyəm, şəhərdə hər kəs mənə təzədir. Sizin sözünüzə qüvvət, bizdə ayrım lətifələri geniş yayılıb. Birində yazılır ki, bir gün cavan bir oğlan mağazaya daxil olub bir alət göstərərək, mədəni nəzakətli şəkildə deyir:

– Qəşəng qızlar, bağışlayın, o qarmonu neçiyə satırsınız?

Qız da ona göz süzdürüb eyni nəzakətlə deyir:

– Cavan oğlan, biz gədəbəylilərə qarmon satmırıq.

Oğlan çox pərt olur. Lakin biruzə verməyib, çıxır. Bayırda xeyli fikirləşdikdən sonra gedib üst-başını düzəldərək qayıdır. Qiyafəsinə söz ola bilməzdi.

O yenə qıza yaxınlaşıb Bakı ləhcəsində soruşur:

– Bir dəqiqə olar. –Deməzsiz o qarmon neçiyədi?

Qız yenə gülümsəyərək:

– Qəşəng oğlan, biz gədəbəyliyə qarmon satmırıq, – deyib üzünü yana çevirir.

Oğlan yenə pərt olub mağazadan çıxır.

Gedib yenidən qiyafəsini dəyişir. Gözlərinə eynək taxır, başına fransız sayağı şlyapa qoyub, fransız turistlərlə bərabər içəri daxil olur. Qız onu bu qiyafədə heç tanıya bilməzdi. Özü də fransız ləhcəsiylə yenə qızı işarə ilə yaxına çağırıb:

– Manju, madam-qarmon neçiyə satılır?

Qız yenə gülümsəyərək əvvəlki kimi cavab verir.

Oğlan qəzəbini gizlədə bilməyib başından şlyapasını götürüb piştaxtaya çırpır.

– Zalımın qızı, siz fala baxansız, ürəktanıyansız, nəsiz. Mənim harama yazılıb gədəbəyli olduğum?

– Zalımın oğlu, heç haranıza yazılmayıb. Göstərdiyiniz qarmon deyil. Batareyadı, onu divarda isti suya qoşurlar ki, evi isitsin, başa düşdünüzmü?

Oğlan daha da pərt olub mağazadan çıxır.

Qardaş oğlu, indi mənim təzə olduğumu söyləməniz eynilə ona bənzər bir şey oldu. Hərçənd elə mənim özüm də ayrımam.

Oğlanlar gülüşüb:

– Əmi, elə biz də ayrımıq. Şəmkir rayonundanıq, bəs siz?

– Mən də qarışığam, qadan alım. Yarım gədəbəyli, yarım tovuzlu, Daşkəsəndə böyümüşəm. Gəncədə oxumuşam. Qovlar şəhərində işləyirəm. Bir sözlə, başdan-ayağa ayrımam.

Onlar yenə şən qəh-qəhə çəkdilər.

– Adınız nə oldu?

– Rauf, Şəmkirin Kur qəsəbəsində yaşayırıq.

– Çox gözəl. Orada mənim çoxlu dostlarım da var. Pirverdi Dağlar oğlu tələbə yoldaşım və dostumdur.

Elə bu dəmdə Rza qayıdıb gəldi. Yanında biri uzunboy, biri

cavan bəstəboy iki adam var idi. Onlarla da əl tutub tanış olduq. Biri Hüseyn Qaraca oğlu, digəri isə cavan Eşqin Cümşüd oğlu idi.

Hüseyn:

– Xoş gəlmisiniz, həmişə şəhərə gələn qələm adamları birinci mənə rast gəlirdi. İndi siz birinci Rzanı tapmısınız.

Rza:

– Nədi, paxıllığın tutur. Sən mənim yanıma jurnalist gətirmisən, mən sənin yanına ağsaqqal yazıçı, şair gətirmişəm. Hələ bir bax gör bu qədər kitab yazan adamla məni görüşdürmüsən? – Mənə – ağsaqqal, xahiş edirəm o kitablarınızdan bu uzuna da göstərin –deyib, məni gözləmədən mənim çantamdan kitabdan çıxardaraq stolun üzərinə qoydu. – Baxa bilərsiz.

Hüseyn kitabların birini götürüb üz qabığındakı məlumatı oxuduqdan sonra:

– Maşallah, Rzaya, – zarafatla, – qardaş, mən təslim, sənin müsafirin mənimkilərdən ağırbatmanlıdır. – Mənə – sən allah, bizim zarafatlarımıza əhəmiyyət verməyin. Həqiqətən qələm adamlarına böyük hörmətimiz var. Çoxu elə başa düşür ki, mən onlara reklam olmağım xatirinə yaxınlaşıram. And olsun Allaha, bu belə deyil. Qələm adamları, elm adamları millətin aynasıdır. Hər kəs o aynada özünü görməyə çalışmalıdır.

Rza:

– Onda yeməklər gəlir, yemək yeyək, sonra tanışlığımızı davam etdirərik. Bu kişi də bu boyda yol qət edib gəlib ki, milləti tanıtmaqla yanaşı, ailəsinə, uşağına da bir köməyi olsun.

Eşqin:

– Hamı camaatnan, elnən, obaynan dolanır da.

Hüseyn: elnən, obaynan dolansaydıq burada nə işimiz var idi. Elə orada dolanardıq.

Rza:

– Elnən, obaynan hamı doalnmağı bacarar, yarı ac, yarı tox. Oğul istəyirəm eli-obanı dolandırsın, – mənə, – bax, şair, burada gördüyün bu adabmların əksəriyyəti elə-obaya kömək eləmyə



*Rza ailəsi ilə*

qadir insanlardır. Hər birinin arxasında gör nə qədər ailə-uşaq, qohum-əqraba var. Bazada qazanılan pulun əksəriyyəti elə-obaya yollanılır. Orada abadlıq işlərinə xərclənilir. Ev tikilir, obyektlər açılır ki, orada da xeyli işçi çalışır.

Hüseyn:

– Şəxsən mənim ən böyük arzularımdan biri odur ki, torpaqlarımız işğal altından qayıda, Şuşada elə bir pansionat yaradaq ki, bütün qaçqınlıqdan sağ qalan qocalar orada pulsuz istirahət edə bilsinlər.

Rza gülərək, zarafatla əlini onun çiyninə vurub:

– Sən lap deputat seçiciləri qarşısında çıxış edən namizədlər kimi danışdın. Amma gözəl arzudu. Mənimlə şərikli açacaqsan, yoxsa tək?

– O baxır işin gedişinə. Rza, bu canım üçün düz deyirəm. Əgər Şuşa, Laçın qayıdacaq olsa, nəyin bahasına olur-olsun orada tikinti aparmaq üçün ərazi götürəcəyəm. Ora olmasın, lap

Kəlbəcər olsun.

Eşqin:

– O zamanlar Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyevə məsləhət görür ki, oğlunun xatirinə bir İsmaliyyə binası tikdirsin. Musa Nağıyev razılıq verməsə də, Tağıyev onu bu işə təhrik edir.

İndi İsmaliyyə binası Bakıda ən gözəl binalardan biri kimi turistlərin ziyarət yerinə çevrilib. Amma nə Musa Nağıyev var, nə Hacı Zeynalabdin Tağıyev. Mümkün olan yerdə nə tikilsə sənindir. Yaşasan evin, işlətsən yaşayışın, satsan pulun, ölsən yaşayan adın, şərəfin, unudulmaz xatirəndir. Şəxsən mən bu arzunu alqışlayıram. Bu həqiqətən əsil vətənsevər bir insanın ürəyindən qopacaq arzusudur. Arzuna çatasan, qardaş-deyə əlini Hüseynin əlinin üstünə qoydu.

Hüseyn:

– Çox sağ olun, təki o günü görək.

Rza:

Bu arzu tək Hüseynin arzusu olmadı, eyni zamanda mən də o arzuya qoşuluram. Ona görə də arzuna deyil, arzunuza çatasınız, demək lazm idi-deyə Eşqini dümsüklədi.

Eşqin gülərək:

– Yaxşı, yaxşı torpaqlarımız qayıtsın, siz də orada tikinti aparmaq arzunuza çatasınız.

Rza:

– Bax bu oldu əla. Həm də nə?

Hüseyn:

– Nə?

– Həm də oldu, akt, saziş.

Gülüşdülər. -Amin, təki belə olsun.

Naharı qurtardıqdan sonra Rzanın maşını ilə yenə bazaya qayıtdıq. Yol boyu öz xatirələrindən danışırdı:

– Atam istəyirdi ki, mən oxuyum, milis zabiti olum. Amma mən həyatıma risk edərək, bu işin arxasınca düşməkdən imtina elədim. qardaş-bacını dolandırmaq, yerləşdirmək üçün sıravi milis işçisi

kimi işə başlamaq mənə ağır gəlirdi. Mən özümü əsla fikirləşmirdim. Əsas bacılarımı, sonra da qardaşlarımın taleyini fikirləşirdim. Mən onlara dayaq ola bilməsə idim, sapı çözülmüş yun paltar kimi hər şey sökülüb gedəcəkdi. Fəhlə kimi onun-bunun qarşısında çalışan qardaşlarımın gələcək aqibətlərini gözlərim qarşısına gətirəndə ürəyim sıxılır, məni üşütmə tuturdu. Ona görə də özümü oda-alova vurub, bir yana çıxmağa yol axtarırdım. Allaha qurban olum. Görünür o uşaqların xatirinə məni yarı yolda qoymadı. Gəlib bu mərtəbəyə çatdım. İndi heç nədən, heç kimdən nigarançılığım yoxdur. Bir anamın halından nigaranam, o da Allahın verdiyi dərddi. Əlimdən heç nə gəlmir. Lap dünyanın o başına da aparmağa gücüm çatar, neyləyim ki, sağalacaq dərd deyil.

Eh, başıma o qədər işlər gəlib ki, danışmaqla tükənən deyil. İlk günlərdə Rusiyadan Ukraynaya meyvə aparırdım. Əldə etdiyim pula bir təzə jiquli aldım. Bu jiquli mənim başıma bəla oldu. Məni tutub 6 ay məcburi əmək cəzası ilə Volqoqrada göndərdilər. Bu dəfə də gürcü furası ilə mal aparırdım. Yolda qabağımı banditlər kəsdi. Maşını əylətməyib sürdürdüm. Dalımca düşərək bizi güllə-bəran etdilər. Yenə dayanmayıb



*Rza Məsim oğlu, Hüseyn Qaraca oğlu, Eşqin Cümşüd oğlu və gücrü dostu Teymuraz ilə*

özümüzü bir polis məntəqəsiqnə saldıq. Canımızı da, malı da xilas edə bildik. Dəfələrlə mənim izimə düşüb məni aradan götürməyə çalışıblar. Təsadüflər nəticəsində Allahın köməyi ilə qurtara bilmişəm. Bu ticarət deyil, qardaş, bu əsl müharibədir ki-deyə fikirləşsəm də çıxış yolum yox idi. Ticarət elə bir balotadır ki, girişi var, çıxışı yox. Çünki əlin pulla elə oynayır ki, baş qoşsan ürəyin yatar.

Kabinetində əyləşib çay içə-içə əlüstü bu şeiri yazdım:

Rza kişi, gəzə-gəzə elləri,
Bu şəhərə dost adına gəlmişəm.
Petrozavod Karelyada od-ocaq,
Söz sehrinə, söz dadına gəlmişəm.

Heç bilmirəm burda yaydı, yoxsa qış,
Gah gün çıxır, gah qar yağır, gah yağış.
Günə dönüb gözlərində bir baxış,
İsinməkçün bax oduna gəlmişəm.

Çox adama əl tutmusan əl də var,
Təsdiq-sübut neçə-neçə əldə var.
Uca tutar yaxşılığı qananlar,
Bir dənizsən, mən adana gəlmişəm.

Gəlib keçdin keçməkeşli yolları,
Sınıb düşdü çətin günün qolları.
Xeyrə xərclə qazandığın pulları,
Bir də gördün mən yadına gəlmişəm.

Uca tutdun Goranboyun adını,
Çıxarırsın xoş günlərin dadını.
Sağa-sola çap vüsalın atını,
Əldə qələm büsatına gəlmişəm.

Yaxşı kişi yaxşı adla yaşayar,
Ər adını kürəyində daşıyar.
Xeyirxahlıq əllərini qaşıyar,
Bu xoş gündə xoş odana gəlmişəm.

Ər kişiydi ərənliyi bitirən,
Namərd olar tapdalayıb itirən.
Səməndəri bu yerlərə gətirən,
Bir istəklə sübhlə dana gəlmişəm.
*13.07.2015, Petrozavodsk şəhəri*

## Qənimi

Rahat gəzib bu dünyanı dolandım,
Zalım gördüm fağırların qənimi.
Atıb-tutur vurub kəsir elə hey,
Min yetimin, min sağırın qənimi.

Əldə qılınc kəshakəsdi gecələr,
Səs-küyündən təngə gəlib küçələr.
İynəsiylə bu aləmə güc eylər,
Millət üçün bir çırağın qənimi.

Gör ki, belə qafa boşdu, ürək daş,
Ömrü boyu el içində bir savaş.
Rahat olmur deyən yoxdu bir yavaş,
Ay həsrətin, ay fərağın qənimi.

Nə bilmir ki, bu dünyada nə gəzir,
Başa düşmür nə xan, nə bəy, nə vəzir.
Olub toxmaq, döyəcləyib hey əzir,
Ya yığdıra, ya töyücü, ya nəzir.

Lap olubdu xoş sorağın qənimi.
Utanmadan təhqir edir bax məni,
Adam kimi nə eşqi var, nə dini.
Səməndərə tüğyan edir hey kini,
Hər məclisdə on arağın qənimi.
*13.04.2015, Petrozavodsk şəhəri*

**Dərdini**

Ürəyini od-alovda bişirir,
Bir ata itkisi bir ana dərdi.
Get loğmana ya şərh elə, ya anlat,
Bəlkə bir anlayıb qana dərdini.

Qələm götür mən də deyim ay Rza,
Qış günündə can atırıq hey yaza.
Gənclik getdi ömür düşdü ayaza,
Hey qoya bilməzsən yana dərdini.

Dərd pisdir ki, dərd üstünə qalana,
Arta-arta bir-birinə calana.
Kim nə deyər Allah verib alana,
Lap anlat soltana, xana dərdini.

Gəncliyindən bu qürbətə düşmüsən,
Dərd ovcunda, dərd içində bişmisən
Döyüşlərdən, davalardan keçmisən,
Çox basıb qoymusan qına dərdini.

Qoy saxlasın Tanrı səni xətadan,
Hifz eləsin təhlükədən, bəladan.
Hərdən-hərdən Səməndəri sən də an,
Açmasın qoy ona-buna, dərdini.
*16.07.2015, Petrozavodsk*

## Hüseyn Qaraca oğlu Məmmədov



Axşamdan aravermədən yağan yağış sanki ağır gecə fəaliyyətindən sonra rahatlaşmış, buludlar səmanın dərinliklərinə çəkilərək məşvərətə toplaşmışdılar.

Günəş fürsətdən istifadə edərək şəhərin üzərinə öz saçlarını səpərək, ılıq nəfəsi ilə yeri xumarlandırırdı. Şəhər əhli belə bir imkanı əldən vermədən küçələrə çıxaraq, göl qırağına istirahətə yollanırdılar.

Mən də tanış bir adamın maşını ilə Hüseynin yanına ticarət mərkəzinə yollandım. Bu günə nahar fasiləsinə vədəli idik. Amma hələ nahar vaxtına çox var idi. Hava xoş olduğundan tez çıxdım ki, bəlkə şəhərdə bir az gəzib-dolanım. Bu vaxt Hüseyn zəng edib, ofisində məni gözlədiyini söylədiyindən maşını oraya sürdürdüm.

O, kabinetində əyləşərək, işçiləri ilə söhbət edirdi. Məni görüncə: Ayağa qalxaraq mənimlə görüşdükdən sonra-beş-on dəqiqə aşağıda gözlə, bu dəqiqə mən də düşürəm-deyib, təkrar işçilərinə göstərişlər verməyə başladı.

Biz Hüseynlə onun maşınına əyləşərək, sahil parkına düşdük. Burada Oneqa gölünün sahilində çoxlu kafelər yanbayana düzülmüşdü. Gölün sahil boyu daş döşənmiş geniş səki kafe ilə park arasında sədd yaratmışdı. Gəmi limanı sahildən bir dilim kimi gölün içərisinə tərəf uzanırdı. Gəzintiyə çıxmaq istəyənlər gəmi ilə yaxınlıqdakı adaya, ya da uzaqlara dəniz səyahətinə çıxırdılar, ya da sahildə gəzinərək, kafelərdə istirahət edərək gölün füsünkarlığına tamaşa edirdilər.

Biz də Hüseynlə sahilboyu gəzib söhbət edə-edə ətrafı seyr edərək şəkil çəkdirirdik. Bu arada da orta yaşda uzunboy

xoşsima bir oğlan bizə yaxınlaşaraq salam verdi və Hüseynlə qucaqlaşıb görüşdülər. Nəriman Kamran oğlu –deyə özünü mənə təqdim etdi. Füzuli rayonunun Horadiz qəsəbəsindənəm. Burada yay kafesində çalışıram. Hüseyn bizim böyük qardaşımızdır. Onu görəndə ürəyim atlandı. Dedim bir görüşüm.

Hüseyn:

– Çox əcəb eləmisən. Elə bu qonağımızı da səninlə tanış edim.

– Qonağımızın da canı sağ olsun, sizin də.

Hüseyn:

– Bu ağsaqqal yazıçı, şair, jurnalistdir. Gəlib ki, bu şəhərlə də tanış olub, bizim barəmizdə də kitab yazsın.

– Yenə xoş gəlib, şəfa gətirib, həmişə süfrəmiz üzünə açıqdır. Nə zaman istəsə o əliylə bizdən xeyli aralıdakı kafeni göstərdi, mən bax orada kababçı işləyirəm, gəlib qonağımız ola bilərsiniz.



*Sağdan: Hüseyn Qaraca oğlu, müəllif və Nəriman Kamran oğlu Oneqa gölünün sahilində*

– Çox sağ olun, ürəyinizcə Allah versin. Süfrəniz bol və bərəkətli olsun. Hələ ki, buralardayıq, imkan olsa inşallah –deyə Hüseyn məndən əvvəl dil-ağız edib, əlini onun çiyninə qoydu.- Hələ de görüm, səni incitmirlər ki.

– Yox, Allah köməyin olsun, ay Hüseyn. Allah kölgəni bizim üstümüzdən əskik eləməsin. Sən olan yerdə bizimlə kimin nə işi ola bilər ki?

– Eh, ay Nəriman, təki hamı sənin kimi başa düşəydi. Adam var min cür hörmət edirsən, düşəndə bir stəkan suyu da səndən əsirgəyir. Öz malımdan özümə hesab kəsir.

– Mən nə deyə bilərəm, ay Hüseyn, sən elələrini daha yaxşı tanıyırsan. Adamını yaxşı tanısan, yaxşı deyilmi.

– İş orasıdır ki, adamları tanımaq olmur.

Gəlib əlinə –ayağına döşənirlər, əllərinə imkan düşən kimi ayağının altını qazmağa çalışırlar.

– Bu tək sənə belə deyil ki, hamının başına belə işlər gəlir.

Hüseyn mənə:

– Şair, sən nə deyə bilərsən. Həyatın bu işlərinə.

«Sirr vermə nadana, sirr vermə pisə,
Axır qəlbin ya inciyə, ya küsə.
Ot bitər kök üstə, əsli nə isə,
Yovsan bəsləməklə çəmənzar olmaz».

Əvvəl yoxla, sonra etibar et- deyiblər atalar.

– Şeir özünüzündür?

– Yox. Xəstə Qasımın.

– Allah rəhmət eləsin, yaxşı deyib. Ot kök üstə bitər də, məsələ budur ki, otu görürük, kökünü görmürük ki, bilək nədir, nə döy.

– Sən balığı at dəryaya, balıq bilməsə də, xalıq bilər.

– Xaliqə qurban olum, təki o bilsin, bilməyən qoy bilməsin. Yəqin bir gün o da nəyisə anlayıb qanar.

Biz xeyli sahildə dolaşdıqdan sonra təkrar ofisə qayıtdıq. Yaxşı nahar süfrəsi açılmışdı. Rza ilə Eşqin də orada idilər. Əyləşib bizi gözləyirdilər.

Rza:

– Di, gəlin çıxın da. Sonra – mənə, – şair, bizim sahil parkımız yaxşıdır, yoxsa sizinki?

Mən ağzımı açmamış Eşqin dilləndi:

– Ə, gör nə ilə nəyi müqayisə edirsən? Fillə milçəyi.

Rza:

– Özüm zarafat edirəm də, olmaz? Mən də bilirəm nə demək istəyirəm. Burada bir saat düz-əməlli gedib o balaca sahildə də dincəlməyə hava imkan vermir.

Hüseyn:

– Dincələn dincəlir. Get gör ayaq basmağa yer varmı. – Sonra



*Hüseyn Qaraca oğlu müəlliflə Onega gölünün sahilində*

sakitcə, – hamısı daşdı. – Gülüşdük. – Bakının özü də, sahili də gözəldi. Orada dincələnlərin halal xoşları olsun. Hələ biz burada dincəlməyə düz-əməlli vaxt tapa bilmirik. İnşallah təqaüdə çıxanda da gedib orada dincələrik. Onsuz da burada nə qədər günümüz xoş keçsə də, ürəyimiz oradadır. Vətən vətəndir, onu heç nə ilə əvəz etmək olmaz. Azərbaycanla Rusiyanın heç bir ərazisini, bölgəsini müqayisə eləmək qeyri-mümkündür. Amma ehtiyac insanları gör hara gətirib çıxardıb. Şimal buzlu okeanda da azərbaycanlılar çalışır. Bunlar hamısı ömrün qısaldılması, xəstəliklərin əmələ gəlməsi bahasınadır. Bu dəqiqə yayın orta ayıdır. Hələ canımızdan soyuq çıxmayıb.

Rza:

– Kurtqa əynimizdən çıxdığı vaxt olur ki.

Eşqin:

– Allahınıza şükür edin ki, belə yaylaq havasındasınız, bu dəqiqə Bakıda 35-40 dərəcə isti var. Hər tərəf od tutub yanır.

Hüseyn:

– Hər fəslin öz havası olmalıdır. Günəş şüası olmasa bədəndən soyuq çıxmaz. Xəstəlik baş alıb gedər. Soyuq da lazımdır, isti də. Təbiətin, Allahın qoyduğu qərar belədir. O pozulduqda böyük fəsadlar baş verə bilir.

Yemək yeyə-yeə söhbət edir, hərdən şən zarafatlar da olurdu.söhbətin əsas aparıcı bölməsi isə Vətən barədə idi. Ara bir işgüzar söhbətlərə də yer verilirdi.

Rza Eşqinə:

– Təzə obyektinizi istifadəyə verə bildinmi?

Eşqin:

–Bəlkə Allah qoysa, ayın axırlarına satışa başladıq.

– İnşallah, ora çox əlverişli yerdir. Onu çox yaxşı ağıl elədin.

Eşqin:

– Allah hər ikinizin köməyinizdə olsun. Mən də kiçik qardaş kimi sayənizdə hərəkət edirəm. Böyük qardaşlar olan yerdə kiçik qardaşlar ürəkli-dirəkli olarlar.

Hüseyn:

– Sən hərəkət etməkdə ol, bərəkətini Allah verər, biz də bacardığımızı edərik.

– Çox sağ olun. mən buna əminəm. Sonra mənə belə qardaşları olan adamın nə dərdi ola bilər?

Mən:

– Allah dərdi-bəladan hamınızı uzaq eləsin. Tək əldən səs çıxmaz. Əl-ələ versəniz dağı da aşıra bilərsiniz.

Rza:

– Dağı aşırmaq lazım deyil. İşimizi aşırmaq böyük işdir.

Hüseyn zarafatla:

– Aşırmaq yox, qaldırmaq lazımdır.

Mən:

– Elə məcazi mənada iş aşırmaqla, iş qaldırmaq eyni mənada işlənir.

Rza:

– Gördün, gərək bir az da dilin qrammatikasını biləsən.

Hüseyn:

– Kasıbçılıq qoydu ki, oxuyaq, barı çalışmaq lazımdır ki, indən sonra cavanların savadı yaxşı olsun. Biz çax-çuxla başımızı girələyəcəyik.

Nahar tamamlanıb çay süfrəsi başladıqda Rza üzünü mənə tutub dedi:

– Sən Hüseynlə söhbət etmisən? Aç dəftərini qeydlər götür. Dedim axı, mən harda, Hüseyn də orda. Elə Eşqindən də yaz. Biz bir kollektivik. Qoy kitabda da adımız bir yerdə olsun.

Hüseyn:

– Olsun deyirsən, olsun, nə deyirik. Kitab gözəl şeydir, qəzet deyil ki, oxunub atıla.

Hüseyn Qaraca oğlu 01.09.1966-cı ildə Füzuli rayonunun Zərgər kəndində zəhmətkeşlər ailəsində anadan olub.

Anaları Tərgül Alı qızı üç oğul, üç qız olmaqla altı övlahd dünyaya gətirərək, böyüdüb boya-başa çatdırıblar.

– Mən ailənin ikinci oğlu olmuşam. Məndən böyük qardaşım isə Vəkildir. Həm böyük qardaş, həm dost, həm də ata əvəzi olub. Onun yanında bir dəfə dilimdən əyər-əskik söz çıxarmamışam. Elə böyük yaş fərqimiz olmasa da, böyük hörmət-izzət var. Kasıb olsaq da, ailədə yüksək tərbiyə görmüşük. Böyüyün, kiçiyin yolunu saxlamaq etikası, mərifəti görmüşük.

1983-cü ildə Zərgər kənd orta məktəbini bitirdikdən sonra imkanım olub ali təhsil almağa, gedə bilmədim. İşlərimi texniki peşə məktəbinə verdim və oranı fərqlənmə diplomu ilə bitirdim. Elə həmin ili əsgərliyə çağrıldım.

1984-1986-cı illərdə Petrozavodsk şəhərində sərhəd «zastavasında» xidmət etmişəm. Özü də həmişə əla göstəricilərlə, sonra hərbi xarakteristika ilə burada Xalq Təsərrüfatı institutuna daxil oldum və təhsilimi əyani davam etdirməyə başladım. Çətinliklərim olsa da, çalışırdım yoldaşlarımdan dala qalmayım.

1991-ci ildə təhsilimi başa vurub, kənd təsərrüfatı idarəsində avtomobillərin ticarəti sayəsində direktor müavini vəzifəsinə təyin olundum.

1996-cı ilə qədər orada işlədim. Sovetlər dağılan kimi elə idarəmiz də bir himə bənd imiş kimi, silkələnib yerlə-yeksan oldu. Hamı kimi mən də axına qoşularaq, ticarətə üz tutdum. Əslinə qalsa, bu elə mənim ixtisasım idi. Sadəcə olaraq, dövlət əhəmiyyətlidən özəl fəaliyyətə adladım. Ona görə də bu sahədə mənə qaranlıq heç nə yox idi. Əlimdə də kifayət qədər maddi vəsait və tutarlı dostlarım var idi. Ona görə də 1996-cı ildə Mahal Mamedovla birlikdə ilk firmamızı yaratdıq. «Borçalı» firmasını. Tez zamanda işlərimizi toparlaya bildik. Yaxşı nəticələr əldə etdik. Sonra bir gürcü həmkarımla bərabər «İberiya» firmasını açdıq. İnkişaf etdikcə yeni planlar, yeni lahiyələr üzərində çalışmalı olursan. Biz də işlərimizi yavaş-yavaş inkişaf etdirir, yeni-yeni sahələr üzərində fikirləşirdik. Artıq müstəqil iş prinsipinə yiyələnmişdik. Qohum-əqrabalardan da

yavaş-yavaş gəlib ətrafıma toplaşmışdılar. Onlar üçün də şərait yaratmışdım. Sonra yaxın bir tanışımın vasitəsi ilə gördüyün o skladları özəlləşdirərək, topdansatış meyvə-tərəvəz alqı-satqısı üçün anbarlar arendaya verdim.

2005-ci ildə ən böyük firmalardan biri olan «POSTAM» firmasını qurub başa gətirdik. Bu işlərdə Rzanın da mənə köməyi çox oldu. Bu ticarət mərkəzini açanda hələ tikinti başlayandan az sonra gördüm tək öhdəsindən gələ bilməyəcəyəm. Ona görə də Rzaya yaxınlaşıb, onunla şərikli işləməyimi təklif etdim. Sağ olsun, sözümü yerə salmadı. Yoxsa Allah bilir, kimlə necə dil tapa biləcəkdim. Budur, bax bu obyektdə. 4 mərtəbədə 65-70 satış yerlik sahə var. Yüzdən çox adam çalışır. Yerlərin əsas hissəsini öz millətimizə arendaya vermişik. Elə Eşqinin də burada yeri var. O da bizim çiyin yoldaşımızdır.

1994-cü ildə öz yerlimiz Aləmzər İsmayıl qızı ilə ailə qurduq. Məhəmməd və Hikmət adlı iki övladımız var. Məhəmməd Rusiyada Beynəlxalq akademiyada oxuyur. Hikmət isə adlı-sanlı idmançıdır. Dəfəlrlə ən iri turnirlərin qalibi olub. Rusiya çempionudur. Bir neçə dəfə beynəlxalq yarışların qalibi olub. Şəhərdə həm gənclər arasında, həm də şəhər ictimaiyyətində yaxşı tanınır. Azərbaycan gənclər birliyinin üzvüdür. Həm də işgüzar oğlandır. Nə lazım olsa hara göndərilsə iş yarıdandır. Ömrümüzü –günümüzü onlara həsr edirik ki. Bəlkə sonra xalq üçün, cəmiyyət üçün yararlı bir insan oldular. Hər bir insan gördüyü işin arxasında elini-obasını, millətini, təmsil etdiyi dövləti görməlidir. Hər sahədə özümüzü millətin təmsilçisi yerində görməliyik. Məgər kimisə kənardan tanımırlar ki, hansı millətə mənsubdur? Yaxşı tanıyırlar, özü də baxan kimi, bilirlər ki, sən kimsən. Ona görə də bəzən yüz təmiz işgüzar halal adamın adını bir nadürüst korlayıb qoyur kənara. Onu tanıyanlar elə bilir ki, hamı onun kimidir. Mən həmişə özümü vətənimin, xalqımın bir zərrəsi hiss etmişəm və edəcəyəm də. Uşaqlarımı da bu əqidə də böyüdürəm.




*Hüseynin övladları: Məhəmməd və Hikmət*

Yenə təkrar edirəm, harada oluruqsa olaq, unutmamalıyıq ki, biz azərbaycanlıyıq və bu ad altında da məzara gömülməliyik. Amma həyatda yaşadığımız, çalışdığımız zamanda işimizin bəhrəsi özümüzün, onun şərəfi, ləyaqəti, millətin adına olmalıdır.

Ən böyük arzum odur ki, torpaqlarımız qayıtsın, Azərbaycan elə çiçəklənsin ki, bütün dünya heyran qalsın. Onsuz da elə indi də elə diqqət mərkəzindədir, amma yarımçıq görünür. Natamam görünür, yaralı quş kimi qanadsız görünür, ürək ağrıdan görünür. Necə deyim, bütöv deyil, dilim gəlmir bu sözü deməyə. Biz bütöv olmalıyıq, tam olmalıyıq, böyük olmalıyıq. Can Azərbaycan olmalıyıq. Hamı bax bu amalla, bu ruhla çalışmalıdır. Bəlkə o gün sözüm qəribə səsləndi, amma ürəyimdən keçəni söylədim. Əgər torpaqlarımız geri qaytarılsa, orada dövlətlə razılığa gəldikdən sonra Şuşada, Kəlbəcərdə, hansı olur-olsun yer götürüb, yeni iş yerləri açacağam. Bir pansionatda gör nə

qədər adam dincəlir, nə qədər adam işlə təmin olunur. Turizm nə qədər qazanc əldə edir. Mənə nə var, bura olmasın, öz vətənimiz olsun. Mən biznes adamıyam. Sərfəli yerə niyə də sərmayə qoymayaq. Gör nə qədər qohum-əqraba, qardaş-bacılar var. Məgər onların sərfəli iş yerləri olması sənə sarı deyilmi. Həm vətən üçün sərfəlidir, həm camaat üçün, həm özüm üçün. Həm də qohum-əqraba üçün. Qalır bircə dövlətimizin siyasətçilərimizin və sərkərdə və əsgərlərimizin gücünə. Rəşadətinə. Buna inanıram, inanıram ki, bugünkü templə inkişafla buna nail olacağıq.

– Təki yaradan arzunuzu çin eləsin, biz də gəlib qardaşımızın sayəsində Şuşada ya Kəlbəcərdə eninə-uzununa ürəklə dincələk.

O gülərək əlini əlimin üstünə qoydu. Qoy Tanrı millətimizə, dövlətimizə, bizə yar olsun!

Söhbətimizi bu əhval-ruhiyyə ilə yekunlaşdırdıqdan sonra, Hüseyn qalxaraq öz kabinetinə yollandı. Biz onunla söhbət edərkən Eşqinlə Rza hansısa iş dalınca gedib tez qayıdacaqlarını söyləmişdilər. Odur ki, Rzanı gözləməli idim. O gələnə qədər bir stkəan çay içə-içə bu şeiri yazmağa başladım:

**Olasan**

Görüm ey dost, ki səni hər yanda şadyan olasan,
Qürbətdə məskən salıb, dostluğa meydan olasan.

Kərbəla şəhidi o, hər an olsun qoy köməyin,
Sən də onun adı ilə hamıya həyan olasan.

Hüseyn adı ki var mərdanəlik bayrağıdır,
Onu bərk əllə tutub haqq sözə nişan olasan.

Əlində möhkəm tutub, salma yerə yaxşılığı,
Hamıya arxa duran elə bir imkan olasran!

Yaradan əli ilə sən də alıb qismətini,
Seçilib sayda olan xeyirxah insan olasan.

Yezidin izi durur, itməyibdir zülmü tamam,
Bu zülmə qarşı çıxan ən adil sultan olasan.

Nə deyim mən ki, sənə haqq eşitsin qoy səsimi,
Bəd nəzərdən sıyrılıb xataya pünhan olasan.

Əməlindən gül açıb bax bir az da Petrozavod,
Qayıda torpağımız, orda gülüstan olasan.

Anaraq odlanırsan sən Füzuli torpağını,
Vaxt gələ Səməndərlə orda diləfşan olasan.
*14.07.2015, Petrozavodsk*



*Hüseyn dostu ilə öz ofisi önündə*

**Eşqin Cümşüd oğlu Məmmədov**



Petrozavodda Rza və Hüseynlə görüşüm zamanı həmişə onlarla durub-oturan gördüm. Eşqinlə onlardan fərqli olaraq, daha tez-tez görüşür və daha çox ünsiyyətdə olurdum. Səbəbi də ondan ibarət idi ki, ticarət məkəzində yerləşən və həmişə əyləşib nahar etdiyimiz kafeyə nəzarət və rəhbərliyi o edirdi. Ona görə də hər kafeyə gələndə onu görüb söhbətləşirdik. Elə qeydlərimin çoxunu ya orada, ya da Vəlinin mehmanxanasında aparırdım.

Eşqin yaşca cavan olmasına baxmayaraq, dünyagörüşlü, savadlı və işgüzar adam idi. Bununla yanaşı, həm də alicənab, böyüyün, kiçiyin yerini bilən, ağzından çıxardığı kəlməni yerində işlətməyi bacaran cavanlardan idi. Təsəvvür edin onun işçiləri mən yanlarında olduğum zaman bir-birlərinə kobud ifadələr işlətsələr də zarafatlarından qalmasalar da, o özü bütün ədəb qaydalarını gözləyərək, heç bir yersiz ifadəyə, yersiz hərəkətə yol verməz, mənə "müəllim" deyə müraciət edər, işçilərinə də eyni qayğını mənə göstərmələrini tələb edərdi.

Bir dəfə ikilikdə əyləşib söhbət edərkən dedim:

– Cavansan, işgüzarsan, ədəbindən də çox razıyam. Bəlkə barənizdə beş-on kəlmə yazmağa icazə verəsiniz.

O gülümsəyərək dedi:

– Müəllim, əgər məndən ağsaqqallar etiaz etməyibsə, mən nə deyə bilərəm. Görürüsünüz biz həmişə bir yerdə oluruq. Onlardan yazmısan, məndən niyə yazmayasan…

Eşqin Cümşüd oğlu 25.06.1981-ci ildə Şəmkir rayonunun

Şəmkir stansiyasında ziyalı ailəsində anadan olub. Atası Cümşüd Məlikov uzun müddət tikinti mühəndisi vəzifəsində çalışıb. Ailədə iki qardaş, iki bacı böyüyüblər.

Eşqin:

– Orta məktəbdə arzulayırdım ki, məktəbi bitirdikdən sonra AMİ-yə daxil olub həkim olacağam. Bu arzu ilə də 1997-ci ildə orta məktəbi bitirib, işlərimi qəbul komissiyasına təqdim etdim. Balım Azərbaycan Xalq təsərrüfatı institutuna uyğun gəldiyinə görə oraya qəbul oldum. Bir ildən sonra Avrasiya Akademiyasına dəyişdirildim.

2008-ci ildə oranı bitirib, Binə aeroportuna işə düzəldim. Buna baxmayaraq, tez-tez Kareliyaya–Petrozavodsk şəhərinə gedirdim. Sonralar tanışların-dostların vasitəsiylə burada müştərək paltar mağazası açdıq. Özüm orada da ola-ola burada işlərim gedirdi. Sonra gögrdüm orada beş-on manat aylığın dalını gözləyənə kimi burada hazır işlərimiz yaxşı gedir. Elə aldığım aylıq qədər mən burada işçilərə maaş verirdim. Bir gün



*Eşqin Cümşüd oğlu övladları ilə*

müdriyyətlə sözüm çəpləşdi. Valideynlərimə də bir söz demədən çıxıb gəldim. İndi Allaha min şükür elə təkcə bu şəhərdə üç mağazam var. Birini də şəxsi açırıq. Yaxın şəhərlərdə də varımdır, özümdən başqa 40 nəfərdən çox burada satıcım və işçim var. «4 sezon» firmasına başçılıq edirəm.

2001-ci ildən ailəliyəm. Məhəmməd, Amil və Rəfiqə adlı üç övladımız var. Ailəm də burada mənim yanımdadır. Uşaqlar da odur ey – o əli ilə kafenin yaxınlığındakı uşaqlar üçün oyun aparatlarını göstərdi. Orada aparatla oynayırlar. O aparat da mənimdir. Buraya alış-verişə gələn müştərilər həm burada nahar edir, uşaqlar da aparatlarla oynayırlar. Gələcəyi də Allah bilir, bu yaşda çox şeyə nail olmuşam, Tanrı qismətini, cansağlığını əsirgəməsin. Məqsədim məramım uşaqları layiqincə böyütməkdir.22

Eşqinin uşaqları qəşəng, şən və mehriban uşaqlar idi. Məhəmməd və Amil həmişə mən kafedə tək olan kimi gəlib yanımda əyləşərək, başlardılar sual verməyə:



*Eşqin Cümşüd oğlunun oğulları Məhəmməd və Amil*

– Əmi, sən həmişə burada oturub nə yazırsan?
– Nağıl.
– Nağılı danışarlar, yazmazlar ki?
– Nağılı biri yazır, sonra başqaları onu oxuyub danışır.
Məhəmməd şeir vərəqinə baxıb təəccüblə-əmi, bu nağıl döy, şeirdi- o III sinifdə oxuyurdu.
– Düzdü, bu şeirdi, nağıllar da var.
– Bu kimin şeiridi, əmi, – deyə Amil sual verdi. –Kimə yazmısan, əmi?
– Atana.
– Mənim atama, – deyə onlar sevincək səsləndilər. Oxu də.

**Qalasan sən**

Adın Eşqindi, belə gör nə gözəl balasan, sən,
Uca qəlbinlə yaşar, eşqin ilə şux qalasan, sən.

Yaradan həmtay edib, nur üzünü qəlbin ilə,
Taledən qismətini kaş ürəyincə alasan sən.

Bu cavan yaşda belə hey çatırsan dost dadına,
Daha da pöhrə atıb köklü-köməşli olasan sən.

İlahi hər an vermir belə yaşda əqlü-kamal,
Yetişib pür-kamala yetkin yaşa dolasan sən.

Valeh etdin məni sən məntiqi nitqin ilə bax,
Ucalırsan hər ada elmi-helmə calasan sən.

Ötüşüb günlər keçəcək, illəri aylar qovacaq,
Xatırlayıb məni də hərdən yada salasan sən.

Başladın ərkan ilə Səməndərlə söhbətinə,
Kəlməsi beton qarışıq əzəmətli qalasan sən.
*15.07.2015, Petrozavodsk şəhəri*

Şeiri uşaqlar dinləyib, xeyli susduqdan sonra mətbəxə qaçıb oradakılara xəbər verdilər. Əmi şeir yazıb atama. Bu səslər qürbətdə Vətən bülbüllərinin cəh-cəhini xatırladırdı.

**Maarif Allahyar oğlu Musayev**



Yenə narın yağış səpələməkdə idi. Göylərin qaş-qabağı elə tutulmuşdu ki, elə bil körpə uşağın oyuncağını əlindən alıb qaçırmışdılar. Uşaqlar göz yaşı axıdan kimi sakit-sakit ağlayırdı. Uzaqdan bulud seyrəlişindən hiss olunurdu ki, o tezliklə sakitləşəcək. Bir az fasilə verəcəkdir.

Ticarət mərkəzindən Rza ilə çıxaraq xeyli havaya diqqət edərək Rza:

– Bu il dəhşət oldu, hər gün yağış, hər gün yağış, belə şey olar? Bir gün bədənimiz isinmədi. Belə yaşamaqla di gəl sağlamlıq axtar. Burada yaşayanların əksəriyyətində yel və duzlaşma xəstəlikləri var.

– Nəmişdikdən çox xəstəliklər baş qaldırır. O da canlı hüceyrələrdir də. Sonra əşi, yağışın kəsməsini gözləsək, gərək xeyli burada dayanaq. Bizdə hardadır elə vaxt bolluğu. Getdik ey, – deyə o iri addımlarla maşınına tərəf getdi. Mən də arxasınca.

Maşına əyləşərək Maarif Allahyar oğlu ilə görüşmək üçün onun ofisinə – Kurovka rayonuna yollandıq. Az öncə Rza ona zəng edib yerində olub-olmadığını soruşaraq bildirdi. Orada ol, səninlə gözəl bir insanı tanış edəcəyəm. Yazıçıdır, burada tanınmış iş adamları haqqında kitab yazır. İstəyirik sənin adın da bizimlə bir yerdə olsun. Dünyadır də, bir xatirədir

ömrümüzdən, günümüzdən. Heç olmasa sabah uşaqlarımız üçün də maraqlı olar.

Razılıq aldıqdan sonra mənə demişdi:

– Maarif çox yaxşı insandır, həm də bacarıqlı oğlandır. Bacarığı sayəsində bir neçə kafe-restoran yarada bilib. Son zamanlar bir az nasazlamışdı. Şükür indi yaxşıdır. Elə yaxşı oldu, özü ilə danışa, bildik yoxsa gedib yerində tapmayacaqdıq.

Biz böyük bir binanın qarşısında əyləşdik. Bir yük maşınından mağazaya yük boşaldırdılar. Yanında da dolu bədənli bir oğlan dayanıb yükün boşaldılmasına fikir verirdi.

Rzanı görən kimi gülümsəyərək ona tərəf addımladı.

– Xoş gəlmisiniz, xoş gəlmisiniz. – Rzaya, – çoxdandır üzünü görmürük. Nə yaxşı ki, yazıçı gəlib bizi yad etmisən.

– Sağ olmuş o gün məclisdə bir yerdə deyildik?

– O gündən bəri üç gün keçib, – deyə Maarif də güldü.

Biz içəri Maarifin iş otağına keçdik. Masa arxasında əyləşdik.

Maarif:

– Rza, qadan alım, sən Allah məni bağışla, mən xəstəxanaya gedib iynələrimi vurdurub, qayıtmalıyam. Ona görə bir az mer-meyvədən yeyib, çay için. Bu dəqiqə qayıdıram.

Rza:

- O nə sözdür, sən işində ol. Əgər gec qayıdacaqsansa, qonaq qalsın, mən gedim. Sonra hara lazım olsa özün gətirərsən.

Maarif:

– Yox, yox, tez gələcəyəm. Heç yana getmə. Bax getsən inciyərəm ha.

Rza:

– Yaxşı, onda gözləyəcəyəm.

İşçilərdən biri gətirib süfrəyə mer-meyvə qoydu. Sonra çay süfrəsi açıldı.

Biz Maarifi çox gözləmədik. O gülə-gülə qapıdan içəri daxil oldu, gördünüz, sizi çox gözlətmədim.

Maarif gələn kimi masanın üzərindəkilər yığışdırılıb, nahar

süfrəsi açıldı.

Nahardan sonra Maariflə söhbətimizi davam etdirərək, onunla dərindən tanış olmağa başladıq.

Maarif Allahyar oğlu 4 noyabr 1968-ci ildə Şəmkir rayonunun Yuxarı Seyfəli kəndində kolxozçu ailəsində anadan olub. Bütün uşaqlıq illəri dağlar qoynunda, lilpar bulaqlar üstündə keçib. 1986-cı ildə orta məktəbi bitirib.

Maarifin öz dediklərindən:

– Orta məktəbi elə də güclü bitirmədim. Orta səviyyəli şagirdlər sırasındaydım. Ona görə də səs-küyə qoşulub mən də başqaları kimi instituta iş vermədim. Evdə-eşikdə valideynlərimə təsərrüfat işlərində kömək edirdim. Elə ki, hərbi çağırış yaşım tamam oldu gedib iki il Kerç şəhərində xidmət etdim. Qayıtdıqdan sonra da Qarabağ müharibəsi başladı. Könüllü olaraq mən də milli ordunun tərkibində Kəlbəcər və Gədəbəy rayonlarınnın müdafiəsində döyüşmüşəm. Kəlbəcər hadisələri gözümün qabağından getmir. Biz Gədəbəy briqadasından göndərilmişdik. Pərakəndə döyüş taktikası nə qədər nahaq



*Maarif Allahyar oğlu ailəsi ilə*

itkilərin verilməsinə səbəb oldu. Mənim yoldaşlarımdan da qar uçqunu aldında qalıb ölənlər çox oldu. O acı səhnələr heç vaxt gözlərim önündən getmir. Biri var döyüşəsən kişi kimi mərdanəcəsinə öləsən, biri də var donaraq sızıldaya-sızıldaya öləsən. İndi şükür dövlətimiz də möhkəmlənib, möhkəm də ordumuz, müasir silahlarımız var. Bir qalır qələbə çalmağa. Yəqin ki, bir gün o da olacaq.

Rza:

– Sən də arzu etmirsən azad olmuş torpaqlarımızda nəsə qurub-yaratmağa?

– Ay Rza, Allaha şükür, sən məndən həm böyüksən, həm də hər cəhətdən ağıllı adamsan, hansı iş adamı istəməz ki, öz Vətənində onun üçün qurub-yaratmağa şərait yaradılsın. O həmin işlərdən imtina eləsin. Əlbəttə, burada onun-bunun minnətini götürənə kimi gedib orada qurub-yaradaram. O işğal altında olan rayonlarımızın hər biri cənnət guşəsidir. Turizm üçün çox əlverişli iqlimi, havası, suyu var. İstisu kimi su dünyanın harasında tapılar? Əlbəttə, gedərəm, özü də necə. Amma elə oliqarxlar meydana çıxacaq ki, oradan bir qarış da almaq mümkün olmayacaq. Amma o da ölkəmizin rifahıdır. Təki torpaqlarımız alınsın. Yerdə qalan öz-özünə düzələcək. Mən inanıram ki, rayonlarımız işğaldan azad olandan bir il sonra oralar dünyanın ən abad yerlərindən biri olacaq. Mənə –hə harada qaldıq… hə..müharibədən sonra Petrozavodsk şəhərinə gəldim. Maddi imkanımız çox zəif idi. O zamanlar ümumiyyətlə bütün Azərbaycanda vəziyyət çətin idi. Nə yaxşı ki, həmin anlarda Rusiya var idi və hamı oraya üz tuturdu. Elə o hesaba da kəndlərimiz, şəhərlərimiz abadlaşıb gülüstana döndü.

Petrozavodsk şəhərinə gələndən az sonra mətbəx biznesi ilə məşğul olmağa başladım. Bazarda mer-meyvə sata-sata əldə xeyli pul düzəltmişdim. Ona görə də əvvəlcə icarəyə bir kafe götürüb, onu işlətməyə başladım. Sonra yavaş-yavaş sayını çoxaltmağa başladım. İndi şəhərdə bir neçə «U Maarif» kafesi




fəaliyyət göstərir. 40 nəfər azərbaycanlı işçim var. Hələ özbəyi, rusu demirəm. Bütün kafelərdə yalnız milli yeməklərimiz nümayiş olunur və Azərbaycan mətbəxi adı ilə tanınır. Bundan əlavə mağazamız və köşklərimiz də var. Allaha şükür, heç nəyə ehztiyacımız yoxdur. Özüm ailəliyəm, İlyas, Samir adlı iki övldaım var. Allahdan bir arzum odur ki, cansağlığını, ağız şirinliyini heç bir bəndəsindən əsirgəməsin, heç kəsi bədxah, bədniyyət, xain adamlarla qarşılaşdırmasın. Bunların hamısı həyatda insan üçün ən ağır faciələrə gətirib çıxardır. Xeyli müddətdi bu qara qovqalar mənim də ətrafımda fırlanmaqdadır. İndi görürsünüz müalicə olunuram, can ağrıyanda heç nə gözə görünmür. Hərdən fikirləşirəm ki, nə yaxşı ki, uşaqlarım, oğlanlarım var. Heç olmasa məndən sonra onlar çətinliklə qarşılaşmaz. Onlar üçün hər cür şərait yaratmışam. Qohum-əqraba, qardaş bacı. Hamısı şükür Tanrıya, babat dolanırlar. Kənddə də hər şərait yaratmışam. Elin-obanın xeyrinə-şərinə də bacarığımız qədər kömək edirik.

Maarifin iş otağında xeyli oturub söhbət etdik. Onun başı Rzayla söhbətə qarışarkən fürsətdən istifadə edərək bu şeiri cızma-qara etməyə başladım.

Maarif:

– Müəllim, mer-meyvədən yeyin, məgər hələ yazıb qurtarmadınız?

Rza:

– Hələ müəllim çox yazacaq. Sağolmuş elə hey yazır, indi yəqin sənin üçün şeir yazır.

– Sizin üçün yazmış olar?

– Naxadı, heç qoymur canına yel dəysin, indi yazıb oxuyanda

özün görəcəksən.

– Heç xəbər almadım, şairdən, haralısız?

– Sizin tərəfin adamıdır, şair ən çox haradan olar, ya Tovuzdan, ya Qazaxdan.

– Ya da Şəmkirdən.

– Siz hamınız bir zonanın adamısınız də.

– Elədir ki var. Gəncəbasar zonası sayılır.

Bax fironlar sona qədər tutub qərar,
Bu dünyada sona qədər qalmadılar.
De, əbədi bu dünyada kim qalacaq?
Kim soruşdu o lal olmuş qəbirlərdən,
Bu dünyada, de əbədi kim qalacaq?

Neçə-neçə əsirlər də düşür yada,
Neçə-neçə imperiyalar getdi bada,
Başar üstə min başkəsən dayansa da,
Gec tez zaman qılıncıyla məhv olacaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Bilirik ki, həyatın bir qanunu var,
Biz vaqonda sərnişinik dünya qatar.
Kim tez çatar mənzilinə, kim gec çatar,
Gör vaqonda heç düşməyən kim olacaq?
Bu dünyada, de, əbədi kim qalacaq?

Uşaq yığar az oyuncaq hər bir zaman,
İnsan qaçır var dalınca dayanmadan.
Bəzən ölüm anlayışı çıxır yaddan.
Son nəfəsdə gəlib yada düşür, ancaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Biri sökər, biri tikər yurd yerini,
Hərə gəzir öz işinin cövhərini.
Qovmaq istər işləriylə dərd-sərini.

Bilən deyil həyat varsa dərd olacaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Yeri göyü bir yaradan varsa əgər,
Kim xoşuyla bu həyatdan üz döndərər.
Varmı elə bir çox bilən ər oğlu ər.
Bu dünyanın gərdişindən baş açacaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Hər bir kəsin bir əzəli, bir sonu var,
Hamı gəlib bu arada tutur qərar.
Kimi dilşad kimi bədxun, kimi də xar.
Gedənləri yola salıb, gələnlərə açır qucaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Bir-birinə qohum-qardaş yad olmasın,
Düşmən baxıb əl çalaraq yad olmasın.
Soyuqluğa, avamlığa kimsə durub gen qalmasın,
Yoxsa pislik bu dünyada yurd salacaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Hər bir kəsin üz tutacaq bir yeri var,
Dar günündə o məkanda tutar qərar.
Vətən mülkü əvəz olmaz cənnət diyar
Dünya varkən od-ocağı gur yanacaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Azərbaycan varım-yoxum canım mənim,
Tükənməyən adım, sanım şanım mənim.
Ay ulduzun düşmənlərə olub qənim.
Başın üstə günəş kimi parlayaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

Cuşə gəlib bu şeiri yazan vaxtı,
Maarif ilə Rza kişi durub baxdı.
Səməndər də müvəqqəti bir qonaqdı,

Baxışlarda sanki yanır gur bir ocaq,
Bu dünyada, de, əbədi kim qalacaq?

## “U Ali” kafesində

17.07.2015-ci il tarixdə səhər-səhər yuxudan qalxıb yuyunduqdan sonra Vəli Tərəkəməyevin mehmanxanasında qaldığım otaqdan birinci mərtəbəyə kafeyə düşdüm. Vəli ilə bir yerdə qəlyanaltı edib bir-iki əl nərd oynadıqdan sonra mən:

– Vəli, bir yana gedəcəyin varmı? – deyə soruşdum. O:

– Hə, bir evə baş çəkəcəyəm. Nədi, xeyir ola?

– Dedim məni də avtobus dayanacağına qoyasan.

– Baş üstə, onda çıxaq. Mən də tez gəlməliyəm.

Mehmanxana marşrutdan uzaq idi. Gərək bir yana getmək üçün taksi sifariş verilə idi. O da hər gün taksi ilə hərəkət edəsi olsaydım. Mənim üçün çox çətin olardı.

Vəli burada mənim əsas dayağım isinməyə ocağım və qalacağım ümid yerim idi.

Mən marşrut avtobusla təsadüfən azərbaycanlı Fərəcov Faiq Məmmədhüseyn oğlu ilə avtobusun sürücüsü idi. “U Ali” kafesinə yollandım. Dayanacağda yolu adlayıb kafeyə daxil oldum. Məni bir cavan oğlan qarşıladı. Əli Vaqif oğlu Məmmədov – Şəmkir rayonunun könüllü kəndindən idi. Xoş təbəssümlə məni dinlədikdən sonra kafenin adı mənim adımla bağlı olsa da ağsaqqalı başqa adamdır, Kamil dayı. Bu şəhərdə çoxdan yaşamış adamdır. Uzun müddət orqanda çalışıb. Hər halda onunla söhbət etsəniz yaxşıdır deyərək. Mətbəxdən yaşlı bir nurani adam çağırdı.

– Kamil əmi qonağımız var, gəl gör nə deyir.

Kamillə əyləşib xeyli söhbət etdik. Sonra mənə nahar süfrəsi açdı. Amma xahiş etdi ki, onun barəsində söz açmayım.

Kafe 1997-ci ildən fəaliyyət göstərir. 2003-cü ildən isə “U Ali” adlanır əslində üç sahibi var. Kamil zaqatalalı, İlham Nadir oğlu

Mamedov əli ilə əmiuşağıdırlar.

Kafe adından tutmuş bişirilən yeməklər və qulluğa kimi sırf milli xüsusiyyət daşıyır. Əsil milli Azərbaycan mətbəxidir.

**"U Ali"**

Uzaqdan hərlənib yanına gəldim,
Adını eşidib yazım, a qardaş.
Lazım idi sənlə bir az görüşmək,
İzinə qoy düşsün izim, a qardaş.

Şahid oldum üç birliyin gücünə,
Əzəl deyim qüvvəti nə, gücü nə.
Millətimin adı düşüb üstünə
Kim necə istəyir yozum a qardaş.

İndən belə yüz il keçə, yüz il ha,
Razı olmam kimsə batsın günaha.
Kəlamım xoş gələ böyük Allaha,
Ağızda dolaşa sözüm a qardaş.

Mənim də həyatda arzularım var,
İtirməyə yaxşılığı adamlar.
Lazım olsa ayaq açıb dolanar,
Zaqatalalı dostla sazım a qardaş.

İşiniz xod gedə, üzünüz gülə,
Ləli-gövhər bəxtinizə düzülə
Həmin yolla üz tutasız yüz ilə
Aləmə bu olsun lazım a qardaş,
Mən də Səməndərəm yazım a qardaş.

## PETROZAVODSK ŞƏHƏRİNDƏN SORTAVALAYA

Kulturnu Vəlinin mehmanxanasında dincələn bir rus ailəis ilə tanış olmuşdum. Kişinin adı Aleksey Nikolaeviç qadının adı isə Sveta Valentnovna idi. Sank Peterburqdan göllər ölkəsinə bir aylıq məzuniyyət səyahətinə çıxmışdılar.

19.07.2015-ci il tarixdə onların maşını ilə Petrozavodsk şəhərindən çıxaraq Manqo, Solmo, Senalo kəndlərindən keçib Sortavala şəhərinə gəldik. Yolda Senalo kəndi yaxınlığında dayanıb meşədə xeyli çernıxa yığıb yedik.



*Svetlana Valentinovna Ladoqa gölünün sahilində*

Nyalma çayından keçib, Ladoqa gölünün sahili boyunca hərəkət edərək, sıx meşəliklərlə əhatə olunmuş yollarla Sartavalaya daxil olduq. Yolda göl kənarında şəkil çəkdirdik.

Qadının təhriki ilə Aleksey məni şəhəri hərləyərək, «Kaspi» kafesinin yanında əyləşdi. Sveta əlimi sıxaraq, mütləq kitabını gözləyəcəm. Bax o da sizin Bakı, deyərək kafenin başı üzərində vurulmuş reklamı göstərdi.

Mən nə qədər xahiş etdim ki, düşün, çay-çörək yeyib gedərsiniz, onlar dayanmayıb, getdilər.

Kafe hələ açılmamışdı. Məni qapı ağzında görən uzun boylu, qara, enli bığları olan bir kişi: – Kafe hələ gec açılacaq, – dedi.

Mən onun sözünü kəsərək:

– Xoş gördük, eloğlu, bu qürbət ölkədə, uzaq diyarda.

– Buy, siz azərbaycanlımışsınız ki, - deyərək, gülə-gülə mənə əl uzatdı –mən də elə bilirəm fillandıyalısız. Bura onlardan çox gəlir. Bu yaxında elə bu həyətdən də görünür-onların ziyarət yerləri var, hər şənbə-bazar günü burada dolu olurlar.

Mən özümü təqdim etdim.

O:

– Xoş gəlmisiniz! Mən də Qazax rayonundanam. Keçin içəri. Bu dəqiqə çayımız hazır olacaq. Mən işçiləri gətirib gəlirəm.

**Yasin Abbas oğlu Əliyev**



Yasin işçilərinin arxasınca getdikdən sonra kafenin işçisi – rus kişisi çay hazırlayıb, süfrəyə qoydu. Az sonra Yasin də gəldi.

Yasin Abbas oğlu 23 avqust 1952-ci ildə Qazax rayonunda anadan olub.

1970-ci ildə 2 saylı Qazax S.Vurğun adına orta məktəbi bitirib, 1975-79-cu illərdə Bakıda Texnologiya İnstitutunda təhsil alıb, diplomumu alandan sonra, təyinatla Quba rayon Konserv zavoduna göndərilib, lakin müdirlə razılığa gəlmədiyi üçün nazirliyə gəlir:

– Mən nazirin qəbuluna gələndə heç ağlıma da gəlməzdi ki,

o məni belə mülayim qarşılayacaq. Bütün olanları ona danışdıqda o, əsəbləşərək telefonu götürüb, zavodun direktorunu söyüb-biabır etdi. Mən təkrar Qubaya qayıtdım. Mənə 70 manatlıq iş təklif etdilər. Bu maşa süpürgəçi zorla işləyir. Ona görə də o gündən acıq eləyib, Rusiyaya gəldim.

1982-ci ildə Moskva traktor zavoduna mühəndis təyin olundum.

1988-ci ildə vətənə döndüm.

1993-cü ildə Finlandiyanın Xerson şəhərinə gedərək, xeyli orada çalışdım.

1998-ci ildə qayıdıb Petrozavodsk şəhərinə gəldim. Xerson buradan çox yaxındır. Elə o vaxtdan da bu vilayətdəyəm.

2013-cü ildə Sartavalaya gələrək, burada mətbəx arendaya götürdüm. Öz evim Petrozavodsk şəhərindədir.

Ailəliyəm, Əsmər, Səkinə adlı iki qızım var.

Yasin xoşxasiyyət, mülayim və qonaqpərvər insan təəssüratı yaratdı məndə.

İkilikdə günorta naharından sonra Ladoqa gölünün sahilinə



*Yasin Abbas oğlu müəlliflə Ladoqa gölünün sahilində*

gəzintiyə çıxdıq. Şəkil çəkdirdik. Sonra «Skazka» kafesinə gedib, kafenin sahibi şəmkirli Fərmanla və Lənkəranın Veravul kəndindən olan Natiq Abdullayevlə tanış olduq. O taksi sürür və xırda-para alverlə məşğul olurdu.

Axşam şam yeməyində Yasin ziyafət təşkil etmişdi. Fərman, Natiq, Yasinin dostu Titov Aleksey. Alekseviç və həyat yoldaşı Titova Olqa Nikolayevna da ziyafətdə iştirak edirdilər. Məclis şən və maraqlı keçdi.

Sortavalada olduğum iki gün ərzində həmişə Yasinlə görüşür və şəhəri səyahətə çıxır xoş anlar keçirirdik.

**Fərman Bayram oğlu Muradov**



Sortavalaya gəldiyim birinci gün Yasinin vasitəsi ilə tanış oldum onunla. Mənə xoş təsir bağışladı. Həmin gün şam yeməyindən sonra məni maşını ilə yaxındakı qəsəbədə yerləşən şəxsi mehmanxanasına apardı. İki gün həmin mehmanxanada qonaq qaldım.

Səhəri gün tanışlarının birinin «yaxtası» ilə Ladoqa gölünü gəzintiyə çıxmalı idik. Lakin qismətdən gəminin kapitanı xəstə olduğuna görə səyahətimiz təxirə düşdü. Günortaya yaxın Fərmanın özü mehmanxanaya gəldi və dedi:

– İstəyirdim səni Ladoqa gölünün gözəllikləri ilə tanış edəm. Bu mümkün olmadı. Gəmi olmasın, maşın olsun. Burada çox yaxşı gəzməli yerlər var. İndi gedəcəyimiz «Mərmər gölü» dünyanın ən maraqlı göllərindən biridir. O zaman Finlər dağın dibindən mərmər çıxardırlarmış. Müharibə zamanı buralara sovet qoşunları gələndə həmin karxananı doldururlar. İndi ora

sirrli göl kimi turistlərin maraq mərkəzindədir. İlin hansı fəsli olur-olsun, ora turistlərlə dolu olur. Buradan 35 km. aralıda Finlandiyaya yaxın ərazidə yerləşir.

Bir maşınla yaşıl meşəliklərin arası ilə ora yollandıq. Məşhur rus kinosu 8 qız 1 əsgər kinosu da orada çəkilmişdir. Oraları da seyr edib, sonra «Mərmər gölünə» getdik. Göl doğrudan da dərənin dibində idi. Bura su haradan gəlir, haradan çıxır, məlum deyil. Orada xeyli gəzib-gəzib şəkil çəkdirdik. Sonra təkrar geri Sortavalaya qayıtdıq.

Fərman 20.05.1966-cı ildə Şəmkir rayonunun Yeniyol kəndində sadə zəhmətkeş ailəsində anadan olub. Anası Qeyis Məhərrəm qızı dörd oğul, bir qız böyütmüşdür. Bir oğlu Bəhlul Bayram oğlu ali təhsilli mühəndisdir.

Fərman 1982-ci ildə Leninabad kənd orta məktəbini bitirib özünün dediklərindən:

– Hələ orta məktəbdə oxuyarkən müəllim məndən soruşmuşdu, böyüyəndə oxuyub nə olacaqsan? Dedim: alverçi müəllim əvvəlcə donub qaldı. Sonra əlini əlinə vuraraq qəh-qəhə



*Fərman Bayram oğlu müəlliflə Mərmər gölünün sahilində*

çəkib güldü. Nə qədər zaman keçdi. Mən orta məktəbi bitirdikdən sonra ali məktəbə iş vermədim. Mən niyə o sözü dedim. Çünki qonşumuz alverçi idi. Kimə nə tapılmayan şey lazım idisə onun yanına gəlirdilər. Evləri həmişə adamla dolu olardı. Ona görə mənim idealıma çevrilmişdi.

Yaşım tamam olan kimi hərbi xidmətə yollandım.

1984-1986-cı illərdə Qazaxıstanda, Balxaşda xidmət etdim. Xidmətimi başa vurduqdan sonra Rusiyanı şəhərbəşəhər dolanaraq alver edirdim. 2005-ci ildə Sortavala şəhərinə gəldim və burada topdansatış meyvə-tərəvəz bazası yaratdım. 2013-cü ildə «Skazka» kafesini yaratdım. Bu şəhərdə indi iki Azərbaycan mətbəxi var, biri «Kaspi»dir, biri də bizimki.

Bir də yaxın qəsəbədə mehmanxanam var, yanında ərzaq mağazamız da fəaliyyət göstərir. 27 nəfər işçimiz var. Qardaşım oğlu Elnur da burada mənim köməkçimdir. Bacım oğlu Tural da burada yanımdadır.

1990-cı ildə Zülfiyyə Ələddin qızı ilə ailə qurmuşuq. Günay, Bayram, Ülviyyə, Röyal adlı dörd övladımız var. Günay Tibb Akademiyasını bitirib, Bayram isə diş həkimliyi fakültəsində oxuyur. Ülviyyə isə sinif müəllimliyi fakültəsində təhsil alır. Ən kiçiyimiz isə hələ məktəblidir.

Uşaqlarımın xoşbəxtliyini görmək ən böyük arzumdur. Gələcək planlarım isə burada böyük bir istixana yaratmaqdır. Sonra isə uşaqlarımı Azərbaycanda layiqli işlə təmin etməyə nail olmaqdır. Onları burada saxlamaram. Qoy vətəndə işləyib orada yaşasınlar. İnsan vətəndən uzaq düşdükcə bütün xeyirdən, şərdən, adət-ənənədən də uşaqlaşır. Nə qədər çalışsaq da ora ilə uyğunlaşa bilmirik. Ona görə də övladlarım üçün bu maneələri aradan qaldırmağa çalışacağam. Sonrasını bir olan Allah bilir.

Fərəhindən ucalaraq, ömrün yazın görəsən sən,
Ətrafında nəvələrin xoş avazın görəsən sən!

Rahat ömür sürəsən kef eləyib hey yarın ilə,
Məkrlə şəri boğub bədin güdazın görəsən sən!

Adına haqq əliylə elə bir fərman yazıla,
Nə həyatın sərtini, nə ayazın görəsən sən!

Şən olub şən gəzəsən, gen dolanıb qəmdən uzaq,
Əzərək qəm başını hər işin tarazın görəsən sən!

Minib hələ eşq atını dolanasan yad elləri,
Kür üstündən güzar edib Xan Arazın görəsən sən!

İtirilən torpaqlar da dönub geri tez qayıda,
Rahat orda geşt eləyən ötən sazın görəsən sən.

Lalələrdən rəng alaraq al geyinə bəxtin üzü,
İqbalın ağ üzünü, ya da bayazın görəsən sən.



*Mərmər gölü (Mramornoye ozero)*

Nöqtə qoyub sözlərinə Səməndər də yazdı belə,
Gələn ili bir kitabda çıxıbdı yazın görəsən sən.
*20.07.2015, Kareliya, Sortavala*

10.07.2015-ci il tarixdə Mərmər gölündən (Mramornoye ozero) qayıtdıqdan, sonra «Skazka» kafesində Fərmanla birlikdə nahar etdikdən sonra o iş dalınca getdi. Az sonra Namiq Abdullayev gəlib kafeyə çıxdı. Onunla Serdaboldan Sortavalaya «Kaspi» kafesinə gəldik. Axşam «Kaspi» kafesində şam etdikdən sonra Namiq məni «Dəmir atı» ilə Fərmanın mehmanxanasına apardı. Mehmanxanada işləyən gənc növbətçi qız çay və kofe hazırladı. Elə çay içə-içə bu qeydləri etməyə başladım.

**Mübariz Kazım oğlu Kazımov**



20.07.2015-ci il tarixdə səhər mehmanxanadan çıxaraq Fərmanla «Skazka» kafesindən xeydi, bir neçə metr, aralıda yerləşən bazasına getdik. Orada işləyənlər Fərmanın qardaşı və qohumları idi.

Fərman zəng edib həmyerlisini və dostu tanınmış mühəndis və yol idarəsinin müdiri Mübariz Kazım oğlunu çağırdı ki, mənimlə tanış etsin.

Mübariz günorta nahar zamanı gəldi. Elə kafedə də tanış olduq.

Mübariz 7 noyabr 1962-ci ildə Şəmkir rayonunun Leninkənd kəndində anadan olub. 1978-ci ildə Leninkənd Beynəlmiləl ortat məktəbini – 8-ci sinfini bitirib, Bakı Naxçıvanski hərbi litseyinə qəbul olur, oranı bitirdikdən sonra Kiyevdə hərbi uçilişə daxil olur, amma oradan yarımçıq çıxaraq Bakı Azərbaycan

İnşaatçılar İnstitutuna daxil olur. Təhsildə qazandığı müvəffəqiyyətə görə II kursda onu Moskvaya göndərilir.

1982-1985-ci illərdə Moskvada o təhsilini artırmaqla məşğul olur.

1985-ci ildə təyinatla Sortavala şəhərinə göndərilir.

– Hələ institutda təhsil ararkən Moskvada Qalina Aleksandrovna adlı bir Fin qızı ilə ailə qurdum. Elə ona görə də təyinat zamanı bu rayonu seçdim. Ramiz, Yelena adlı iki övladımız var. Hər ikisi ali təhsillidir.

1995-ci ilə qədər su təchizatı idarəsində mühəndis işlədim.

1990-cı ildə sovet sədri vəzifəsində çalışmalı oldum. Bütün rayon camaatı məndən çox razı idilər.

1998-ci ildən 2000-ci ilə qədər rayon sovetinin deputatı oldum.

1998-2002-ci illər arası isə vilayət sovetinin deputatı seçildim. 2002-ci ildən yol idarəsinin müdiri vəzifəsində çalışıram. Karelyada ən böyük əraziyə 652 km. Məsafə yolda tikinti-təmir işlərinə nəzarət edirəm. 157 nəfərlik kollektivə başçılıq edirəm. Asfalt zavodu və bir şebel zavodu da mənim rəhbərliyim altındadır. İdarə Sortavalo "DRSU" adlanır. Nə qədər ki, təqaüdə çıxmamışam, inşallah, işimə davam edəcəyəm. Sonra da yaxşı fermer təsərrüfat yaratmışam. Əlavə özəl obyektlərim var ona nəzarət edəcəyəm. Bu dairədə körpü tikintisi də mənə tabedir. İşlədiyim müddət ərzində 30 körpü, 2 ədəd dəmir konstruksiyalı körpü inşa etdirmişəm.

1998-2000-ci illərdə Dövlət İdarəetmə Akademiyasında oxumuşam.

1988-1990-cı illərdə Maliyə Kredit İnstitutunda oxuyub, oranı bitirmişəm.

2006-2009-cu illərdə fəxri diplomla təltif olunmuşam.

2012-ci ildə əlli illiyimdə Nazirliyin "Fəxri əməkdar yol idarəsi işçisi" adına layiq görülmüşəm.

2002-ci ildə şərəf nişanı ordeni ilə təltif olunmuşam. Hazırda



*Mübariz Kazım oğlu müəlliflə*

Kareliyada ən böyük və güclü yol idarəsinə başçılıq edirəm. Dəfələrlə məni nazirliyə yüksək vəzifəyə dəvət ediblər intihası. Özüm razılıq verməmişəm. Bura onsuz da mənə nazirlər səviyyəsində iş kimidir. Heç indi də getmək istəmirəm. Vətəndən uzaqlaşdığım çoxdan olsa da, mən azərbaycanlıyam və bütün mənəvi həyatım ora ilə bağlıdır. Ən əzizlərim orada yaşayırlar. Necə deyərlər, budaqlarım burada, köküm orada. Həmişə anama baş çəkməyə gedib gəlirəm. Orada yaşayan yaxınlarımla telefon əlaqəsi saxlayıram. Düşəndə kiməsə əl tutub, yardım edirəm. Mənim də bütün azərbaycanlılar kimi ən böyük arzum torpaqlarımızın erməni işğalından azad olduğu günü görməkdir. Təəssüf edirəm ki, mənə zəng gəldi mən getməliyəm. Sizinlə ətraflı danışa, söhbət edə bilmədim. Özünüz də getməyə hazırlaşırsınız. Burada çox qalacaq olsa idiniz, sizi evimə aparardım.

– Çox sağ olun. Mən də getməliyəm.

O, sağollaşıb maşınına əyləşərək getdi. Mən isə Namiqlə Yasinin yanına "Kaspi" kafesinə yollandıq.

## SORTAVALADAN PİTKYARANTA ŞƏHƏRİNƏ

22.07.2015-ci il tarixdə səhər-səhər avtobusla Sortavaladan Pitkyaranta şəhərinə yola düşdüm.

Pitkyaranta avtovağzalında təsadüfən Telman Şəmkirli ilə ratslaşdıq. O, məni maşını ilə Yasinin qardaşı Nadirin rəhbərlik etdiyi «Kaspi» kafesinə gətirdi. Nadir də kafedə idi. Kafeni əslində Nadirin oğlu işlətsə də o, deportasiya olduğundan Nadir özü gəlib işlətməli olmuşdu.

Burada işləyən Musa Zərdablı və Sahib Füzulili ilə də tanış olduq. Sonra cəmiyyətin sədri Cavanşir Zərdablı gəldi. Xeyli onunla söhbət etdikdən sonra onunla Ladoqa gölünün sahilində yerləşən bağ evinə gəldik. Bura həm ev, həm də kiçik açıq yay kafesi idi. Bir tərəfdə təpənin üstündə birbaşa gölə baxan küləkli külafirəngidə əyləşib çay içə-içə tanışlığa davam etdik.

### Cavanşir Kamil oğlu Ümüdov



3 aprel 1963-cü ildə Zərdab rayonunun Sarıqaya kəndində anadan olub.

1990-cı ildən Kareliya vilayətinin Pitkyaranta şəhərində yaşayır.

Şəhərdə olan bütün uşaq bağçalarını ərzaqla təchiz edir. Əvvəllər ambar müdiri kimi topdansatışla məşğul olsa da, sonralar artıq ərzaq dövriyyəsi ilə məşğul olur.

1997-ci ildə şəxsi firmasını «Ümüdov»u yaradır.

2002-ci ildə Səyalı Heydər qızı ilə ailə qurub. Kamilə (2003-cü ildə), Əzizə (2004-cü ildə) adlı iki qızı var.

Cavanşir:

– Bəzi azərbaycanlılar kimi mən də həyatda xeyli səhvlərə yol vermişəm. Gəncliyimi pul kimi sağa-sola xərcləyərək müflis olmuş insanlar sayağı sonra peşmançılığını çəkmişəm. Sonra yarı yoldan qayıtmaq, qayıtmamaqdan daha yaxşıdır. Bacım da burada yaşayır. Ali təhsilli ingilis dili müəllimәsidir. Qardaşım oğlanları Mərdan Ənvər oğlu və qardaşı Mərdan Ənvər oğlu da burada yaşayırlar. Kiçik bir nəsil yaratmışıq burada.

Cavanşir ürəyitəmiz, qonaqpərvər oğlan idi. Şəhərdə hamı onu böyük qardaş kimi sevir və hörmət edir. Şəhərdə tanış olduqlarımın əksəriyyəti ilə məni tanış edən o oldu. Nadirin kafesində tanış olduğum andan şəhərdən çıxan ana qədər həmişə biryerdə olmuşuq. Məni Olenets şəhərinə Bahadurun yanına da o aparıb tanış etmişdi.

İmran Talıb oğlunun bağ evinə gedərək, orada xeyli əyləndikdən sonra, Cavanşirin evinə gəldik. Ailəsi bağ evində olduqlarından mənzildə ikimiz qaldıq. Növbəti günü onlar öz dairələri arasında qonaqlıq təşkil etməyi planlaşdırdılar. Balığı



*Cavanşir Kamil oğlu müəlliflə Ladoqa gölünün sahilində*




*Cavanşir Kamil oğlu müəlliflə Pıtkyaranta istirahət zonasında*

Cavanşirlə gedib 30 km. aralıda yerləşən Salmi kəndindən alıb gətirdik.

Salmi 150-200 evdən ibarət idi. Meşəlik arasında yerləşdiyindən əhalinin əsas məşğuliyyəti balıqçılıq və meşədən çeremoxa yığıb satmaqla məşğul olurlar.

**Anar və Vüqar qardaşları ilə tanışlıq**

Cavanşir Kamil oğlu ilə 22.07.2015-ci il tarixdə səhər-səhər onun bina evindən çıxaraq həyət evinə getdik. Orada işlərini nizama saldıqdan sonra, şəhərdə tanınmış iş adamları ilə görüşmək və bir yerə yığışmaq məqsədi ilə Rəhman Talıb oğlunun mağazasına getdik. Lakin o müsahibə verməkdən imtina etdi. Mən oradan Rəhmanın mağazasından az aralı yerləşən Bərdəli qardaşlarının «Dörd sezon» mağazasına getdim.



*Anar və Vüqar qardaşları*

Mağazanın girişində məni cavan bir oğlan qarşıladı. Azərbaycanlı olduğumu dərhal hiss edərək, mənimlə öz dilimizdə: Xoş gəlmisiniz, dayı. Əvvəl bu şəhərə, sonra da bizim mağazamıza.

Mağaza 200 kv.m. olan geniş salonda qadın və kişi geyim mağazası idi. İki satıcı qızdan başqa heç kəs gözə dəymirdi.

– Xoş gününüzə gəlmişəm, - deyə əlavə etdim. Bu qürbət ölkədə belə, sizi qarşımda görəndə onsuz da adama xoş gəlir.

– Yaxşı dayı, sizə nə qulluq edə bilərik? Bir də kimin yanına gəlmisiniz?

– Qulluq barədə çox sağ olun, - mən özümü təqdim edərək, - Mən qələm adamıyam. Gəlmişəm ki, burada yaxşı oğlanlarla görüşüb, bir kitab yazım. Bir kitab çıxardaraq, belə bir kitab olacaq, - dedim.

– Lap yaxşı, çox gözəl. Gedək arxada bizim kabinetimiz var. O başı ilə mağazanın arxa hissəsinə işarə etdi. Qardaşım da

oradadır.

Biz mağazanın içindən arxa tərəfə arakəsmənin arxasına keçdik. Bayaq danışdığım oğlandan nisbətən gödək boylu, gülərüzlü, xoşsifət bir oğlan dəftərə baxaraq, nə isə hesablayırdı.

Vüqar – məni ilk qarşılayan oğlan:

– Anar, bu dayı yazıçıdır, Azərbaycandan gəlib.

Anar:

– Xoş gəlib, gözümüz üstündə yeri var. O stol çəkib yer göstərdi. – Ayaq üstündə söhbət etməyəcəyik ki.

Mənim adım Anar, kiçik qardaşımın adı Vüqardır. Özümüz Bərdə rayonunun Lənbəran kəndindənik.

2000-ci ildən atamla birlikdə Tümen, Omsk, Murmansk, Kareliyanın müxtəlif şəhərlərində olmuşuq. Əvvəl atam, sonra da özümüz ticarətlə məşğul olmağa başladıq. Bu şəhərdə əvvəlcə ayaqqabı, paltar alveri edirdik. Küçədə və yarmarkalarda palatka alveri edirdik. Sonra da Moskva yarmarkası açdıq.



*Anar və Vüqar qardaşların övladları*

Mən 28 mart 1982-ci ildə anadan olmuşam. Orta təhsilliyəm.

2009-cu ildə Zülfiyyə Zalış qızı ilə ailə həyatı qurmuşam. Kərəm və Kənan adlı iki oğlum var. Ən böyük dayağım Allahdan aşağı atam və bu qardaşım olub. Biz ailədə iki qardaşıq, həm də dostuq.

Süleymanov Vüqar Slavik-Kərəm oğlu 24 sentyabr 1984-cü ildə Bərdənin Lənbəran kəndində anadan olub.

2004-cü ildə Süleymanova Məshəti Alı qızı ilə ailə həyatı qurublar. Şoşan, Aysu adlı iki övladları var.

– Kareliyanın bir neçə şəhərində kirayə yer alaraq mağaza açmışıq. Amma mağaza bizim özümüzə məxsusdur. Əvvəl bura bir erməninin ayaqqabı mağazası idi. Elə ki biz yarmarka açdıq, bura bankrot oldu. Alveri tam dayandı. Axırda bizim yanımıza gəlib dedi:

– Məni siz bankrot etdiniz. Gəlin bu mağazanı da sizə satıb mən gedim. Razılaşıb aldıq. Sonra da təmir etdik, bu şəklə



*Anarın övladları Kərəm və Kənan*



*Vüqar tanınmış iş adamı Habil Abbasəliyevlə*



*Ataları Kərəm kişi Kareliyanın iş adamı Rəhman ilə*

saldıq.

Atam kənddə buldozerçi Kərəm kimi tanınır. Bir adam deyə bilməz ki, Kərəm mənim işimə yaramayıb. Kəndimizin yolu xırla örtülüb, yağışdan, seldən sonra kələ-kötür olur. Həmişə atam o yolla o yana-bu yana getdikcə buldozerin bıçağını bir dəfə də olsun yanaşı qaldırmayıb. Həmişə aşağı buraxaraq yolu hamarlayıb. Çox adam yarızarafat, yarı ciddi deyir:

– Kərəm nə qədər sağdı heç, bizə asfalt lazım deyil, o yolu asfaltdan da yaxşı

düzəldir. Qaldı bizim Rusiyaya gəlməyimizə səbəb hər bir ailədə olduğu kimi bizim ailədə də pula maddi tələbatla. Bu qardaşımın körpəlikdən bir az problemli olması olub. Onun müalicəsi üçün ətək-ətək pul xərclənib. Allahıma fəda olum. İndi o xəstəlikdən əsər-əlamət qalmayıb. Mənəm-mənəm deyən oğlanla cəngə çıxar.

Qardaşların səmimiyyəti məni vəcdə gətirdi. Ona görə də bu şeir yarandı:

Pitkyaranta şəhərində ad alıb,
İki yoldaş, iki qardaş, iki dost.
Xoş rəftarla məni valeh etdilər,
İki yoldaş, iki qardaş, iki dost.

Biri Vüqar, adlı mərd və vüqarlı,
Biri Anar adldı üz-gözündən qərarlı.




*Vüqar, müəllif və Anar*

Bir –birinə arxa-dayaq yararlı,
İki yoldaş, iki qardaş, iki dost.

Tanrı versin qismətini bolabol,
Hər an olsun önlərində açıq yol.
Hər ikisi səadətə açsın qol,
İki yoldaş, iki qardaş, iki dost.

Bərdə gözəl, cənnət kimi bir diyar,
Lənbəran da öz adıyla orda var.
Kərəm kişi orda verib iki bar,
İki yoldaş, iki qardaş, iki dost.

Qoy gözləri nə çən görsün, nə duman,
Uca olsun taleləri hər zaman.
Səməndərlə ata –oğul dost olan,
İki yoldaş, iki qardaş, iki dost.
*23.07.2015*

Onlar üçün ən müqəddəs anadı,
Yer üzünün qibləgahı atadı.
Əzəl gündən bu inanca dayandı,
Bir atadan bir anadan olanlar,
İki yoldaş, iki qardaş, iki dost.

Təbrik edim Slaviki-Kərəmi,
Belə oğlu olanların nə qəmi.
Birləşərək nur ilə yer aləmi,
Vətən deyə eşq oduna dolanlar,
İki yoldaş, iki qardaş, iki dost.

Kareliyada qonaq oldum bir qədər,
Dolanmadı günlərimiz boş, hədər.

Gördüyünü qeydə aldı Səməndər,
Hər kəs görsə bax onlarla dost olar
İki yoldaş, iki qardaş, iki dost.

**Elvin Bəhman oğlu Qorçuzadə**



Vüqarla tanışlıqdan sonra mən mağazadan çıxmağa hazırlaşarkən o:

– Müəllim, bu bağlamanı da hədiyyə kimi bizdən qəbul edin. Hər halda çöllükdür, “dəymək”, hamıya lazım olur.

Mən təşəkkür edib:

– Çox sağ ol. Amma bunları əlimdə hərləmək çətin olacaq.

– Əlinizdə hərləmək çətin olsa onları geyinib köhnələrinizi atarsız bir tərəfə. Hə, gedək sizi bir dostumla da tanış edim. Zəngləşmişəm, indi mağazasında bizi gözləyir. Hər halda, kitab yazılıb gələcək, qoy onun adı da bizimlə bir yerdə olsun. Onsuz da həmişə bir yerdə oluruq.

Vüqar Slavik –Kərəm oğlu ilə bərabər Elvinin meyvə-tərəvəz mağazasına getdik. Mağazada beş-on alıcı alış-veriş edir, üç nəfər cavan oğlan isə onlara xidmət edirdi. Onlar abzərbaycanlı idi. İçəri daxil olarkən cavanlardan biri qapı önündə Vüqarla səmimi görüşüb, Elvin bu dəqiqə gələr, elə indicə çıxdı. Tez qayıdacaq. Keçin içəridə əyləşin, çaydan-zaddan için, – deyə arxada yerləşən kabineti göstərdi.

Vüqar:

– Onda mən də bir azdan qayıdacam.

Bu dayı şair, yazıçıdır. Kitab yazır. İstəyirəm Elvinlə də görüşüb tanış olsun.

Bəhram:

– Lap yaxşı. Onda Şahlar orada kabinetdədir. O da şair, sənət aşiqidir. Özü də ara-sıra şeir yazır. Yəqin söz-söhbətləri tutar.

Şahlar mühasib əvəzi haqq-hesab işinə baxırdı. Alıcılara qaimə yazır, pulunu alıb, malı yola salırdı. Doğrudan da baməzə danışığı və ədəbiyyata maraqlı olduğu ilk andaca nəzərə çarpırdı. O süfrə açdıraraq mer-meyvə doğratdırıb süfrəyə qoydurdu. Çay və şirniyyat da gətizdirdi.

Az sonra Elvin də gəlib çıxdı. Ucaboy, gülərüz, xoşməcaz oğlan idi. İçəri daxil olan kimi:

– Şair bizim bu kiçik mağazamıza xoş gəlib, səfa gətirib. İnşallah, onun qədəmləri düşərli olacaq. Çünki, şairlər, yazıçılar peyğəmbərlərin davamçılarıdır. Onlara da şeiriyyət ruhunu Allah verir.



*Elvin Bəhmən oğlu ovda*

– Çox sağ olun, inşallah Allah qəlbinizə görə öz nəzərlərini əsirgəməz.

– Şairin gəlişi münasibəti ilə yaxşı bir məclis məndə-deyə o içəri daxil olmaqda olan Vüqara dedi:

– Bir quzu sifariş vermişəm. Axşama, sabaha toplaşmaq lazımdır.

Vüqar:

– Mütləq lazımdır. İkidən-birdən belə bir nürani şair qonağımız olmayıb ki. Həm ticarət, həm ziyarət o biri yoldaşlara da xəbər vermək

lazımdır.

Elvin Bəhman oğlu Qorçuzadə 03 noyabr 1974-cü ildə Yevlax rayonunun Salahlı kəndində anadan olub. Atası Bəhman Bəhram oğlu Bərdə rayon Salahlı kəndində pambıqçılıq üzrə təsərrüfat briqadiri işləyib. Anası Almaz Haqverdi qızı ömürgün yoldaşına mənəvi dayaq olaraq 2 oğul, 2 qız böyüdüb. O təkcə gözünü atamın qazancına tikib, evdə oturub uşaqlarına qulluq etməklə kifayətlənməzdi. Özü də həm təsərrüfatda çalışar, həm də həyətyanı torpaq sahəmizi becərməklə, toyuq-cücə saxlamaqla atama maddi dayaq olardı. Atam həmişə təsərrüfata bağlı adam olduğundan bizim təlim-tərbiyəmizlə də əsas anam məşğul olurdu..

Mən 1990-cı ildə Salahlı kənd orta məktəbini bitirməmiş məktəbdən qaçaraq, Rusiyanın Sankt-Peterburq şəhərinə yaxın qohumum Xəyyamın yanına gəldim. Rus dilini zəif bildiyimdən və təcrübəsizliyim ucbatından xeyli çətinliklərlə üzləşdim. Gördüm orada qalmaq daha mümkün deyil. Ona görə də tanış bir oğlanla bu şəhərə yaxın bir qohumumun yanına gəldim.

1998-ci ildən ticarətlə məşğulam. «İP Qorçuzadə» ticarət müəssisəsinə başçılıq edirəm.

2000-ci ildə qardaşım Bəhram da yanıma gəldi. O da rus dilini yaxşı bilmədiyinə görə rus satıcılarının yaınna qoydum. Yavaş-yavaş öyrəndi. İndi sərbəst işləməyi bacarır. Xalam oğlu Səddam Sadıqov da bizimlədir. Yaxşı şeir həvəskarıdır. Çoxlu şeir əzbər bilir.

2002-ci ildə bacımın yoldaşı Şahmar Museyib oğlu Məmmədəliyev də yanıma gəldi. Kiçik bir kompaniya yaratmışıq. Allah kömək olsa daha böyük işlər qurmaq arzusundayam. Bütün arzuların təkanvericisi Tanrı özüdür. Necə bilir elə də olacaq…

2004-cü ildə Zəhra Vaqif qızı ilə ailə qurmuşam. Elvira və Elmir adlı iki övldaım var. Qızım orta məktəbdə oxuyur. Arzum onları da böyüdüb layiqli şəxsiyyət kimi formalaşdırmaqdır. Hər bir valideyn çalışır ki, övladı savadlı və qabiliyyətli olsun,

xoşbəxt olsun. Bir də onu arzu edirəm ki, torpaqlarımız işğaldan azad olsun, qaçqınlarımız öz elinə-obasına qayıtsınlar.

Həmin gün axşam Cavanşirin bağ evinə ziyafətə yığıldıq. Vüqar, Anar qardaşları Elvin Şahmar Münasib və Rəhman məclisin əsas iştirakçıları idilər. Məclis çox şən keçdi.

Və mən də orada yazdığım bu şeiri ilk dəfə orada səsləndirdim.

Kareliyada Pitkyaranta şəhərində düz
Ladoqa gülünün sağ sahilində qonaqlıqda biz
Oturmuşduq Ladoqa ilə qabaq qənşər üzbəüz.
Nə o dinir, nə də mən çarpaz düşüb baxışlar,
Açır göydən buludlar üzərində naxışlar.

Cavanşirin köşkündə heç kəs yoxdu, tək mənəm,
Bir də uzaq sahildə seyrə çıxan bir sənəm.
Ürəyimdən keçir ki bir əl edəm səsləyəm,



*Dostlar Cavanşirin bağ evində Ladoqa gölünün sahilində*

Yada düşür qınaqlar, yada düşür qaxışlar
Hər tərəfdə çaxnaşan, söz gəzdirən adamlar.

Cavanşir də həyətdə yenə balta yenə iş,
Bir əlində ağ balıq, bir əlində iti şiş.
Ləzzət verir hər zaman ona bu hal bu vərdiş,
Lap qəlbini istəsən dost tanışa bağışlar
Dostlar üçün bağ salar dostlar üçün bağ işlər.

Bu şəhərdə yaşayır yaxşı gözəl oğlanlar
Bir-birini əzizdir hər an yaxşı olanlar
Pislikləri atarlar Ladoqada boğular
Davam edər iş gücdə dayanmadan yarışlar
Pis işlərin boynunu yaxşı işlər qarışlar.

Dostlar budur yığışıb bir-bir köşkə gəldilər,
Elvin, Şahlar Bəhramla Anar Vüqar dostdular
Rəhman Namiq bir dəki Miri Səddam oldular
Münasib də başladı qəlbində xoş duyğular,
– Deyirəm ki, hər zaman belə ola adamlar.

Bu dünyada hər zaman gücü çoxdu birliyin,
Qarşısında əriyib ömrü solar kirliyin
Bu birlyii qoruyub zaman-zaman girliyin
Ara versin şimşəklər. ara versin çaxışlar
Qoy torpağa səpilsin bərəkətli yağışlar.

Ertəsi gün axşam tərəfi iş saatından sonra yenə həmin dostlar təkcə Miri yox idi. Elvinin Ladoqa gölünə yaxın və şossenin kənarında yerləşən bağ evinə yığışdıq. Həyət geniş və səliqə – səhmanlı idi. Burada əlverişli ticarət obyekti yaratmaq da mümkün idi. Həyətin ortasında manqal qoyulmuşdu. Manqalın üstündə düzülmüş şişlərdən ətrafa xoş kabab ətri yayılırdı. Hamı

manqalın ətrafına yığılaraq hərə bir işlə məşğul idi. Sonra otağa yığılaraq yeyib-içmək məclisi başladı. O gecə ən maraqlı xoş təəssüratla sona yetdi. Sübhə yaxın hərə öz mənzilinə yollandı.

### Münasib Ələm oğlu Eyvazov



Səhər tezdən yuxudan qalxıb yuyunduqdan sonra Cavanşirlə onun bağ evinə gedib qəlyanaltı etdikdən sonra oradan qalxaraq Mnüasibin anbarına-mağazasına yollandıq. Gecəyarı məclisdən ayrılmasına baxmayaraq, hər kəs saat 6-dan iş başında idi. Heç kəs özünü yorğun hiss etmirdi. İş tempi onlarda xoş-əhval ruhiyyə yaradırdı. Özlərinin dediyi kimi ifadə etsək adam o zaman yorğunluq hiss edir ki, iş zəif olsun. Əgər alver yaxşı olarsa, əhval da yaxşı olur.

Elə iş fasiləsi ərəfəsində Münasiblə yaxından tanış olduq. O, 15 aprel 1964-cü ildə Zərdab rayonunun Pərvanlı kəndində anadan olub. Atası Ələm Nəbi oğlu ticarət texnikumunu bitirərək, uzun müddət mağaza müdiri işləmişdir. Sonralar isə restoran müdiri olmuşdur. Anası Almaz Abış qızı evdar qadın idi. O, yalnız iki oğul dörd qızının tərbiyəsi ilə məşğul olmaqla, ev işlərini idarə edirdi.

Münasib:

– Anam çox mehriban qadın idi. qohum –əqraba, qonum-qonşu da onun həlim, mehriban davranışlarından razı idilər. Bizim davranışımıza, təlim-tərbiyəmizə də daimi olaraq o nəzarət edirdi.

Mən 1982-ci ildə Pərvan kənd orta məktəbini bitirdim.

1982-1984-cü illərdə Çitanın Borziya şəhərində hərbi xidmətdə oldum. Xidmətdən döndükdən sonra bir il Zərdab pambıq tədarük məntəqəsində işlədim. Aldığım zəhmətlhaqqı məni qane etmədiyinə görə Ukraynaya getdim.

1985-ci ildə isə gəzərək Dnepropetrovsk şəhərinə getdim və orada Metallurgiya İnstitutuna daxil oldum.

1991-ci ildə həmin şəhərdə təhsilimi bitirdikdən sonra təkər-maşın şinləri hazırlayan zavoda freyzer dəzgahlarında çalışmağa başladım.

1999-cu ildə zavoddan işdən çıxaraq, Kareliyaya - bu şəhərə Pitkyarantaya qohumlarımızın yanına gəldim. Elə gələn gündən burada ticarətlə məşğul oluram. Əvvəl köşklər açdım. Sonra Cavanşirin köməyi və məsləhəti ilə «İP Eyvazov» şəxsi firmamızı yaratdım.

1992-ci ildə yaxın qohumum- Cavanşirin bacısı – Cavad-xanım Kamil qızı ilə ailə qurduq. Emil, Ələm adlı iki övladımız



*Sortavala şəhərindən bir görünüş*

var. Bu mağazanı «Sever» mağazasını açanda xeyli manelərlə qarşılaşdım. Axır istəyimə nail ola bildim. İndi Allaha min şükür, işlərim pis getmir. 20 nəfər işçim var. Elə onlara şərait yaratmaq özü bir savabdır. Burada da kəndimizdə də yaşayış üçün, uşaqlarımın gələcəyi üçün nə lazımdırsa etmişəm. Heç nəyə ehtiyacım yoxdur. Bir Allahdan diləyim ailəmin, uşağımın sağlığı və xoşbəxtliyidir. Can sağlığı olan yerdə hər iş öz yolunu tutacaq. Böyük oğlum Emil bu il orta məktəbi bitirərək ali məktəbə iş verib. İnşallah qəbul olar.

Tanrı verib iki oğul, iki nər,
Qoy həmişə ruziləri bol olsun.
El-obanın çıraq kimi gözündə
Şöləlnib özləri də el olsun.

Arzuları qanad açsın göylərə,
Hər birinin adı düşsün dillərə.
Körpü kimi obalara-ellərə,
Könüllərdən könüllərə yol olsun.

Bir dəryadı önlərində bu dünya,
Kök atsınlar qoy bu taydan o taya,
Ümid kimi həm ataya, anaya,
Pərvaz edən qanad olsun, qol olsun.

İki oğul bir bədənin qanadı,
Pərvazlansa el-obaya həyandı.
Xoş xəyalım bu arzuyla oyandı,
Pöşrə güllər qönçələnib kol olsun.

Tanımasın ömürləri qəm-kədər,
Çətin günlər görüm düşsün dərbədər.
Qəlbdən deyir bu sözləri Səməndər:
- Qardaşların xoş günləri bol olsun.

## Bahadur Şamil oğlu İsgəndərov



24.07.2015-ci il tarixdə Cavanşirlə bərabər Pitkyaranta şəhərindən Olenets şəhərinə Bahadur Şamil oğlu ilə görüşməyə yollandıq.

Mən özüm Olenetsə tək getməyə hazırlaşarkən Cavanşir Kamil oğlu – mən heç vaxt razı olmaram ki, mənim maşınım ola-ola sən oraya avtobusla gedəsən. Onsuz da, mənim də orada işim var. Elə yoldaşlıq edərik. Mənim bir dostuma Bahadur sürücülük vəsiqəsi verməlidir.

Bahadur bizi şəhərin girəcəyində Prava verilən idarənin önündə gözləyirdi. Pravanı düzəldib, Cavanşiri yola saldıqdan sonra, Bahadur məni evinə apardı. O iki otaqlı mənzildə tək qalırdı. Çantaları otağa qoyduqdan sonra yaxınlıqdakı ərzaq mağazasına getdik. Müəyyən ərzaq aldıqdan sonra təkrar evə qayıtdıq.

Bahadur Şamil oğlu 23.05.1961-ci ildə Şirvan şəhərində sənətkar ailəsində anadan olub. Atası Şamil Xalid oğlu atasını körpəlikdə itirmişdi.

38-ci ilin represiyası öz qılıncını onlara da çalmışdı. Başçısını itirən nənələri Hürcahan Bahadur qızı 3 yetim böyüdüb boya-başa çatdırmışdı.

Bahadur:

– Mən ana babamın adını daşıyıram. Aşıq Şakir babamla yaxın dost idi. Bizim evdə çox olub. Babam da yaxşı balaban çalan olub. Onlar bir yerdə çox oğlan evləndirib, gəlin köçürüblər.

Mən – 1978-ci ildə orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollandım.

1980-1982-ci illərdə Belarusiyada qulluq etmişəm. Əsgərlik xidmətindən sonra Novokuznetsk şəhərində və Yakutyada ticarətlə məşğul olmuşam. Yakutyada işlərim əla gedirdi. Yaxşı şəraitim var idi. Bir şərikimin xəyanəti nəticəsində hər şeydən məhrum oldum. Sonra bu şəhərə gəldim və burada yavaş-yavaş yenidən dirçəlməyə başladım. İndi elə böyük imkanlarım olmasa da, yaxşı dostlarım var. Buradan Petrozavodsk və Murmansk şəhərlərinə mal vururam.

1990-cı ildə Mahirə Qulam qızı ilə ailə qurdum. Yoldaşımı da özümlə Nova-Sibirə aparmışdım. Xəstələnmişdi, nə qədər həkimə apardımsa, müalicə etdirdimsə, xeyri olmadı. İki aydan sonra vəfat etdi. Başım onun dəfninə qarışdığı üçün Yakutiyada ortağım hər şeyin altından girib üstündən çıxdı. Bir qızım var – Nurcahan. Ailəlidir, bütün ömrümü ona həsr etmişəm.

Qardaşım İlqar yaxşı idmançı idi. Navokuznetsk şəhərində



*Tanınmış alim Mehralı Bəhri oğlu, Bahadur Şamil oğlu və müəllif Kareliya gölü sahilində*

rəhmətə getdi. 2 uşağı var. Onların da yükü mənim üzərimdədir. Həmişə maddi və mənəvi kömək göstərirəm. Onların da məndən başqa heç kəsi yoxdur. Həyatda başım çox bəlalar çəkib. Anam ömrünün ən mənalı çağlarında vəfat etdi. İndi atam tək-tənha yaşayır. Hər gün onun səsini eşitməsəm ürəyim partlayar.

Axşam tərəfi Bahadurla şəhəri gəzməyə çıxdıq. Oradan da bir tanışının maşını ilə şəhərdə dəyərli ziyalılarımızdan biri olanr texnika elmləri namizədi Mehralı Bəhri oğlunun həyət evinə yollandıq.

Bahadur Şamil oğlu, Tanrı sənə yar olsun,
Yoluna işıq salan nurlu bir fanar olsun.

Zülməti adlayaraq nurlu səhərlər qucasan,
Arxanda bağçalı dağ, önündə bahar olsun.

Həyatda çox görübdür şaxtalı günlər ki, gözün,
Barı indən yana qoy nə boran, nə qar olsun.

Sərt hicran nəfəsi dondurmasın qəlbini qoy,
Nə hicran, nə ayrılıq, nə də intizar olsun.

İnsandan nə fayda var qoy olsun Allah köməyin,
Nə qəlbdə qəm dalğası, nə gözdə qubar olsun.

Sevgidən güc alıb yol çəkəsən qürbətə sən,
Bu yollarda nə qan, qada, nə azar-bezar olsun.

Uzadırsan hər zaman, hər kəsə dostluq əlini,
Zəhmətini kim tapdasa aləmdə xar olsun.

Çatsın haqq evinə Səməndərin arzuları,
Allahın xoş nəzərləri üstündə var olsun!
*24.07.2015*

## Mehralı Bəhri oğlu Bayramov



Hava xoş idi. Sanki bir ziyalı ilə görüşəcəyimi bilən buludlar qaşqabağını sallamadan, hönkürüb ağlamadan çəkilərək uzaq tayqaların arxasından gizli-gizli gülümsəyən günəşin aləmlə təmasına və iki ziyalının qürbət eldə səmimi görüşünə şərait yaradaraq tamaşa edirdi.

Mehralı bizi qapı önündə qarşılayaraq qəzəbindən zəncir çeynəyən Toplan itini həyətə ötürdü.

Geniş həyatyanı sahəsində səliqə ilə kartof, göyərti, çiyələk, moruq və qarağat kolları əkilmişdi. Bir az kol üstündən qarağat, moruq, çiyələk dərib, yedikdən sonra evə keçdik.

Hələ gəlməmişdən əvvəl Bahadur məni telefon vasitəsiylə ona təqdim etdiyindən əlavə izaha ehtiyac yox idi. Ona görə də otağa keçən kimi xanımı Nərgiz xanım çay süfrəsi açdı.

Mehralı:

– Şair bizim bu qürbət odamıza xoş gəlmisiniz. Elə yenicə işdən gəlmişdim ki, Bahadur zəng etdi...

Hazır yeməyimiz var…

Bahadur:

– Çox sağ ol, abi, süfrəniz açıq olsun. Biz nahar etmişik. Eləcə çay içəcəyik. Şair öz kitabına qürbətdə yaşayan bir ziyalı kimi sizi də salmaq istəyir. Hər halda bir xatirədir.

– Çox sağ olun, nə deyirəm.

Mehralı Bəhri oğlu Bayramov 31 may 1957-ci ildə Özbəkistanın Kaşkadarya vilayətinin Kitab rayonunun Bəylik kəndində anadan olub. Valideynləri 1940-41-ci illərdə Gürcüstanın

Axalkala bölgəsindən Orta-Asiyaya sürgün olunmuş türk ailələrindən olub. Qohum-əqrabaları bölüşdürülərək Qazaxıstan, Özbəkistan respulikalarının müxtəlif şəhərlərində məskunlaşdırılır. Bir çoxu isə heç mənzilə çatmamış yollarda vəfat etmişdilər. Orta Asiyanın ilan mələşən düzlərində həyat şəraiti normallaşana qədər demək olar ki, köçkünlərin yarısı həlak olmuş, qalanlar isə min bir əzab-əziyyətə qatlaşaraq yeni həyat tərzinə alışmışdılar.

Mehralı:

Mən 1975-ci ildə orta məktəbi bitirib bir il sonra 1976-cı ildə Daşkənd Meliorasiya İnstitutunun kənd təsərrüfatının mexanikləşdirilməsi fakültəsinə daxil oldum. Oxuduğum müddətdə əlaçı stipendiyaçı olmaqla yanaşı, tələbə elmi cəmiyyətində iş də götürmüşdüm.

1980-ci ildə institutu fərqlənmə diplomu ilə başa vurdum.

1900-cü ildə Moskva şəhərində Aspiranturaya daxil oldum.

1992-ci ildə təhsilimi başa vurmaqla «İşlədilmiş yağların hidrogekolsin filterlərlə təmizlənməsi» mövzusunda elmi işimi müdafiə edərək texnika elmləri namizədi elmi dərəcəsinə layiq görüldüm.

1981-ci ildə Nərgiz Eynulla qızı ilə ailə qurmuşam: üç qızım, iki oğlum var.

Oğlum Murad Petrozavodsk Dövlət Universitetində sonuncu kursda oxuyur. Bir qızım ailəli, iki qızım subaydır. Fərqanə hadisəsindən sonra bütün türkləri Özbəkistandan çıxartdılar. Biz də köçüb Azərbaycana Şirvan şəhərinə gəldik. Xeyli orada texnikumda müəllim işlədim. Özümün beş ixtiram var.

1996-cı ildə Əlibayramlıdan köçərək bu şəhərə gəldim. Hazırda texnikumda dərs deyirəm. İmkan olsa şərait yaradılsa günü sabah Azərbaycana gedib orada çalışaram.

Mehralının qabiliyyəti və savadı müqabilində yerli hakimiyyət orqanları ona həyətyanı sahə və ev tikintisinə yardım etməklə, yaşayış şəraiti ilə və işlə təmin ediblər. Hər kəs ona



*Mehralı Bəhri oğlu, Bahadur Şamil oğlu və müəlliflə*

hörmətlə yanaşaraq ehtiram göstərirlər.

Kareliyada deyilənlərə görə 600-dən çox göl var. Ona görə də bu bölgəyə göllər ölkəsi deyilir. Bu göllər ölkəsində olub bu göllərəin balığından dadmamaq mümkün deyildi. Ona görə də Pitkyarantada olduğu kimi burada da Bahadur göl kənarına gəzməyə çıxmağı təklif etdikdə ondan xahiş etdim ki, ətlə yanaşı, özü ilə balıq da götürsün. Elə də oldu. Mehralı, oğlu Cahangir, Bahadur və mən dördlükdə şəhərə yaxın olan göllərdən birinin sahilinə yollandıq.

Hava sakit və günəşli idi. Belə günlər Kareliyada bu il çox az olmuşdu. Odur ki, axşamadək göl kənarında yeyib-içib istirahət etdik.

# OLENETS ŞƏHƏRİNDƏN SANKT-PETERBURQ VİLAYƏTİNƏ MƏNSUB OLAN PADVOROJİ ŞƏHƏRİNƏ

27.07.2015-ci il tarixdə Bahadur, Hacı Qafqaz oğlunun maşınını alaraq məni 150 km. Aralıda yerləşən Padvoroji şəhərinə apardı. Sibir çayının üstündən adlayaraq, Yandepolya şəhərinin içindən keçərək, Padvoroji şəhərinə buruldduq. Padvoroji şəhəri Sankt-Peterburq Yandepolya, Petrozavodsk şossesindən sağa burulur.

Biz şəhərin mərkəzində bir kafenin önündə dayandıq. Kafenin önündə bir neçə azərbaycanlı əyləşərək çay içirdilər. Bahaduru maşından düşən görcək ayağa qalxaraq çox səmimi görüşdülər.

Bahadur mənə:

– Bunlar borçalı azərbaycanlılarıdır. İki kompaniya təşkil



*Bahadur Şamil oğlu, müəllif və Saday Borçalı ilə*

edirlər. Bir-birləri ilə araları yoxdur. Amma hər iki komandanın başçıları mənimlə xoş münasibətdədilər. – O, bizi qarşılayan kişiləri bir-bir təqdim etdi. Bu qardaş Saday İlyas oğludur, bu isə Zahid Rəfi oğlu, Qurban Əmir oğlu, Mornaulun Əziz-kənddəndirlər.

Qurban Əmir oğlu Bahaduru görcək əl-ayağa düşərək, qoyun ətindən kabab çəkib yaxşı qonaqlıq təşkil etdi. Nahardan sonra Bahadur:

– Mən yazıçını sizə, sizi Allah əmanətində qoyub gedirəm. Mənə olan hörmət və qayğınızı ondan əsirgəməyin. Onsuz da hər necə münasibət göstərsəniz kitabda əks olunacaq. Biz bir yerdə şəkil çəkdirdik. Məni unutma. İnşallah gələn il görüşərik.

Axşama kimi şəhəri gəzib –dolandım. Axşam Sadayla Yandıpolya şəhərinə gəldik. Şam yeməyini Sadayın mənzilində etdik. Səhər isə Saday məni Avtovağzaldan Syas–Stroya yola saldı.

Syas-Stroya nahar zamanı çatdım. Narın-narın yağış yağırdı. Xeyli avtovağzalda dayanıb yağışın kəsməsini gözlədim. Bir az yağış sakitləşəndən sonra şəhəri gəzməyə çıxdım. «Mini rınok» da iki-üç azərbaycanlı ilə görüşüb söhbət etdik. Onlardan biri:

Bu şəhərdə nə elə dövlət işlərində çalışan, nə də elə güclü iş adamı yoxdur. Bir üç-dörd nəfər xırda-para alverçi var. Biz də mövsümü alverə gələnlərik. Payız havalar soyuqlaşan kimi çıxıb gedəcəyik.

– Mən həmin şəhərdən şəhərlərarası marşrutla Volxov şəhərinə getdim.

Volxov şəhəri də Sankt-Peterburq vilayətinə baxır. Buradan Sankt-Peterburq şəhərinə 150-200 km. Məsafə var. Soraqlaşıb «Zoozernaya» Azərbaycan mətbəxinə gəldim. Kafenin sahibi orada yox idi. Onun yanında bir şirniyyat və çörək bişirən və satan pavilyon var idi. Cavan bir oğlan uşağı alış-verişlə məşğul idi. Azərbaycanlı olduğu üz-gözündən hiss olunurdu.

– Yaxınlaşıb salam verdim. Azərbaycan dilini zəif bilirdi.

Danışıq zamanı aydın oldu ki, atası Əhmədov Ehtiram da Tovuz rayonundandır.

Ruslan:

– Bu dəqiqə zəng edirəm atam gələr. Onunla danışarsınız.

Atası Ehtiram «zaozernaya» kafesinin sahibi ilə gəldi. Hər ikisi maşından düşüb mənə yaxınlaşdılar. Kafenin sahibi sərxoş idi. Ayaq üstündə güclə dayanırdı.

O:

– Bağışlayın, mənim vəziyyətim bu dəqiqə əladır. İnşallah səhər sizinlə görüşüb söhbət edərik.

Ehtiramla tanış olduqdan sonra o mənə:

– Bağışlayın, mənim işim var. Burada çaydan-zaddan için, mən də bir azdan gələcəyəm.

Mən onun gec gəldiyini görərək Şahəddin adlı bir Goran-boylunun kafesinə getdim. Şahəddinlə kafenin önündə rastlaşdıq. Görməzsə, bilməzsə görüşüb tanışlıqdan sonra məlum oldu ki, o kafenin sahibi olsa da, kafe və onun yanındakı obyektləri arendaya verilib.

İçəri kafeyə daxil olduq. Bir neçə nəfər şirin-şirin söhbət edirdilər. Kafeni işlədən: Ədalət Nəriman oğlu Əyyubov Bərdə rayonunun Lənbəran kəndindən idi. O, qonaqpərvərlik göstərərək stol açdı. Süfrə arxasında dedi:

– 1995-ci ildən bu şəhərdəyəm. Bu kafeni yaxında icarəyə götürmüşəm. Heç xərc-borcunu ödəmir. İndi də kafenin sahibi ayağını bir başmağa dirəyib ki, mənim kafemi boşalt. İndi görüm yol kənarından bir kafe tapıb işlədə bilirəmmi.

Axşam Etibar bir-iki nəfər yoldaşı ilə kafeyə gəldilər. Məni orada görüb təəccüblə mənə:

– Bıy…Siz bura gəlmisiniz. Elə bilirəm getmisiniz…

– Xeyr, hələ getməmişəm.

– Bəs burada qalmağa yeriniz varmı?

– Demək olar ki, hələ yox.

O, xeyli fikirləşdikdən sonra-Eybi yoxdur, gedərik bizdə

qalarsan.

– Çox sağ olun.

Ehtiramın yanındakı ortaboy, xoşsifət adam Kamandar Göyçəli idi. Şəhərdə tanınmış iş adamlarından biri idi.

Ehtiram şam süfrəsi açdırdı. Kafedən çıxandan sonra Kamandarın maşını ilə üçlükdə Mehman Masallının kafesinə çay içməyə yollandıq.

Axşam gecələməyə Ehtiramla onun mənzilinə getdik. Yeni tikilməkdə olan bina idi. Geniş otaqları hündür və müasir tipli idi. Mən ikinci mərtəbədə qonaq evində qaldım.

Səhər qəlyənaltıdan sonra Ehtiram məni təkrar Ədalətin kafesinə apardı. Kamandarın iş yeri onun yanında idi. Biz onunla bu günə vədələşmişdik.

Lakin onun işi çıxdığına görə onunla söhbətimiz alınmadı.

Ədalət çox istiqanlı və qonaqpərvər adam idi. Axşama qədər onunla söhbət edə-edə günü başa vurdum.

Etibar iki dəfə kafeyə getsə də mənə yaxınlıq vermədən çıxıb getdi. Axşam Şahəddin Həbib oğlu kafeyə gəlmişdi. O məni görən kimi yanıma gələrək:

– Şair, hələ burdasız?

– Gördüyünüz kimi.

– KEçən axşam harada qaldınız?

– Etibargildə.

– Bəs bu axşam, Etibar gəlməyib?

– Hələ yox.

Mənim evimdə qonaq çoxdur. Yoxsa sizi dəvət edərdim. Amma fərqi yoxdur. Onsuz da daha gecdir. Gedək sizi mehmanxanada yerləşdirim, yoxsa elə burada qalarsınız.

Onunla mehmanxanaya yollandıq. Məni mehmanxanaya yerləşdirdikdən sonra görüşüb ayrıldıq.

Səhər tezdən mən çantalarımı Etibarın oğlunun şirniyyat sexindən götürüb Sankt-Peterburqa yola düşdüm.

# VELİKİY NOVOQOROD ŞƏHƏRİNDƏ

01.08.2015-ci il tarixində Sankt-Peterburq şəhərindən avtobusla qədim Rusiya knyazlığı olan Velikiy Novoqorod şəhərinə gəldim. Avtobusdan düşdükdən sonra bir taksi ilə mərkəzi şəhər bazarına getdim. Bazarın önündə qarpız satan cavan bir azərbaycanlıya yaxınlaşdım.

Ağcabədi rayonunun Şenli kəndindən Elşad Teymur oğlu Kamalovla tanış olduq. Onunla bərabər Ələkbərin kafesinə gəldik. Kafedə olanların əksəriyyəti azərbaycanlılar idi. Kimi yemək yeyir, kimi də damino oynayırdılar. Salam verib özümü təqdim etdim. Stolların birindən bir oğlan qalxıb yerini mənə verərək özü yeni stul gətirdi. Stol arxasında əyləşənlərdən Qabil və Faiq qardaşları Tovuzun Əlibəyli kəndindən idilər. Fərrux Fəxrəddin oğlu Aşurov, Nəbi Qəzənfər oğlu Babayev Ağcabədi rayonundan idi. Namiq Nizam oğlu Rəhimov ağcabədili



soydaşlarımızın əhvalı çox yaxşı idi. Yeyib-içib kef edirdilər. Sonda ləzgi qardaşlar demiş, bir balaca qanıqaraçılıq oldu. Bir əhvalat yadıma düşdü: Bir gün ləzgi toydan qayıdırmış kefi kök, əhvalı çağ. Qonşulardan biri soruşur ki, can qardaş, toy necə keçdi. O cavab verir:

– Çox əla, yeyib-içmək boğazdan. Amma sonda bir balaca qanıqaraçılıq oldu.

– Nə oldu ki?

– Heç nə, bəyi öldürüb gəlini qaçırdılar.

İndi də bir balaca qanıqaraçılıq oldu.

Ağdamlı yaşlı bir kişi öz dostları ilə yeyib içirdi. Arabir bir-birləri ilə zarafat edib deyib-gülürdülər. Başqa stolda isə adları çəkilən gənclərdən bir neçəsi kart oynayırdılar.

Ağdamlı hərdən Sücayət və Bəhməndən şeirlər deyir, arada məni də şeir deməyə sövq edirdi. Kafedə bir canlanma yaranmışdı. Hamı şeirə qulaq asa-asa çay içir, nahar edirdilər. Ağdamlı həqiqətən çox şeyir bildiyini nümayiş etdirmək üçün məni də özünə tərəf müqabili seçmişdi.

Kart oynayanlar isə səs salırdılar. Ağdamlı: Knyaz -ə yekə kişisiniz, səssiz oynayın da. Bəsdi avaralıq etdiniz.

Kart oynayanlardan biri darqurşaqlıq edərək:

– Avara özünsən.

– Sən sox yerinə.

– Özün sox yerinə.

– Tı voopşe qavno.

– Tı sam qavno, – deyə Fərrux astadan əlində kart oynaya-oynaya cavab qaytardı.

Rəqibini onun bu hərəkəti daha da ovqatdan çıxardırdı. O ə bir ayağa dur, çölə çıx görüm, dartınmağa başladı.

Hər ikisi çölə çıxdılar.

Fərrux:

– Nə deyirsən ə?!

Knyaz:

– Canına azar deyirəm. Suka, deyirəm adam ol, səs salma.

O Fərruxun ağzına bir şapalaq vurdu. Fərrux boyca ondan hündür və bədəncə cüssəli idi. Odur ki, qamarlayıb onun başını qoltuğuna alaraq döyəcləməyə başladı. Tez ayırdılar.

Ağdamlının gözünün altı partlayıb şişmişdi. Dostları məsləhət gördülər ki, təcili qanı çıxartmaq lazımdır. Ona görə evə, ya həkimə getsin. O isə irad göstərərək getmək istəmirdi.

Kafeyə sükut çökmüşdü. Ani baş verən hadisə hamının qanını qaraltmışdı.

Knyaz: ağdamlı az sonra Fərruxun orada olmadığını görüb:

– Bu əclaf məni vurub hara qaçdı, ə…Sonra telefonunu çıxardıb ona zəng vurdu. Hardasan ə, suka? Kişisən gəl kafeyə. Səninlə söhbətimiz hələ qurtarmayıb. Hə, burda səni gözləyirəm.

Orada olanlar ağdamlının sakitləşdirmək istəsələr də o ipəsapa yatmırdı.

Fərrux gəldi. Rəngi ağappaq idi. O kafeyə daxil olan kimi ağdamlı Heç kəs yerindən tərpənməsin, eləcə söhbət edirəm. Görüm məni niyə vurdu?

– Knyaz, birinci sən məni vrudun.

– Deyirəm sən mumla. – Onun qolundan tutaraq hələ belə gəl görüm. Kafenin qabağı ilə xeyli getdilər. Setqanın dibi ilə su boruları uzanırdı. Ağdamlı qəflətən dönərək Fərruxun gözünə sağ-sol yumruq atmağa başladı. O da özünü tez düzəldərək ağdamlını bir yumruğa qaz və su borularının üstünə sıxışdıraraq budamağa başladı. Vəziyfəti belə görən dostları təkrar onları ayırdılar. Fərruxun burnundan qan tökülürdü. O əlüz yuyulan yerə keçib burnunun qanını dayandırdı.

Ağdamlı və digər yoldaşlar da artıq sakitləşərək çay içirdilər. Fərrux onların yanından keçib mətbəxə girdi. Bir –iki dəqiqədən sonra çıxaraq əlindəki qənd qabını ağdamlının başına atdı. Qənd qabı onun başına çırpılınca qan ətrafa dağıldı.

Mənim də əynimdə olan gödəkçə qana boyandı. Fərrux qapıdan çıxıb getdi. Hamı təşviş içində əl-ayağa düşərək ağdamlıya yardım etməyə çalışır və Fərruxun bu hərəkətini

qınayırdılar. Knyazın ust-başı qan içində idi. Qan kəsilmirdi. Kafenin içində sanki mal kəsmişdilər. Hər tərəf qan idi. Knyazı götürüb təcili yardıma başını s arıtmağa apardılar.

Şən məclisin sonu bax belə yekunlaşdı.

Axşamüstü Muğan adlı bir oğlan məni Elvinin maşını ilə Sabir Tovuzlunun kafesinə yola saldı. Orada Goranboyun Qızılhacılı kəndindən olan Nazimlə tanış olduq.

Sabir tovuzlu olsa da, çox soyuq və laqeydliklə mənimlə görüşüb məni kafenin önündə qoyaraq evinə yollandı.

Gecə idi. Fərrux Əlibəyli gəlib məni öz mənzilinə apardı. İki gecə onlarda qalmalı oldum.

03.08.2015-ci il tarixdə səhər tezdən Fərrux məni bazara düşürüb harasa iş dalınca getdi. Bazar təzəcə açılmaqda idi. Mən Telman Arif oğlu Mahmudovla görüşüb tanış olduq. Sonra Ələkbərin kafesinə gedib çantamı götürərək avtovağzala oradan da taksi ilə Bıkov şəhərinə yola dşüdüm.




*Müəllif Telman Arif oğlu ilə*

## BIKOVDAN BOLAQOYA

Hava xoş keçirdi. Belə gündə gəzintiyə çıxmaq adama ləzzət verirdi. Şəhər avtovağzalı ilə dəmiryol avtovağzalı yanaşı idi. Fikirləşdim ki əgər burada işlərim alınmasa, qatarla başqa şəhərə getmək daha münasib olardı.

Soraqlaşıb yaxında olan meyvə-tərəvəz bazasına yollandım.

Bazada bir oğlan tək-tənha əyləşərək nə isə hesablayırdı. Məni görüb dəftər-kitabı kənara qoyaraq salamlaşdı. O da Bərdə rayonunun Lənbəran kəndindən idi.

Mən adımı söylədikdə o da Ələddin-deyə tanışlıq verdi və – müəllim, səni gəl Vandaya aparım. Orada səni Mamed müəllimlə tanış edərəm. Savadlı və bacarıqlı adamdır. Çoxdan Vandayda yaşayır. O telefonu götürüb Mamed müəllim, dediyi adamla danışdıqdan sonra –dur gedək, -deyə mənə müraciət etdi.

Onun «Qazel»i ilə Vandaya yola düşdük.

Valaqayla Bıkovun arası 20-25 km. Olardı. Bəlkə də bir az çox.

15 dəqiqəyə Vadaya çatdıq. Biz qarpız –yemiş satılan yerin qarşısında dayandıq. İri «fura» maşınından qarpız boşaldırdılar.

Ələddin:

– Elə yaxşı oldu bu qarpızın yarısını da mən aparıb gedərəm.
– Bu dəqiqə Mamed dayı da gələr. Siz qalıb onunla söhbət edərsiniz. Yaxşı bağ evi və həyət evi var.

Mamed kişi gəlib çıxdı. Danışıb tanış olduq. Ordan-burdan söhbət edib xeyli vaxtı yola verdik. Ayaq üstündə söhbət edirdik. Yaxında azərbaycanlıların yanında əyləşmək üçün yer var idi. Mamed kişinin görünür ayaqüstü söhbətdən xoşu gəlirdi. Ələddin də qardaşı ilə qarpızı götürüb Bıkova qayıtmışdılar.

Artıq yavaş-yavaş camaat köşkü yığışdırıb evə gedirdilər.

Mamed də:

– Bu dəqiqə gəlirəm, gedim görüm sizə yer tapa bilərəmmi, -deyib getdi. Mən orada olan azərbaycanlılara yaxınlaşıb onlarla shbət etməyə başladım. Bir saatdan sonra onlar da yır-yığış

etməyə başladılar. Onların əksəriyyəti Lənbərandan idilər.

Zaur Əzizov adlı bir uzunboy oğlan:

– Müəllim, Mamed kişinİ nahaq gözləməyin, o gələsi deyil.

– Gəlmir, gəlməsin, nə deyirəm.

– Bəs nə edəcəksiniz burada?

– Çıxıb gedəcəyəm Bolaqaya.

– Qatarın gəlməsinə hələ dörd saat var. Biz qalan yer yaxındadır, gedək bir az çaydan-zaddan için, dincəlin sonra yola salarıq gedərsiniz.

– Zaur, Mamed kişi yəni o qədər sözünə düz adam deyil ki, gəlməyə?

– Müəllim, gəlsə indiyə qədər gələrdi. Nədir ki onun qaldığı evlə buranın arası heç beş dəqiqə çəkməz. Yaxşısı budur gedək bizə.

Mən onlara getməli oldum. Bir neçə kəndlisi və kiçik qardaşı ilə bir yerdə qalırdılar. Onlardan Vüqar və Anarın atası buldozerçi Kərəmi soruşdum.

– Onu haradan tanıyırsan? Çox gözəl insandır. Elə övladları da canalra dəyən adamlardır.

Qatarın vaxtına az qalmış onlar bir taksi çağırdılar. Məni vağzala yola saldılar.

Mən Voldaydan Bolaqoya gecə çatdım. Belə vaxtda heç yerə getmək mümkün deyildi. Vağzalın mehmanxanasından yer götürüb yuyunub rahatlandıqdan sonra bu qeydləri etməyə başladım.

Səhər qəlyanaltıdan sonra şəhərə çıxdım. Bolaqoy Balaqovsk gölünün sahilində yerləşir. Topdansatış bazasına yollandım. Bazanın sahibi orada yox idi. Orada işləyən Elçin Səbzəliyevlə «Belıy noç» kafesinə yollandıq. Kafe yenicə açılmışdı. Bir gün öncə açılışa Azərbaycandan müsiqiçilər gəlmişdi. Kafenin sahibi bir kabinetdə Elşən Polad oğlu şəhərin tanınmış adamlarından biri Volodiya Vladimirov Qriqoryeviçlə söhbət edirdi.

Məni çox mehriban qarşıladı. Süfrə açdı. Qardaşı Hafiz

Polad oğlu da gəlib bizimlə bir süfrədə əyləşdi.

Onlar üç qardaşlıdar. Üçü də bir yerdə yaşayır.

Elşən Polad oğlu Verdiyev Göygöl raoynunda anadan olub.

1990-cı ildə ilk dəfə Baloqona oradan da bu şəhərə gəlib. Meyvə-tərəvəz bazası açaraq ticarətlə məşğul olub. «Belıy noç» Azərbaycan mətbəxini isə təzəcə 30.07.2015-ci ildə açıb. Kafenin açılışı üçün Azərbaycandan gəlmiş xanəndə dəsti ilə biryerdə əyləşib nahar etdik. Mayıl Gəncəli qarmonçalan və xanəndə Zakir Qarabağlı Elşənin əmisi də orada idi. Nahardan sonra çay süfrəsi arxasında bu şeiri yazdım:

Balaqay şəhəri mərkəzi Rusiya,
Gəlmişəm bu yeri gümanım düşüb.
Valdaydan qatarla adlayıb gəldim,
Gördüm hər tərəfə qaranlıq düşüb.

Baş aldı dəryaya xəyal gəmisi,
Nə bir mayağı var, nə də bərəsi,
Şığıyır hər yandan hicran gülləsi,
Ya zəhləsi gedir, ya tanıq düşüb.

Zaman öz atını çapır sinəmdə,
Gecə də məndədir, gündüz də məndə.
Gecənin döşünü gündüz əməndə,
İsti nəfəs gəzdim bir anlıq, düşüb.

Aldım sorağını Verdiyevlərin,
İstədim yaxından görüm üzlərin.
Üç qardaş gözüdür bax bu yerlərin,
Elə bili səhraya ormanlıq düşüb.

Elşən böyük qardaş xoş gülərüzlə,
Hafizlə bir yerdə əyləşdi bizlə.

Eşqin də müşguldur hey işlə, güclə
Deyəsən bu günə qonaqlıq düşüb.

“Belıy noç” mənaca bəlkə ağ gecə
Mavi sözünə də uyğundur məncə.
Əyləncə yeridir cavana, gəncə
Pişiyin könlünə samanlıq düşüb.

Bu qürbət şəhərdə, bu doğma ocaq,
Səməndər yurd salıb burda üç qoçaq.
Nə qədər şadlıqlar toylar olacaq,
Hamının yadına şıltaqlıq düşüb.
*4.08.2015, Balaqay şəhəri*

## BALAQOYEDƏN RYAZAN ŞƏHƏRİNƏ

4.08.2015-ci il axşam Balaqoye şəhərindən qatara əyləşərək 05.08.2015-ci il tarixdə Ryazan şəhərinə çatdım. İş saatı hələ başlanmamışdı. Balaqoye şəhərindən özümlə götürdüyüm qeydləri vağzalda əyləşərək köçürməyə başladım.

Sonra marşruta əyləşərək şəhərin mərkəzi bazarına yollandım. Güclü alış-veriş gedirdi. Satıcıların və anbar sahiblərinin çoxu Balakən rayonundan idilər. Burada azərbaycanlılara məxsus 46 anbar, 33 açıq satış yeri, 25 maşında satış yeri, 46 iri kafe, 3 kababxana azərbaycanlılara məxsusdur. 180 nəfər azərbaycanlı burada irili-xırdalı ticarətlə məşğul olurlar. Bazarda gördüyüm taksi sürücüləri də azərbaycanlılardan ibarətdir. Şəhərdə «Armada», «Çinar», «Kaspi», «1001 gecə», «Safari» və s.. kimi (mən bilən) 8 iri kafe-restoran fəaliyyət göstərir və Azərbaycan mətbəxi kimi tanınır.

Axşamadək Ryazan şəhərində dolaşıb axşam tərəfi Ryazandan Ryajosk şəhərinə elektrik qatarı ilə yola düşdüm.

Ryajsk şəhəri Ryazan vilayətinə aiddir. 130 minə yaxın əhalisi

var. Burada da 50 nəfərə yaxın azərbaycanlı yaşayır. İri obyektlərə sahib olmasalar da, kiçik pərakəndə ticarət köşkləri ilə ailəlrini dolandıra bilirlər. Şəhərin əsas hissəsi dəmiryolu vağzalından on bir km. Aralıda yerləşir. Kiçik bazarı var. 50-60 nəfər satıcıdan, altı nəfəri Qazax və Gürcüstan vətəndaşları idi.

İşdən sonra məni evlərinə qonaq dəvət etsələr də, axşam Penza şəhərinə bilet aldığıma görə onlarla xudahafizləşib, təkrar vağzala qayıdıb qatarın vaxtını gözləyə –gözləyə bu qeydlərimi etməyə başladım.

## PENZA VİLAYƏTİNƏ SƏYAHƏT

Ryajsk şəhərindən Penzaya yola düşməmin əsas səbəbi çoxdan bu şəhərdə yaşayan əzizlərim-qardaş əvəzi Ələsgər Sadıqovun iki övladı Məhəmməd və Pirəli ilə görüşmək idi.

Çoxdan idi ki, onların üzünü görməmişdim. Elə Sankt-Peterburqdan çıxarkən qarşıma məqsəd qoymuşdum ki, qayıdan başı onlara da baş çəkim.

Ələsgər Sadıqov qardaşımın tələbəlik dostu idi.

1956-cı ildə Gəncə şəhərində sənaye texnikumunda bir yerdə təhsil almışdılar. Həmin vaxtlarda bir kvartirada qalırmışlar. Elə tələbəlik zamanı Ələsgər Gülşən adlı öz kəndlərindən olan qızla ailə qurur və yenə eyni kvartirada qalırlar. Sonra hər ikisi Gəncə toxuculuq kombinatında işə götürülür. Qardaşım – Məhəmməd Nəsibov –sənaye texnikumunda oxuya-oxuya eyni zamanda mühasibat texnikumunda da təhsil alırmış. Ona görə də iki il Gəncə toxuculuq kombinatında usta işlədikdən sonra Daşkəsən şəhərinə maliyyə şöbəsinə mühasib vəzifəsinə təyin olunur. Bir ildən sonra isə baş mühasib vəzifəsinə keçirilir. Həmin vaxtlar köməkləşib Ələsgərə ikiotaqlı mənzil alırlar. Ələsgərin oğlunun birinə isə öz adını verir-Məhəmməd. Bir evli idik. Ələsgər körpəlikdə ata-anasını itirdiyi üçün mənim atama-ata, anama isə ana deyərdi. Uşaqları da həmişə valideynlərimi

özlərinə baba-nənə bilərdilər.

Qardaşım Daşkəsəndə işləyə-işləyə Daşkəsənd şəhərində ali təhsil aldıqdan sonra 1970-ci ildə elə orada müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsinə yiyələndi və Daşkəsən filiz saflaşdırma kombinatında baş mühasib, sonra maşın hesablama idarəsinin ilk müdiri –direktoru oldu.

1979-cü ildə Daşkəsəndə yüksəkliyə-asma xəstəliyinə tutulduğu üçün Gəncə şəhərinə ev tikinti idarəsinə müdir təyin olunur. Daşkəsəndə təhsil aldığı müddətdə Ələsgəri də mühasibat-uçot texnikumuna düzəltmişdi. Evlər idarəsinə təyin olan kimi dostunu da öz yanına mühasib vəzifəsinə qəbul etdirmişdi.

O vaxtlar mən hərbi xidmətdə idim. Qardaşım Gəncədə ailəmiz üçün həyət evi alaraq Saratovka kəndində evimizi satmalı olmuşdu. Həyatın ən xoşbəxt anlarını yaşayan dostlar bir gün işdən çıxanda qucaqlaşıb –öpüşüb ayrılırlar.

İşçi yoldaşlarından biri:

– Mamed müəllim, Ələsgər qardaşı hara yola salırsız ki, belə qucaqlaşıb ayrılırsınız?

– Ələsgər yox, özüm gedirəm.

– Hara, xeyir ola?

– Evimizə. Görmürsən evimizə gedirəm –deyə zarafat edib gülüşürlər.

– Evə ailəsinin və valideynlərinin yanına dönərək, qapı-bacada xeyli səliqə-səhman yaradır. Dirliyi suvarır, sonra hamılıqca süfrə arxasında əyləşib, körpə qızını dizi üstünə alaraq, şam edirlər. Bir qədər də qızı ilə oynayıb yataq otağına keçərək çarpayıya uzanır. Gecə yarı anam hiss edir ki, xırıltı gəlir. Qardaşımın vəziyyətinin pisləşdiyini görərək təcili yardıma zəng edirlər. Artıq gec idi. Həkim başını bulayaraq çıxıb gedir.

Bu ağır itkiyə Ələsgər ağır sarsıntılar keçirir. O gündən işə çıxmır. Günlərlə dostunun qəbri üstündə göz yaşı axıdır. Heç kəsin təskinliyinə məhəl qoymadan diplomunu və sənədlərini

sobaya atıb yandırır və Azərbaycanda işləməkdən boyun qaçıraraq, Penza şəhərinə mövsümü işlərə gedir. Sonralar oğlanlarını da Penzaya aparır.

Ələsgər də həyat yoldaşı Gülşən xanım da haqq dünyasındadır. Belə sadiq insanın dostluğu qardaşlığı qəlbimdə həmişə əziz olub. Hər an bu müqəddəs, saf və təmiz dostluq qarşısında baş əyirəm. Dostluğu əziz və müqəddəs tutan belə örnəklərimiz var.

## PENZA ŞƏHƏRİNDƏ

Penza şəhərinə 150-200 km. Qalmış Kamenka və ya Belinsk şəhəri deyilən şəhərdə düşməli oldum. İstəyirdim bu şəhər haqqında da bir balaca təsəvvürüm olsun. İnqilabdan əvvəl Kamenka, sonralar isə Belinsk adını vermişdilər bu şəhərə.

Belinsk şəhər vağzalı ətrafını dolaşarkən bir qarpız satan oğlanın yanında çantamı qoyaraq şəhərin mərkəzinə hərəkət edən 3 saylı marşrut taksiyə minərək mərkəzə getdim. İcra hakimiyyəti binasının yanında gözüm "Moskovsk" yarmarka reklamına sataşdı. Bu reklam altında Rusiya ərazilərində yalnız gədəbəylilər geyim ləvazimatı satır. Ona görə də mağazaya yaxınlaşıb içəri daxil oldum. İki cavan oğlan və iki-üç satıcı rus qızı var idi. Kassada dayanan cavan oğlan məni görən kimi xeyli tərəddüd içində sizə nə lazımdır, nə qulluq göstərə bilərəm? – deyə rus dilində soruşdu.

– Sağlığınız, özümü təqdim etdim. Elə şəhəri gəzməyə düşmüşdüm. Gözüm reklamınıza sataşdı. İçəri daxil oldum. Görüm necəsiniz. Mağazanın sahibi haradadır?

– Çox sağ olun. mağazanın sahibi Gədəbəyin Qarı kəndindən olan Asif Aslanov Moskvada idi. Mağzanı idarə edən gəncdir.

**Anar Allahverdiyev**

Gədəbəyin Gərgər kəndindən idi. Təbriz Kamil oğlu isə Gədəbəyin Əmiraslanlı kəndindən idi. Məni çaya dəvət etdilər.

Anar Asifi göndərdi qonşu mağazadan şirniyyat və yemək üçün xeyli ərzaq alıb gətirdi. Elə mağazanın bir tərəfində qəlyanaltı etdim. Sonra mağazanın sahibi Asif Aslanova zəng edib gəlişim barədə ona məlumat verdi.

– Qonaq Allah qonağıdır, neçə gün orada qalası olsa qulluğunda durun. Qalacaq yeri yoxdursa, axşam evə aparın- deyə telefonda səsi eşidilirdi.

Anarın özü də çox istiqanlı., yaxşı ailə tərbiyəsi görsmüş oğlan idi.

– Əmi, bizim mağazanın sahibi burada olsaydı, qulluğunuzda özü durardı. İndi ki, o yoxdur, biz buradayıq. Nəyə ehtiyacınız olsa buradayıq. Axşam qalmağa yeriniz olmasa, gəlin bizə gedərik. İndi isə biz işdəyik. Ya açarı verim gedin dincəlin, ya da şəhəri hərlənin axşam evə gedərik.

– Çox sağ ol, onda mən bir şəhərə çıxım.

– Bu yaxında bizim yerlilərin də mağazaları var. Oraya da baş çəkə bilərsiniz. Bəlkə mağazalarının sahibi də olrada oldu. Xozeynlər boş olur da. Onunla şəhərin gəzməli yerlərini hərlənə bilərsiniz.

Onlarla sağollaşıb Selmaşda yerləşən ticarət obyektlərini və bazarı gəzərək, Gədəbəyin Ayı talası kənd sakini Mahir Məcid oğlu Qurbanova məxsus qadın və kişi geyimləri mağazasına gəldim. Kassa arxasında orta yaşlı dolu bədənli azərbaycanlı əyləşib müştəriləri yola salırdı.

– Salam əlyeküm dağlar oğlu, - deyə onu salamladım.

– Ay əleykum salam, siz hara, bura hara. Xoş gəlmisiniz, həmişə siz gələsiniz. Elə dil-ağız elədi ki, elə bil çoxdan məni tanıyırmış. Hardan gəlib, hara gedirsiniz?

Mən kimliyimi və haradan gəlib, hara və nə üçün getdiyimi söylədim.

Həmsöhbətim Gədəbəy rayonunun Yeni Günəşli kəndindən Elşən Kərim oğlu Məmmədov idi. Başı alverə qarışdığından mənimlə çox danışa bilmirdi. Bir də alıcıların yanında öz

dilimizdə danışmaq onlarda narazılığa səbəb olurdu.

Elşən:

– Müəllim, xahiş edirəm məni bağışlayın, bir az şəhərdə dolanın. Axşam Mahir özü də Moskvadan qayıdacaq, birlikdə gedərik evə.

Mahir axşam mağazalar bağlanan zaman özünə məxsus «Fiyat» yük maşını ilə mal gətirmişdi. Məni görən kimi tanıdı. İki il əvvəl Kazanda görüşmüşdük.

– O… Şair, bizim tərəflərə də xoş gəlmisən, söhbət edə-edə fəhlələrə maşını boşaltdıraraq, mağazaya yığdırdıqdan sonra öz maşını ilə bizi gətirib Elşənin qaldığı binanın önündə düşürüb:

– Yaxşı, sağ olun, gedin dincəlin, mən də möhkəm yorulmuşam, gedim yuyunub dincəlim.

– Yaxşı, sağ olun, gecəniz xeyrə.

Elşən ikiotaqlı mənzildə qalırdı. Otağın birində özü qalırdı. Görünür o biri otaq gələn qonaqları üçün nəzərdə tutulmuşdu. Həmin otaqda mənə yer hazırladı. Axşam şam süfrəsini edib yatdıq.

Səhər yuxudan erkən qalxdıq. Saat 6 idi. Şəhərarası marşrut hələ yeni-yeni hərəkətə başlamışdı. Yaxın olduğuna görə biz ayaqla avtovağzala yaxınlaşdıq. Elşən avtovağzalı göstərib odur ey, avtovağzal, hara desəniz oradan gedə bilərsiniz.

Mən Kamenskdən Penzaya yola düşdüm.

## KAMENSK ŞƏHƏRİNDƏN PENZAYA

Hələ Kamensk şəhərində olarkən Azərbaycana zəng edərək Pirəli və Məmmədin telefon nömrələrini alaraq, onlara zəng edib gəlişim barədə xəbər vermişdim.

Məmməd şəhərdən kənara işləməyə getdiyi üçün məni Pirəli qarşılamalı idi.

Mən Penza avtovağzalına yetişəndə səhər saat 9:30 İdi.

Avtovağzaldan Pirəliyə zəng etdim. Telefonu qapalı idi.

Məmmədə zəng edib xahiş etdim ki, Pirəli ilə əlaqə yaradıb onu avtovağzalda gözlədiyimi xəbər versin.

Çantalarımı vağzalla üzbəüz ticarət cərgəsində köşkü olan bir azərbaycanlıya yaxınlaşıb Pirəli və Məmmədi soruşdum, tanıdığını və möhkəm dost olduqlarını söyləyərək çantamı köşkün bir küncünə qoyaraq məni çaya dəvət etdi. Həyat yoldaşı rus idi. Oğlu da yanlarında kömək edirdi. O da Azərbaycan dilini zəif bilirdi. Şibran Abdullayev bazaya mal dalınca getməli oldu. Mən isə orada hərlənərək Pirəlini gözləyirdim. Aradan üç saat keçməsinə baxmayaraq, hələ gələn yox idi…

## Tofiqin qonaqlığı

Şibran Abdullayev Neftçala rayonundan idi. İstiqanlı, mülayim, xoşxasiyyət insan təsiri bağışlayırdı. O bazadan qayıdıb gələndə məni orada görərkən təəccübünü gizlətməyərək:

– Mən Pirəlidən belə laqeydlik gözləməzdim. O, elə oğlan deyil. Dada çatan, köməyə yetəndir. Niyə belə eləsin ki? Harada olsa gəlməli idi.

Aradan xeyli keçmiş Pirəli də gəlib çıxdı. Demə işdə olduğu üçün gecikibmiş.

Pirəli ilə qucaqlaşıb, görüşüb hal-əhval tutduqdan sonra Məmmədin mənzilinə getdik. Məmmədin dostu gürcüstanlı İlqar Məhərrəmovla görüşüb tanış olduq. Məmmədlə qonşuluqda yaşayır və uzun illərdir ki, dostluq edirdilər. Çox mehriban oğlan idi. Sonrakı günlərdə Pirəli işdə olan zaman onunla şəhəri hərlənir və qonaqlıqlara birgə gedirdik.

Pirəli ilə otaqda təkbətək xeyli söhbət etdikdən sonra Pirəli İlqarı və məni də götürərək Tofiq Rüstəm oğlu Qurbanovun "Bakı" kafesinə getdik. Bizi gülərüzlə qarşıladı. Pirəli və İlqarla hal-əhval tutduqdan sonra Pirəli məni də təqdim edərək kimliyim barədə məlumat verdi.

Pirəli ilə yaxınlıq naminə Tofiq alicənablıq göstərərək yaxşı

ziyafət süfrəsi açaraq müəyyən yaxın əlaqələri olan tanışlarını da dəvət etdi.

Süfrə başında 15 nəfərə yxaın adam var idi. Tofiq özü Gürcüstan dövlətinin Dumanisi rayonunun Qtul – kilsə kəndindən idi. Süfrədə əyləşənlərin bir hissəsi onun yerliləri, digərləri isə hər gün əlaqə saxladığı, bir yerdə durub-oturduğu insanlar idi.

Eşitdiklərimə əsasən Tofiq millətini, xalqını, vətənini sevən, vətənpərvər insan olmaqla yanaşı, həm də əyilməz, sözünə bütöv, qorxmazlıq kimi müsbət keyfiyyətlərə malikdir.

Məclisdə əyləşənlərin biri də Füzuli rayonundan olan Bulud Həsənov idi. Onu da işini bilən, bacarıqlı və yeyib—içən oğlan söyləyirdilər. Digər ziyafət iştirakçılarından Qəhrəman Nəriman oğlu Ağdamlı şəhərin nüfuzlu ziyalılarından sayılırdı.

O şəhər ictimaiyyətində geniş tanınmış uzun müddət müxtləif dövlət idarələrində rəhböər vəzifələrdə çalışmışdır. Hazırda "Kaspi" kafesinə rəhbərlik edirdi. Digər yoldaşların adlarını soruşsam da, unutduğuma görə adlarını çəkə bilmirəm. Təbii ki, Pirəli Ələsgər oğlu və onların dostu İlqar məclisin fəallarından idi.

Ziyafətdən sonra nərd oynamaq yarışı başladı. Mən Tofiqə ilk uduzanlardan biri oldum.

Zəif bir idmançıdan xəbər alırlar-eşitmişəm yarışa getmisən, necə oldu heç qalib gəldiyin oldumu?

– Əlbəttə, birinci yerə çıxdım.

– Doğrudan? Birinci yerə?

– Doğrudan deyəndə ayaqdan sayılsa birinci yerdə mənəm.

Axşam evə gec döndük. Şama ehtiyac yox idi. Otaqda tək qaldığımdan. Məmmədin kitab rəfindən Darya Dansovanın «45 kalibirnıy ulubka» əsərindən bir az oxuyub yatdım.

## LUNİNO RAYONUNDA GÖRÜŞ

Bütün Penza vilayətində deputat azərbaycanlı iş adamı kimi tanınan Mirəziz Mirəli oğlu Əhmədov barədə çox eiştmişdim. Əyani olaraq tanış olmaq üçün səhər evdən çıxaraq Lunino rayonuna yola düşdüm. Gözəl təbiətə malik kəndlər və qəsəbələrdən adlayaraq, nahara bir-iki saat qalmış rayon mərkəzinə çatdım. Avtobusdan düşən kimi soruşaraq yanındakı ticarət sırasına getdim. Mer-meyvə satanlardan birinə yaxınlaşıb söz soruşmaq istəyirdim ki, mer-meyvə almağa hazırlaşan səliqəli geyimdə yanında rus qadını yodaşı idi. –olan kişinin azərbaycanlı olacağı qənaəti ilə öz dilimizdə:

– Salam əleyküm, qardaş.

– Ay əleyküm salam, eloğlu-deyə o şən səslə cavab verdi. Yoldaşı da bizi köhnə tanışlar zənn edərək diqqətlə bizə baxmağa başladı.



*Müəllif  Nadir Pənah oğlu ilə*

O:

– Eşidirəm sizi, siz hara, bura hara. Kimsiniz, nə gəzirsiniz?

Mən onun qolundan tutaraq: -açıq üzə, gülər gözə, şirin sözə görə çox sağ olun. düz Azərbaycandan çıxaraq Rusiyanın şəhərlərini gəzə-gəzə gəlib burada sizin kimi gözəl insanlarla görüşmək üçün gəlmişəm.

– Vallah tarixi nadir kitabını oxuyub yarı etmişəm. Amma sizi başa düşmədim-deyib güldü.

Mən özümü təqdim edib –Mirəziz Əhmədov haqqında çox eşidib, onunla görüşməyə gəlmişəm. Elə sizinlə də söhbətim yaxşı tutar. Adınız necə oldu?

– Mən Yevlax rayonunun Səmədabad kəndində anadan olmuşam. Nadir Pənah oğlu İbrahimov: – Özüm burada fermer təsərrüfatı ilə məşğul oluram. Bax bu xanım da mənim həyat yodaşımdır. Xanımına – bu adam mənim yerlimdir, özü də yazıçıdır. Gəlib bizdən kitab yazmağa.

Sonra mənə tərəf dönərək Mirəzizlə biz yerliyik. Gedək harada olsa taparıq. Olmasa axşam bizdə qalarsan. Sənin üçün bir yaxşı toğlu kəsib, kabab edərəm. Buranın heyvanının əti çox təamlı olur.

Onun maşını ilə rayon mərkəzindən xeyli aralıda yerləşən Padnina kəndinin kənarında yerləşən geniş istixanalara gəldik. Və orada olan işçidən Nadir Mirəziz kişini soruşdu. Cavan oğlan- Taleh Famil oğlu Həsənov Ağcabədi rayonundan idi.

O:

– Mirəziz dayı burada idi. Bir az bundan əvvəl çıxdı. Əgər lazımsa zəng edək.

Nadir Pənah oğlu:

– Zəhmət olmasa de ki, Azərbaycandan yazıçı gəlib. Nadir dayı ilə burada sizi gözləyir.

Zəngdən on beş dəqiqə sonra Mirəziz kişi gəldi. Ona qədər biz Böyük Navesin altında əyləşərək oğlanla söhbət edirdik. Nadirin yoldaşı isə maşından düşməyərək qapıları açıq qoyub

gözləməli oldu.

Mirəziz tez gəldi. Mənimlə və Nadir Pənah oğlu ilə görüşüb, hal-əhval tutduqdan sonra Nadirə-qonağı gətirib mənə təhvil vedin. Sənə yaxşı yol. O zalımın qızı maşında bişdi.

Nadir mənimlə əl tutub görüşərək:-yaxşı salamat qal. İstəsən gələrsən bizə deyib getdi.

Mirəziz Mirəli oğlu ilə xeyli kəndin ətrafını, sahəni maşınla dolandıqdan sonra evinə gəldik. Həyəti mənzərəli gölün sahilində yerləşirdi. Həyətində səliqə ilə əkilmiş gül-çiçəklik və alma –armud ağacları çox idi.

Həyat yoldaşı Azərbaycandan yenicə qayıtmışdı. Vətəndən gətirdiyi yarpaqlardan yarpaq dolması və plov hazırlamışdı. Əl-üzümüzü yuduqdan sonra nahar süfrəisi arxasında əyləşdik.

Mirəziz Mirəli oğlu uzun müddət rəhbər vəzifələrdə çalışıb. Vilayətdə yeganə azərbaycanlı deputat olub. Hazırda 500 hektar ərazidə böyük təsərrüfat yaradıb. Dəfələrlə vilayət və rayon



*Müəllif, Mirəziz Mirəli oğlu və Nadir Pənah oğlu ilə*

rəhbərliyinin fəxri fərmanı ilə təltif olunmuşdur.

Yeni istixanaların açılması və rayon üçün yeni iqtisadi imkanlar yaradılması təşəbbüsü və qurucusu da o özü olmuşdur. Ətrafında olan əsas aparıcı heyət isə qardaşı və yaxın adamlarıdır.

Mirəziz Mirəli oğlu işguzar adam olmaqla yanaşı, gözəl ailə başçısı, ağsaqqal tayfa başçısı, sözü bütöv, ictimaiyyətçi və təvazökar insandır. O, özü barədə əlavə məlumat verməkdən boyun qaçırdaraq dedi:

– Mən nə vətənimiz üçün, nə millətim üçün heç nə görməmişəm. Gördüklərimin hamısının bəhrəsini yadellilər görür. Mənə vətəndə imkan verilsə idi, onda görərdilər. Mən nəyə qadirəm. İndi bir arzum var Qarabağımızın sahibi özümüz olaq və dövlətimiz tərəfindən Rusiyada yaşayan iş adamları üçün orada quruculuq işləri aparmaq üçün start verilə. Mənim arzularım çin ola. Mənim kimliyim, gücüm, bacarığım vətəndə qiymətləndirilə. Yoxsa, inanın burada aldığım hər cür mükafat mənə qəhərdən başqa qürur hissi gətirmir.

Onun bu sözləri qarşısında dilim danışmaqdan, qələm yazmaqdan aciz qalaraq:

– Yaradan sizi və cəmi millətimi bu müqəddəs arzuya qovuşdursun. Bilirəm, o günlər tezliklə reallaşacaq. Heç vaxt zülm cəzasız qalmır. Biz evdən çıxdıq.

Mirəziz məni maşını ilə gətirib avtovağzaldan yola saldı.

## İsmayıl Salmanov şəkilinin bağ evində qonaqlıq

16.08.2015-ci il tarixdə səhər tezdən Məmməd yuxudan qalxıb, yuyunub qəlyanaltı etdikdən sonra, Mordovaya yola düşdü. Mən otaqda tək qaldım. Xeyli kitab oxumuşdum ki, İlqar Məhərrəmov –Məmmədin dostu qapını açaraq: -müəllim, qalxmısan? Mən hələ təzə oyanmışam.

O, gecə yarıyadək nərd oynadığımıza görə gec yatdığından



*İsmayıl Salmanov, İlqar Məhərrəmov və dostları İsmayılın bağ evində*

nahara az qalmış yuxudan oyanmışdı.

Zəng edib dostu Həsənov Eyyub Uruf oğlunu çağırdı. Eyyubun maşını ilə Nijni Novqorod–Penza yolu üzərində yerləşən “Sofiya” kafesinə Ərəstun Kəlbəcərlinin yanına gəldik.

Bir gün əvvəl İlqar Pirəli və başqa bir tanışla o kafedə əyləşərək nahar etmişdik. Ərəstun kəlbəcərli saz-söz həvəskarı olmaqla yanaşı, Kəlbəcər şairlərindən çoxlu şeirlər bilir və sazda gözəl ifa edirdi. Elə buna görə də saz həvəskarları daima onun yanına yığılaraq həm dadlı milli yeməklərdən təam edər, həm də Ərəstunun sazına-sözünə qulaq asaraq feyziyab olardılar.

Sonra İlqar Həmkəndlisinin maşını ilə İsmayıl Şəkilinin Salmanovun təbiət qoynunda yerləşən hər tərəfi çıx meşəliklər və dağlarla əhatə olunan bağ evinə gəldik.

Ev hələ tam hazır olmasa da belə gözəl havada qalıb dincəlmək hər kəsin ürəyindən keçərdi. Bağında alma-armud,

qarağat, moruq kimi meyvələrlə yanaşı, pomidor bibər kimi bitkilər də əkilmişdi. Evin arxasındakı sıx meşəlikdə çoxlu cökə ağacları var idi.

İsmayıl Salmanovla bir neçə il əvvəl Penzada görüşüb tanış olmuşduq. O zamandan on il keçməsinə baxmayaraq, İsmayıl məni yadında saxlamışdı:

– Şair, dostunuz necədi? Deyəsən o gəlməyib. Məni xatırlaya bildinizmi?

– Xatırladım. Maşallah, xeyli kökəlmisiniz.

– Elə siz də pis deyilsiniz. Onda bundan nəcib idiniz.

– Zaman hər şeyi dəyişir. Qocalırıq da, yavaş-yavaş.

İsmayıl xoş Şəki ləhcəsiylə danışa-danışa bişirdiyi Balıq və quzu ətindən olan şişləri süfrəyə çəkə-çəkə:

– Hələki qələm-dəftər əlimizdədir. Belə qonaqpərvərlik barədə yazmamaq olar?

İlqar:




*Penza şəhərində*

– Hə İsmayıl, qələmə düşməyin düşəri düşməz, olar ha.

İsmayıl:

– Düşsün də. Düşər şair, bir də gələndə daha geniş bir qonaqlıq məndə. Ona qədər də bu evi tam hazırlayarıq. Elə burada qalıb bir neçə gün dincələrsiniz. Yazmaz yenə, canı sağ olsun.

İlqar:

– Onda qonaqlıq yoxdu da.

– Qonaq üçün həmişə qapımız taybatay açıqdır. Odur ey heç düz əməlli darvazamız da yoxdur. Cəftəni aç, keç içəri.

Beləcə zarafatlaşa, deyib gülə günü axşam etdik və Pirəli Sadıqovun zəngindən sonra İsmayılla xudahafizləşərək yola çıxdıq və Pirəlinin maşını ilə onun şəxsi evinə gəldik.

İsmayılın qonaqlığından sonra şam yeməyinə ehtiyac yox idi. Buna baxmayaraq, Pirəlinin həyat yoldaşı geniş süfrə açmış, müxtəlif yemək çeşidləri hazırlayaraq süfrəyə düzmüşdü. Hər şey ləzzətli və xoşagələn idi. Xüsusən də insani münasibət.

## Eyyub Uruf oğlu Həsənov

Pirəli İlqarın vasitəsiylə tanış olduğum yaxşı oğlanlardan biri də Eyyub Uruf oğlu Həsənov idi. O, 27.04.1966-cı ildə İsmayıllı rayonunun Şəbiyan kəndində anadan olub.

1983-cü ildə Bakıda 5 saylı kimya təmayüllü orta məktəbi bitirib və Azərbaycan Neft Kimya institutuna imtahan verərək, qəbul ola bilmədiyinə görə, bir il valideynlərinə təsərrüfat işlərində kömək edir və 1984-1986-cı illərdə hərbi xidmətdə olur.

– Xidmətdən sonra 1988-ci ildə yaxın qohumumuz Telman Camalovun yanına gəldim. O zaman Telman bu şəhərdə tələbə idi, – deyə Eyyub danışırdı. Mən də instituta qəbul olmaq məqsədiylə gəlmişdim. Gələn kimi instituta qəbul oldum.

1993-cü ildə təhsilimi başa vurdum.

Hələ institutda oxuya-oxuya özümü ora –bura vuraraq pul qazanırdım. Sovetlər dağıldıqdan sonra 1993-cü ildə institutu bitirəndən sonra laryok açdım.

2002-ci ildə əlavə olaraq tikinti firması yaratdım. İndi "PD" firmasına başçılıq edirəm. Rəsmi qeydiyyata olan 20 nəfər, qeyri rəsmi isə 50 –dən çox işçimiz var. İndiyə qədər şəhərdə bir çox iri obyektlər tikib istifadəyə vermişik. 60 nəfərdən artıq azərbaycanlı həmvətənlərimiz firmada ailələrinə qazanc aparır.

1992-ci ildə ailə qurmuşam. Diana və Rəfael adlı iki övladımız var. Ən böyük arzum onları böyüdüb, oxudub Azərbaycanda xoşbəxt görməkdir. Mənim burada əziyyət çəkməyim onlara görədir. Düzdür, qardaşım bacım uşaqları da burada mənim yanımdadırlar. Onlar üçün hər şərait yaratmışam. Özümüz aildə 3 qardaş 3 bacı olmuşuq. Qardaşlarım da ali təhsillidir. Hazırki dövrdə ali təhsilli olmaq şərt deyil. İnsanın maddi imkanı məhdud olan yerdə ali təhsil effekt vermir. İmkan olduqda isə ali təhsil sənə yol açan aparata çevrilir.

Gələcəkdə arzu edirəm ki, Qarabağ torpaqları işğaldan azad olsun. Quruculuq –tikinti işlərini gedib orada davam etdirəm.

## PENZADAN LAPİŞEVKA ŞƏHƏRİNƏ

11.08.2015-ci il tarixdə səhər yuxudan qalxıb, yuyunub qəlyanaltı etdikdən sonra, Pirəli Ələsgər oğlu gəldi. Dünən İsmayıl Salmanovun bağ evinədə yeyib içdikdən sonra xeyli "Bakı" kafesində Tofiqlə nərd oynayıb, bir Astarxan qarpızı da kəsib yeyərək, mənzilə dönmüşdük. Mənim bu gün yola çıxacağımı bilən Pirəli həyat yoldaşına mənə yol tədarükü hazır-

lamağı tapşırmışdı. Onları da çantama yerləşdirərək Pirəlinin maşını ilə avtovağzala gəldim. Pirəli bu gün növbədə olduğuna görə tez qayıtdı. Lapışevka şəhərinə yola düşdüm.

Lapışevka şəhərinə günorta nahar vaxtı çatmışdım. Şəhərin mərkəzində düşüb yaxında olan "Torqovıy ryad" "ticarət cərgəsi"nə getdim. Xeyli dolaşaraq bir azərbaycanlıya rast gəldim. Həyat yodaşı ilə bərabər qazel maşınında mer-meyvə satırdılar. Tanışlıqdan sonra Elnur Qardaşxan oğlu gürcüstanlı:

– Buraya necə gəlib çıxmısınız bilmirəm. Bu şəhər tupik yerdir. Burada heç azərbaycanlı da yaşamır. Mən də Petrovsk şəhərindən mer-meyvə, bostan məhsulalrı gətirib satıram. Nə qədər ki, gün batmayıb siz Petrovsk şəhərinə gedin. Orada həm azərbaycanlılar çoxdur, həm də istədiyiniz istiqamətə asanlıqla gedə bilərsiniz. Bu dəqiqə mən də yır-yığış edib səni trasa çıxardaram. Yaxında hüzür yeri var ora getməsəydim səni aparardım.

– Çox sağ olun, elə o böyük köməkdir.

Bir saatdan sonra Elnurun maşını ilə trasa çıxdım. Dayanacaqda dayansam da maşınların heç biri əyləmək istəmirdi. Nəyahət ki, bir vita markalı maşın əylədi. Və petrovsk şəhəri istiqamətinə getdiyimi bildikdə:

– Eybi yoxdur, intahası mən şəhərdən yan keçəcəyəm. Orada bir yerdə düşüb taksi ilə gedə bilərsiniz.

Lapişevkadan Petrovskiyə 100 km. Yaxın idi. Yol boyu ucsuz-bucaqsız əkin sahələri uzanırdı. Öz-özümə fikirləşirdim ki, Rusiyanın az qalır dünyanın yarısı qədər ərazisi əkin sahələri var. Amma Avropanın qoymuş olduğu "iqtisadi sanksiya"ya güclə davam gətirir. Bu millət ya tənbəldir, ya başsız. Əgər tənbəl olmasa idi min hektarlala əkin sahəsini bir nəfər əcnəbi vətəndaşı gəlib becərməzdi. Başsızdı ona görə ki, başda əyləşənlər yalnız özlərini fikirləşməz, milləti əkinə-səpinə, torpağa səfərbər edib, ölkəni ərzaqla tam təmin edərlər.

Deyəsən təbii yeraltı xəzinələr rus xalqını əkib-becərməkdən

uzaqlaşdırıb. Bu sahəyə ikinci dərəcəli gəlir mənbəyi kimi də baxa bilmirlər. Ona görə də kütləvi əkin əkənlər əksəriyyəti qara millətlərdəndir, yoxsa torpağa yaxınlıq onları torpaqla həmrəng edib, həm xasiyyət edib.

Necə xəyallar aləmindəyəm.

Sürücü:

– Bax bu da Petrovsk şəhərinə gedən yol. Sənə yaxşı yol.

– Təşəkkür edirəm, həmişə işləriniz, uğurlarınız, müvəffəqiyyətləriniz üzünüzü güldürsün.

O gülərək çox sağ olun, deyib uzaqlaşdı.

Yenicə düşdüyüm maşın uzaqlaşmışdı ki, əsas yoldan Petrovskiyə dönmək istəyən bir maşina əl qaldırdım.

Əylədi:

Mən: – Salam, məni şəhərə aparарsınız?

– Əyləşin, şəhərin harası lazımdır sizə?

– Bazar əhatəsinə yaxın bir yer.

Qadını arxada əyləşmişdi. Yanında çoxlu meyvə səbətləri var idi. O dedi:

– Bazarda alver edirsiz, yoxsa nəsə gətirmisiniz?

– Sadəcə olaraq həmvətənlərimizlə görüşmək istəyirəm. Mən alverçi deyiləm, yazıçıyam.

– Yaxşı görək.

Mən əl çantamdan bir kitab çıxardıb göstərdim, üz qabığında şəklim var idi.

Qadın: - oçen rad.-doğrudan yazırsınız. Bilmək olarmı nədən yazırsınız?

– Rusiyada yaşayan soydaşlarımız barədə oçerklər, şeirlər, məqalələr yazıram.

– Lap gözəl. Səninlə tanış olmamıza şad oldum.

Onlar məni şəhərin mərkəzində bir universamın yanında düşürərək getdilər.

Bazarda bir iki üç nəfər tovuzlu, 4-beş nəfər isə gürcüstanlı azərbaycanlı var idi. Qarpız satırdılar. Amma hamısı bir-birləri

ilə çəkişməkdə idi. Əllərində əlac olsa idi, lap qardaş-qardaşını topa qoyub atardı.

Necə ki, Koreyanın başçısı əmisini atdırdı.

Teyyub Kolüş oğlu Həsənov tovuzluların yanında onlarla söhbət edirdi. Özümü təqdim etdikdə o mənə əl uzadaraq:

– Yalnış ünvana, yanlış adamların yanına gəlmisiniz. Burada yaşayan üç-beş adam bir-birləri ilə yola getmir, nə millət, nə insanlıq? O qolumdan tutaraq hələ gedək bir çaydan-qəhvədən içək sonra baxarıq.

Onunla birlikdə şəhərdən aralı Volqoqrad yolu üzərində yerləşən Azərbaycan mətbəxinə gəldik. Birlikdə nahar etdikdən sonra:

Teyyub:

– Müəllim, gərək məni bağışlayasınız, mən Volqoqrada mal gətirməyə gedəcəyəm. Bir maşın qarpız söz veriblər. Ona görə sizinlə xudahafizləşməli olacağam. Siz nə etmək fikrindəsiniz.

Mən:

– Saratov tərəfə gedəcəyəm.

– Onda Bayramdan xahiş edərəm sizi Petrovskiyə qaytarsın. Oradan avtobusla gedə bilərsən.

Bayram Xaçmazlı məni şəhərin mərkəzinə Gədəbəyli qardaşların Moskva yarmarkası önündə düşürüb kafeyə qayıtdı.

Mağazanın sahibi mağazada yox idi. Çantamı satıcı azərbaycanlı oğlanın yanına qoyub, xeyli şəhəri dolaşdıqdan sonra avtovağzala getdim. Tatışevo rayonuna gedən sonuncu avtobusa bilet aldım.

Saratova 30 km. qalmış Tatışevo rayonuna gedən yolda düşüb yolun əks tərəfinə Mizin kəndinə dönən yolun ağzında gözlədim. Kənd istiqamətinə dönən ilk inomarka maşışına əl qaldırdım. Sükan arxasındakı qadın idi. Əylədi. Yaxınlaşıb salam verdim:

– Bağışlayın, sizi narahat edib dayandırdım. Lapişinovka kəndi tərəfə məni də aparmazsınız.

– Keç əyləş, – çantanı arxa oturacağa qoyub, öndə əyləşdim. – Mən sizi bir az yaxınlaşdıracağam. Mizin kəndinə gedirəm. Mizinin çox gözəl içməli mineral suyu var. Hər yerdən gəlib oradan su aparırlar. Siz özünüz hansı millətdənsiniz?

– Azərbaycanlı.

– Azər-bay-can-lı. – O gülə-gülə. – Azərbaycanlılar qoçaq və işgüzar adamlar olur. Onlar erməni kimi yaltaq və yalançı deyillər. Kstati, o ermənilərlə Qarabağ məsələsində nə yerdə qalmısınz? Hələ torpaqlarınızı qaytarmaq istəmirlər?

– Hələ yox.

– Əclaflar həyasızcasına dünyaya fırıldaq gəlməyi bacarırlar. Vəssəlam. Özünüz nəylə məşğul olursunuz. Sözsüz kommersiya ilə.

– Xeyr kitab-qələmlə. Publisist, şairəm.

– Nujelli-doğrudan?

Kitabımdan birini çıxardıb göstərdim.

– Çox pakizə, əla, hansı dildə yazırsınız.

– Ana dilimizdə.

– Heyif başa düşə bilmirəm. Bəs Lapişinovkaya kimin yanına gedirsiniz.-Yusifin?

– Bəli.

– O çox mərd və qoçaq bacarqılı adamdır.

Mən Mizinin icra nümayəndəsiyəm. Məndən salam deyərsən. Adını söylədi. Heyfik ki yadımdan çıxdı. Haçan istəsən qonağım ola bilərsən. O məni Mizində deyil düz Yusifin istilikxanasının yanından keçən yerə qədər apardı. Gözləyəcəyəm sizi, haçan gəlsəniz idarədə kimə desəniz mənə zəng edər.

O maşını döndərərək gözdən itdi. Sonra bir daha onunla əlaqə saxlaya bilmədim.

## Yusif Tahir oğlu Hacıyev



Böyük ərazidə yerləşən istixananın ofisi önündəki yaşıllıqda bir nəfər su şlanqın ilə otlağı suvarırdı. Beş-on nəfərlə kənardan dayanaraq onunla söhbətləşirdilər. Məni müşaiyət edən cavan oğlan əlində şlanq olan adama:

– Yusif dayı, sizin yanınıza gəlib, yazıçıdır.

– Yusif əlində şlanqdan su səpdirərək:

Bura da yazıçı gələrmiş, məni süzərək, xoş gəlmisiniz.

– Sağ olun,

O əlindəki şlanqı Elbrus Zöhrab oğluna verərək mənimlə əl tutub görüşdükdən sonra:

– Haradan gəlib, haraya gedirsiniz?

– Gəlişim çox şəhərlərdən keçərək, sizin yanınızadır.

– Deməli, şəhər-şəhər gəzib adamlarla görüşüb yazırsınız.

– Elədir ki, var.

Yəqin ki, yorulmusunuz. Uzaq yoldan gəlmisiniz. Burada hər şərait var. Yuyunun, yemək yeyin, dincəlin. Sabah söhbət edərik. Ona qədər özünüzdə də bir təəssürat yaranar. Hərlənib görülən işlərlə də tanış ola bilərsiniz.

Üzünü Elbrusa tutaraq:

– Qonağın qayğısına qalmağı sənə həvalə edirəm.

Yüksək şəkildə qulluğunda dur.

– Baş üstə.

Elbrusla kafeyə getdik. Yuyunub şam etdikdən sonra fəhlə yataqxanasında Elbrusun otağında mənə yer düzəltdilər.

Səhər Elbrus Zöhrab oğlu ilə birlikdə qəlyanaltı edib, sahəni hərlənməyə başladım. Sahəyə nəzarət təsərrüfat müdiri Kamil Alı oğlu ilə tanış oldum. Qarabağ müharibəsi iştirakçısı idi. Fəhlələrə göstəriş verir, kimin nə etməli olduğunu söyləyirdi. Ciddi idi. Görünür ciddi olduğu onun işə məsuliyyətindən irəli gəlirdi. Həqiqətən iyirmi hektara yaxın yerdə qurulmuş istilikxana və digər təsərrüfat işlərinin məsuliyyət ağırlığı onun çiyinlərində idi. Onunla bir-iki dəqiqə söhbət etdikdən sonra:

Kamil:

– Müəllim, mənim işim başımdan aşır. İşin qızğın zamanıdır. Siz gedin xəzinədarımız Malikin yanına. Bütün suallarınıza orada cavab tapa bilərsiniz.

Malik Valeh oğlu Əzizov da Lənbəran kəndindən idi. İstixanada işləyən azərbaycanlıların demək olar ki, əksəriyyəti



*Kamil Əliyev müəlliflə*

Bərdə rayonunun Lənbəran kəndindən və ya onun ətraf kəndlərindən idi. Yusifin böyüklüyü tək onun işgüzarlığında deyil, həm də onun milli xarakterinin dərinliklərində, qohuma, qardaşa, yoldaşa, yerlilərinə olan məhəbbətində idi. Malik:

– Kənddə nə qədər imkansız, köməyə, pula ehtiyacı olan adamlar varsa, hamısı buradadır. Elə ailələr var ki ailə üzvlərinin əksəriyyəti buradadır. Üç-dörd min bizim pula burada cədvələ qol çəkib pul alan ailələr var. Yusif qədər elinə-obasına can yandıran ikinci adama təsadüf etmək çətindir. Ondan imkanlı adamlar lap çoxdur. Onun kimi kəndinə bu qədər yarardı olmağa qadiri isə ümumiyyətlə azdır. Özü də burada işləyən azərbaycanlılara kimsə gözün üstə qaşın var deyə bilməz. Kimin nə əgər-əskiyi var o dəqiqə yerindəcə həll olunur. Allah köməyi olsun.

– Yusif gəlir. Əli işsiz dayanan soydaşlarımızın hərəsi bir işin dalınca qaçır. Gözə dəyən yerdə bir nəfər də olsun azərbaycanlı



*Yusif Tahir oğlu öz işçiləri arasında*

qalmadı.

Yusif maşından düşüb Tapdıq adlı cavan iş adamı ilə kabinetinə tərəf gedərək mənə:

– Sən bir yana tələsmirsənki?

– Hələ ki yox.

– Onda əyləşin, çaydan-zaddan için, mən də gəlirəm.

Beş-on dəqiqədən sonra onunla bərabər sahəni hərlənməyə çıxdıq. Sahənin ən hündür yerinə çatmış dayanıb dedi. Bu sahəni görürsən, vilayətdə ən böyük istixanadan parniklərdən biridir. Hərənin bir qarnı var, biri səndə, biri məndə, arxasızca gələn itini göstərdi, lap biri də o itdə. Qarnın doydurmaq yalnız özünü fikirləşmək kimi anlayışlar əsasında yaşayan minlərlə oliqarxlar var. Oğul ona deyirəm ki, bu qədər insana şərait yarada, çörək verə. Təkcə Lənbərandan burada iki yüzdən çox adam var. Gördüyün bu kəndin əsas iş yeri buradır. Qonşu kəndlərdən də fəhlələr qalır. Avtobus aparıb, avtobus da gətirir. Üç saat da günorta fasilə verilir. Gün isti olduğuna görə.

Elə ailə var ki, beş nəfər üzvü burada çalışır. Hamısının Azərbaycanda evi, şəraiti ürəyincədir. Özün fikirləş, bunların hamısı eyni xasiyyətdə ola bilərmi? Biri ağıllıdı.biri dəli, biri keydi, biri tənbəl, bir də əlli ayaqlı. İndi sən gəl bunlarla dil tap. Bunları taylaşdır da. İşlət və nəticə al. Deyirəm bax siz çoxsunuz, mən tək. Hansınızın bir səhv cəhəti pis işi olursa qabağa məni verirsiniz. Əlini anbarın dəmirinə vurur, əgər elə işgüzar, qabiliyyətli, bacarıqlı biriniz varsa məni bu anbarın içinə salın da, qapını bağlayın.

Kim gəlsə səssiz-küysüz yola salın çıxsın getsin. Əgər elə qabiliyyətiniz yoxdursa, onda sözə baxın, nə deyirəm onu da edin. Qoyun qazandığımız bir tikə çörəyi hamıılqla ağız şirinliyi ilə yeyək. Bu qədər azərbaycanlını burada saxlamaq asan deyil. Mən onların hər biri üçün dövlətə pul ödəyirəm. Özü də elə belə qəpik yox. mən o pulu fəhləyə versəm yerlilər ayağımın altından öpər. Bax bu itki var mən hara gedirəm, o da dalımca gəzir. Elə



*Yusifin istixanası*

ki, mən darvazadan çıxdım, oradaca yatıb yolumu gözləyir. Kənddə də hamı tanıyır ki, bu Yusifin itidir.

Xətrinə dəymək olmaz. Deməli iti də yiyəsinə görə tanıyırlar, adamı da. Əgər bizimkilərdən biri polis idarəsinə düşürsə və mən arxasınca getmirəmsə bilirlər ki, mənim xətrimə dəyib. Ona görə xahişə getmirəm. O vaxta qədər saxlayırlar ki, mənim yolum düşüb ora gedəndə qulağı eşidə–eşidə rəisə deyirəm. Deyəsən bura bizim bir avaramız düşüb, onu buraxın. Vəssəlam. Bununla da iş qurtarır. O səhvini başa düşəcək, düşməyəcək onun öz işidir.

Bir dəfə qayı mənə zəng edir ki, burada Volqoqrada gedən iki nəfəri saxlamışıq. Naruşeniyaları var. Dedik bəlkə tanışlarınızdandır. Deyirəm, pulları yoxdursa, yola salın getsinlər. Sonra mən sizinlə hesablaşaram.

– Mənə tutulanlar zəng edirlər ki, qardaş, sən haralısan?

Deyirəm – azərbaycanlı, İranlı sizin nəyinizə lazım mən haralıyam. İşiniz düzəlib çıxıb gedin, yaxşı yol. Sən də dara

düşən miləltindən birinə kömək elə.

İstilikxanaya rəhbərlik eləməmişdən qabaq kafe işlədirdim. İşçilərə tapşırırdım ki, kim məni soruşsa yemək-içmək verin yola salın, getsin. Oradan bir nəfər ac yola düşməməlidir.

Bax bu kafedə fəhlələr yeyib-içib ayağa qalxanda canıma yağ kimi yayılır. Heç kəs dünyadan heç nə aparası deyil. Barı bir yaxşılığımızı yada salıb rəhmət deyərlər.

Yusif Tahir oğlu Hacıyev 15 mart 1967-ci ildə Bərdə rayonunun Lənbəran kəndində sadə kolxozçu ailəsində anadan olub. Ailədə beş qardaş, üç bacı olublar. Ataları Tahir Mehdi oğlu sürücülük peşəsi ilə ailənin maddi tələbatını orta səviyyədə ödəyərək onları korluq çəkməyə qoymamışdır. Anaları Xanım Alış qızı evdar qadın olmasına baxmayaraq, evdarlıq işlərində çox mahir idi. Qızlarına da oğlanlarına da tələbkar idi. Hamı səliqə-səhmana, təsərrüfat işlərinə eyni dərəcədə can yandırmalı idi.

Yusif:

– Təsərrüfat işlərinə idmana maraq göstərsəm də oxumağa marağım heç vaxt olmayıb. Ona görə də yaşım tamam olan kimi hərbi xidmətə yollandım.

1985-1987-ci illərdə Moskvada xidmət etdim.

Xidmətdən iki il sonra 1989-cü ildə Saratov şəhərinə gəldim.

2002-ci ildə Tatışeva rayonunda Lapişinovka kəndi ərazisində 18 hektar ərazidə təsərrüfat işlərinə başladıq. Az müdətə işlərimizi uğurla irəlilə bildik. Yavaş-yavaş parniklərin sayını çoxaltmağa başladıq. Azərbaycanlılardan işlərə can yandıran fəallardan bunları qeyd edə bilərsiniz.

Гәhрәман Гачаj оғлу Гәhрәманов, Камил Алы оғлу Әлиjев, Елбрус Зөhраб оғлу Әзимов, Малик Валеh оғлу Әзизов, Меhди Сабир оғлу Тағыjев, Рәшад Муған оғлу Әзәмов, Агшин Шаhин оғлу Нәбиjев, Хәjjам Салман оғлу Һилалов, Таhир Jусиф оғлу Һачыjев, Меhди Сабир оғлу Һачыjев hансы илә истәсәнәиз сөhбәт едә биләрсиниз. Təsərrüfat barədə onlardan daha geniş informasiyaya malik olarsınız.

Malik Valeh oğlu Əzizov xəzinədar:

– Mən özüm də Lənbərandanam. Lənbərandan Əliş Lənbə-

ranski kimi tanınmış adamlar, almilər, vəzifə sahibləri çıxıb. Rusiyada iş adamları da çoxdur. Amma heç biri Yusifin etdiyinin yüzdə biri qədər iş görməyib. Mən özüm 2007-ci ildən buradayam. Həmişə ondan yüksək qayğı və məhəbbət görmüşəm. Yusiflə uşaqlığımız bir yerdə keçib. Sonra uzun müddəbt bir–birimizi görmədik.

1994-cü ildə mən Tumendə idim. İşlərim yaxşı getmirdi. Oradan çıxıb Saratov şəhərinə Yusifin yanına gəldim. Məni xoşüzlə qarşıladı. Həddindən artıq ürəyiyumşaq və xeyirxah adamdır. Lənbərandan ehtiyacı olanlar, işləri düz getməyənlər, ev tkidirmək, qız köçürmək, oğul evləndirmək istəyənlərin hamısı onun yanına gəlirlər. Kənddən 60 ailə bütün üzvləriylə birlikdə ailə podaratı üsulu ilə çalışırlar. Kəndin bütün imkansız ailələrinə də yardımlar olur. Burada da uşaq bağçalarına, kimsəsizlər evinə də yardım edirik.

Hilalov Xəyyam Salman oğlu – briqadir.

– Mənim cavan olmağıma baxmayaraq, Yusif dayı mənə böyük etimad göstərir. O mehriban insan olmaqla yanaşı, həm də çox tələbkar və insan sərrafıdır. Adamın gözünə baxan kimi nə yuvanın quşu olduğunu anlayır. Məndə 45 nəfər fəhlə çalışır. Bir sentinerdən 12 ton məhsul götürürük. Öz ailə üzvlərimiz də burada çalışırlar.

Quliyev Elman Qədir oğlu:

– Mən özüm ailəliyəm. Ailəlikcə buradayam. Ailəmizin 8 nəfər üzvü var. Adam başına hektar sahə düşür, burada məndən çox ailə üzvü çalışan adam yoxdur. Allah Yusifin canına sağlıq versin. Onun hesabına bütün problemlərimi həll etmişəm. O olmasaydı çətin ki həyatda nəyəsə nail ola biləydim.

Əliyev Yaşar Məhəmmədəli oğlu:

– Mən də Lənbəran kəndindənəm. 59 yaşım var. Həyatımda Yusif qədər elinə-obasına yararlı, kasıba, yoxsula əl tutan ikinci adama rast gəlməmişəm. Burada 50 ailədən çox lənbəranlı, 10 ailə ağcabədilidir. Həmin ailələr kənddə Azərbaycanda adam başına olan aylıqları hesabına həyət-baca, ev-eşik düzəldiblər. Oğul-qız



*Fəhlələr istirahət zamanı*

toyu ediblər. Oğlum briqadir işləyir. Bir oğlum da fəhlədir. Yusif fəhlə adamıdır. O, həm işlədir, həm də dolandırır. Burada işləyən fəhlələrə yeddi ay günorta fasiləsi zamanı yemək verilir. Nəqliyyatla təmin olunur. O bir olan Allah da onun köməyi olsun…

Mən xeyli ərazini gəzib müəyyən adamlarla görüşdükdən sonra Əzizov Elnur Qardaşxan oğlu ilə söhbət edə-edə kafeyə qayıtdım. O cavan oğlan olsa da, suvarma və kübrələmə işlərinə baxırdı. Yusif də onun xatirini çox istəyirdi. Bacarıqlı oğlan idi.

Kafedə yadıma bu misralar düşdü:

Yaradan xəlq eləyib gör necə insan yaradıb,
Ümidin min qat edib yanında canan yaradıb.
Saratovda cəm edib gör necə aləmlər ki,
İçində bu aləmin yeni bir imkan yaradıb.
Faş eləyib hər bir yana yaradaraq xarüqələr,
Ləli-gövhər yaradır örtük içrə dəryada o.
Əliylə dalğaları ram edib meydan yaradıb.
Nə yazım tam yarasa belə böyük memaraki




*Yusif Tahir oğlu Azərbaycan cəmiyyətinin sədri ilə*

Billur örtüklər içrə bağı gül-əfşan yaradıb.
Əməliylə ad qazanıb tam bu böyük Rusiyada o
Russu da eyləyərək işinə heyran yaradıb.
Adı dillər əzbəri bu bərdəli qardaşımın,
Nəzmə çəkib təbiət adına dastan yaradıb.
Ləyaqətlə ad qazanıb arxa durur çox adama,
"ı" deyib Səməndər də şerini bir an yaradıb.
Tərifə nə həcət ki, göz görür əqil də kəsir,
Allah bu insanı qurucu ürfan yaradıb.
Hər tərəfə qanad açır ağ yelkənli örtüklər
İşıq sçaan qaranlıqda nuri-əfşan yaradıb.
Razı salır hər bir kəsi göz oxşayan bu mənzərə
Hacıyev bu işləri qaranlığa dan yaradıb.
*13.08.2015, Saratov, Lapişinovka kəndi*

Yusiflə görüşüb ayrılarkən onun yanına məsləhətə gələn Tapdıq Əşrəf oğlu Hacıyevə yaxınlaşaraq dedi:

– Müəllim mənim qonağımdır, Saratova aparıb oradan hara

istəsə yola salarsan.

Tapdıq:

– Baş üstə, necə istəyirsiniz.

Biz yola düşdük. Maşında Tapdığın keçmiş polis həmkarı da var idi. O arxa oturacaqda əyləşmişdi. Arabir keçmiş iş yoldaşları barədə söhbət edərək xatirələri vərəqləyirdilər.

Tapdıq Əşrəf oğlu Hacıyev Şamaxı rayonunun Sabir kəndindən idi.

1985-ci ildən Saratovda yaşayır. 24 il polisdə çalışıb. Rütbəsi kapitandır. Hazırda vəkil kimi fəaliyyət göstərərək, azərbaycanlılara lazım olan sənədləri düzəldir. Ailəlidir. Ruslan adlı bir oğlu var.

Tapdıq alicənablıq edib, məni lazım olan ünvana düşürdərək:

– Müəllim, əlimdən böyük işlər gəlməsə də, sizin kimi insanların xidmətində durmağa həmişə hazıram. Nə zaman istəsəniz nə probleminiz olsa mənə zəng etməyi unutmayın.

Təşəkkür edib ayrıldım.

## Hacı Rasim Hacıbaba oğlu Bağıyev



Saratov vilayətində tanınmış iş adamlarından biri də Hacı Rasim idi. Onun adı yalnız Saratov vilayətində deyil, ətraf vilayətlərin ictimai aləmində də geniş tanınmaqdadır. O Volqaboyu ərazidə əsil məktəb yaradıb desək, fikrimizdə yanılmarıq. Özü də elə-belə sıradan olan məktəb deyil, əsl universitet tipli məktəb. Nədir bu məktəbin profili. Hacı Rasimin yaratmış olduğu pomidor və xiyar istilikxana kompleksi bu məktəbin



*Hacı Rasimin ofisi və fəhlə yataqxanasının görünüşü*

təcrübə meydanıdır. Bu sahəyə maraq göstərən hər bir fermer ilk öncə öz mütəxəssislərini də götürüb Rasim Hacıbala oğlunun məkanına gəlir və öyrənir.

Kim necə öyrənir, öyrəndiklərini işlərində necə tətbiq edir, bunu deyə bilməsək də, hər halda uğurlu təcrübənin nəticələri də uğurlu olar – deyə bilərik.

Hacı Rasimin ünvanına tanışların biri ilə gəldik. Məni kompleksin darvazaları önündə düşürərək:

– Sənə müvəfəəqiyyətlər arzulayıram. Burada qalmanız üçün hər şərait var. Təki Hacının özü ilə görüşə biləsiniz.

Darvazanın girişində duran qapıçı Qarabağ müharibəsi ştirakçısı idi. Məni əli çantalı maşınlan düşüb ona yaxınlaşmağım salam verdikdən sonra qapı önündə qoyulmuş boş kürsüdə əyləşməm deyəsən onda şübhə yaratdı.

– Siz kimsiniz? Sizi gətirən o maşın kim idi?

– Mən Azərbaycandan gəlmiş yazıçı. Maşın isə tanış bir azərbaycanlınındır.

– Buranı haradan tanıyırsınız?

– Haradansa tanıyıram. Tanımasam gəlməzdim.

– Bəs niyə gəlmisiniz?

– Hacı Rasimlə görüşüb onun barəsində məqalə yazmaq istəyirəm.

– Onun bir xeyiri olacaq ki Rasimə?

Belə sula-cavab xeyli davam etdikdən sonra o, zəng edib Hacı Rasimin köməkçisini cavan oğlanı çağırdı. Mənim kimliyimi və gəlişimin məqsədini bilən həmin cavan oğlan Anar xoş bir təbəssümlə-xoş gəlmisiniz. Yoldan gəlib yorulmuş olarsınız. Bir nahar edin, bir az dincəlin. Hacı bu gün gəlməyəcək. Sabah tezdən gəlir. Günorta gedir Saratova. O çantaya kömək edərək məni mətbəxə apardı. Aşbazlara tapşırıq verərək yemək –içmək hazırlatdı. Sonra:

– Bir azdan şəhərə avtobus gedəcək. Hacıya zəng elədim. Dedi Saratova gedib orada mehmanxanaların birində yerləşsin. Bu da 3000 min rubl. Səhər tezdən gələrsiz. Etiraza yer yox idi. Odur ki, avtobusun gediş vaxtına qədər ərazini dolaşaraq Hacının işləri ilə maraqlandım.

İstilikxana kompleksi Konstantinovka kənd ərazisində iki böyük olmayan dağ silsiləsi arasında çökəklikdəki geniş ərazidə yerləşir. Giriş qapısından sonra asfalt döşənmiş geniş meydan başlayır. Meydandan sağda geniş sahədə istilikxanalar, solda qabağa ara məsafəsi 30 metr olmaqla uzun tək mərtəbəli bina yerləşirdi. Birinci müxtəlif ərzaq otaqları, ikinci isə stolova, mühasibat və baş mühasibin otağı idi. Ondan arxa hissədə ətrafı gül-çiçəklə örtülmüş uşaq əyləncə mərkəzinə bənzər geniş park yerləşən üç mərtəbəli mehmanxana, ondan arxada ailələr üçün yataqxana, sonra isə maşın təmiri sexi və anbarlar yerləşirdi.

Sağ tərəfdə isə bir-birinə söykək istilikxanalar, parniklər cərgələnirdi. Ön hissədə yerləşənlər şüşəbəndlər, arxada isə salafan örtüklər idi. Xeyli aşağı düşdükdə qabağa bir geniş arx və dar cığır idi. Ondan yuxarıda təpəliyin üstündə yenə istixanalar cərgələnirdi. Fəhlələrin əksəriyyəti rus və özbək



*Hacı Rasimin istixanalarından bir hissə*

əsillilər idi. Özbəklər üçün yataqxana və ailələr üçün yaşayış yerləri ayrılmışdı. Fəhlələrin bir qismi Saratov şəhərindən gəlir, bir hisəssi isə kənddən və ətraf kəndlərin sakinləri idi. Hesabla iki yüzdən çox yerli fəhlə çalışırdı. Yaxşı maaş üçün kim çalışmazdı ki?

Mən Saratova gedən fəhlə avtobusu ilə şəhərə qayıtdım. Axşam mehmanxanada bu qeydləri edərək, gördüyüm təəssüratla bu şeiri yazdım.

Hacı qoy mən də deyim qaratorpaq nətdi bu yer,
Razı ol açıq deyim əsil qiyamətdi bu yer.
Aşıq tək belə bağa mən də gəlib seyr elədim,
Sırası misra kimi gör bir neçə bənddi bu yer.
İstərəm vəsf eləyim söz yayıla hər tərəfə,
Məni heyrətdə qoyan bil ki, cənnətdi bu yer.
Hər yana şölə saçır gecələri nur kimidir,
Açılır gül baxçası cənnətə hicrətdi bu yer.
Camaatı məst eləyən gül qoxulu nazlı pəri,
Ağılı başdan alan işvəli afətdi bu yer.
Bülbülü vəcdə salır qönçələrin naz-qəmzəsi,

Ağızlara dad gətirən şəhdi ilə şərbətdi bu yer.
Belə bir yer hanı vəcdə sala hər bir kəsi,
Adı dillər əzbəri şeirə bəsirətdi bu yer.
Ocağına qədəm qoyub gəlmiş idim ziyarətə,
Qəlbimi oxşayaraq könlümə diqqətdi bu yer.
Layiqdir hər tərifə, mən də dedim bir balaca,
Unutmaz Səməndəri, sözünə əlbətdi bu yer.

Səhər saat 6:00-da yuxudan duraraq "volqa" avtomobil dayanacağına yollandım. Nəzarətçidən xahiş etdim ki, Konstantinovkaya gedən avtobusun nömrəsini və vaxtını desin. Onun məsləhətiylə başqa bir avtobusla gedərək oradakı başqa bir minik maşını ilə Hacı Rasimin iş yerinə getdim.

Hacı Rasim kafenin önündə əyləşərək işçiləri ilə söhbət edirdi. Onlardan biri erməni əsilli idi. Deyəsən, Bakı ermənisi idi. Çünki Azərbaycan dilində sərbəst danışırdı.

Rasim məni mehribancasına qarşıladı:

– Şair, xoş gəlibsən, söylə görüm, bizim bu tərəflər xoşuna gəldimi?

– Çox sağ olun, çox da əladır. Allah işinizə fərac versin. Hər şey gözəldir. Yalnız bir şeydən başqa.

– O nədir elə?

– Bu ermənilərin burada olması.

– Bunlar Bakı erməniləridir.

– Azərbaycanın başına od ələyən də Azərbaycan erməniləri idi. Çörəyini yeyib-ayağının altını qazırlar.

– Burada millətçilik fərqi yoxdur. Fəhlələrimin çoxu rus və özbəkdir. Azərbaycanlıların problemi çoxdur. Ona görə də həmişə başımdan aralayıram.

Söhbətimiz çox çəkmədi. O harayasa tələsirdi. Ona görə də şəhərə gedən işçilərin biri ilə məni Saratova yola saldı.

## SARATOVDAN KAMIŞOVO ŞƏHƏRİNƏ

Günorta radələrində Saratov şəhər avtovağzalından Kamışovo şəhərinə yola düşdüm.

Hava çox isti idi. Murmansk və Petrozavodsk vilayətlərinin sərin hava şəraitindən sonra Saratov və Volqoqrad vilayətlərinin od ələyən günəşli havasında nəfəs almaq çox çətin idi. Odur ki, avtobus yolda dayanan kimi özümü sərinliyə verib, fasilənin tez keçməsini gözləyirdim.

Kamışova şəhər avtovağzalında düşüb, 12 saylı marşrut taksi ilə şəhərin mərkəzinə yollandım. Şəhər gözəl idi. Volqa çayının şəhəri iki hissəyə ayırması onun gözəlliyini daha da artırırdı.

Şəhərin kiçik bazarında bir nəfər də olsun azərbaycanlıya rast gələ bilmədim. Ona görə də Penza Volqoqrad yolunun üzərində Penza-2 deyilən kafe və mağazalar cərgəsinə getdim.




*Namiq və Natiq qardaşlarının Penza-Volqoqrad yolu üzərindəki mehmanxana kompleksi*

Axşam düşməkdə, hava qaralmaqda idi. Yol kənarında Natiq, Naimq qardaşlarının “Praqa” kafe mehmanxanasına gəldim.

İşçilərdən gənc rus qızı kafenin pəncərəsindən bayırda kafenin arxa giriş qapısı önündə stol qoyub çay içən üç cavandan birini göstərirdi. Natiq bax, o oğlandır. Kafenin əsas ağsaqqalı, sahibi də elə odur.

Natiq məni çox soyuq və etinasız qarşıladı. Özümü təqdim etdikdən sonra:

– Vallah, biz biznes adamlarıyıq. Kitabla yazı-pozu ilə heç aram yoxdur. Bir çaynik çay, bal və şirniyyat gətizdirdi. Bu şəhərə gələndə demək olar ki, heç nəyim yox idi. Sonra meyvə alış-verişinə başladıq. Yavaş-yavaş özümüzü tutandan sonra bir neçə il əvvəl yer alıb bu kafe hotel moyka və təmir sexi kompleksini yaratdım. Mehmanxana 3 mərtəbədən ibarətdir. Ən çox yolçular qəbul edirik. Bəxtinizdən bu gün qonaq o qədərdir ki, bir dənə də olsun yer qalmayıb. Sonra zəng gəldi mənə. Bağışlayın, mən gedəsi oldum.

Mən kababçı və maşın təmiri ilə məşğul olan bir nəfər gürcüstanlı azərbaycanlı ilə baş-başa qaldıq. Beş-on dəqiqə keçmiş bir sürücü gəldi. Ordan-burdan söhbət etdikdən sonra içəri yeməkxanaya keçdik. Hacı Məhəmməd oğlu Hacıyev Marnaul rayonunun Korarx kəndindən idi. Moskvaya qarpız vurmuşdu. Odur ki, mənə dil-ağız edərək:

– Sizin qulluğunuzda dayana bilmədim. Gərək üzürlü hesab edəsiniz. Volsk şəhərində bir dostum var ona zəng edərəm. Sizinlə görüşərək lazım olan adamlarla səni tanış edər. Adı Məhərrəmdir. Çox sağlam oğlandır. O, mənə Məhərrəmin telefon nömrəsini verərək Volsk şəhərinə çatarkən zəng edərsən, – dedi.

Gecə keçirdi. Artıq işıqlaşmağa yaxın ikinci mərtəbəyə qalxaraq salonda qoyulmuş divana uzanıb yatdım. Bir də gördüm qulluqçu qadın məni silkələyir: – Sizə nə olub? Sizə nə

olub? Elə başa düşdü ki, qonaqlardan biriyəm. Vəziyyətim pisləşdiyi üçün çıxıb divanda yatıram. – Skoru çağırımmı?

– Sağ olun. otaqda bir az darıxdığım üçün bura çıxdım.

– Heç nə olmaz, yaxşı uzanın, uzanın.

Səhər qalxıb kafelərin sahiblərindən mingəçevirli İsmayıl Əlifdar oğlu Bayramovla və Ağdaş rayonundan Vəzir Rəsulovla tanış oldum.

## VOLSK ŞƏHƏRİNDƏ

Volsk şəhərinə çatanda artıq gecə idi. Mehmanxanaya getməkdən başqa yol qalmamışdı. Gecə vaxtı onsuz da heç kəsi tapa bilmədiyəcəkdim. Ağlıma gəldi ki, Məhərrəmə zəng edim. Sonra bu fikrimdən vaz keçdim. Yuyunub kafedə şam etdikdən sonra qeydlərimi edərək, yatdım.

Volsk şəhəri Volqoqraddan 25-30 km. Məsafədə yerləşən Volqa üstü şəhərlərdəndir. Burada Sovetlər dönəmindən xeyli sayda iri saylı fabrik-zavodlar olsa da, indi əksəriyyəti sükunət vəziyyətindədir. Hər yerdə olduğu kimi burada da çox sayda ticarət obyektləri fəaliyyət göstərir. Azərbaycanlılara məxsus iri ticarət obyektlərinə təsadüf edilməsə də pərakəndə ticarət köşkləri çoxdur. İki kiçik kafe, bir böyük restoran kafe var. Şəhərlə tanışlıq zamanı təsadüfən qarşıma çıxan bir nəfərə:

– Bağışlayın, Azərbaycandansınız?

– Bəli, o ayağını saxlayıb, əlini mənə uzatdı-salam əleyküm.

– Və əlekümsalam. Qan çəkir. Görən kimi hiss etdim ki, millətdir. Özümü təqdim edib. İndi də yolumu bu şəhərdən saldım ki, burada olan tanışlarla görüşüb tanış olaq.

– Burada elə güclü şəxsiyyət yoxdur ki. Sizi Seyidlə tanış edərəm. Cəmiyyətin sədridir. Bu gün mənim iş günümdür. İşə gedirəm. O zəng edib Seyidlə danışdı. Ah bu da belə, görüşməkdən boyun qaçırdır. – İşim çoxdur, – deyir.

– Canınız sağ olsun. Heç tanış olmadıq. Adımı söylədim.

– Mənim adım Əmirağa Bəndəli oğlu Bürcəliyevdir. Quba rayonunun Kadur kəndindən Babadağ ətəyindənəm. Burada zavodda çalışıram. İndi gedək "Kaspi" kafesinə. Bəlkə orada kiminləsə görüşə bildiz. Səhər-səhər orada olarlar.

"Kaspi" kafesi lənkəranlılara məxsus iri həcimli kafe-restoran idi. İki böyük binadan ibarət idi. Salonu bir neçə kabinələri var.

Kafenin əsas müdiri astaralı Bəhram və Şöhrətlə görüşdük. Kafenin önündə dayanıb söhbət edirdilər. Əmirağa onlarla əl tutub görüşdükdən sonra məni təqdim edərək:

– Bu qardaş yazıçıdır. Şəhərimizə qonaq gəlib ki, yaxşı oğlanlar barədə kitab yazsın. Seyidlə danışdım. Dedi, işim var, gələ bilməyəcəyəm. "Kaspi" kafesinə apar. Mən də işə tələsirəm. Bəlkə burada qala, bir söhbət edəsiniz.

– Bəhram üz –gözünü turşudaraq. Bizə heç nə lazım deyil. İş-güc başdan aşır. Qonağa ayrılacaq vaxtımız yoxdur.

Mən Əmirağanın qolundan kənara çəkərək: – Düz deyirlər bunlar kitaba layiq adamlar deyil. İşlərinin başdan aşması onu göstərir ki, onlar artıq həyatın son ucundadırlar.

Aşbaz sahiblərindən qeyrətli çıxdı heç olmasa bir stəkan çaya dəvət etdi.

Əmirağa məni mərkəzə gətirib kiçik bir bazarın önündə qoyaraq xudahafizləşib getdi.

– Əgər kiminləsə görüşə biməsəniz. Axşam zəng edərsiz. Bizə gedərik, – deyib işə getdi.

Xeyli sonra Abbasov Məhərrəm Ağaxan oğluna zəng etdim. Onun telefonunu mənə Kamişovada Hacı Hacıyev vermişdi.

Məhərrəm şəhərdən kənarda idi bu dəqiqə yoldayam. İki saata oradayam dedi.

Məhərrəmin gec gəldiyini görüb onun gəlməyəcəyini düşünərək mehmanxanadam çantalarımı götürərək yaxındakı avtovağzala getdim.

Yenicə avtovağzala çatmışdım ki, Məhərrəm zəng etdi.

– Müəllim, haradasız?

– Avtovağzalda.

– Gözlə gəlirəm.

Avtovağzalın həyətində görüşdük.

Məhərrəm ortaboylu, ortayaşlı, arıq təhər adam idi. Əsəbi danışıq tərzi, ciddi gözləri, açıq sifət quruluşu var idi. Mənimlə səmimi əl tutub görüşərək:

– Hacı dünən zəng etmişdi. Belə tez gələcəyinizi bilmirdim. Səhər tezdən bir alacağım var idi. 250 km. Buradan aralıda yaşayır. Bir təsərrüfatla da iş birliyi qurmaq istəyirəm. Onunla da görüşməli idim. Ona görə də gecikdim. Kimlərlə görüşə bildin?

– Demək olar ki, heç kimlə.

– Seyidlə görüşə bildinmi? Mən ona zəng eləmişdim.

– Zəng etmişdik. İşi olduğunu söylədi.

– Bunlar belədi də, xeyir gəlməyən yerə əl uzatmazlar. Seyiddi də, amma seyidlikdən xəbəri yoxdur. -Bəs burada neynirsən?

– Qalmağın əhəmiyyəti yoxdur. Getmək istəyirdim.

– Hələ bir gedək Seyidlə görüşək görək o nə deyir.

– Onun maşını ilə “Kaspi” kafesinə getdik. Seyid deyilən adam kafenin önündə idi.

Məhərrəm salam vermədən dedi.

– Ə, yekə kişisən qonaq gəlib. Qələm əhlidi, ziyalıdı. Başqa vaxtda millət–millət deyə bağırırsan. Hanı millətə hörmətin. Pul gətirmiş olsaydı qabağına on əlli qaçardın.

– Nə olub ey?

– Nə olacaq ə, bundan artıq. Millətin adına, millətin şairi, yazıçısı gəlir, qabağına çıxmaq istəmirsən. Ayıb olsun…

– Mənim ona nə köməyim deyəcək? Köməyi dəyən adamlar qaçıb gizlənir.

– Allah köməyinizi kəssin. Bir salam verib bir-iki xoş üz göstərib bir tikə çörək kəsib, bir stəkan çaya qonaq etsəydiniz. Bir hal-əhval tutsaydınız insan kimi, dünyamı dağılardı?

Arada bir kobud ifadələr işlətməkdən də çəkinmirdi. Özü də

bunu nümayişcəsinə edirdi. Ürəyini boşaldandan sonra mənə-gedək, şair, gedək. Bunlardan adamlıq gözləmək nəmənədən nə gözləmək kimi şeydir.

Telefonunu çıxardıb harasa zəng edəndən sonra gedək evə bir qismət çörək kəsək. Qalacaq olsan evimiz üzünə açıqdır. Gedəcək olsan hara desən yola salacağam, gedərsən. Səni bir yaxşı oğlanın yanına göndərəcəyəm. Onunla da tanış olarsan. Bıkovda yaşayır.

Bir binanın qarşısında dayandı:

– Biz burada yaşayırıq – düş görüm. – O, baqajı açaraq oradan üç ədəd bal bankasını çıxardaraq- kömək et bunları da aparaq xalis baldır. Dostum verib evə qaldıraq.

Məhərrəmgildə nahar etdikdən sonra o məni gətirib avtovağzaldan Bıkov şəhərinə dostu Namiqin yanına göndərdi. Marşrut taksiyə də göstəriş verdi ki, məni harada düşürmək lazımdır. Mənə üzünü tutub:

– Oradan qayıdanda mənə zəng elə, özüm səni Azərbaycana yola salacağam. Namiq özü də yaxşı oğlandır. Söz-saz həvəskarıdır. Hər halda söhbətiniz tutar.

Marşrut taksi məni Bıkov şəhərinin giriş yolundan xeydi keçdikdən sonra geniş arxın keçid körpüsündən sonra saxlayaraq solda taxta şalban tökülmüş və yanında fəhlələr işləyən obyektin yanında əyləyərək-sizi burada düşürməmi xahiş etmişdilər. Görün sizi gözləyən adam oradadırmı?

Elə bu dəmdə uzun boylu, saqallı əynində nazik ovçu gödəkçəsinə bənzər geyim olan bir nəfər əlini qaldıraraq:

– Gəl, şair, gəl! Düz gəlmişsən.

– Hələlik. Sağlıqla qalın, – deyib sürücü maşınını tərpətdi.

İki nəfər söhbət edirdi. Mən yaxınlaşaraq salam verdim. Qarasaqqal adam Namiq idi. O şəhərin yüksək çinli məmurlarından biri ilə söhbət edirdi. Hər ikisi mənimlə əl tutub görüşdükdən sonra: Namiq:

– Şair, keç əyləş, – aralıda bir neçə stul və masa var idi. Bu

dəqiqə mən də gəlirəm.

Məhərrəmin dediyinə görə Namiq Bıkov rayonunda ən nüfuzlu adamlardan biri idi. O həm rayon, həm də ondan kənarlarda ictimaiyyət arasında tanınmışlardan idi.

Namiqin yanında Mehman adlı bir oğlan da var idi. Yaxşı yemək bişirirdi. Namiq müsafirindən aralanıb gəldikdən sonra Mehmanın hazırladığı şam yeməyini yeyə-yeyə söhbətə başladıq. Namiq özü əslən Şuşa şəhərindən idi. Şuşa uğurunda gedən döyüşlərin iştirakçısı olmuşdu. Yaddaşı möhkəm olduğundan çoxlu əhvalat, rəvayət və şeirlər bilirdi.

Nahardan sonra hələ tam başa gəlməmiş yarımtikilinin bir otağında qoyulmuş divanda mənə yer göstərdilər. Hava çox soyuq idi. Ona görə də əynimi soyunmadan adyalı üstümə çəkib yatdım.

18.05.2015-ci il tarixdə yuxudan erkən ayıldım. Bayıra çıxıb




*"Dvorik" kafesinin sahibi Şaban İsayeviç Umuzov*

suvarma kanalının üstü ilə o yana bu yana gəzişməyə başladım. Namiq bürünərək bayırda yatmışdı. Artıq o da ayılaraq "paddon" düzəldən ustalara kömək edirdi. Meyvə almaq istəyən kommersantlar "paddon"ları alıb myevənin altına qoyub sonra maşını yükləyirdilər.

Tras boyu çoxlu yük maşınları var idi. Onlar da yol boyu düzülmüş kafelərin önündə dayanaraq yük gözləyirdilər.

Kanalın o biri taynıda yol kənarında yerləşən kafelərin biri həmyerlimiz Sahibə məxsus idi. Onunla yerli olsoaq da, burada yaşadığından xəbərim yox idi. Ona görə səhər qəlyanaltısını Namiq Mobil oğlu Məhərrəmov və Mehman Xanbala oğlu Kərimovla bir yerdə qəlyanaltı etdikdən sonra körpünü o biri tərəfə adlayaraq yolun əks istiqamətində yerləşən Sahibin kafesinə keçdim. Həyətdə çoxlu kamaz markalı maşınlar dayanmışdı. Kafedə də adamlar çox idi. Amma Sahib özü iş yerində yox idi. Deyilənlərə görə sahəyə baş çəkməyə getmişdi. Özünün bostan sahələri var idi.

**Sahib Məhəmməd oğlu Əmiraslanov**



Volski, Bıkov, Polaşovka şəhərlərini eyni tras birləşdirir. Bıkov şəhəri ətrafında çoxlu sayda yolkənarı kafeləri yerləşir. Onların əksəriyyəti müxtəlif şəhərlərə yük daşıyan yerli bostan və meyvə növləri ticarəti ilə məşğul olan sürücülərin gecələmələri və yeyib-içmələri üçün nəzərdə tutulmuşdur. Bu sırada olan kafelərdən Balakən rayonunun Kaysa kəndindən Şaban İsayeviç, Umuzov, "Dvorik" kafesi, "Eldar" kafesi, Faiq



*Sahib Məhəmməd oğlunun qızı Turanənin toy məclisində*

balakənlinin “Kaspi” kafe mehmanxanası, “Vstreça” kafesi kimi azərbaycanlılara məxsus kafelər var.

Günorta nahar fasiləsi zamanı “Kaspi” kafesində kafenin sahibi və Şəmkir rayonunun İrmaşlı kəndindən olan Yaşar və Əli adlı iki cavan oğlanla tanış olduq. Onlar da başqa şəhərlərə qarpız vururdular.

Günorta naharından sonra havalar çox qızmar keçdi. Kölgədən baş çıxarmaq mümkün olmasa da iş adamları üçün bu adi hal idi. Kim yük dalınca gedir, kim tapdığı yükü yerləşdirməklə məşğul idi.

Sahibin kafesində olan müştərilərin çoxu azərbaycanlı olmaqla, ləzgi, çeçen, digər dağlı xalqlarından olan adamlar da az deyildi.

Sahib Məhəmmədəli oğlu Ağdam rayonunun Şelli kəndindən Cəfərov Rəhman, Ucar rayonunun Qarabord kəndindən İbrahimov Rafiq ilə bir stol arxasında əyləşmişdi. Məni görən kimi Sahib məni də stollarına dəvət etdi və məni müsafirləri ilə tanış

etdi.

– Müəllim yaxşı qələm sahibidir, kitablar yazır. Mənim yerlimdir, bu gün bizə qonaq gəlib.

– Çox əcəb eləyib gəlib. Elə məndən yazsın, – deyə Rəhman sözə başladı. Bu yalançı dünyadan bezmişəm, qardaş. Bir halal adam tapıb halal malımı satdıra bilmirəm. Kimə yaxınlaşıram fırıldaq gəlir. Düz adamlara da inanmaq istəmirsən.

Sahib:

– İş də orasındadır ki, bir haramzadanın ucbatından beş yaxşı adamı da özündən uzaqlaşdırmalı olursan. Nəticədə yaman odunda yaxşılar yanır.

– Həyatın qanunu budur. Qurunun oduna yaş yanır həmişə.

Söhbət çox uzun çəkdi. Sahib haqqında məlumat vermək yerinə düşərdi.

Sahib Məhəmməd oğlu Əmiraslanov 01 iyul 1961-ci ildə Tovuz rayonunun Qovlar qəsəbəsində anadan olub. Orta



*Sahib Məhəmməd oğlu toy mərasimində valideynləri və yaxınları arasında*

məktəbi bitirdikdən sonra, Bakı dəmiryolu texnikumuna daxil olaraq, ikiillik hərbi xidmətə yollanıb və xidmət illərini başa vuraraq təhsilini davam etdirir və bitirərək Dəliməmmədli dəmir yolu stansiyasında çalışır.

Sovet İttifaqı dağıldıqdan sonra verilən zəhmət haqqı onu qane etmədiyinə görə bir çox həmyerliləri kimi o da ailəsini dolandırmaq üçün Rusiyaya üz tutur. Əvvəlcə Nijnivartovsk – Tumen şəhərlərində ticarətlə məşğul olmağa başlayıb. Qardaşı Ramiz Bıkov şəhərində məskunlaşıb orada tanındıqdan sonra Sahib də Tümen vilayətindən Volqoqrad vilayətinə – Bıkov şəhərinə gəlir və fermer təsərrüfatla məşğul olmbağa başlayır.

Sahib çoxuşaqlı ailədə dünyaya göz açsa da valideynləri dövrün ən inkişaf etmiş sovxozu olan M.B.Qasımov sovxozunda təsərrüfat işlərində çalışdıqlarından ailə orta səviyyədə yaşamışdır. Ataları uzun müddət təsərrüfat briqadiri kimi adlı-sanlı təsərrüfat başçısı olmuşdur. Uşaqları da körpəlikdən əl əməyi ilə qazanılmış çörəklə zəhmətə alışmışlar.

Onlar üç bacı, beş qradaş idilər. Qardaşlardan: Sahib, Firudin, Ramiz, Rasim və Vahid təmkinlikləri zəhmətsevərlikləri və sakitlikləri ilə seçilən cavanlardan idi. Bu gün öz övladlarını da eyni tərbiyə ilə böyüdürlər.

Sahib Brilyant, Məhəmməd Turanə adı üç övlad atası və Nihad, Süleyman, Mədinə adlı üç nəvə babasıdır.

Ən böyük arzusu övdallarını xoşbəxt görməkdir.

**Sahib**

Bu qərib ölkədə gəlib görüşdük,
Gülsün qoy həmişə üzün, ay Sahib.
Gül-çiçək töküldü baxışlarından,
Bir bağa çevrildin özün, ay Sahib.

Bu geniş çöllərdə el oldun mənə,
Elə bil qovuşdum imana, dinə.

Həsrəti isidən yaz oldun mənə,
Günəş tək nur saçdı gözün, ay Sahib.

Qürbət şəhərləri gəzib dolandım,
Necə bərə keçib, neçə yol aşdım.
Gəlib Bıkovda bax sənlə rastlaşdım,
Dostlara yol açıb izin, ay Sahib.

Üzündə dolaşan o xoş təbəssüm,
Yoxluqda ümidtək bəsimdir bəsim.
Yenə də yazmağa artdı həvəsim,
Sözümə güc verdi sözün, ay Sahib.

Qəlbində yaşatsın səni bu ellər,
Arxanla həmişə xoş söz desinlər.
Gəzib ocağına gəldi Səməndər,
Gur olsun alovun, közün, ay Sahib.
*18.08.2015, Bıkov şəhəri*



*Sahib Məhəmməd oğlu müəlliflə*

## PALASOVKA ŞƏHƏRİNDƏ

Palasovka şəhərinə gələndə havanın ən xoş çağı idi. Şəhər başdan-başa yaşıl donlu gözəl kimi gözlərim önündə dikilib durmuşdu. Günəş də sanki bu gözəlliyi daha da nurlandırmaq qəsdiylə göydən asılıb qalmışdı. İlıq nəfəsiylə hər kəsə yeni ruh yüksəkliyi aşılayırdı.

Bazarda yeni-yeni canlanma duyulurdu. Satıcılar m alları piştaxta üzərinə hələ tam yerləşdirib qurtarmamışdılar.

Daxalların arası ilə irəliləyərək ətrafdakıları seyr edir. Burada azərbaycanlıların azlıq və çoxluq təşkil edib-etmədiklərini bilmək istəyirdim. Bazar adi kənd bazarı səviyyəsində idi. Ən çox paltar-palaz satanlar azərbaycanlılardan ibarət idi. Yaxındakı qəlyanaltıda çalışanlar da ər-arvad olan yaşlı adamlar idilər.

Şəhərin adlı-sanlı yaşlı sakinlərindən biri olan Şirzad Əjdər oğlu çox zaman bu qəlyanaltıya gəldiyini söyləyirdilər. Amma o burada deyildi. Onunla görüşmək istədiyimi bildikdə, bir həmvətənlimiz ona zəng edib:

– Şirzad müəllim, Azərbaycandan bir yazıçı gəlib, sizinlə görüşmək istəyir.

– Baş üstə. Deyərəm. Üzünü mənə tutub-bu dəqiqə gəlir.

Az sonra yaşlı səliqəli geyimli şux bir kişi gülə-gülə mənə yaxınlaşaraq:

– Mənimlə görüşmək istəyən yazıçı sənsənmi.

– Bəli, salaməleykum. Xoş gördük.

– Xoş gəlmisiniz. Mənimlə qucaqlaşdı. Axır ki, bir qələm adamı ilə də burada görüşməli oldum.

Çox gözəl, çox gözəl. Siz kim oldunuz?

– Mən özümü təqdim edib. Məqsədimi bildirdim.

O:

– Söhbəti ayaqüstə etməzlər. Gəl bir sakit güşəyə çəkilək, orada söhbət edək.

– Necə məsləhət bilirsiz.

– Onda gedək bir yerdə nahar edək. Sonra işimizə başlayaq.

Bazarın giriş qapısı önündə yerləşən Məhərrəm kişinin işlədiyi kafeyə getdik.

Məhərrəm kişi də yaşlı dünyagörmüş adam idi. Məni Şirzad kişinin yanında görüb qonaq olduğumu anlayaraq əl-ayağa düşdü.

**Şirzad Əjdər oğlu Şirzadov**



13.12.1937-ci ildə Naxçıvanın Qaraxanbəyli kəndinin zəhmətkeş ailəsində anadan olub. Lakin həyat uşaqlığının erkən çağında sərt üzünü göstərir. 12 yaşındaykən atası vəfat edir. Bu ağır günlər ömrünə-gününə qara xətt kimi həkk olunur.

Atamın ölümü dərd üstündən ağır dərd idi. Hələ atam Stalinqrad müharibəsində döyüşən zaman iki bacım rəhmətə getdi. Mən tək qaldım. Atam sağ-salamat qayıtdı. İki bacım oldu. Kiçik yaşlarında onlar da rəhmətə getdilər. Anam Seyidbəyim Seyid qızı idi. Atası Mirbaba ağa sınaqlı ocaqlardan sayılırdı. Onlar Yerevandan 20-ci illərin əvvəllərində ermənilərin əlindən qaçaraq, Naxçıvana köçmüşdülər.

Mən 8-ci sinfi bitirdikdən sonra Naxçıvanda kənd təsərrüfatı texnikumuna daxil olaraq, oranı fərqlənmə diplomu ilə bitirib, Xınca kəndində zootexnik kimi əmək fəaliyytəinə başladım. Kolxozları biprləşdirəndən sonra 1959-cu ildən 1963-cü ilə qədər Naxçıvanda tikintidə çalışdım. O zaman dayım iş icraçısı idi.

1963-cü ildə işdən çıxaraq Palasovka şəhərinə gəldim. Burada da xeyli tikintidə çalışdım.



*Şirzad Əjdər oğlu Şirzadov şəhərin rəhbərliyi arasında*

1968-ci ildə maliyyə texnikomunu bitirdim və qiyabi Moskva siyasi iqtisad institutuna qəbul olaraq, 1983-cü ildə ali təhsil diplomu aldım.

1969-cu ildən rayonda "Tavaroved" vəzifəsində işlədim. 1970-ci ildə rayon tədarük yeyinti iyanə birliyinin direktoru vəzifəsinə irəli çəkildim.

1975-ci ildə bir az da çəkilərək "QOS Sinab" dövlət təminatı idarəsinə direktor təyin olundum. Bıkov Nikolayevsk, S.Poltovsk və Polasovka rayonlarını da mənə həvalə etmişdilər.

2003-cü ildə idarəni təhvil verərək müstəqil tikinti–materialları mağazası yaradaraq öz özəl firmama başçılıq edirəm. başqa mağazam da var. Birini düz qırx il mənimlə bir yerdə çalışan bir rusa vermişəm. Birini də yeni tikib hazırlayıram. Biri də arendaya verilib. Ailə həyatıma gəlincə iki dəfə ailə həyatı qurmuşam. Birirnci dəfə Tərlan Hacı qızı Hüseynova ilə 1953-cü ildə. Bu nigahdan Azad, Afət adı iki övladlarımız oldu. Yoldaşım savadlı qadın idi. Naxçıvan ali sovetinin deputatı da seçilmişdi. Övladlarımız da savadlıdır. Azad ali təhsillidir. Afət

isə texnikumu bitirdi. Həyat yoldaşı təhsilini davam etdirməyə icazə vermədi.

1968-ci ildə şəhərdə Lyubov Aleksandrovna Şirzadova ilə ailə qurdum. Mənim familiyamı qəbul etdi. Ondan da Svetlana və Emil adlı iki övladımız oldu. Svetlana Moskva maliyyə-kredit institutunu bitirib, Palasovka şəhər icra hakimiyyətinin müavinidir. Emil isə Timiryazyev adına Akademiyanı bitirib. Elmi iş üzrə çalışır. «Kənd təsərrüfatının inkişafı» mövzusunda namizdəlik işini müdafiə edib. Nəvəm də Saratov şəhərində tibb Akademiyasında oxuyur. Bax belə mənim həyatım beləcə başlayıb, beləcə də bu günə çatıb.

Ömrümü övladlarıma və nəvələrimə həsr etmişəm. Azərbaycanda yaşayan Azad və Afətin övladları üçün də əlimdən gələn köməyi edirəm. Onlar üçün də mülk bölgüsü eləmişəm. Elə bu dəqiqə oğlum və nəvəm də qonaq gəlib. Onları evdə qoyub bura gəlmişəm. Yeganə azərbaycanlıyam ki, burada bir neçə dəfə deputat olmuşam. Şəhərin fəxri vətəndaşı adına layiq görülmüşəm. Şəhər rəhbərliyində işləyənlərin əksəriyyəti xətrimi



*Şirzad Əjdər oğlu Şirzadov məktəblilər arasında*



*Şirzad müəllim şəhərin azərbaycanlı iş adamları arasında*

çox istəyirlər. Şirzad müəllimlə söhbətimizi yekunlaşdırdıqdan sonra onun yaxındakı mağazasına gedib kabinetində nərd oynadıqdan sonra Əhmədov Mahmud Əhməd oğlunun yol kənarında yerləşən «Təbriz» kafesinə getdik.

Əhmədov Mahmudla tanış olduqdan sonra:

– Şirzad kişi bir on dəqiqəyə qayıdıb gəlirəm, – deyərək çıxıb getdi.

Mahmud manqalı yandıraraq üstünə şiş düzdü. Süfrə açıldı. Namiq Dəyirmandağlı Gədəbəyli də dostu ilə gəldilər.

Qonaqlıq qızışan zaman Şirzad kişi də Naxçıvandan təzəcə gəlmiş oğul nəvəsiylə gəldi.

Bu şeiri də Natiq Dəyirmandağlının ünvanına orada yarandı:

Natiq kişi, bu qürbətdə görüşdük,
Dağlar oğlu o dağlardan xəbər ver.
İlıq sudan içib-içib bezikdik,
Diş göynədən bulaqlardan xəbər ver.

Dəyirmanla dağ çəkilir yanaşı,
Yad ellərdə yada düşür süd aşı.
Yığıb başa tayı-tuşu, yoldaşı,
Süd qoxulu ocaqlardan xəbər ver.

Mahmud qardaş Naxçıvanın özündən
Şirvandakı Lənbəranın düzündən
Rəşad kişhi Talış dağlar közündən
Buz bulaqlı yaylaqlardan xəbər ver.

Təbriz bizim ən müqəddəs elimiz
Heyif çatmır əllərinə əlimiz
Bu Təbrizdə oturmuşuq indi biz,
Səməndərə oylaqlardan xəbər ver.

Şeiri elə oradaca oxudum. Hamı bəyəndiyini söylədi.
Səhər Şirşad oğlu nəvəsi ilə yaxın qohumu və bu şəhərdə



*Şirzad müəllim şəhərin tanınmış insanlar arasında*

sakin olan bir nəfərin iştirakı ilə Məhərrəmin kafesində nahar zamanı Azadın şeirə-sözə maraqlı olduğunu görüb bu şeiri də Şirzad kişiyə ünvanladım:

Şirzad dayı, bir arzum var, bax görüm,
İki oğul, iki qızıla yüz yaşa,
Hər an səni zirvə görüm, dağ görüm,
Çox qoymusan bu həyata iz, yaşa.

Nəvələrin qoy başında cəm olsun,
Axıb gedən kədər olsun, qəm olsun,
Sevincin bol ağrı, acın kəm olsun,
Alnı açıq, başı uca düz yaşa.

Səməndər də gəlib gördü ucasan,
İndən belə əlli il də yaşa sən.
Deməzlər ki, günü keçmiş qocasan,
Dərd azarı qədəhlərə süz yaşa.
*20.08.2015, Palaşovka şəhəri*

Şirzad Əjdər oğlunun özü də yaradıcılıqla məşğul olur. Keçmiş olduğu həyat yolundan, başına gələn əhvalatlardan bir kitab yazıb. Tarixi xronoloji səpkidə yazmış olduğu bir kitabı da yaxınlarda işıq üzü görmək üzrədir.

– Bu dəqiqə işim çoxdur, sənin də burada qalmaq vaxtın məhduddur. İnşallah bir də gələndə səninlə müştərək bir kitab hazırlamaq istərdim.

– Nə deyim, onu zaman göstərər. Təki sağlıq olsun. Şirzad Əjdər oğlu ilə də tanışlığımmız belə yekunlaşdı.

**Mahmud Əhməd oğlu Əhmədov**



05.06.1964-cü ildə Naxçıvan şəhərində sadə işgüzar bir ailədə anadan olub. Ailədə beş bacı bir qardaş olublar. Atası sənətkarlıqla qazandığı halal pulla onları korluq çəkməyə qoymadan boya-başa çatdırıb.

– Elə dəbdəbəli həyat tərzimiz, bahalı paltarlarımız olmasa da, süfrəmiz həmişə bol olardı. Heç zaman yemək sarıdan qənaət etməzdik. Atam deyərdi:

– İnsan boğazına bağlıdır. Boğazdan düşsə yüz loğman da gəlsə onu sağalda bilməz. Gərək boğaz yeyəki qol sözə baxa. Sənətkar yeməsə işləyə bilməz.

Anam Telli Soltan qızı da yığımcıl qadın idi. Özümüzün qapı-bacamızda həmişə toyuq-cücə dolu olardı.

Mən 1981-ci ildə orta məktəbi bitirdim. 1982-1984-cü illərdə isə Almaniyada Sovet ordu sıralarında xidmət etmişəm.

1985-ci ildə Bakı Energetika texnikumuna girərək 1988-ci ildə bitirmişəm.

Həmin ildə də ev tikmə idarəsində işə girərək, sonra həmin idarədə təchizat üzrə direktor müavini işləmişəm.

1986-cı ildə ailəmizin təhriki, özümün razılığımla sevdiyim qızla ailə qruduq. Vüqar adlı bir oğlum var. Naxçıvan Dövlət Universitetinin memarlıq fakültəsini bitirib, hazırda bakıda Maliyyə–Kerdit institutunda qrup rəhbəridir. Ailəlidir. Özüm 1994-cü ildə kəşfiyyat xarakterli bir səyahətlə gəlib bu şəhərə çıxdım. Xoşuma gəldi. Elə o zamandan da burada qalmalı oldum.

2003-cü ildə Saratov Volqoqrad «tras» yolunun kənarında Palasovka rayon mərkəzinə yaxın yerdə "Təbriz" kafesini yaratdım ki, qoy hamı bilsin ki, Cənubi Azərbaycan Şimali

Azərbaycanla eyni canbir eyni, qanbir, eyni  xalqdır. Təbriz də onların ürəyi Bakı düşünən beynidir. Həm də yeməklərimizlə də ermnəilərin sahib çıxmaq istədikləri milli yeməkləri yeri düşdükcə detallarına qədər müştərilərə başa salırıq. Bu şəhərdə yaşayan hər kəs artıq bilir ki, Azərbaycan mətbəxində hazırlanan yeməklər mənaca nə deməkdir və kimə məxsusdur. Ən böyük arzum Şuşada, Laçında Kəlbəcərdə bulaq üstündə əyləşərək dostlarla yeyib-içməkdir.

### Məhərrəm Şıxməmməd oğlu Atakişiyev



Palasovkaya gəlib ilk nahar etdiyim və Şirzad Əjdər oğlu ilə görüşdüyüm məkan Məhərrəmin kafesi oldu. Kafeyə özü rəhbərlik etsə də əsas işləri oğlanları aparır. Müştəriləri onlar qarşılayıb, onlar yola salırdılar.

Məhərrəm 1 dekabr 1955-ci ildə Xaçmaz rayonunda Tikanoba kəndində anadan olub. Uşaqlıq illəri Xəzərin qumlu sahillərində, Xəzərin coşqun dalğalarını seyr edə-edə keçib.

1975-1977-ci illərdə Arxangelsk şəhərində xidmət edib. Hərbi xidmətdən öncə isə Bakı 81 saylı texniki peşə məktəbinin tornaçı ixtisası üzrə çilingər peşəsinə yiyələnir.

1995-ci ildə Palasovka rayonuna gəlir. Əvvəl mer-meyvə alveri lə məşğul olsa da, sonralar mətbəx biznesi işlə məşğul olmağa başayıb. “Ruslan” kafesini yaradıb.ailə üzvlərinin əksəriyyəti mətbəxdə çalışırlar.

1981-ci ildə Zenfira Sabir qızı ilə ailə qurublar. Etibar və Elvin adlı iki oğlu var. Elvin ali təhsilli həkimdir. Azərbaycan Tibb Akademiyasını bitirib. Qızı Fərqanə isə Sankt-Peterburq

şəhərində yaşayır. Üç övlad, dörd nəvəm var.

– Ən böyük arzum övladlarımı layiqli isnan kimi cəmiyyətə layiqli olmalarını görməkdir, – deyir.

Məhərrəmlə söşhbətimizi yekunlaşdırdıqdan sonra yaxında yerləşən paltar mağazasına döndüm. Gədəbəyli Tural Mehdi oğlu Allahverdiyevlə Dəyirmandağlı ilə tanış olduq. Ayaz adlı bir yerlisi ilə mağazanı idarə edirdilər. Mağazanın sahibi isə orada deyildi. Cavanlarla görüşüb vağzala yollandım.

## Tahir Əlləz oğlu Məmmədov

Xarabalı şəhərinə ilk dəfə yolum düşəndə onunla görüşə bilməmişdim, növbəti dəfə Rusiyaya səfər edərkən Xarabalıya dönərək Nicat Şəmkirlinin və Asif Lənkəranlının qonağı oldum. Rusiyanın bir çox vilayətlərinə iki dəfə idi ki, yolum buradan düşürdü. Qayıdarkən Nicatla və Asiflə təkrar görüşmək məqsədilə Volqoqrad-Astraxan yolu ilə gəlib Xarabalıda düşdüm.

Tahirin mehmanxanası Nicat Şəmkirlinin kafesi yanaşı olduğundan həmin gün mehmanxanada Tahirlə görüşməli oldum.

Tahir Əlləz oğlu Məmmədov 03.07.1954-cü ildə Gürcüstan respublikasının Başkeçid rayonunun Qızılkilsə kəndində anadan olub. Atası Əlləz Alı oğlu Alman dili müəllimi, anası Yasəmən xanım isə ali-orta təhsilli mütəxəssis kimi kolxozda çalışırmış. Tahir Əlləz oğlu 1971-ci ildə orta məktəbi bitirdikdən sonra Bakı Dövlət Universitetinin coğrafiya fakültəsinə daxil olur. 1976-cı ildə təhsilini başa vuraraq müəllim kimi Gürcüstanın Gormeşən kəndində müəllim işləyir. 1978-ci ildə Gülnarə Qurban qızı ilə ailə qurublar. Zahirə, Nairə, Namiq adlı üç övladı var. Hər üçü ali təhsillidirlər. Namiq Volqoqrad Dövlət Universitetinin hüquq fakültəsini bitirib. Volqoqrad şəhərində hüquq məsləhətçisi və vəkillər kollegiyasının üzvüdür.

Tahir kişi ailəsiylə 1993-cü ildə Gürcüstanda milli qarşılıq yaranan zaman köçərək Volqoqrad şəhərinə gəlmiş və fermer

təsərrüfatla məşğul olmaqla biznes fəaliyyətinə başlamışdır.

Tahir:

– Çox güclü təsərrüfat yaratmışdım. Dəfələrlə yerli idarə orqanlar tərəfindən mükafat və təşəkkürlər almışam. Elə indi də əkinçilik sahəsi ilə məşğul olmaqla yanaşı 2011-ci ildə yaratdığımız bu kafe-hoteli işlədirəm. Yaxında burada məscid-ibadətxana tikdirmək məqsədindəyəm. «İkra» mehmanxanasının aşbazı Asim Bayramoğlu Qurbanov Şəmkir rayonunun Sabirkənd kəndindəndir. Burada ən çox yaxınlıq etdiyim adam isə millət vəkili, millətimizin burada hörmətli ağsaqqalı Lətif müəllimdir. O, azərbaycanlıların ağsaqqalı olmaqla yanaşı həm də millətimizi təmsil edən tanınmış millət vəkilidir. Xarabalının mərkəzindəki «Vostoçnıy dvorik» kafesi də bizimdir. İndi icarəyə vermişik. Əvvəllər orada yığılırdıq, indi isə Lətif müəllimin kafesinə yığılaraq boş vaxtlarımızı elə orada keçiririk. Hərçənd elə boş vaxtlarımız olmur.

Tahir müləlimlə söhbət edə-edə bu misraları qeydə aldım:

Tahir kişi, uzun olsun qoy ömrün,
Bu dünyanın xoş üzünü görəsən.
Övladların pərvaz etsin yuvadan,
Hey dolanır göy üzünü görəsən.

Oğlun Natiq bir el olsun obada,
Nə şər görsün güzarında, nə qada.
Arzuların bol gül açsın dünyada,
Daim onun nur üzünü görərsən.

Sağlam canla xoşbəxt olsun Zairə,
Körpələri məşhur çıxsın zahirə.
Alla, özü rəva bilsin Tahirə,
Hər nəvənin yol-izini görəsən.

Gözəl adı Nahirəyə yaraşsın,
Uşaqları zirvələrə daraşsın.

Arzuların reallığa calaşsın,
Bu fərəhlə lap yüzünü görəsən.

Səməndərin tək bu gəlir əlindən,
Nizam etsin xoş kəlamlar dilindən.
Hər keçəndə obasından, elindən,
Gəlib hərdən bir özünü görəsən.
*11.09.2014. Xarabalı (Astraxan)*

**Görəsən**

*Perm vilayətinin Solekamsk şəhərində yaşayan gözəl insan, tanınmış iş adamı Seyyar Şirinova ünvanlanır*

Talein ruzusunu verə yaradan görəsən,
Həyatda kəmfürsəti ala aradan görəsən.

Dünyanın ləzzətini hərə çəkər bircə dəfə,
Ən böyük ləzzətini övladlarından görəsən.

Övladının hər birini Tanrı uca zirvə edə,
Seyr edib şövq ilə sən lap ucadan görəsən.

Alnı açıq, başı uca yola salıb cavanlığı,
Razıdır bəxtin özü səntək qocadan görəsən.

Kim sənə kəc baxırsa qoy haqq yumsun gözlərini,
Dillərində ahu-fəqan gözlərində qan görəsən.

Hər bir zaman haqq iş görüb haqdan dilə qismətini,
Qismət özü gəlib düşüb bir də bacadan görəsən.

Seyyar gülən xoş göz ilə syer elə səyyarələri,
Gecələri xoş keçirib, xoş açılan dan görəsən.

Öz süfrənə qonaq etdin bir neçə gün Səməndəri,
Arzum budur yaradandan sən də bol imkan görəsən.
*29.07.2014, Solekamsk, Perm*

# MÜNDƏRİCAT

Ön söz ..........3

VOTKİNSK ŞƏHƏRİNDƏ KEÇƏN BİR NEÇƏ GÜN 6
Şahin Qəşəm oğlu Ələsgərov ..........10
Azad Cümşüd oğlu Eminaqorov ..........15
Bəhlul Bayram oğlu Əmiraslanov ..........17
Cəmşid Sarı oğlu Sarıyev ..........21

KOSTROMA ŞƏHƏRİNDƏN XATİRƏLƏR ..........26
Asif Mövsüm oğlu Salayev ..........26
Kostroma şəhərində ..........28
Hacı Bəxtiyar Məşədi İldır oğlu Mirzəyev ..........28
İxtiyar Məşədi İldır oğlu Mirzəyev ..........36

KİROV ŞƏHƏRİNƏ SƏYAHƏT ..........40
Cəlil Ramazan oğlu Cəlilov ..........41
Həci ..........45
Dünya yaxşılıq üzərində bərqərar tutur ..........47
Mərdan Bilal oğlu ..........59
Yeni görüşlərdən cizgilər ..........50
Elnur Şəmistan oğlu Hüseynov ..........53

SUKSUN ŞƏHƏRİNDƏ ..........58
Mirəli Mirhəsən oğlu Şeyxülislami ..........58
Kunqur şəhərində Bəhram Bayram oğlu Məlikovun
60 yaşın təntənəsi ..........61

BAKI-MOSKVA-MURMANSK SƏYAHƏTİ ..........64
Murmansk şəhərində üç gün keçdikdən sonra ..........74
Sadiq Məhəmməd oğlu Salmanov ..........77
Mehbalı Əhəd oğlu Səfərov ..........91
Bayraməli Qurban oğlu Abbasov ..........97
Murmansk şəhərindən əyalət şəhərlərinə ..........106
Apatit şəhərində ..........110
Kandalakşa şəhərində üç gün ..........116
Hüseyn Həbib oğlu Mikayılov ..........116
Samir Xəmməd oğlu Babayev ..........118
İsgəndər Hacıbala oğlu İsgəndərov ..........124
Keçmiş döyüşçü Elsərlə görüşüm ..........131
Kərbəlayi Siyasət Fərəcovun mənzilində bir gün ..........133

Vəli Hacıəhməd oğlu Tərəkəməyevlə tanışlıq ..................138
Rza Məsim oğlu Qasımov ..............................................142
Hüseyn Qaraca oğlu Məmmədov ....................................160
Eşqin Cümşüd oğlu Məmmədov .....................................171
Maarif Allahyar oğlu Musayev .....................................175
«U Ali» kafesində ..........................................................182

PETROZAVODSK ŞƏHƏRİNDƏN SORTAVALAYA184
Yasin Abbas oğlu Əliyev ...............................................185
Fərman Bayram oğlu Muradov .......................................187
Mübariz Kazım oğlu Kazımov ........................................191
Sortavaladan Pitkyaranta şəhərinə ..................................194
Cavanşir Kamil oğlu Ümüdov ........................................194
Anar və Vüqar qardaşları ilə tanışlıq ..............................196
Elvin Bəhman oğlu Qorçuzadə .......................................203
Münasib Ələm oğlu Eyvazov .........................................208
Bahadur Şamil oğlu İsgənərov .......................................211
Mehralı Bəhri oğlu Bayramov ........................................214

OLENETS ŞƏHƏRİNDƏN SANKT-PETERBURQ VİLAYƏTİNƏ MƏNSUB OLAN PADVOROJİ ŞƏHƏRİNƏ ..........................................................................217
Velikiy Novqorod şəhərində ..........................................221
BIKOVDAN BALAQOYA .............................................225
Balaqoyedən Ryazan şəhərinə .......................................228
Penza vilayətinə səyahət ................................................229
Penza şəhərində ............................................................231
Kamensk şəhərindən Penzaya .......................................233
Tofiqin qonaqlığı ...........................................................234
Lunino rayonunda görüş ...............................................236
İsmayıl Salmanov şəkilinin bağ evində qonaqlıq ............239
Eyyub Uruf oğlu Həsənov .............................................242
Penzadan Lapişevka şəhərinə .........................................243
Yusif Tahir oğlu Hacıyev ...............................................248
Hacı Rasim Hacıbaba oğlu Bağıyev ...............................257
Saratovdan Kamışovo şəhərinə ......................................262
Volsk şəhərində ............................................................264
Sahib Məhəmməd oğlu Əmiraslanov ............................269
Palasovka şəhərində .....................................................274
Şirzad Əjdər oğlu Şirzadov ...........................................275
Mahmud Əhməd oğlu Əhmədov ...................................281
Məhərrəm Şıxməmməd oğlu Atakişiyev ..........................282
Tahir Əlləz oğlu Məmmədov .......................................283

**Səməndər Nəsibli**

**"Soyuq ölkə - isti ürək"**

**Bakı, "MBM", 2016, 288 səh.**

Naşir: Afər Fəttahova
Bədii redaktor: Vüqar Sadayev
Dizayner: İradə Əhmədova, Mirabdulla Babayev
Operator: Tərlan Quliyeva

---

Yığılmağa verilib: 17.08.2016
Çapa imzalanıb: 29.10.2016
Ofset çap üsulu ilə
Tiraj 500, şərti çap vərəqi 18
Kitab "MBM" nəşriyyat-poliqrafiya
mətbəəsində çap olunmuşdur.
Bakı, Mətbuat pr., 529
Tel.: (99412) 539-75-06